The national bourgeoisie and the intelligentsia of Azerbaijan have played a leading role in the development of socio-political thought in Azerbaijan, its spread among the masses, the organization of the national liberation struggle and its correct ideological and political direction. They conveyed their views to the people only through enlightenment and through the press. The Azerbaijani bourgeoisie and intellectuals also tried to expand their struggle, to achieve the national awakening of the people and their involvement in the national movement, first of all, to create a mother tongue national press.

At the beginning of the century, the economically strengthened Azerbaijani bourgeoisie was helping to develop the national movement. The Hayat newspaper (April 22, 1905), founded with the financial support of Haji Zeynalabdin Tagiyev, a prominent representative of the Azerbaijani bourgeoisie, reflected the political, economic and national interests of Azerbaijan in its issues. Representatives of the Azerbaijani bourgeoisie such as H.Z.Tagiyev, Sh.Asadullayev, M.Mukhtarov, M.Nagiyev, Z.Manafov, I.Hajinski have done unprecedented work for the national and cultural development of the Azerbaijani people. Azerbaijani intellectuals A.Topchubashov, A.Agayev, O.Huseynzade, M.A.Rasulzade and others also supported and fought with the national bourgeoisie in this work. The economically strong Azerbaijani bourgeoisie was trying to become politically strong, and the city was achieving this in its area of governance (the Baku City Duma).

The article examines these issues and clarifies the opposite issues in the press during the enlightenment movement.

***Keywords:*** *enlightenment movement, press, national bourgeoisie, reform, intellectuals*

Redaksiya heyətinin üzvü t.e.d., prof. İsgəndərov Anar Camal oğlunun rəyi əsasında çapa məsləhət görülmüşdür.

Sivilizasiya,
Bakı Avrasiya Universiteti

Cild 11 №1 2022 (50)

UOT 327

# MÜSTƏQİLLİYƏ DOĞRU GEDƏN YOLDA AZƏRBAYCAN-QAZAXISTAN ƏMƏKDAŞLIĞININ YARANMASI

**Dilbər HÜSEYNLİ***

*Məqalə redaksiyaya daxil olmuşdur: 26 dekabr 2022; çapa qəbul edilmişdir: 27 yanvar 2022; online-da çap edilmişdir: 30 mart 2022.*
*Received: 26 th of December, 2021; accepted: 27 th of January, 2022; published online: 30 th of March, 2022.*

***Açar sözlər:*** *Azərbaycan, Qazaxıstan, müstəqillik, xarici münasibətlər*

## Giriş

1991-ci ildə "soyuq müharibənin" aktorlarından birinin – SSRİ-nin süqutu elan edildi və bundan sonra dünyanın siyasi səhnəsində bir sıra dəyişikliklər meydana gəlməyə başladı. Bununla da, SSRİ-nin tərkibində olan müstəmləkə respublikaları azadlığa qovuşmaq üçün uzun və çətin yola qədəm qoyaraq bir-birinin ardınca öz müstəqilliklərini bərpa etdilər. Bu yolda çox sayda insan qurban verildi. Milyonlarla insanın həyatı təhlükədəykən Qərb dövlətlərinin siyasətinin mahiyyəti heç də kommunist ideologiyası və SSRİ-də həqiqətən demokratik proseslərin stimullaşdırılmasıyla bağlı deyildi. Qərb ilk növbədə öz strateji rəqibini zəiflətmək, onu dünya hegemonları sırasından silmək və tamamilə geosiyasi vəziyyətə nəzarət etmək kimi öz maraqlarını güdürdü. SSRİ-nin ləğvindən sonra bu siyasət heç də dəyişmədi. Göründüyü kimi, beynəlxalq münasibətlərin xarakterini mücərrəd ideallar deyil, praqmatik maraqlar müəyyən edir (8, s. 14).

1922-1991-ci illərdə mövcud olmuş SSRİ kimi bir "super güc"ün süquta uğramasında bir sıra amillər səbəb kimi göstərilir. 294 milyon əhalisi, 22 mln km$^2$-dən çox ərazisi olan qüdrətli bir dövlətin dağılması XX əsrin ən böyük hadisələrindən biri kimi tarixə düşmüşdür. İqtisadi gerilik, müasir dünya ilə uyğunlaşmama, kapitalist münasibətlərdən boyunqaçırma, soyuq müharibə, uzun illər davam edən Əfqanıstan müharibəsi, onun tərkibindəki xalqların azadlıq istəkləri və s. kimi amillər SSRİ-nin dağılmasına səbəb oldu. Ümumiyyətlə, müxtəlif alimlər tərəfindən irəli sürülən bütün fərziyyələr, SSRİ-nin dağılmasına səbəb göstərilən yuxarıdakı amillər kompleks şəkildə nəzərə alınmalıdır. Çünki bütün bu səbəblər bir-birini doğurur və bir-birindən sıx surətdə asılıdır. "Yenidənqurma" siyasətinin əsasında ölkəni öz caynağına alan iqtisadi gerilik, kənd təsərrüfatının getdikcə tənəzzülə uğraması, insanların artıq kommunist ideologiyasına olan inamlarının itməsi və s. kimi problemləri aradan götürmək dururdu. Lakin bu problemlər nəinki öz həllini tapmadı, hətta vəziyyət daha da gərginləşdi.

SSRİ-nin süqutu 15 respublikanın, o cümlədən Qazaxıstan və Azərbaycanın da müstəqillik qazanmağına səbəb oldu.

## 1. Azərbaycan Respublikasının müstəqillik qazanması

Azərbaycan xalqı milli dövlətçilik ənənələrinə əsaslanaraq, 1991-ci ildə dövlət müstəqilliyini yenidən bərpa etdi. 18 oktyabr 1991-ci ildə qəbul edilən müstəqillik aktına əsasən Azərbaycan Respublikası artıq suveren bir dövlət idi (12). XX əsrdə artıq ikinci

* doktorant, AMEA akad. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu
*e-mail: huseynlid93@gmail.com*

dəfə idi ki, öz müstəqilliyini qazanan Azərbaycan bu müstəqilliyə asanlıqla nail olmamışdı. 80-ci illərin sonunda SSRİ-nin tərkibindəki respublikaların xalqları azadlıq arzusunda idi. 80-ci illərin ikinci yarısından etibarən aparılan "yenidənqurma" siyasətinin uğursuzluğu SSRİ-nin süqutunu tezləşdirdi. Bu siyasətdən narazı qalan xalqlar o cümlədən, Azərbaycan xalqı da müstəqilliyə can atan, artıq "çürümüş" ənənələrə sahib olan SSRİ-nin tərkibindən çıxıb öz suverenliyini elan etmək istəyən xalqlardan biri idi. Lakin SSRİ hökuməti bunu hiss edir və digər respublikalarda olduğu kimi, Azərbaycanda da xalqın bu istəyini ört-basdır etməyə çalışırdı. 1988-ci ildən etibarən bu qarışıqlıqdan sui-istifadə edən ermənilərin xalqımıza qarşı yürütdüyü açıq-aşkar düşmənçilik mövqeyi sonrakı illərdə xalqımızın öz dədə-baba yurdundan qovulmasına, insanlığa sığmayan işgəncələrə, soyqırıma məruz qalmasına səbəb oldu. 1989-cu ildə Azərbaycanda milli azadlıq hərəkatına başçılıq edən Azərbaycan Xalq Cəbhəsi siyasi təşkilatının yaranması, xalqı bir amal ətrafında toplamağa nail oldu. Bu təşkilat SSRİ hakimiyyəti ilə qarşıdurmalar yaşayırdı. Bu qarşıdurmalar "Qanlı Yanvar" hadisəsinə qədər apardı. 1990-cı il yanvarın 20-sində öz müstəqilliyi üçün meydanlara axışan xalq amansız qəddarlıqla yatırıldı. Ölkəyə qoşun yeridildi. Bir neçə istiqamətdə gedən qırğınlar rəsmi göstəricilərə görə, 131 nəfərin öldürülməsinə, 744 nəfərin ağır xəsarət almasına, 4 nəfərin itkin düşməsinə, 400 nəfərin həbs edilməsinə səbəb oldu. Lakin bu itkilər, qurbanlar xalqın iradəsini qırmadı, əksinə müstəqillik hərəkatına yenidən təkan vermiş oldu. Həmin dövrdə SSRİ-nin rəhbəri olan M.S.Qorbaçov sonralar "Bakıda fövqəladə vəziyyət elan etmək və oraya qoşun göndərmək mənim siyasi həyatımın ən böyük səhvi idi" fikrini irəli sürdü. 1986-cı ildən etibarən Azərbaycanın qərb rayonlarından, öz dədə-baba yurdundan qovulan həmyerlilərimizə dəstək məqsədilə 1988-ci il noyabr ayının 17-sində bir milyona yaxın Bakı sakini meydana toplandı. Bu gün tarixə "dirçəliş günü" kimi düşdü. Xalqımızın öz torpaqlarındanqovulmasına rəsmi Moskvadan heç bir reaksiya gəlmədi. Bundan istifadə edən ermənilər zorakılığa davam etdilər. 1988-1991-ci illər ərzində azərbaycanlıların tarixi torpaqlarından deportasiya prosesi getdi.

1990-cı il 20 Yanvar faciəsindən sonra xalq öz dövlətçilik ənənələrini bərpa etmək qərarına gəldi. Azərbaycan SSR-in prezidenti vəzifəsi təsis edildi. İlk prezident Azərbaycan Kommunist Partiyası MK-nın 14-cü Birinci Katibi olan Ayaz Mütəllibov oldu. 1990-cı il 21 may tarixində Azərbaycan prezidenti tərəfindən verilmiş fərmana əsasən may ayının 28-i Respublika günü – dövlət müstəqilliyinin bərpa edilməsi günü dövlət bayramı kimi qeyd edilməyə başlandı. 1991-ci il fevralın 5-də Azərbaycan Respublikasının Ali Soveti "Azərbaycan Respublikasının Dövlət bayrağı haqqında" Qanun qəbul edərək onu Dövlət bayrağı elan edildi və Azərbaycan Sovet Sosialist Respublikası Azərbaycan Respublikası adlandırıldı. Azərbaycan Respublikası Ali Sovetinin sessiyası 1991-ci il avqustun 30-da Azərbaycan Respublikasının dövlət müstəqilliyini bərpa etmək haqqında Bəyannamə qəbul etdi. Beləliklə, müstəqillik yolunda ilk addımlar atıldı. 1991-ci il 18 oktyabr tarixində Azərbaycan Respublikası Ali Sovetinin sessiyasında "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktı qəbul edildi. Konstitusiya Aktında qeyd olunurdu ki, 1918-ci il mayın 28-də Azərbaycan Milli Şurası İstiqlal Bəyannaməsi qəbul edərək Azərbaycan xalqının dövlət quruluşunun çoxəsrlik ənənələrini dirçəltdi. Azərbaycan Respublikası öz ərazisində tam dövlət hakimiyyətinə malik olub müstəqil xarici və daxili siyasət yeridirdi. Azərbaycan Respublikasının müstəqil dövlətə xas olan təsisatları – parlamenti, hökuməti, ordusu, maliyyə sistemi yaradılmışdı və fəaliyyət göstərirdi. Azərbaycan Respublikası bir çox xarici dövlətlər tərəfindən tanınmış və onlarla diplomatik münasibətlər yaratmışdı. Lakin 1920-ci il aprelin 27-28-də RSFSR beynəlxalq hüquq normalarını kobudcasına pozaraq, müharibə elan etmədən öz silahlı qüvvələrinin hissələrini Azərbaycana yeritdi, suveren Azərbaycan Respublikasının ərazisini işğal etdi, qanuni seçilmiş hakimiyyət orqanlarını zorakılıqla devirdi və Azərbaycan xalqının

çox böyük qurbanlar bahasına qazandığı müstəqilliyə son qoydu. Bunun ardınca Azərbaycan 1806-1828-ci illərdə olduğu kimi, yenidən Rusiya tərəfindən ilhaq edildi. SSRİ-nin təşkili haqqında 1922-ci il 30 dekabr tarixli müqavilə bu ilhaqı təsbit etməli idi. Sonralar – 70 il ərzində Azərbaycan Respublikasına qarşı əslində müstəmləkəçilik siyasəti yeridilir, Azərbaycanın təbii ehtiyatları amansızcasına istismar olunur, milli sərvətləri çapılıb talanır, Azərbaycan xalqı təqiblərə və kütləvi cəza tədbirlərinə məruz qalırdı, onun milli ləyaqəti tapdalanırdı. Bütün bunlara baxmayaraq, Azərbaycan xalqı dövlət müstəqilliyi uğrunda mübarizəni davam etdirirdi. Azərbaycan Respublikasının Ali Soveti Azərbaycan Milli Şurasının 1918-ci il mayın 28-də qəbul etdiyi İstiqlal Bəyannaməsinə, Azərbaycan Respublikasının demokratik prinsiplərinin və ənənələrinin varisliyinə əsaslanaraq və "Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpası haqqında" Azərbaycan Respublikası Ali Sovetinin 1991-ci il 30 avqust tarixli Bəyannaməsini rəhbər tutaraq bu Konstitusiya Aktını qəbul edir və müstəqil Azərbaycan Respublikasının dövlət quruluşunun, siyasi və iqtisadi quruluşunun əsaslarını təsis edir. SSR Azərbaycan xalqı müstəqil, dünyəvi, demokratik, unitar dövlət yaradır, bu dövlətin suveren hakimiyyəti daxili məsələlərdə ancaq hüquqla, xarici məsələlərdə isə yalnız Azərbaycan xalqının azad surətdə razılıq verdiyi müqavilələrdən və sazişlərdən irəli gələn müddəalarla məhdudlaşdırılır. Azərbaycan Respublikasının suverenliyi şəriksizdir və onun bütün ərazisinə şamildir. Azərbaycan Respublikası öz ərazisində həyata keçirdiyi suveren hüquqları heç bir formada başqa dövlətlərə və ya dövlət ittifaqlarına vermir (13). Bu münasibətlə həmin gün Bakıda və digər böyük şəhərlərdə mitinqlər keçirildi. Xalq 70 ildən çoxdur qaldığı əsarətdən qurtuldu.

Lakin bununla barışa bilməyən Rusiya Federasiyası Ermənistanın əli ilə öz zorakılığına davam etdi. Törədilən 20 Yanvar faciəsi ardıcıl olaraq Xocalı soyqırımının yaşanmasına, torpaqlarımızın işğal altına düşməsinə və bir milyondan çox insanın qaçqın düşməsinə səbəb oldu. 1988-ci il fevral ayından etibarən xalqımızın öz dədə-baba yurdundan qovulması məqsədilə ermənilər fəal hərəkətə keçdilər. Öncə Ermənistandan Vedibasar, təhqir olunaraq qovulan xalqımız bundan sonra öz dədə-baba yurdunda təqiblərə, zorakılığa məruz qaldı. Beləliklə, 1993-cü ilin sonunadək işğal davam etdi. Nəticədə 17000 kv.km ərazi erməni tapdağına düşdü. 20000 insan həlak olmuş, 50000 insan əlil olmuş, 4011 insan itkin düşmüşdür. Münaqişə müddətində 6000-dən çox Azərbaycan vətəndaşı itkin düşmüş, əsir-girov götürülmüşdür.

1990-cı illər ölkənin siyasi arenadakı pərakəndəliyi, müstəqilliyini təzəlikcə əldə etmiş, hələ püxtələşməmiş dövlətimiz üçün çətin keçdi.

Bütün bu çaxnaşmaların, qarşıdurmaların fonunda Azərbaycan və Qazaxıstan da daxil olmaqla, 15 respublikanın hər biri öz müstəqillik mübarizələrinə davam edirdilər.

1991-ci il dekabrın 8-də Minsk şəhərində, Viskuli hökumət iqamətgahında gözlənilən və qorxulan hadisə meydana gəldi: SSRİ-nin süqutu elan edildi və Belovejsk razılığı imzalandı (7, s. 14). Beləliklə, SSRİ-nin sərhədləri çərçivəsindəki 12 respublika tərkiblərindəki muxtariyyətlərlə birlikdə (1991-ci il sentyabrın 6-da SSRİ xalq deputatlarının növbədənkənar qurultayı tərəfindən müstəqillikləri tanınmış üç Baltikyanı respublikadan başqa) de-yure müstəqillik əldə etdi. Eyni zamanda 1991-ci il dekabrın 21-də Almatıda Azərbaycan, Ermənistan, Belarus, Qazaxıstan, Moldova, Rusiya Federasiyası (RF), Tacikistan, Türkmənistan, Özbəkistan və Ukrayna prezidentlərinin birgə bəyannaməsi ilə Müstəqil Dövlətlər Birliyi (MDB) yaradıldı (1, s. 54). Müstəqil Dövlətlər Birliyi Təşkilatı bu təşkilata üzv olan keçmiş SSRİ respublikaları arasında müxtəlif sahələrdə əməkdaşlıq aparmaq məqsədilə yaradılmışdır. İqtisadi, siyasi, ekoloji, humanitar, mədəni sahələrdə əməkdaşlıq edən dövlətlər həm də münaqişələrin sülh yolu ilə həlli, insan haqlarının müdafiəsi, beynəlxalq terrorla mübarizə, sosial siyasət və miqrasiya problemləri kimi məsələlərdə də əməkdaşlıq aparırlar. Azərbaycan bu təşkilata 1993-cü il sentyabr ayının 24-ü

daxil olmuşdur. Qazaxıstan isə artıq təşkilatı yaradan dövlətlərdən biri qismində 21 dekabr 1991-ci ildə imzalanmış MDB-nin yaradılması ilə bağlı razılıqdan sonra təşkilatın üzvü idi.

**2. Qazaxıstan Respublikasının müstəqillik qazanması**

Artıq son günlərini yaşayan SSRİ sadəcə Azərbaycanda deyil, eləcə də ittifaqa daxil olan, müstəqillik tələb edən digər respublikalarda da, qırğınlar törətdi. Baş verən bu qırğınlar Qazaxıstandan da yan keçmədi. Minillik tarixi, zəngin adət-ənənələri, güclü folkloru, incəsənəti olan qazax xalqı sovet hakimiyyəti altına alındığı gündən milli-mənəvi dəyərlərinə zərbə vurulurdu. Belə ki, qazax dilli təhsilin tədricən ləğv edilməsi, xalqı öz soykökündən qoparmaq kimi siyasət yürüdülürdü. "Yenidənqurma" siyasətin qazax xalqının milli mənəviyyatına, ideologiyasına zidd olması xalqın SSRİ-yə qarşı çıxmağına səbəb olan faktorlardan idi. Ümumiyyətlə, qazax xalqı 1922-1991-ci illər çərçivəsində dəfələrlə SSRİ əleyhinə çıxmışdı. Keçən əsrin 20-30-cu, 70 və 80-ci illərində dəfələrlə Qazaxıstanda anti-sovet qarşıdurmaları baş vermişdir. Belə hadisələrdən biri də "dekabr hadisələri" adlanan qarşıdurmadır. 1986-cı ildə qazax xalqının tarixinə yazılan qanlı hadisə baş verdi. Tarixə "Jeltoksan" adı ilə düşən qırğınlar sovet hakimiyyətinin daha bir azadlıq arzusunu yatırtma istəyindən irəli gələn addım idi. 1960-cı ildən 1986-cı ilə qədər Qazaxıstan SSR MK I katibi vəzifəsində çalışan DinməhəmmədKunayevin vəzifəsindən uzaqlaşdırılması hakimiyyətdən narazı qazax xalqının etirazına səbəb oldu. Qazax əsilli D.Kunayevin hakimiyyətdən uzaqlaşdırılıb əvəzinə, rus əsilli, qazax mentalitetindən uzaq Gennadi Kolbinin gətirilməsi qazax xalqı ilə SSRİ arasında qarşıdurmalara səbəb oldu. 1986-cı il dekabr ayının 17-18-i Almatıda qazax gəncləri küçələrə, meydanlara axışdı. Etiraz edənlərin sayı bir neçə mini keçirdi. Sovet hökuməti etirazçıların fikirlərinə qulaq asmadı və bu qarşıdurma amansızlıqla yatırıldı. Təxminən 8500 nəfər saxlanıldı. Hadisələrin iştirakçılarına qarşı repressiyalar başladı, 99 nəfər inzibati qaydada cəzalandırıldı, 264 nəfər təhsil aldığı ali təhsil müəssisələrindən xaric edildi. 1987-ci ilin yayında Sov. İKP MK 1986-cı ilin dekabr ayında Qazaxıstanda baş vermiş hadisələri qazax xalqının milliyyətçiliyinin oyanması kimi qiymətləndirmişdir. Bütün bunlar mərkəzin diktaturasının dəyişməz gedişini bir daha nümayiş etdirdi (6, s. 221). Bu qarşıdurmadan sonra SSRİ-nin digər şəhərləri Bakı, Tbilisi, Vilnüsdə də belə qarşıdurmalar baş verdi. Ümumiyyətlə, SSRİ-nin rəhbəri M.Qorbaçovun yürütdüyü "yenidənqurma" siyasəti özünü doğrultmadı. Bu hərc-mərclik dövründə Qazaxıstanda yaranan siyasi partiyalar ölkənin siyasi həyatında böyük rol oynayırdı. Ölkədə XX əsrin 80-ci illərində siyasi partiyalar, komitələr, ictimai birliklər fəaliyyət göstərirdi. Bu qurumların bir çoxunun fəaliyyəti sovet ideologiyasına qarşı yönəldilmişdi. Bu qurumların hərəkətverici qüvvəsi əsasən gənc tələbələr idi. Müxtəlif universitetlərdən, müəssisələrdən olan insanlar bu partiyalarda, ictimai birliklərdətoplanırdılar. Ümumiyyətlə, yenidənqurma siyasətinin uğursuzluğu tədricən siyasi hərəkatların yaranmasına gətirib çıxardı. Qazaxıstanda bu dövrdə siyasi məqsədlərlə yaradılmış "Alaş", "Azad", "Jeltoksan", "Qazaxıstan Sosial-Demokrat Partiyası (QSDP)" kimi ictimai birlik və partiyalar mövcud idi.

Müstəqillik əldə edən mərkəzi Asiya dövlətləri dövlətçilik ənənələrinə sahib deyildilər. Buna görə də Azərbaycanla müqayisədə Qazaxıstanda dövlətin müstəqillik qazanması və formalaşma prosesi bir qədər çətin oldu. 1990-cı il aprelin 24-də Ali sovet prezident vəzifəsini təsis etdi və Qazaxıstan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi Nursultan Nazarbayevi respublikanın ilk prezidenti seçdi (5, s. 373). Qazaxıstanda keçirilən ilk prezident seçkiləri Almatıda baş vermiş dekabr hadisələrindən 5 il sonra qazax xalqı öz müstəqilliyini bərpa etdi. 1991-ci il dekabr ayının 16-sı Qazaxıstan Respublikası müstəqillik haqqında konstitusiya aktını qəbul etdi (11).

Sovet İttifaqının dağılması ilə 1991-ci ildə müstəqillik əldə edən Qazaxıstan, döv-

lətin xarici siyasət kursunun yeni strukturunun yaradılması problemi ilə üzləşdi. Qazaxıstan Respublikasının xarici siyasətini müəyyən edən bir çox amil mövcuddur. Geopolitik vəziyyət, coğrafi yerləşmə, zəngin təbii qaynaqlar ölkənin xarici siyasətinə təsir edən amillərdəndir. İlk növbədə geopolitik vəziyyətinə görə Qazaxıstan regionda çox böyük rol oynayır. Belə ki, ölkə şimalda Rusiya, cənubda Türkmənistan, Qırğızıstan, Özbəkistan, şərqdə Çin kimi ölkələrlə həmsərhəddir. Qazaxıstanın qərbində isə Xəzər dənizi yerləşir və bu dəniz vasitəsilə ölkə Azərbaycan, Rusiya, İran və Türkmənistanla su sərhədinə malikdir. Coğrafi baxımdan bu şəkildə yerləşməsi ölkə üçün Mərkəzi Asiya regionunda və ümumiyyətlə, dünyada çox mühüm əhəmiyyət kəsb edir. Uzaq Şərqi Asiyadan, Avropaya qədər uzanan quru yollarının Qazaxıstan ərazisindən keçməyi ölkə ərazisini şərqləqərbi birləşdirən vasitəçiyə çevirir. Bu amillər Qazaxıstanı və dolayısıyla, Mərkəzi Asiyanı müasir polisentrik dünyanın önəmli üzvü kimi müəyyən etməyə imkan verir. Xarici siyasət ümumiyyətlə daxili siyasətin davamıdır. Bunu nəzərə alaraq Qazaxıstan müstəqillik qazandıqdan sonra daxili siyasətini düzgün formalaşdırmağa başladı. Ölkənin xarici siyasət aspektlərini təşkil edən amillər, Qazaxıstanın müstəqil və suveren dövlət olması, onun qlobal cəmiyyətdə yerini müəyyən etməsi, dünyada gedən proseslərdə əməkdaşlıq prinsipləri əsasında iştirakına təsir edirdi. Qazaxıstan bir tərəfdən yeni müstəqil dövlət, digər tərəfdən iki min ildən artıq tarixə malik ölkədir. Bu baxımdan Qazaxıstan 260 il Rusiya İmperiyasının, daha sonra Sovet İttifaqının tərkibində olduqdan sonra müstəqilliyini əldə edərək öz dövlətini qurmuşdur. Qazaxıstan Respublikası qədim və orta əsr türk dövlətləri və imperiyalarının yerində 1455-1466-cı illərdə yaranmış Qazax xanlığının varisidir. Qazaxıstanın xarici aləmdə suveren və müstəqil dövlət kimi inkişafı müstəqillik əldə etdikdən sonrakı çətin dövrünə uyğundur.

Belə bir siyasi hərc-mərcliyin fonunda Azərbaycan və Qazaxıstan müstəqil bir respublika kimi mövcud olmağa, xarici dövlətlərlə əlaqələr qurmağa, özünü beynəlxalq arenada tanıtmağa, qonşu dövlətlərlə siyasi münasibətlər qurmağa çalışırdılar. Bu dövr nəinki Azərbaycan həm də digər türkdilli dövlətlər üçün də dirçəliş, özünüdərk dövrü kimi tarixə düşdü.

Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra dünyaya, beynəlxalq münasibətlər sisteminə inteqrasiya etməyə başladı. İlk növbədə öz qonşuları ilə münasibətlər qurmağa başlayan Azərbaycan Respublikası din, dil, soykökü, milliyyət və s. baxımdan bizə daha yaxın olan Türkiyə, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Türkmənistan kimi dövlətlərlə əlaqələr qurmaqda çətinlik çəkmədi. Mərkəzi Asiya regionunun ən güclü dövləti hesab olunan Qazaxıstanla SSRİ-nin tərkibində olduğu zaman da sıx əlaqələri olan Azərbaycan bu əlaqələri müstəqillikdən sonra yeni mərhələyə keçirdi. SSRİ-nin dağıldığı ərəfədə Azərbaycanla Qazaxıstan bir-birini dəstəkləyir, əlaqələr yaratmağa çalışırdı. Bu əlaqələr sadəcə siyasi sahədə deyil ədəbi-bədii, ictimai sahələrdə də özünü göstərirdi. Məşhur şair, yazıçı-ədəbiyyatşünas, Qazaxıstanın ictimai-siyasi xadimi OljasSüleymenev türkdilli dövlətlərin, o cümlədən Azərbaycanın müstəqillik mübarizəsini hər zaman dəstəkləmişdir. O.Süleymenov qanlı 20 Yanvar günlərində də, ondan əvvəl də, sonrakı illərdə də Azərbaycana gəlib, xalqımızın sevinc və kədərinə şərik çıxıb. O, Azərbaycanın haqqını dəfələrlə dünyaya bəyan edib. “Mən hər işi vicdanımın səsi ilə görürəm. Sovet imperiyasının Azərbaycana qarşı törətdiyi o qırğınlar məni başdan-ayağa silkələdi. Əgər xatırlayırsınızsa, o hadisələr ilkin olaraq Qazaxıstanda başlamışdı. Yəni sovet imperiyasının türk xalqlarına qarşı o cür amansızlıq nümayiş etdirməsi istər-istəməz adamın qeyrət damarına toxunurdu. Əgər o mərhələdə mən o addımı atmamış olsaydım, ömür boyu içimdə birüzüntü, bir əskiklik hiss edərdim. Biz bir-birimizin dərdini paylaşmağı, bir-birimizə dayaq durmağı öyrənməliyik. Bizim kökümüz, qanımız, canımız birdir. Arada açılmış zaman ayrılığını biz sevgimizlə, bir-birimizə uzatdığımız qardaşlıq əli ilə doldurmalıyıq. Biz bir ola bilsək, güclü olacağıq və o zaman kimsə bizi təkləmək, hücum etmək

xəyalına düşməyəcək. Bu gün illərdən bəri uzanıb gedən Qarabağ probleminin həllinin müşkülə dönməsinin əsas səbəblərindən biri də elə budur, türk dövlətləri arasında lazım olan münasibətlərin əskikliyi. Mənim Moskvadakı o çıxışım qəhrəmanlıq-filan da deyil, dar mənada qardaşlıq, geniş mənada insanlıq borcum idi" (4) – deyə görkəmli yazıçı mətbuata müsahibəsində bildirib.

**Nəticə**

Hər iki dövlət strateji cəhətdən bir-biri üçün əlverişli zonada yerləşir. Azərbaycan Qazaxıstanın Avropaya, Qazaxıstan isə Azərbaycanın Mərkəzi Asiyaya inteqrasiyasında əhəmiyyətli rol oynayır. SSRİ-nin illər boyu apardığı anti-türk siyasətinə baxmayaraq, xalqlarımız eyni dilə və millətə aid olduqlarının fərqində idilər. Müstəqilliyini əldə edən respublikamız dünya dövlətləri ilə diplomatik münasibətlər qurmağa başladı.

İlk qurulan münasibətlər Türkiyə ilə 1992-ci il yanvar ayının 14-də oldu. Bundan sonra digər dövlətlərlə, o cümlədən Qazaxıstanla da diplomatik əlaqələr quruldu. Lakin, qeyd etmək lazımdır ki, hələ dövlət müstəqilliyi bərpa edilməmişdən əvvəl, 1991-ci il sentyabrın 30-dan oktyabrın 2-dək Azərbaycan nümayəndə heyəti Qazaxıstana səfər etmişdi. Səfər iki respublika arasında əməkdaşlığın və mehriban qonşuluğun inkişaf etdirilməsi məqsədi daşıyırdı. Danışıqların yekununda, oktyabrın 1-də Azərbaycan Respublikası ilə Qazaxıstan Respublikası arasında dostluq, əməkdaşlıq və mehriban qonşuluq haqqında 10 il müddətini nəzərdə tutan müqavilə imzalanmışdı. Azərbaycan Respublikası ilə Qazaxıstan Respublikası arasında diplomatik əlaqələr SSRİ dağıldıqdan bir müddət sonra, 1992-ci il avqustun 30-da quruldu. 1993-cü il yanvarın 9-da isə Qazaxıstan Respublikasının Azərbaycan Respublikasındakı səfirliyi fəaliyyətə başladı. İbrahim Amanqaliyev Qazaxıstan Respublikasının Azərbaycanda ilk səfiri oldu (3, s. 627). Azərbaycan Respublikasının 11 aprel 1997-ci il tarixli Qanunu ilə Azərbaycan Respublikasının Qazaxıstan Respublikasında Səfirliyi təsis edildi (9). Bununla da, Azərbaycanla Qazaxıstan arasındakı münasibətlərdə yeni səhifə açıldı Azərbaycan Respublikasının Qazaxıstan Respublikasındakı Səfirliyi 1 mart 2004-cü il tarixində fəaliyyətə başlamışdır (14). Lətif Qəndilov Azərbaycan Respublikasının Qazaxıstandakı ilk səfiri oldu. Bu diplomatik münasibətlərin yaranması hər iki dövlət üçün faydalı oldu. On illiklər boyu SSRİ-nin tərkibində mövcud olan dövlətlər artıq müstəqil şəkildə siyasi, iqtisadi əməkdaşlıq aparmağa başladı.

Azərbaycan Prezidenti Heydər Əliyevin Qazaxıstan Prezidenti NursultanNazarbayevlə ilk görüşlərindən biri 19 oktyabr 1994-cü ilə təsadüf edib. Türk dövlətləri başçılarının ikinci zirvə görüşündə iştirak edən Heydər Əliyev və Nursultan Nazarbayev görüşərək, iki ölkə arasında münasibətlərin inkişafı perspektivlərini müzakirə ediblər. Görüş zamanı Azərbaycan-Qazaxıstan münasibətlərini həm türk dövlətlərinin münasibətləri çərçivəsində, həm də ikitərəfli şəkildə qurmaq haqda qərar qəbul edilib (10). Heydər Əliyev bu görüşdə çıxış edərək bildirmişdir ki, "...Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Türkmənistan respublikaları da indi müstəqil dövlətlər içərisindədirlər. Bu respublikalarla Azərbaycan arasında tarixi ənənələr, dostluq və qardaşlıq əlaqələri əsrlər boyu mövcud olmuşdur. Biz əsrlər boyu bir yerdə yaşamışıq, bir adət-ənənələrdən istifadə etmişik və bir-birimizə həmişə kömək etmişik. Müstəqil olmadığımız 70 illik bir dövrdə də, sovetlər birliyinin tərkibində olduğumuz vaxtda da ölkələrimiz arasında, yəni Azərbaycan ilə Mərkəzi Asiya ölkələri arasında dostluq, qardaşlıq əlaqələri həmişə sıx olub, həmişə çox möhkəm olubdur və biz bir-birimizə həmişə dayaq olmuşuq" (2, s. 249). Göründüyü kimi, müstəqillik əldə olunan andan hər iki dövlət siyasi münasibətlər qurulmasında və bu münasibətlərin müasir dövrdə də inkişaf etdirilməsinə xüsusi diqqət ayırır.

## ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasının xarici siyasətinin əsas istiqamətləri (1991-2016) (məqalələr toplusu). Bakı: "Poliart" MMC, 2017, 904 s.
2. Əliyev, Heydər. Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, məktublar, müsahibələr. İkinci kitab: may-dekabr, 1994. Bakı: Azərnəşr, 1997, 604 s.
3. Qasımlı M. Azərbaycan Respublikasının xarici siyasəti (1991-2003) 2 hissədə I hissə, Bakı: Mütərcim,2015, 648 s.
4. Təranə Məhərrəmova, Kaspi. 2011. 25 may. s. 9.
5. История Казахстана. Курслекций Подред. Доктора исторических наук, профессора К.С.Каражана. Алматы: Нур-пресс, 2009, 432 с.
6. История Казахстана: учебное пособие / Г. В. Кан. Алматы: Аркаим, 2002, 221 с.
7. Содружество Независимых Государств: Институты, интеграционныепроцессы, конфликты: Учеб. Пособие для студентов вузов / Ю. В. Косов, А. В. Торопыгин. М.: Аспект Пресс, 2009. 224 с.
8. Чешко С.В. Распад СССР: этно политический анализ. 2-е изд. М.: ИЭА РАН, 2000, 396 с.
9. http://e-qanun.az/framework/3823 22.05.2019 Azərbaycan Respublikasının Qazaxıstan Respublikasında Səfirliyinin təsis edilməsi haqqında Azərbaycan Respublikasının 11 aprel 1997-ci il tarixli, 259-IQ nömrəli Qanunu
10. http://lib.aliyev-heritage.org/az/549420.html 12.06.2019
11. http://www.akorda.kz/ru/official_documents/constitution 17.04.2019
12. http://www.azerbaijan.az/portal/History/HistDocs/Documents/09.pdf 15.04.2019
13. http://www.e-qanun.az/framework/897 27.12.2021
14. http://www.mfa.gov.az/files/file/Azerbaycan_-_Qazaxistan_munasibetleri_18.09.2014.pdf 22.05.2019


***Summary***

***Dilbar Huseynli***

***Establishment of Azerbaijan-Kazakhstan Political Cooperation on the Way to İndependence***


The article is devoted to the exit from the Soviet empire and gaining independence of the two post-Soviet countries of Kazakhstan and Azerbaijan and the political relations that they have establish at that time. In 1991, the collapse of one of the Cold War participants, the USSR, was announced.After that, a number of important changes began to occur on the world political arena. The colonial republics of the USSR, one after another, embarked on a long and difficult path to freedom. Against the backdrop of such political upheavals, Azerbaijan and Kazakhstan tried to exist as independent republics and establish relations with foreign countries, promote themselves in the international arena, establish political ties with neighboring countries.This period went down in history as a period of revival and self-awareness not only in Azerbaijan, but also in other Turkic-speaking countries. After gaining independence, the Republic of Azerbaijan began to integrate into the system of international relations.Firstly, the Republic of Azerbaijan, which began to establish relations with its neighbors, easily established relations with countries closer to us in terms of religion, language, ethnicity, nationality, etc., such as Turkey, Kazakhstan, Kyrgyzstan, Uzbekistan, Turkmenistan.Azerbaijan, which had close ties with Kazakhstan, the largest state in the Central Asian region, even when it was part of the USSR, after gaining independence, brought these relations to a new level.On the eve of the collapse of the USSR, Azerbaijan and Kazakhstan supported each other and tried to improve relations. Both countries are located in a strategically advantageous zone.Azerbaijan plays an important role in Kazakhstan's integration into Europe and also Kazakhstan plays an important role in Azerbaijan'sintegration into Central Asia. Despite the many years of anti-Turkish policy of the USSR, our peoples were aware of their belonging to the same language and nation. In this regard, both countries have maintained close brotherly and friendly relations since independence in various fields.


***Keywords:*** *Azerbaijan, Kazakhstan, independence, foreign relations*

***Резюме***

***Дилбар Гусейнли***

***Установление Азербайджано-Казахстанского политического сотрудничества на пути к независимости***

Статья посвящена выходу из Советской империи и получению независимости двух постсоветских стран Казахстана и Азербайджана и политическим отношениям, которые они стремились установить в то время. В 1991 году было объявлено о распаде одного из участников «холодной войны» – СССР. После чего на мировой политической арене стало происходить ряд важных изменений. Колониальные республики СССР одна за другой вступая на долгий и трудный путь к свободе, восстанавливали свою независимость. На фоне таких политических потрясений Азербайджан и Казахстан пытались существовать как независимые республики, налаживать отношения с зарубежными странами, продвигать себя на международной арене, налаживать политические связи с соседними странами. Этот период вошел в историю как период возрождения и самосознания не только для Азербайджана, но и для других тюркоязычных стран. После обретения независимости Азербайджанская Республика начала интегрироваться в систему международных отношений. Во-первых, Азербайджанская Республика, начавшая налаживать отношения со своими соседями, без труда налаживала отношения с более близкими нам по религиозному, языковому, этническому, национальному признаку и т. д. странами, такими как Турция, Казахстан, Киргизия, Узбекистан, Туркмения. Азербайджан, имевший тесные связи с Казахстаном, самым крупным государством среднеазиатского региона, даже когда он был в составе СССР, после обретения независимости вывел эти отношения на новый уровень. Накануне распада СССР Азербайджан и Казахстан поддерживали друг друга и пытались наладить отношения. Обе страны расположены в стратегически выгодной зоне. Азербайджан играет важную роль в интеграции Казахстана в Европу и Казахстан также играет важную роль в интеграции Азербайджана в Среднюю Азию. Несмотря на многолетнюю антитурецкую политику СССР, наши народы осознавали свою принадлежность к одному языку и нации. В связи с этим обе страны поддерживают тесные братские и дружеские отношения с момента обретения независимости в различных областях.

***Ключевые слова:*** *Азербайджан, Казахстан, независимость, международные отношения*

Şöbə redaktoru s.e.d., prof. Nəsirli Elman Xudam oğlunun rəyi əsasında çapa məsləhət görülmüşdür.

**UOT 32**

# ERMƏNİ SİYASİ PARTİYALARI ARASINDAKI İXTİLAFLARIN OSMANLI DÖVLƏTİNİN İCTİMAİ-SİYASİ PROSESLƏRİNDƏ YERİ (XIX ƏSRİN İKİNCİ YARISI-XX ƏSRİN ƏVVƏLLƏRİ)

**Elgün QƏHRƏMANOV** *

*Məqalə redaksiyaya daxil olmuşdur: 20 dekabr 2022; çapa qəbul edilmişdir: 23 yanvar 2022; online-da çap edilmişdir: 30 mart 2022.*

*Received: 20 th of December, 2021; accepted: 23 th of January, 2022; published online: 30 th of March, 2022.*

***Açar sözlər:** erməni siyasi komitələri, Hnçak partiyası, Daşnaksütyun partiyası, erməni millətçiliyi, Osmanlı dövləti*

## Giriş

XIX əsrin II yarısı – XX əsrin əvvəllərinə kimi Osmanlı dövlətindəki ermənilər arasında yaşanan gərginliklərin erməni cəmiyyətini necə şəkilləndirdiyini və təsirlərinin hansı dərəcədə olduğunun öyrənilməsi, Osmanlı tarixşünaslığında erməni məsələsinin tədqiqatı baxımından əhəmiyyətlidir. Ermənimilli kimliyinin formalaşmasında kilsə ilə yanaşı siyasi partiya və təşkilatlar da böyük rol oynamışdır. Erməni dinin, siyasi kimlik kimi identifikasiyası vahid formada inkişaf etməmişdir. Osmanlı ermənilərinin müxtəlif məzhəblərdə olması, onların xarici qüvvələrin əlində oyuncağa çevrilməsinə səbəb olmuşdur. İxtilaflar təkcə kilsə arasında deyil, həm də erməni komitələrində də meydana gəlmişdir. Osmanlı xaricində yaranan, Hnçak və Daşnaksütyun partiyalarının istər öz daxilində, istərsə də, bir-biriylə yaşadıqları ixtilaflar mövzunun öyrənilməsi üçün əhəmiyyətlidir.

XIX əsrdə Fransa inqilabından təsirlənən milliyətçilik hərəkatları Balkan yarımadasında da geniş yayılmışdır. Bütün bunlar Osmanlı erməniləri üzərində dərin təsirləri olmuşdur. Beləliklə, ermənilər üzərində, SivaslıMixitar sayəsində uzun illər var olan milliyətçiliyin təsiri getdikcə artmağabaşlamışdır. Bunların nəticəsində Rusiya, İngiltərə, İsveçrə kimi ölkələrdə erməni siyasi komitələrinin formlalaşma prosesi sürətləndi. Bu komitələrin əsl məqsədi Osmanlı torpaqlarında yaşayan ermənilərin müstəqillik və bunun ardınca bir Ermənistan dövləti qurulması olmuşdur. Bu komitələrin məqsədləri eyni olsa da, zaman-zaman siyasətləri və mənimsədikləri tətbiq metodlarının fərqliliyinə görə gərginliklər yaranmışdır. Əvvəllər bu ixtilaflar mübahisə səviyyəsində olsa da, sonrakı dövrdə qarşılıqlı iftira, şiddət, silahlı toqquşma və cinayətlərlə davam etmişdir. İxtilaflar daha çox iki böyük komitə Hnçak və Daşnaksütyun arasında yaşanmışdır. Proqramları bir-birilərindən fərqli olsa da, hər ikisi də sosialist və inqilabçı təşkilatlar olaraq tanınmışıdır.

## 1. Erməni siyasi partiyalarının daxili ziddiyyətləri

Hnçak partiyası Osmanlı dövlətin içində formalaşdıqdan sonra ölkə daxilində yalnız türkləri qətl etməmişdir. Siyasi görünüşü terror istehsal edən bir komitəyə çevrildikdən sonra İstanbul patriarxları daxil olmaqla çox sayda ruhani təbəqəsi, tacir, dövlət xadimlərini, siyasi məsələlərdən uzaq durmaq istəyən sadə erməni əhalisini öldürməkdənçəkinməmişdirlər.

* doktorant, Bakı Dövlət Universiteti, Erməni Araşdırmaları və Təlim Mərkəzi
*e-mail:elgun041@gmail.com*

İstanbuldakı Robert kollecinin müdiri, Hamlin Boston şəhərində çıxan "Congregtionalist" jurnalına 1893-cü ildə dekabr 23-də göndərdiyi məktubda Hnçak komitəsi ilə bağlı bunları yazmışdır: "Bir erməni inqilab partiyası, Türk imperatorluğunun bəzi bölgələrində xristian xalqa və missionerlərin fəaliyyətinə pislikləri ilə yadda qalmışdır. Bu gizli bir komitədir, lakin bu komitə şərqə xas bir saxtakarlıqla idarə edilməkdədir. Bunlar hiyləgər, qeyri-peşəkar və zalımdırlar. Öz irqlərindən olanları ölüm təhdidi altında pul yardımı istəyirlər.Çox zaman bu təhdidlər davamlı həyata keçirilir" [3, 45-46].

Hnçaklar arasında ilk qarşıdurmalar partiyanın yaranmasından bir neçə ilə sonra yaşanmağa başlamışdır. 1895-ci il Zeytun üsyanı mübahisələrin başlanğıcı olmuşdur. Üsyandan sonra başlayan mübahisə həll edilə bilmədiyinə görə komitə iki yerə bölündü. Zeytun üsyanı zamanı müxtəlif ölkələrdə yaşayan ermənilər, Anadoludakı soydaşlarına pul yardımı etmişdilər. Komitə lideri Nazarbeğyan və arvadı Maro Vardanyana çatan maddi yardımın təyinatı üzrə, yəni Zeytuna çatmadığı bilindi. Və pulun böyük bir hissəsinin Nazarbeğyanın mənimsədiyi aşkarlandı. Komitə içərisində mübahisələrin tək səbəbi, maliyyə məsələləri deyildir [6, 48]. Partiyanın bəzi üzvləri sosialist doktrinasına görə, Avropa dövlətləri üçün Erməni məsələsi aktual olmadığını düşünür və bundan sonra yalnız müstəqil Ermənistanın yaranması üzərində işləməli olduğunu qeyd edirdilər. Hətta komitənin müxalifət qrupunun lideri Arpiar Arpiaryan Hnçakın qurucu atalarından olan Xanazadla tanış olandan bəri Osmanlı sosial-iqtisadi həyatındakı reallıqların sosializmlə uzlaşmadığını deyirdi. Arpiaryan Xanazadı inandırmağa çalışırdı ki, bu doktrina uğurlu olmayacaqdır. Necə ki, 1896-ci il Londonda keçirilən I Hnçak qurultayında marksist və sosialist doktrinaya qarşı çıxan qrup açıq şəkildə müxalifətə keçmişdir. Beləliklə komitə daxili ziddiyyətlər daha da artmağa başlamışdır [5, 28]. Problemlər həll edilməsi üçün yeni mərkəzi komitənin seçilməsi üçün müxalif qrupun yeni iclas keçirmək tələbi Nazarbeğyan və həyat yoldaşı Maro tərəfindən rədd edildi. Həmin ilin sentyabrında nəzərdə tutulan II qurultaya qədər müxalif qrupun toplaşması cəhdi də uğursuz olmuşdur. Nazarbeğyanın sədrliyi ilə sentyabrda keçirilən II qurultayda partiya daxili parçalanmanın qarşısını almaq üçün doktrinaların saxlanılması qərara alındı. Burda əsas məsələlərdən biri də Osmanlı erməniləri ilə avropalı ermənilər arasında bariz fikir ayrılıqlarının olması idi. Nəhayət partiya millətçi ünsürlər ilə marksist və sosialist doktrina ilə önə çıxan solçular arasında idarəçilikdə fikir ayrılığına görə rəsmi olaraq iki yerə ayrıldı. Yeni qrup Verağazmyal (Yenilənmə) və ya reformist Hnçaklar adlandı. Hnçak adını daşıyan iki qrup arasında problemlər səbəbindən, Misirdən İngiltərə, Rusiyadan Bolqarıstana, Qafqazdan İrana kimi cinayətlər başlamışdı.

VerağazmyalHnçaklar Osmanlı dövlətində II konstitusiyanın elan olunmasından sonra mərkəzlərini İstanbula köçürmüş və hətta Nyu-York və Bostonda çıxardıqları "Ana vətənin səsi" adlı qəzeti də öz yanlarına gətirmişdilər. VerağazmyalHnçaklar qısa bir müddətdə fəaliyyət proqramlarını hazırlamışdılar. Komitə öz proqramında, dövlətin tərəqqisi və siyasi-demokratik olaraq güclənməsi üçün çalışacaqlarını, heç bir üsyan və təxribatda iştirak etməyəcəklərini və Osmanlının ərazi bütövlüyünün qorunmasının tərəfdarı olduqlarını bəyan etdilər [1, 48-49]. Verağazmyal Hnçaklar türklərin İttihad və Tərəqqi cəmiyyətinin tərəfini tutmaq istəsələr də, Anadolu erməniləri arasında çoxlu tərəfdarı olmadığından, inqilabçı Hnçak partiyası kimi tanınan əsl Hnçaklar kimi təsirli və uğurlu ola bilmədilər.

XX əsrin əvvəllərində Reformist Hnçaklar və sosial-demokrat Hnçaklar arasında mübahisələri, artıq sui-qəsdlər əvəzləməyə başladı. Verağazmyal Hnçakların lideri Arpiar Apiaryanı 1908-ci fevralın 12-də inqilabçı Hnçaklar tərəfindən sui-qəsd nəticəsində öldürülmüşdü. Arpiaryanın qətli, Hnçaklar arasında düşmənçilik zəminində törədilsə də, Tavşancıyan cinayətindən sonra erməniləri qorxutmaq adı ilə törədildiyi barədə başqa bir fikir irəli sürülür. Bu fikrə görə, Arpiaryan və Amerikadakı Tavşancıyan cinayətlərindən

sonra qatillərin cəzlandırılmasını tələb edən çoxlu məqalələr çap edilmişdi. Bu səbəbdən qəzəb obyektinə çevrilməklə, Nyu-York ermənilərini qorxutmaq və Hnçakların əleyhinə ifadə verməlırinə maneə olmaq məqsədi güdürdü. Arpiaryanın öldürülməsi Verağazmya Hnçakların silsilə sui-qəsdlərin həyata keçirilməsi üçün münbit şərait yaratmışdır. Bunun nəticəsində Sanuni, Krikoryan və Smiğiyan adlı üç inqilabçı Hnçak üzvü öldürülmüşdü [5, 127]. Osmanlı dövləti II Məşrutəni elan etdikdən sonra, ümumi bir əfv elan olunmuş və bunun sayəsində xaricdən bir çox erməni ölkəyə geri qayıtmışdırlar. Lakin fürsətdən yararlanaraq, Rusiyadan gələnlər içərisində rus əsilli daşnaklar da var idi. Lakin Rusiyadan gələn daşnaklar Osmanlı imperiyasının özünəməxsus balans siyasətinə yad idilər. Bu adamların Osmanlı ölkəsinə gəlişi, daşnak komitəsi daxilində parçalanmaya gətirib çıxardacaqdır. Çünki Rusiyadan gələn Daşnak üzvləri türklərə qarşı mübarizələrinin indi geridə qaldığını və bundan sonra görülməli olan əsas məsələnin xalqın maarifləndirilməsi olduğunu iddia edirdilər. Mübahisələr Daşnaklar arasında iki qrupun yaranmasına gətirib çıxardacaqdır. Bu hərəkatlardan biri "mərkəzi", digər isə "əyalət" adlandırılırdı. Rusiyadan gələn qrup "mərkəzi" hərəkat, "əyalət" qrup isə Osmanlı ermənilərindən ibarət idi. Əyalət qrupu II Məşrutə dövrünün uzun ömürlü olmadığını iddia edərək, mübarizənin sona çatdırılmamasını söyləmişlər və silahları yerə qoymağı rədd etmişdilər.

1909-cu il Adana hadisələrindən sonra avqust ayında Varnaya çağırılmış daşnakların növbəti iclasında, partiya üzvləri arasında mübahisələr yaranmışdır. Mübahisələrin əsas mövzusu, İttihad və Tərəqqi cəmiyyətinə qarşı hansı mövqedə olması idi [1, 141-142]. Daşnak üzvlərinin bir qismi İttihad və Tərəqqi cəmiyyəti ilə olan bütün əlaqələrə son verilməsini müdafiə edərkən, digər tərəf isə, belə bir qərarın verilməsi ilə ermənilər üçün konstitusiyanın gətirdiyi üstünlüklərindən istifadə edilməsində problemlər ola biləcəyini, bu səbəbdən əlaqələrin kəsilməməsini müdafiə etmişdir. Müzakirələr nəticəsində "mərkəzi" cərəyanın təmsilçilərin icra mövqedə olmasının təsiri ilə ikinci fikri qəbul etmişdirlər. Daşnakların İttihad və Tərəqqi ilə bir kompromis tapması erməni patriarxlığını qane etmirdi. Patriarxlıq öz liderlik mövqeyinə təhlükə hesab etdiyi bu razılaşmanı, erməni millətinin maraqlarına zidd olduğunu iddia etmişdi. Erməni patriarxlığı daşnaklarla İttihad və Tərəqqi cəmiyyəti arasında əməkdaşlıq bəyannaməsini, daşnaklar üçün sağ qalma vasitəsi olduğunu və partiyanın siyasi maraqlar güddüyünü iddia etmişdir. Hər halda artıq daşnaklar düşünürlər ki, patriarxlığın və ruhanilərin öz siyasi mövqelərini onlara təhvil verilməsinin vaxtı gəlib çatıb. Hətta daşnakların dünya patriarxlığını istədikləri iddia edilirdi. Daşnaklar patriarxlıq üzərində müəyyən olunmuş bir nəzarət mexanizması qurmaq istəyərkən, patriarxlıqla hərəkət edənləri "pula itaət edənlər və saxta vətənpərvərlər" olaraq adlandırmışdır [1, 146]. Bir müddət sonra tərəflər arasında yaranan fikir ayrılıqları, daşnaklar Anadoluda sıravı erməni xalqının, patriarxlığın isə İstanbuldakı tacirlərin, ziyalıların mənafelərinin müdafiəsi iddiaları ilə ciddi siyasi toqquşma görüntüsü yaranmışdır. Daşnak partiyasının İttihad və Tərəqqiylə ortaqlığı və daha da güclənməsi, ermənilərin yeganə siyasi güc kimi çıxış etməsi, onlara qarşı təkcə patriarxlıq deyil, digər siyasi birləşmələr də qarşı çıxmağa başlamışdır.

**Daşnak və Hnçak partiyaları arasındakı siyasi qarşıdurmanın ümumi mənzərəsi**

Hnçak və Daşnak partiyaları nəzəri cəhətdən məqsədləri eyni olsa da, praktikada fərqli fikirlər irəli sürmüşdülər. Bu səbəbdən zaman-zaman mübahisə etdikləri və fikir ayrılıqları yaşamışdırlar. Daşnaklar hnçaklarla birləşərək, Osmanlı imperiyasındakı aksiyaları birgə həyata keçirməyə çalışsalar da, onların həyata keçirdikləri siyasətin mahiyyəti bir-birilərindən tamam fərqli idi. Daşnaklar, sosialist bir partiya olduqlarını iddia etsələr də, daha çox millətçi bir siyasət irəli sürmüşdülər. Hnçaklar Karl Marksın düşüncələrindən təsirlənərək, daha çox sosialist bir quruluşa sahiblənmişdilər. Hnçaklar varlıqlarının ilk on illiyində Anadoluda və xüsusilə də, Amerika missionerlik məktəblərində bö-

yümüş gənclər arasında davam etdirmişdi. Rus çarizmi torpaqlarında qurulan daşnaklar Qafqazda özlərinə tərəfdar qazanmağa çalışmışdırlar. Lakin daşnaklar ermənilər arasında daha populyar bir siyasi partiya olmuşdu. İki güclü komitə 1890-ci ildə birləşməyə təşəbbüs etmişdirlər. Mikaelyan və Nazabeğyan, Hnçak qəzetini birləşmədən sonra Daşnaksütyun jurnalı olaraq adlanmasını da planlamışlardır. Lakin bir müddət sonra Cenevrədəki mərkəzə Hnçaklar şikayətlər göndərməyə başladılar. Onlara bərabər münasibət göstərilmədiyini, daşnaklar tərəfindən təhqir olunduqlarını iddia edən hnçaklar yeni birləşmə onları qane etmirdi. O cümlədən yeni mətbuat orqanı olaraq Truşak seçildiyi üçün, Hnçakın yayım fəaliyyətinin dayandırılması tələb edildi. Bundan əlavə, bir il müddətində olan əməkdaşlıqdan sonra Hnçaklar daşnaklarla birləşmək üçün sosialist prinsiplərinə əsaslanan siyasət yürütməyi bir şərt olaraq irəli sürdü, daşnaklar isə Osmanlı ermənilərin buna hazır olmadığını iddia edirdilər. Nəticə olaraq, tərəflər arasında birləşmə baş tutmamışdır. Hnçak partiyası Mərkəzi komitəsinin 1891-ci ildə rəsmi açıqlamalarında daşnaklarla heç bir əlaqəsinin olmadığını elan edərək, birləşmə prosesini sonlandırmışdır [5, 98-99]. Beləliklə, Daşnakların Hnçak üzvlərini Qafqazda etibar olmayan Nazarbeyğyan və həyat yoldaşı Marodan ayırmaq planları da baş tutmadı və iki siyasi komitə arasında uzunmüddətli rəqabət başladı. Erməni millətinin müstəqilliyinin əldə edilməsi üçün qurduqları iki böyük partiya arasında fikir ayrılıqları, Gənc türklərlə Hnçakların Parisdə apardığı görüşlər (1891-1892) nəticəsində daha da dərinləşdiyini söyləmək mümkündür. Gənc türklər Hnçak partiyasına Osmanlı imperatorluğuna qarşı olan Berlin müqaviləsinin 61-ci maddəsinin həyata keçirilməsində dövlətdən ayrılaraq müstəqil olmaq ilə nəticələnən bir yol əvəzinə, birlikdə islahatlar aparılmasını təklif etmişdilər. İlk vaxtlar Hnçaklar tərəfindən qəbul edilən bu təklif, komitədə zorakılıq əleyhinə və zorakılıq tərəfdarları arasında qarşıdurma səbəbindən bəzi problemlər yaranmışdır. Hnçaklar Gənc türklərdən ayrılaraq, sultan hakimiyyətinə qarşı mübarizədə təkbaşına qərarlar verməyi üstün tutdular [6, 47].

Osmanlı dövlətindəki erməni məsələlərinin Avropalı dövlətləri tərəfindən diqqətlə izlənilməsindən narahat olan Gənc türklər bu dəfə Daşnak komitəsinə ziyarət edərək, Sultan II Əbdülhəmid rejiminə qarşı birlikdə mübarizə etməyi təklif etmişlərdi. Bu görüşlərdə Gənc türklər istibdad rejimi əleyhinə üsyan fəaliyyətindən əl çəkməyi və daha çox sülh yollarla mübarizəni təklif etmişdilər [2, 33]. Dünyanın bir çox yerlərində şöbələri olan və ortaq bir hədəf üçün çalışan Erməni komitələri sadəcə Osmanlı torpaqlarında deyil, həm də xarici ölkələrdə də fikir ayrılıqları yaşayırdılar. Bu ixtilaflar barəsində, Osmanlı dövlətinə səfirliklər vasitəsilə bildirilirdi və erməni hərəkatları diqqətlə izlənilirdi. Misal üçün, 1902-ci il fevral ayında Parisdə Hnçak və Daşnak komitə başçıları birləşmək ümidi ilə iclas keçirsələrdə, bu iclas qarşılıqlı ittihamlarla sonlanmışdır.

1907-ci il, Vyanada Daşnakların IV Qurultayında qəbul etdikləri qərara görə, Gənc türklər, Verağazmyal və Sosial Demokrat Hnçak partiya rəhbərlərinin iştirakı ilə II Əbdülhəmidə qarşı mübarizə üçün birləşmiş bir qurultayın çağrılması istənilmişdir [Yenə orada]. Lakin Verağazmyal və İnqilabçı Hnçak partiyaları Daşnakların təklifini qəbul etməmişdir. Və yalnız Erməni partiyalarının iştirakı olan qurultayın çağrılmasını istəmişdirlər. Daşnaklar II Əbdülhəmidə qarşı yanlarında türk siyasi gücü olmazsa, bu mübarizənin uğursuzluqla nəticələnəcəyini bildirmişdi. Anadoluda fəaliyyət göstərən Armenakan partiyası bu bərabərliyə daxil olmasa da, onlar müstəsna erməni birliyini əsas tutaraq, qeyri-ermənilərlə birləşməyə qarşı idilər.

Hnçak və Daşnak komitələri arasında problemlər təkcə özlərini deyil, o cümlədən Osmanlı imperiyasında da qarışıqlıq yaratmışdır. Tərəflərin üstünlük uğrunda mübarizəsi Osmanlı ermənilərinin problemlərini daha da artırmışdı. 1909-cu il ilin yay aylarında Van vilayətində getdikcə azalan təsirlərini artırmağa qərara alan Hnçak komitəsinin üzvləri Daşnaklar tərəfindən təhdid olunurdular. Hətta bu ildə Daşnaklar tərəfindən, Hnçakların Vana gəlməsinə sərt şəkildə etiraz etdilər və Hnçakın üç üzvünü döyüb, üzərindəki əşya-

ları talan etdilər. Vanda komitələr arasında baş verən hadisələrdə hücum edən tərəf əsasən, Daşnak komitəsi idi. Zorakılıqları ilə yadda qalan Hnçaklar bu dəfə maraqlı şəkildə sakit mövqe tutmağa çalışırdılar [4, 187]. Van daşnakların mərkəzlərində biri olmasına baxmayaraq, Hnçaklarla toqquşmaları olmuşdu. 1913-cü ildə mayın 1-də məsələ ilə bağlı Rusiyaya göndərilən hesabatda, Daşnak və Hnçaklar müqayisə edilir. Daşnaklar alman təsirinə qarşı çıxdıqları və Rusiyanın köməyinə arxalandığı, Hnçakların isə müstəqillik üçün üsyanın vacib olduğuna inandıqları və Rusiyanın təkbaşına bura müdaxiləsinə qarşı çıxdıqları bu hesabatda qeyd olunmuşdur. Tərəflər arasında fikir ayrılıqları, I Dünya müharibəsi dövründə birlikdə hərəkət etmək qərarı verilsə də, aradan qaldırılmamışdır. Tiflisdə erməni mətbuat orqanı olan Mşak qəzetində 1915-ci ildə ermənilərin Anadolu ərazilərindən köçürülməsi ilə bağlı erməniləri düşdüyü vəziyyətə görə bütün erməni komitələrini, xüsusilə daşnak komitəsinin məsuliyyət daşıdığı qeyd olunur[3,46]. Daşnakların 30 il davam edən fəaliyyəti və siyasəti düzgün idarə olunmadığı üçün xeyli erməni həyatının itirildiyi erməni qəzetində yazılmışdır. Əslində erməni komitələrinin əsl fəaliyyəti erməni xalqının azadlığı uğrunda mübarizədən çox, Osmanlı dövlətinə nə qədər zərər vurmaqları olmuşdur. Doğru olmayan strategiyanın seçilməsi bu xalq üçün böyük uğursuzluqlar gətirmişdir. Yəni Osmanlı ermənilərinin başına gələnlərin türklərin deyil, erməni komitələrinin yanlış siyasətinin nəticəsidir.

**Nəticə**

Tarix boyunca yaşamış millətlərin böyük bir hissəsi arasında siyasi, dini, etnik, sosial-iqtisadi və digər məsələlər səbəbindən ixtilaflar və qarşıdurmalar baş vermişdi. Bu ixtilaflar yalnız millətlərin özlərinə deyil, həm də vətəndaş olduqları dövlətlərə də təsir etmişdir. Osmanlı erməniləri arasında olan fikir uyğunsuzluqları və fərqliliklər, onlar arasında qarşıdurmanı artırmışdır. XIX əsrin ikinci yarısında Osmanlı hakimiyyətinin keçirdiyi islahatlarının gətirdiyi bəzi siyasi və sosial azadlıqlar, ermənilərin düşüncə və inanc sistemində uzun müddətdir olan fərqliliyi daha da dərinləşdirmişdi. Nəticə olaraq, Osmanlı erməniləri içərisində iki əsas təməl fərqlilik meydana gəldi. Müstəqil Ermənistan xəyalının ardınca gedən və dövlətə sadiq qalaraq, Osmanlı daxilində qarşıdurmaları istəməyən qruplar formalaşmışdır. Xüsusilə siyasi partiya və təşkilatları, Osmanlı ermənilərinə müstəqillik vədi verərkən, öz daxillərindəki fikir ayrılıqlarını həll etməmiş olması, daha da qarışıq vəziyyət yaratmışdır. Xüsusilə Hnçak və Daşnak komitələrinin arasında olan problemlər təkcə Osmanlı dövlətinin deyil, dünyanın bir çox ölkələrində, komitələr arasında mübarizə meydanına çevrilmişdi. ABŞ, İngiltərə, Fransa və digər ölkələrdə bu iki partiya arasında olan qarşıdurmalarının nəticələri çox vaxt sui-qəsdlər və cinayətlərlə zəngin olmuşdur. Osmanlı dövlətində fəaliyyət göstərən siyasi komitələr xüsusi olaraq, kilsəni hədəf alaraq, müxtəlif təzyiq vasitələrinə əl atırdılar. Bunun səbəbi ictimai liderliyi əlində saxlayan kilsəni özünə ən böyük rəqib görmələri və bu səbəbdən din xadimlərinə qarşı sui-qəsdlər törətməkdən çəkinməmişdilər.

Partiyalar arasında olan ixtilaflar bir çox cəhətdən davam etsə də, problemlərin əsas səbəbi, Osmanlı erməniləri üzərində siyasi üstünlük əldə etmək və onları öz maraqlarına uyğun istiqamətləndirərək, yeganə güc olmaq istəyi idi.

**ƏDƏBİYYAT**


1. Avagyan A., Minnassian G. Ermeniler ve İttihat ve Terakki: İşbirliğinden Çatışmaya, Çeviren: Mutlucan Şahan. -3. Baskı, İstanbul: ArasYayınları, 2013, 232 s.
2. Bülent C. Sultan II Abdülhamid'e Ermeni Komiteleri ve Faaliyyetleriyle İlgili Sunulan Bir Fezleke (1895) // Akademik Bakış, Cilt: 15, Sayı: 29, 2021, s. 19-37.
3. İstanbul Araştırma Merkezi. XIX Yüzyılda Osmanlı İmparatorluğunda Ermeniler ve

Ermeni Sorunu (XI) // Belgelerle Türk Tarihi Dergisi, Sayı: 54, İstanbul, 2001, s. 40-46.
4. Damadyan M. Bir Ermeni Komitecinin İtirafları. İstanbul: Timaş Yayınları, 2009, 222 s.
5. Nalbandian L. The Armenian Revolutionary Movement University of California, Berkley, 2018, 264 p.
6. Ermeni Komiteleri 1891-1895. Osmanlı Arşivi Daire Başkanlığı Yayınları, N: 48. (file:///C:/Users/HP/Downloads/ERMEN%C4%B0%20KOM%C4%B0TELER%C4%B0%20(1).pdf)

**_Резюме_**

**_Эльгюн Гахраманов_**

**_Местоспоровмеждуармянскимиполитическимипартиями в общественно-политическихпроцессахОсманскогогосударства (втораяполовина XIX-начало XX вв.)_**

Изучениетого, как напряженность между османскими армянами во второй половине 19-го и начале 20-го веков сформировала армянское общество и степень их влияния, важно с точки зрения изучения армянского вопроса в османской историографии. Наряду с церковью важную роль в формировании армянского национального самосознания сыграли и политические партии и организации. Идентификация армянской религии как политической идентичности развивалась неравномерно. Тот факт, что османские армяне принадлежали к разным сектам, делал их игрушкой в руках иностранных сил. Разногласия возникли не только между церковью, но и в армянских комитетах. Различия между партиями «Гнчак» и «Дашнакцутюн», возникшими за пределами Османской империи, как внутри себя, так и друг с другом, важны для изучения предмета. На Балканах также были широко распространены националистические движения, затронутые Французской революцией в 19 веке. Все это оказало глубокое влияние на османских армян. Таким образом, благодаря Сивасли Микситару начало расти влияние давнего национализма на армян. В результате ускорился процесс формирования армянских политических комитетов в таких странах, как Россия, Англия и Швейцария. Настоящей целью этих комитетов была независимость армян, проживающих на османских землях, и создание армянского государства.Хотя цели этих комитетов одинаковы, время от времени возникали трения из-за различий в политике и методах применения. Первоначально эти конфликты были на уровне полемики, но в дальнейшем продолжились клеветой, насилием, вооруженными конфликтами и преступлениями. Разногласия были в основном между двумя главными комитетами Гнчака и Дашнакцутюн. Хотя их программы отличаются друг от друга, обе они признаны социалистическими и революционными организациями. Таким образом, процесс формирования армянских политических партий, хотя и в результате примерно одинаковых исторических условий, имел разные политические взгляды. Это сделало противостояние между ними центральным вопросом.

**_Ключевые слова:_** *армянские политические комитеты, партия Гнчак, партия Дашнакцутюн, армянский национализм, османское государство*

**_Summary_**

**_Elgun Gahramanov_**

**_The Place of Disputes between Armenian Political Parties in the Socio-Political Processes of the Ottoman State (Second Half of the XIX-Early XX Centuries)_**

The study of how the tensions between Ottoman Armenians in the second half of the 19th century and the beginning of the 20th century shaped Armenian society and the extent of their impact is important in terms of studying the Armenian issue in Ottoman historiography.Along with the church, political parties and organizations also played an important role in the formation of the Armenian national identity. The identification of the Armenian religion as a political identity has not developed uniformly.The fact that Ottoman Armenians belonged to different sects made them a toy in the hands of foreign forces. Disagreements arose not only between the church, but also in the Armenian committees.The differences between the Hunchak and Dasnaktution parties, which arose outside the Ottoman Empire, both within themselves and with each other, are important for the study of the subject.Nationalist movements affected by the French

Revolution in the 19th century were also widespread in the Balkans. All this had a profound effect on the Ottoman Armenians.Thus, thanks to SivasliMixitar, the influence of long-standing nationalism on the Armenians began to grow. As a result, the process of forming Armenian political committees in countries such as Russia, England and Switzerland has accelerated.The real goal of these committees was the independence of the Armenians living in the Ottoman lands and the establishment of an Armenian state. Although the goals of these committees are the same, tensions have arisen from time to time due to differences in policies and methods of application.Initially, these conflicts were at the level of controversy, but later they continued with slander, violence, armed conflict and crimes. Disagreements were mostly between the two major committees Hunchak and Dasnaktution.Although their programs differ from each other, they are both recognized as socialist and revolutionary organizations.Thus, the process of formation of Armenian political parties, although as a result of approximately the same historical conditions, had different political views.This has made the confrontation between them a central issue.

***Keywords:*** *Armenian political committees, Hunchak party, Dasnaktsution party, Armenian nationalism, Ottoman state*

Redaksiya heyətinin üzvü s.e.ü.f.d. Qasımov Səyavuş Kamran oğlunun rəyi əsasında çapa məsləhət görülmüşdür.

**UOT 327**

# QAZAXISTAN VƏ ÖZBƏKİSTANDA QAÇQIN VƏ MƏCBURİ KÖÇKÜNLƏRİN SİYASİ PROBLEMLƏRİ: MÜQAYİSƏLİ TƏHLİL

**Kəmalə NƏSİROVA***

*Məqalə redaksiyaya daxil olmuşdur: 25 yanvar 2022; çapa qəbul edilmişdir: 22 fevral 2022; online-da çap edilmişdir: 30 mart 2022.*

*Received: 25 th of January, 2021; accepted: 22 th of February, 2022; published online: 30 th of March, 2022.*

***Açar sözlər:** Qazaxıstan, Özbəkistan, qaçqın, məcburi köçkün, qaçqın və məcburi köçkünlərin beynəlxalq müdafiəsi*

## Giriş

Mərkəzi Asiya ölkələrində, o cümlədən Qazaxıstanda və Özbəkistanda qaçqın və məcburi köçkünlərlə bağlı mövcud olan daxili, həm də bu regionun spesifik problemlərini nəzərdən keçirmək zəruridir. Mərkəzi Asiya ölkələri içərisində Özbəkistan istisna olmaqla bütün region ölkələri 1951-ci il qaçqınların statusuna dair konvensiyasını ratifikasiya etmiş və qaçqınların istər siyasi, istərsə də digər problemləri üzrə milli qanunvericiliklərini inkişaf etdirmişlər. Bu məqalədə biz Mərkəzi Asiya ölkələrindən Qazaxıstan və Özbəkistanda qaçqınların həm siyasi hüquqlarının qorunması, həm də qaçqın və məcburi köçkünlərin siyasi problemlərinin müqayisəli təhlilinə çalışacağıq.

## 1. Qazaxıstan təcrübəsində qaçqın və məcburi köçkünlərin beynəlxalq müdafiəsi

Qazaxıstanda qaçqın və məcburi köçkünlərin siyasi problemləri digər region ölkələri ilə nisbətdə həm siyasi parametrləri və qlobal beynəlxalq münasibətlər sistemi, həm də milli qanunvericilik çərçivəsində bir sıra fərqli və praqmatik məqamları ilə diqqəti çəkir. Xüsusilə nəzərə alsaq ki, 2022-ci il yanvarında Qazaxıstanda maye qazın bahalaşmasına qarşı bütün ölkəni bürüyən kütləvi etirazlar bir sıra regional siyasi proseslərin baş verməsi ilə yanaşı, həmçinin qaçqın və məcburi köçkünlərin də vəziyyətinə təsirsiz ötüşməmişdir.

Qaçqın və məcburi köçkünlərin siyasi problemləri ilə bağlı Qazaxıstandakı siyasət həm Əfqanıstandan gələn şəxslərə qaçqın statusunun verilməsi, habelə digər sığınacaq axtaran şəxslərin beynəlxalq müdafiəsi, xüsusən də həmin dövrlər üçün Rusiyadan qaçıb gələn çeçenləri, Çindən gələn uyğurları və Qazaxıstanın Orta Asiyadakı qonşularından olan şəxslərin deportasiyasına qarşı siyasi və leqal mexanizmlərin hazırlanmasından ibarət idi. 1989-cu ildən bəri, keçmiş Sovet İttifaqında 9 milyondan çox insan yaşayış yerini dəyişdirmək məcburiyyətində qaldı. Daha mükəmməl bir illüstrasiya üçün keçmiş Sovet İttifaqı ərazisindəki otuz sakindən birinin SSRİ-nin dağılmasından sonra köçmək məcburiyyətində qaldığını deyə bilərik. Orta Asiyada vəziyyət daha dramatik idi: hər on ikinci sakin yaşayış yerini dəyişdirmək məcburiyyətində qaldı. Qeyd etmək lazımdır ki, məcburi köç zamanı bir insanın bir mühitdən digərinə yerdəyişməsi zamanı sosial inteqrasiyası ciddi şəkildə pozulur, ağrılı bir formada ictimai əlaqələrin düzəni dağılır və yeni bir məkanda süni şəkildə bu cür əlaqələr yaranır. [5] Məsələn, N.A.Nartov rusların Qazaxıstandakı vəziyyətini iki ölkə arasında növbəti neqativ moment [3, 180] hesab edir. Bu ölkə

* dissertant, Bakı Slavyan Universiteti
e-mail: kamale_revan@mail.ru

qeyd edilən problemlərin siyasi həlli məqsədləri üçün ilk növbədə 1951-ci il Qaçqınların Statusu Konvensiyasına qoşulmazdan öncə rəsmi orqanlar və BMT QAK-ın Qazaxıstandakı ofisi arasında konstruktiv əməkdaşlıq başlanılmış, 15 dekabr 1998-ci ildə Qazaxıstan 1951-ci il Konvensiyasına və bu sənədə əlavə 1967-ci il tarixli Protokoluna qoşulmaqla, qaçqınların siyasi problemlərinin həlli istiqamətində beynəlxalq ictimaiyyət qarşısında müəyyən öhdəliklər götürmüşdür. Qaçqınların siyasi problemlərini həll etmək üçün ilk növbədə bu ölkədən çıxarılmamaq, qaçqın statusu verilməsi proseduruna əlçatanlıq, məlumatlılıq, qərardan şikayət vermə və işə baxılma müddəti üçün qeydiyyat və apelyasiya şikayəti vermə imkanlarını təmin etmə prinsiplərinə əməl edilməsi məsələləri ən mühüm siyasi iradə tələb edən elementlər hesab edilməlidir. Ümumiyyətlə, siyasi hüquqlar və azadlıqlar subyektiv mülki hüquq və azadlıqların mühüm kateqoriyasıdır. [4, 151]

2015-ci ilin yanvarın 1-dən qüvvəyə minmiş Qazaxıstan Respublikasının Qaçqınlar haqqında qanunu Qazaxıstan ərazisindəki sığınacaq axtaranların və qaçqınların hüquqi statusunu tənzimləyir, lakin bu qanunun (2.2-ci maddə) tətbiqi ilə bağlı qeyd olunur ki, bu qanunun müddəaları Qazaxıstan Respublikasında siyasi sığınacaq verilməsinə və ya iqtisadi səbəblərdən vətəndaşı olduqları və ya daimi yaşadıqları ölkəni tərk etmiş şəxslərə tətbiq edilmir. [11] Göründüyü kimi, Qazaxıstanda milli qanunvericilik siyasi qaçqın məsələsinə və ümumiyyətlə qaçqınların siyasi problemlərinə ehtiyatlı yanaşma nümayiş etdirir. Lakin burada ziddiyyətli məqam ondan ibarətdir ki, Qanunun 1-ci maddəsi "qaçqın" terminınə aydınlıq gətirən zaman "siyasi düşüncələrinə" görə təqib olunan şəxsləri də qaçqın hesab edir. Orada qeyd olunur: "Qaçqın - irqi, etnik mənsubiyyəti, dini, milliyyəti, müəyyən bir sosial qrupa mənsubiyyəti və ya siyasi düşüncə səbəbi ilə zülmə məruz qalma qorxusu altında vətəndaşı olduğu ölkədən kənarda olan və bu cür qorxu ucbatından bu ölkənin müdafiəsindən yararlanmaq istəməyən və ya əvvəlki daimi yaşayış yerindən kənarda olan və bu cür qorxu səbəbindən geri qayıtmaq iqtidarında olmayan şəxsdir".

Qazaxıstanda qaçqınlar və onların sığınacaq hüquqları ilə bağlı məsələyə yanaşma da fərqli mahiyyət kəsb edir və qeyd olunan problem ölkənin xarici siyasi münasibətləri ilə həddən artıq bağlı bir məsələ kimi çıxış edir. Ona görə də Qazaxıstanda sığınacaqla bağlı özbəklər, türkmənlər, taciklər, çinlilər, çeçenlər və türkiyəli kürdlər tərəfindən verilən iddialarının nəzərə alınmamasının səbəbi də məhz bununla əlaqədardır.

Qaçqın problemi ilə bağlı siyasi cəhətdən maraqlı məsələlərdən biri kimi bu ölkədə müxtəlif bəhanələrlə sığınacaq verilməməsi ilə bağlıdır. Bu da əlbəttə ki, regionun geopolitikasına uyğun olaraq ortaya qoyulan mövqedir. Əvvəllər öz ölkələrində ölüm hökmü ilə üzləşən Çinli uyğurları və Özbəkistan vətəndaşlarını Qazaxıstan deportasiya edirdi, eyni zamanda Çeçenistan müharibəsi zamanı qaçan qaçqınlar məsələsinə bu ölkə Rusiya ilə siyasi münasibətlər kontekstində yanaşırdı. Həmçinin qonşu Çinin qərbindəki Sincan əyalətindəki etnik uyğurlar arasında separatizmə sərt yanaşan Çinin narahatlıqlarına da həssas yanaşma nümayiş etdirilirdi.

Siyasi cəhətdən problemli məsələlərdən biri də Orta Asiya daxilində əsas qaçqın mənbəyi olan Özbəkistanla bağlıdır ki, burada özbaşına həbslə üzləşdikləri və həbs edildikləri təqdirdə işgəncə riskinə məruz qaldıqlarını iddia edən sığınacaq axtaranların Qazaxıstana davamlı axını ilə bağlıdır. Bu məsələlər kontekstində Qazaxıstan üçün ən böyük siyasi problem Özbəkistan vətəndaşlarının siyasi sığınacaq tələb etdikləri zaman onların öz vətənlərinə geri göndərilməsi ilə bağlı atdığı addımlardır. Bu, xüsusilə təhlükəsizlik qüvvələrinin etirazçı kütləyə atəş açdığı 2005-ci ilin mayında baş verən Əndican zorakılığından sonra qaçan insanlarla əlaqədardır. Rəsmi Daşkənd bu hərəkəti islami qiyamın qanuni bir şəkildə yatırılması kimi qələmə vermiş və güllələbarana şahid olan jurnalistləri və insan haqları fəallarını, habelə etiraz aksiyalarında və silahlı hücumlarda iştirak etməkdə şübhəli bilinən şəxsləri təqib etməyə başlamışdır. Bununla əlaqədar Qazaxıstan hakimiyyəti Özbəkistan vətəndaşlarını lazımi prosedurdan keçmədən ekstradisiya etmişdir.

Məsələn, 9 Özbəkistan vətəndaşının 2005-ci ilin noyabrında Qazaxıstanda itkin olduğu bildirilmiş, 2007-ci ilin noyabrında, Əndican zorakılığına qarışdığı iddiası ilə Özbəkistan səlahiyyətliləri tərəfindən axtarılan başqa bir şəxs olan Xurşid Şamsutdinov cənubdakı Çimkənt şəhərində itkin düşmüşdür. [9]

Qeyd olunmalıdır ki, son illər Qazaxıstan hakimiyyəti Özbəkistanlı qaçqınlarla münasibətləri tənzimləyən qaydalara daha çox riayət etməyə başlamış, həm bu ölkədə aidiyyatı sahəni tənzimləyən qanunların qəbulu və qüvvəyə minməsi, həm də son dövrlərdə regional siyasi proseslərdəki dəyişikliklər bu məsələdə loyal münasibətin formalaşmasına səbəb olmuşdur. Belə ki, Qazaxıstanda bu gün artıq qaçqın siyasətinin əsas istiqamətləri milli qanunvericilik səviyyəsində müəyyən olunmuşdur. Yuxarıda qeyd etdiyimiz Qaçqınlar haqqında Qanuna görə dövlət qaçqın siyasətinin əsas prinsiplərinə aşağıdakılar daxildir:

1) Sığınacaq axtaranların və qaçqınların sığınacaq almaq hüququnun təmin edilməsi;

2) Qaçqın statusu təyin edildikdə irqinə, etnik mənsubiyyətinə, milliyyətinə, dilinə, dininə, siyasi fikrinə və ya sosial mənşəyinə görə ayrı-seçkiliyə yol verilməməsi;

3) Sığınacaq axtaranların və qaçqınların şəxsi həyatı barədə məlumatların məxfiliyi;

4) Sığınacaq axtaranların və qaçqınların ailələrinin yenidən birləşməsinə kömək;

5) Qazaxıstan Respublikasının Uşaq hüquqları haqqında qanunvericiliyinə uyğun olaraq Qazaxıstandakı qaçqın uşaqların hüquqlarının qorunması;

6) Sığınacaq axtaran və qaçqınların qanunla nəzərdə tutulan əsaslar nəzərə alınaraq geri göndərilməməsi [11].

Göründüyü kimi, Qazaxıstan qaçqın və məcburi köçkünlərin beynəlxalq müdafiəsi sahəsində həm qanunvericilik, həm də institusional tədbirlərin görülməsi istiqamətində dövlət siyasətinin əsas cəhətlərini müəyyən etmişdir.

## 2. Özbəkistan təcrübəsində qaçqın və məcburi köçkünlərin beynəlxalq müdafiəsi

Özbəkistanda qaçqın və məcburi köçkünlərin beynəlxalq müdafiəsi və onların siyasi problemləri bu ölkədə özünəməxsus xüsusiyyətləri ilə xarakterizə olunur. Yuxarıda da qeyd olunduğu kimi, Mərkəzi Asiya ölkələri içərisində təkcə Özbəkistan 1951-ci il Qaçqınların Statusuna dair Konvensiyasını ratifikasiya etməmiş və qaçqınların siyasi problemləri ilə bağlı məsələ açıq qalmaqdadır.

1990-cı illərdən bəri Özbəkistandakı qaçqınlarla bağlı siyasi problemlər Ahıska türkləri ilə bağlı olmuşdur. 1994-cü ildə Azərbaycana qaçan təxminən 30.000 Ahıska türkü qaçqın siyahısına salınmış, 2001-ci ilə qədər Özbəkistandan Azərbaycana miqrasiya edən Ahıska qaçqınlarının sayı cəmi 7500, 2002-ci ildə 2500 nəfərə qədər, 2003-cü ildə isə yalnız 500 nəfər olmuşdur. Özbəkistandan gələn ikinci kütləvi qaçqın dalğası Rusiyaya olmuş, burada 1996-cı ildə Özbəkistandan təxminən 34.000 qaçqın qeydə alınmış, 2000-ci ildə Rusiyada (1520) ABŞ-a nisbətən daha az özbək qaçqın var idi (təxminən 2000). Ümumilikdə, Özbək qaçqınlarını qəbul edən ölkələrin siyahısına 2018-ci ildə 60 ölkə daxil olmuşdur. Özbəkistandakı mövcud qaçqınlara gəlincə, 2018-ci ildə bu ölkədə yalnız 13 əfqan və Azərbaycandan 1 nəfər qaçqın siyahısına salınıb. Özbəkistanda təxminən 100.000 vətəndaşlığı olmayan şəxs yaşayır və qəbul edilən yeni bir qanun onların yarısının Özbəkistan pasportu almasına imkan verəcəkdir. Diqqətəlayiqdir ki, son illərdə çox az sayda qaçqın Mərkəzi Asiyadakı ölkələrinə qayıtmışdır. Mərkəzi Asiya bütövlükdə getdikcə artan turistləri və digər xarici qonaqları qarşılasa da, qeyri-iqtisadi səbəblərdən ölkələrini tərk edən Orta Asiya vətəndaşlarının sayı narahatlıq doğurur. [7]

Özbəkistan üçün siyasi bir problemlərdən biri də Qırğızıstanın cənubundakı millətlərarası zorakılıqla bağlı olub. On minlərlə etnik özbək milliyyətindən olan qaçqının Özbəkistana axını ölkənin infrastrukturunu çətinləşdirib. Birləşmiş Millətlər Təşkilatının

Qaçqınlar üzrə Ali Komissarlığı Özbəkistanın mənbələrinə əsaslanaraq, qarşıdurmalar başlayandan bəri Qırğızıstandan 75 min etnik özbəkin Qırğızıstandan keçdiyini bildirmişdir. [8] Bununla bağlı Avropa Məhkəməsinin qərarında da "etnik azlığa mənsubluğa" [1, 50] görə siyasi qaçqın problemlərinin olduğu qeyd edilir.

London Universitetinin siyasi nəzəriyyə üzrə professoru Devid McLellan özbək qaçqınları ilə bağlı siyasi problemləri ümumiləşdirərək, bunları 10 əsas fakt üzrə qruplaşdırır:

1) Dünya Bankının məlumatlarına görə, 2015-ci ildə dünyaya 4205 özbək qaçqını yayılmışdır. Bu fakt Özbəkistanı Qazaxıstan, Qırğızıstan, Tacikistan və Türkmənistandan qabaq Orta Asiyanın ən böyük qaçqın mənbəyinə çevirir.

2) Hazırda özbək qaçqınlarının sayı azalır. 2011-ci ildən bəri dünyanın qaçqın əhalisi hər il milyonlarla artmasına baxmayaraq, Özbəkistan qaçqın əhalisi hər il eyni vaxtda azalmışdır.

3) Özbək qaçqınlar, Human Rights Watch təşkilatının Özbəkistandakı "uçurum" insan haqları vəziyyəti olaraq xarakterizə etdiyi vəziyyətdən qaçırlar. Ölkədə müstəqil tənqidə icazə verilmir, özbəklərin din, vicdan və ifadə azadlığı ilə bağlı əsas siyasi azadlıqları inkar edilir.

4) Bəzi özbək qaçqınlar cinsi oriyentasiyası səbəbindən Özbəkistanı tərk edirlər. Homoseksual əlaqəyə görə Özbəkistanda maksimum üç il həbs cəzası verilir.

5) Bir çox özbək qaçqın 2005-ci il Əndican qırğınından sonra ölkələrini tərk etmişdir. 2004-cü ilin iyun ayında Əndican şəhərindən 23 iş adamı "dini ekstremizm" ittihamı ilə həbs olunmuş, nəticədə təqribən 10.000 nəfər etiraz olaraq küçələrə axışmış, sonradan iş adamları təqsirkar hesab olunmuşlar.

6) Özbək qaçqınların bir qismi agentlər və keçmiş dövlət məmurlarıdır.

7) Səlahiyyətli şəxslər tez-tez Özbəkistanda qalan özbək qaçqınlarının ailələrini incidirlər. Əgər qaçqınlar Əndican qətliamınıizləyənlər kimi siyasi səbəblərdən yola çıxsalar, ailələri nəzarət altına alınır, dindirilir və cinayət ittihamı ilə təhdid olunur. Bu ailələrin uşaqları hətta məktəbdə ictimaiyyət qarşısında biabır olurlar.

8) Özbək qaçqınlar Özbəkistanı tərk etdikdən sonra adətən ailələri ilə əlaqə saxlaya bilmirlər. Hökumət tərəfindən edilən təhdidlər üzündən ailələr qaçqın qohumlarından telefon və ya məktub almaqdan qorxurlar. Hökumət ailələrin evlərini nəzarətə götürür və ya onları döyməklə təhdid edir.

9) Özbəkistan hökuməti bu ölkəni tərk edən qaçqınları tanımır. Özbək qaçqınlarına vətənlərini tərk etdikdən sonra "xain", "cinayətkar" və hər şeydən əvvəl "terrorçu" damğası vurulur.

10) Özbək qaçqınlar ölkədən qaçdıqdan sonra da Özbəkistan hökumətinə qarşı mübarizə aparırlar. Özbəkistan hökuməti uzun müddət ölkədəki insanları nəzarət altında saxlamışdır. Lakin Amnesty International, ehtimal ki, Özbəkistan qaçqınlarının xaricdə casusluq etdikləri, hökumət hakerləri tərəfindən izlənildiyi barədə məlumat aldıqlarınıbilidirir [6.]

Özbəkistanda siyasi sığınacaq məsələləri də elmi cəhətdən araşdırılması zəruri olan əsas problemlərdən biridir. Minsk Konvensiyasını və Kişinev Konvensiyasını imzalayan ölkələrin və Şanxay Əməkdaşlıq Təşkilatının üzvlərinin xüsusi xidmət orqanları qaçqın və sığınacaq axtaranların axtarışı və tutulması üçün effektiv komanda işi aparır, lakin həmişə qanuni metodlardan istifadə etmirlər. Bu cür əməkdaşlıq nəticəsində özbək qaçqını Rüstəm Muminov 2006-cı ildə Rusiya tərəfindən Özbəkistana təhvil verilmiş, 2005-ci ildə Alisher Usmanov və 2007-ci ildə Abdulaziz Bojmatov qaçırılmış, Usmanov qanunsuz olaraq Rusiya vətəndaşlığından məhrum edilmişdir. Hatam Hacımatovun Rusiya vətəndaşlığı 2005-ci ildə Özbəkistan tərəfindən təqdim olunan saxta sənədlər əsasında ləğv edilmişdir. [13]

Birləşmiş Millətlər Təşkilatının Qaçqınlar üzrə Ali Komissarlığının İnsan Hüquqları üzrə Ali Komissarlığı Ofisi Universal Dövri İcmal mexanizmi üzrə hesabatında (Üçüncü dövr, 30-cu iclas) Özbəkistanda narahatlıq doğuran qaçqınların beynəlxalq müdafiəsi ilə bağlı aşağıdakı problemləri vurğulayır:

1. Özbəkistanda sığınacaq axtaran şəxslərin və qaçqınların əksəriyyəti təhlükəli vəziyyətdə yaşayır. Bir çoxunun etibarlı milli pasportu və ya Özbəkistan vizası yoxdur və sərt miqrasiya qaydaları qaçqınların viza almasını son dərəcə çətinləşdirir. Əksər hallarda, yalnız ailə başçısının ümumiyyətlə bir növ hüquqi statusu var (yaşayış icazəsi və ya müvəqqəti viza), ailə üzvləri bunu edə bilmir və qanunsuz yaşayırlar. Beləliklə, onlar daimi həbs, deportasiya və geri göndərilmə riski altındadırlar.

2. Sosial və mədəni cəhətdən yaxşı inteqrasiya olunsalar da, əksər qaçqınlar etibarlı hüquqi statusa malik deyillər və nəticədə həssaslıqlarını daha da artıran səhiyyə, iş və dövlət xidmətlərindən istifadə edə bilmirlər. Qanuni statusu olmayan qaçqınların rəsmi gəlir gətirən fəaliyyətlə məşğul olmalarına icazə verilmir və özlərini təmin edə bilmirlər. Özbəkistan vətəndaşları ilə evli olan və onlarla birlikdə uşaq sahibi olan qaçqınlar üçün belə yerli inteqrasiya perspektivləri mövcud deyil. Özbəkistanın Vətəndaşlıq haqqında Qanununda qaçqınların xüsusi şərtlərini nəzərə alan heç bir müddəa yoxdur. Özbəkistan vətəndaşlığının alınması üçün əsas tələb Özbəkistanda minimum beş illik qanuni yaşayış yerinin olması, digər tələb isə vətəndaşlığa qəbul üçün müraciət etmədən əvvəl xarici vətəndaşlığın ləğvi şərtidir. Bu kriteriyaların hər ikisini ümumiyyətlə qaçqınlar üçün yerinə yetirmək qeyri-mümkündür. Davamlı həbs, saxlanma və geri qayıtmaq təhdidi ilə özünə güvənməməyin olmaması çox vaxt ailə həyatı və ailə birliyi hüququna mənfi təsir göstərir. [10]

Son illərdə özbək qaçqınlarının vəziyyətinin daha da pisləşməsi ilə bağlı fikirlər qeyd olunur. Bu xüsusilə köhnə Özbəkistan pasportları ilə hələ keçmiş SSRİ ölkələrində olan və Özbəkistan tərəfindən axtarılan, lakin kütləvi informasiya vasitələri və ya şəxsi Facebook səhifələri üzərindən vətəndaş fəaliyyətlərini davam etdirənlərin vəziyyəti ilə bağlı situasiya bu ölkədə daha fərqli mahiyyət kəsb edir. Belə ki, Avropada, ABŞ-da və ya Kanadada oturma izni alanlar da INTERPOL tərəfindən istənildikləri təqdirdə özlərini təhlükəsiz hiss etmirlər. Mənşə ölkəsində yaşayan qohumlarının iştirak etmək məcburiyyətində qaldığı təhqir və təhdidlərdən, anonim telefon zənglərindən və böhtan kampaniyalarından istifadə olunur. Siyasi mühacirlərin yüksək rütbəli məmurların iştirak etdikləri korrupsiya əməliyyatları və ya insan haqları layihələrindəki fəaliyyətlərinin araşdırılmasında iştirakını dayandırmaq üçün qohumlarına məcbur edilir və təzyiq edilir. [12]

## Nəticə

Qazaxıstanda milli qanunvericilik siyasi qaçqın məsələsinə və ümumiyyətlə qaçqınların siyasi problemlərinə ehtiyatlı yanaşma nümayiş etdirir. Qazaxıstanda qaçqınlar və onların sığınacaq hüquqları ilə bağlı məsələyə yanaşma da fərqli mahiyyət kəsb edir və qeyd olunan problem ölkənin xarici siyasi münasibətləri ilə həddən artıq bağlı bir məsələ kimi çıxış edir. Ona görə də Qazaxıstanda sığınacaqla bağlı özbəklər, türkmənlər, taciklər, çinlilər, çeçenlər və türkiyəli kürdlər tərəfindən verilən iddialarının nəzərə alınmamasının səbəbi də məhz bununla əlaqədardır. Qaçqın problemi ilə bağlı siyasi cəhətdən maraqlı məsələlərdən biri kimi bu ölkədə müxtəlif bəhanələrlə sığınacaq verilməməsi ilə bağlıdır. Bu da, əlbəttə ki, regionun geopolitikasına uyğun olaraq ortaya qoyulan mövqedir.

Özbəkistanda qaçqın və məcburi köçkünlərin beynəlxalq müdafiəsinin və bu ölkədə qaçqınlara münasibətdə siyasi problemlərin həlli üçün aşağıdakı təklifləri mümkün hesab edirik. Birincisi, qaçqın və məcburi köçkünlərin beynəlxalq müdafiəsinin daha səmərəli formada həyata keçirilməsi üçün Özbəkistanın səlahiyyətli siyasi hakimiyyət orqanları

tərəfindən 1951-ci il Konvensiyasının və Protokolunun təsdiq olunması, bu sənədlərin müddəalarına uyğun olaraq müvafiq qanunların hazırlanması və qəbul edilməsi üzrə qanunvericilik tədbirlərinin görülməsini zəruri hesab edirik. İkincisi, dövlət orqanları sistemində və cəmiyyətdə ölkəni tərk edən qaçqınlara qarşı münasibətin, yanaşmanın köklü şəkildə dəyişdirilməsi üçün mütəmadi maarifləndirmə işlərinin aparılması vacib hesab olunur.

## ƏDƏBİYYAT


1. İnsan hüquqları üzrə Avropa Məhkəməsinin qaçqınlar sığınacaq axtaranlar və vətəndaşlığı olmayan şəxslərlə bağlı Qərarlarının Toplusu, Bakı – NAT CORP.MMC.2015.136.s.
2. Международные акты о правах человека. Сборник документов. М. НОРМА-ИНФРА.1998. с. 432.
3. Нартов Н.А. Геополитика. М.ЮНИТИ-ДАНА. 2003. 439 с.
4. Права человека. М. НОРМА-ИНФРА. 1998. 573 с.
5. Правовое положение беженцев в Республике Казахстан, https://articlekz.com
6. 10 factsaboutuzbekrefugees, https://borgenproject.org/10-facts-uzbek-refugees/
7. Refugeesfrom Central Asia and in Central Asia, https://voicesoncentralasia.org
8. Refugee Crisis Poses Challengefor Uzbekistan, https://eurasianet.org
9. Refugees stillfaceun certainty in Kazakstan, https://reliefweb.int
10. Submissionby the United Nations High Commissionerfor Refugees Forthe Office of the High Commissionerfor Human Rights' Compilation Report Universal Periodic Review: 3rd Cycle, 30th Session UZBEKISTAN, https://uprdoc.ohchr.org
11. Thelaw of the Republic of Kazakhstan on refugees, https://www.refworld.org
12. Thesituation of the Uzbekrefugees: Newthreats and methods of pressure, https://fpc.org.uk
13. Uzbekistan: Political persecution promptsriseinrefugees, https://reliefweb.int


***Summary***

***Kamala Nesirova***


***Political Problems of Refugees and IDPs in Kazakhstan and Uzbekistan: a Comparative Analysis***

The article provides a comparative analysis of the political problems of refugees and internally displaced personsin Central Asian countries, including Kazakhstan and Uzbekistan. In the context of international protection of refugees and internally displaced persons and their political problems, all Central Asian countrie sexcept Uzbekistan have ratified the 1951 Convention Relatingto the Status of Refugees and developed national legislation on both political and other refugee issues. The article examines both the protection of political rights of refugees in Kazakhstan and Uzbekistan, as well as the political problems of refugees and internally displaced persons.

The article notes that the approach to the issue of refugees and their right to asylumin Kazakhstan is different, and the problem is extremely related to the country's foreign policy. That is why the claims of asylum seekersin Kazakhstan by Uzbeks, Turkmens, Tajiks, Chinese, Chechens and Turkish Kurdsare not taken in to account. One of the politically interesting issues related to there fugee problem is the lack of asylumin this country undervarious pretexts. This, of course, is a position in accordance with the geopolitics of the region.

The article also scientifically examines the issue of political asylumin Uzbekistan. It was noted that the security of refugeesin Uzbekistan has become one of thebiggest problems today. The special services of the signatories of the Minsk Convention and the Chisinau Convention and the members of the Shanghai Cooperation Organization carry out effective team work to search for and apprehen drefugees and asylum seekers, but do not always use legal methods.


***Keywords:*** *Kazakhstan, Uzbekistan, refugees and IDPs, international protection of refugees and IDPs*

***Резюме***

***Камала Несирова***

***Политические проблемы беженцев и вынужденных переселенцев в Казахстане и Узбекистане: сравнительный анализ***

В статье проводится сравнительный анализ политических проблем беженцев и вынужденных переселенцев в странах Центральной Азии, в том числе в Казахстане и Узбекистане. В контексте международной защиты беженцев и внутренне перемещенных лиц и их политических проблем все страны Центральной Азии, кроме Узбекистана, ратифицировали Конвенцию 1951 года о статусе беженцев и разработали национальное законодательство как по политическим, так и по другим вопросам беженцев. В статье рассматриваются как вопросы защиты политических прав беженцев в Казахстане и Узбекистане, так и политические проблемы беженцев и вынужденных переселенцев.

В статье отмечается, что подход к вопросу о беженцах и их праве на убежище в Казахстане разный, и проблема крайне связана с внешней политикой страны. Именно поэтому не учитываются заявления просителей убежища в Казахстане со стороны узбеков, туркмен, таджиков, китайцев, чеченцев и турецких курдов. Одним из политически интересных вопросов, связанных с проблемой беженцев, является отсутствие убежища в этой стране под разными предлогами. Это, конечно, позиция в соответствии с геополитикой региона.

В статье также рассматривается вопрос политического убежища в Узбекистане. Отмечалось, что безопасность беженцев в Узбекистане стала сегодня одной из самых больших проблем. Спецслужбы стран, подписавших Минскую и Кишиневскую конвенции, и членов Шанхайской организации сотрудничества проводят эффективную совместную работу по розыску и задержанию беженцев и лиц, ищущих убежища, но не всегда используют законные методы.

***Ключевые слова**: Казахстан, Узбекистан, беженцы и ВПЛ, международная защита беженцев и ВПЛ*

Redaksiya heyətinin üzvü t.e.d., prof. İsgəndərov Anar Camal oğlunun rəyi əsasında çapa məsləhət görülmüşdür.

**UOT 327**

# B.KLİNTONUN BİRİNCİ PREZİDENTLİYİ DÖVRÜNDƏ ABŞ-ın "HUMANİTAR MÜDAXİLƏ" SİYASƏTİ

**Nailə MƏMMƏDOVA**[*]

*Məqalə redaksiyaya daxil olmuşdur: 23 yanvar 2022; çapa qəbul edilmişdir: 28 fevral 2022; online-da çap edilmişdir: 30 mart 2022.*
*Received: 23 th of January, 2021; accepted: 28 th of February, 2022; published online: 30 th of March , 2022.*

***Açar sözlər:*** *ABŞ, BMT, B.Klinton administrasiyası, humanitar müdaxilə, demokratiya, Ruanda, Somali, Kosova*

## Giriş

İkinci Dünya müharibəsindən sonra təxminən yarım əsr ərzində ABŞ və SSRİ tərəfindən formalaşan ikiqütblü dünya nizamı mövcud olmuşdur. Soyuq müharibə anlayışı hərbi əməliyyatların ideoloji, iqtisadi, siyasi və mədəni qarşıdurmalarla əvəz olunduğu, güc tətbiqi təhlükəsinin və buna uyğun olaraq çəkindirmə siyasətlərinin artdığı, qarşılıqlı silahlanmanın sürətləndiyi iki qütb arasında konfrantasiya dövrünü təsvir etmək üçün istifadə edilmişdir. Əvvəlcə Berlin divarının, daha sonra Sovet İttifaqının və Varşava Müqaviləsi Təşkilatının dağılması ilə bu ikiqütblü mübarizə dövrü sona çatdı. Soyuq müharibənin başa çatması ABŞ-ın yeganə supergüc kimi rəqibsiz qalması ilə nəticələndi. Ancaq bu mövqenin real uğura çevrilməsi üçün azad dünyanın və demokratiyanın müdafiəsini öz üzərinə götürən ABŞ-ın hərbi güclə yanaşı, iqtisadi və humanitar elementləri özündə ehtiva edən “yumşaq güc”ə də ehtiyacı vardı.

Beləliklə, soyuq müharibənin başa çatması nəticəsində beynəlxalq münasibətlər sistemində yeni bir dövr başladı. İkiqütblü sistem başa çatdı. Yeni dövrə keçid prosesində yeni regional böhran və münaqişələr meydana çıxdı ki, onların həlli üçün artıq yeni yollar tələb olunurdu. Böyük C.Buşun başçılıq etdiyi respublikaçılar administrasiyası (1989-1993-cü illər) soyuq müharibənin bitməsindən sonra yeni dünya nizamının qurulması ilə bağlı aydın xarici siyasət strategiyasına malik deyildi. Bu isə ölkədə beynəlxalq münaqişələrin silahlı müdaxilə ilə həllinin tərəfdarları və əleyhdarları olmaqla iki siyasi düşərgənin meydana gəlməsinə səbəb oldu.

Beləliklə, soyuq müharibənin bitməsindən qısa bir müddət sonra müasir humanitar müdaxilə məsələsi ortaya çıxmağa başladı. Bəzi tədqiqatçılar "humanitar müdaxilə" anlayışını paradoksal hesab edirdilər: çünki burada dinc üsullar militarist fəaliyyət və razılaşdırılmamış müdaxilələr ilə müşayiət olunurdu [9].

Əslində insan hüquqlarının müdafiəsi naminə həyata keçirilən hərbi müdaxilələr onların baş verdiyi normativ kontekstdə başa düşülməlidir [bax:8].

## Soyuq müharibənin başa çatması və ABŞ-ın xarici siyasət konsepsiyaları

Soyuq müharibə başa çatdıqdan sonra ABŞ-ın xarici siyasətində aşağıdakı nəzəriyyə və konsepsiyalar meydana çıxmağa başlayır: 1. Yeni təcridçilik nəzəriyyəsində qeyd edilirdi ki, ABŞ daha çox öz daxili problemlərinə zaman ayırmalı, xarici problemlərdən

[*] doktorant, Bakı Slavyan Universiteti
*e-mail: mammadofa@gmail.com*

kənar durmalıdır; 2. Üstünlük nəzəriyyəsində bildirildi ki, ABŞ öz beynəlxalq üstünlüyünü ona müxalif olan dövlətlərlə mübarizə əsasında deyil, həmin dövlətlərlə ortaqlıqla həyata keçirməlidir; 3. Ortaq təhlükəsizlik nəzəriyyəsində ABŞ-ın BMT, NATO və ATƏT təşkilatları ilə əmakdaşlığı nəzərdə tutulmuşdu; 4. Seçilmiş fəaliyyət nəzəriyyəsinə görə ABŞ yalnız özünə təhlükə yaradan və təsir edə biləcək ölkə və regionlarla maraqlanmalı idi. Bu region və ölkələrin siyahısına Rusiya, Çin, Yaponiya, Balkanlar və Yaxın Şərq aid edilmişdi.

Qeyd etmək lazımdır ki, Prezident C.Buş SSRİ-nin süqutundan sonra dünyada yeni nizamın qurulması ideyasını həyata keçirməyə başladı. Həmin dövrdə dərc edilmiş "ABŞ-ın Milli Hərbi Strategiyası" sənədində bildirilirdi ki: "...SSRİ süqut etdi... ABŞ dünya liderliyinə iddia edir, mədəni, iqtisadi və siyasi təsirini dünya dövlətlərinə şamil etmək istəyir. Biz bütün mənfi addımlar qarşısında dura bilərik. 90-cı illərdə ordunun bütün üzvi hissələrindən istifadə etməyə qadirik" [2, s. 112].

Lakin 1992-ci il prezident seçkiləri C.Buşu deyil, seçkiqabağı kompaniyasında ABŞ-ın iqtisadi liderliyinin bərpa edilməsini, xaricdə demokratiyanın yayılmasını və ABŞ-ın dünya liderliyinin təmin edilməsini bəyan edən demokrat namizəd U.C.Klintonu növbəti 4 il üçün prezidentləri seçməsi ilə nəticələndi. Bu seçim ABŞ-ın dünya hegemonluğuna gedən yolda strategiyasının yox, taktikasının bir qədər dəyişməsinə rəvac vermişdir. Andiçmə mərasimində B.Klinton çıxışında bildirdi ki,"ABŞ öz ardınca bütün dünyanı aparmalı və dünyada demokratiyanı qurmalıdır. Bizim ümidlərimiz və qəlbimiz bütün qitələrdə demokratiya və azadlığın qurucuları ilə birlikdə döyünür; onların problemi bizim problemimizdir". Klinton administrasiyasının müdafiə və xarici siyasətlərinin formalaşmasında önəmli rol oynamış təcrübəli müşavirlərindənE.Leyk isə amerikanın məqsədini daha konkret ifadə edirdi: B.Klintonun "ABŞ-ın əsas missiyası sülh əməliyyatlarını təşkil etmək deyil, əsas məqsəd mənfəətli ərazilərin nəzarətə alınmasıdır" [1, s. 14-15].

Məhz bu yanaşma və qənaətlər əsasında B.Klintonun 1993-2000-ci illər çərçivəsində dünya siyasətinin, konkret olaraq Balkanlarda, Afrikada, Yaxın və Orta Şərqdə regional siyasətinin prioritetləri, konsepsiya və nəzəriyyələri formalaşdı. Klinton administrasiyasının xarici siyasət konsepsiyası "Prezident Direktivi"ndə, "Fəaliyyət və Genişlənmə naminə Milli Təhlükəsizlik Strategiyası"nda və "Yeni Yüzillikdə Milli Təhlükəsizlik Strategiyası" ifadə olunmuşdur.

1994-cü ildə qəbul edilmiş "Prezident direktivi"ndə bildirilirdi ki, ABŞ hər hansı bir regiona müdaxiləni iki halda, öz mənafeyinə zidd olarsa, təkbaşına qaydada, müttəfiqlərinin mənafelərinə zidd olduğu təqdirdə isə birlikdə koalision şəkildə həyata keçirə bilər. 1995-ci ilin fevralında qəbul edilmiş "Fəaliyyət və Genişlənmə naminə Milli Təhlükəsizlik Strategiyası"nda ABŞ, əsasən, özünün milli maraqlarına cavab verən bütün regionlar ilə bağlı prioritetlərini açıqlamış, ABŞ-ın regionlardakı əsas hədəfinin "regiona sülh bəxş etmək"dən ibarət olduğu vurğulanmışdır [11].

1997-ci ilin mayında açıqlanmış "Yeni Yüzillikdə Milli Təhlükəsizlik Strategiyası" sənədində isə ABŞ maraqlarına təhlükə yaradan təhdidlər əsas etibarilə 3 qrupa bölünmüşdür:

a) "Regional və dövlət mərkəzli təhlükələr – Bir sıra dövlətlər nüvə, kimyəvi və bioloji silah əldə etməyə cəhd edir və ya ABŞ-ın maraq dairələrinə daxil olan regionlarda sabitliyi pozmaq istəyirlər;

b) Transmilli təhlükələr – Terrorizm, qeyri-qanuni narkotik və silah alveri, beynəlxalq cinayət, nəzarətdən kənar qaçqın miqrasiyaları və ekoloji problemlər sərhədi aşan təhlükələrdir;

c) Kütləvi qırğın silahı təhlükəsi – Bu təhlükə qlobal təhlükəsizliyə birbaşa hədədir və ABŞ çalışmalıdır ki, onun düşməni olan dövlətlərdə bu cür silahların yayılmasına imkan verməsin. Bu cür silahlar terrorçuların əlinə keçə və silahsız əhaliyə qarşı yönəldilə

bilər" [10].

Araşdırılan bu sənədlər bir daha təsdiq edir ki, Klinton administrasiyası maraqlarına uyğun olan bölgələrdə güc tətbiqi texnologiyasını dəyişməmiş, sadəcə humanitar aspektdə düzəlişlər etmişdi. Regionlarda həyata keçirilən iqtisadi islahatların və demokratikləşdirmənin ABŞ tərəfindən ələ alınması cəhdini xüsusilə vurğulamaq lazımdır.

**Klinton administrasiyasının "humanitar siyasəti"nin forma, metod və istiqamətləri**

Demokratlar hakimiyyətə gəldikdən sonra B.Klinton administrasiyası "humanitar müdaxilə" və onun müxtəlif konsepsiyalarını ("yeni-vilsonizm", demokratiyanın yeni reallıqlara uyğun yayılması və s.) həyata keçirməyə başladı. Liberal demokratiyanın kommunizm üzərində qələbəsi Qərb liderlərini son dərəcə optimist etmişdi - bundan sonra onlar beynəlxalq problemləri tamamilə yeni bir şəkildə həll edə biləcəklərinə inanırdılar. Qloballaşma fonunda dünya arenasında situasiya isə pisləşirdi: keçmiş kommunist ölkələrində milliyyətçi və etnik münaqişələr güclənir, aclıq və yoxsulluq isə Afrikanın böyük hissəsini əhatə edirdi. Kommunikasiya texnologiyalarının inkişafı dünyanın istənilən guşəsində insanların çətinlikləri və probleminin vizual nümayişinə imkan verirdi. Qərb siyasi elitaları yeni reallıqlara cavab verməyə çalışırdılar.

1992-ci ilin dekabrında Somaliyə Amerika dəniz donanmasının humanitar müdaxiləsi zamanı regionda davamlı sabitliyi təmin edəcək qayda və normalar mövcud idi. Vətəndaşların həyatını xilas etməkdə uğur qazanmasına baxmayaraq, ABŞ-ın müdaxiləsi öz əsas məqsədini həll etmədi: Somali cəmiyyətinin siyasi və strateji reallıqlarının öhdəsindən gələ bilmədi və münaqişənin əsas mənbəyini aradan qaldırmadı. ABŞ Silahlı Qüvvələri milis dəstələrindən biri ilə müharibəyə cəlb edildi və nəticədə 1993-cü ilin oktyabrında on səkkiz amerikan əsgəri öldürülmüş, meyitlərdən biri isə Moqadişonun küçələri ilə sürüklənmişdi [13].

Strateji planı olmayan və daxili təzyiqlər ilə üzləşən prezident BillKlinton Amerika qoşunlarını geri çağırdı. Bununla yanaşı, "Qara Quzğun" ilə bağlı insidentdən iki gün sonra BMT TŞ Ruandada yeni sülhməramlı missiyaya icazə verdi.

Beynəlmiləl sülhməramlı qüvvələr Somalidə kiçik kontingentlə və resurslarının məhdud olması ilə fərqlənirdilər. "Hut" ekstremistləri 1994-cü ilin aprelində münaqişə gücləndikdə on nəfər Belçika sülhməramlısını öldürdülər və beləliklə, beynəlxalq sülhməramlı qüvvələri geri çəkilməyə məcbur etdilər. Sülhməramlıların əksəriyyəti geri çəkildi və yarım milyondan çox vətəndaş bir ay ərzində öldürüldü.

Hətta dünya on minlərlə qurbandan xəbər tutduqdan sonra, 1993-cü ilin mayında ABŞ-ın Dövlət katibi UorrenKristofer etnik qrupların qədim nifrətini "Cəhənnəmdən gələn həlledilməz problem"kimi təsvir etmişdir [12]. ABŞ və Avropa dövlətləri əsgərlərinin həyatını riskə atmaq istəmir və geniş miqyaslı müdaxiləyə qarşı çıxdılar və BMT-nin sülhməramlı qüvvələrini dəstəklədilər [7, s. 117].

ABŞ-da bir sıra görkəmli tənqidçilər belə qənaətə gəliblər ki, humanitar müdaxilə -düşünülmüş avantüradan başqa bir şey deyil. Politoloq Samuel Hantinqton bildirirdi ki, "Amerikan silahlı qüvvələrinin somalililərin bir-birini öldürməsinin qarşısını almaq üçün həlak olmasına mənəvi və siyasi cəhətdən haqq qazandırmaq olmaz" [3]. Henry Kissincer isə Amerikanın "Balkan ehtiraslarının dibsiz çəlləyin"ə bağlılığını ABŞ üçün təhdid görürdü [4].

1991-ci ildə Buş administrasiyasının irəli sürülən və demək olar ki, bütün Bosniya etnik qrupları ilə razılaşdırılan "Azad konfederasiya" planı uğursuz oldu. 1993-cü ildə Klintonun yeni administrasiyası keçmiş dövlət katibi Sayrus Vens və Böyük Britaniyanın keçmiş xarici işlər naziri Devid Ouenin hazırladığı "parçalamaq" planını rədd etdi. 1994-da, BMT-nin silah tədarükü üzərinə embarqo qoymasından çəkinən Klinton administra-

siyası, İrandan Bosniyaya gizli silah tədarükünü təşviq etdi.

Humanitar müdaxilə strategiyasını yeniləmək və mülki əhalini qorumaq üçün yeni qaydalar yaratmaq məsələsində 1995-ci il dönüş nöqtəsi oldu. Belə ki, bosniyalı serblərin silahlı qüvvələri BMT-nin nəzarəti altında olan təhlükəsiz rayonda 7000-dən artıq məhbusu məhv etdi. B.Klinton administrasiyası müharibəyə son qoymaq üçün diplomatik fəaliyyəti gücləndirdi və Bosniya serblərinin silahlı qüvvələrinin qarşısını almaq üçün humanitar müdaxilə planını işə saldı. ABŞ prezidentinin milli təhlükəsizlik üzrə müşaviri Entoni Leykin israrlı diplomatiyası Avropa dövlətlərini və BMT-nin sülhməramlı qüvvələrini Bosniya serblərinin ordusuna qarşı havadan hücum kampaniyasına qoşulmağa razı saldı. Bu səylər Serbiyanı danışıqlar masasına əyləşməyə məcbur etdi və nəticədə, ABŞ dövlət katibinin köməkçisi Riçard Holbrukun bilavasitə iştirakı ilə Deyton razılaşması bağlandı. Beləliklə, NATO 60.000 nəfərdən ibarət silahlı qüvvəsini qarşı-qarşıya duran tərəflər arasındakı "bölgü zonası"na göndərdi və hərbi əməliyyatların bərpasını maneə törətdi [5, s. 28].

Əvvəlki müdaxilələrdən fərqli olaraq, Deyton sülh nizamlanmasından sonra situasiya sabitləşib, etnik zəmində kütləvi münaqişələr isə dayandırılıb. Yuqoslaviya Beynəlxalq cinayət tribunalı quruldu; məhkəmə 161 hərbi cinayətkara, o cümlədən Serbiyanın əsas hərbi liderlərinə qarşı ittiham irəli sürdü. Geniş tənqidlərə baxmayaraq, məhkəmə prosesi təsirli nəticələrə gətirdi: ittiham olunan hər bir cinayətkar müharibədən sonrakı Bosniyada siyasi nüfuzunu tez bir zamanda itirdi və 161 şübhəlinin heç biri bu günə qədər azadlığa buraxılmamışdır.

ABŞ-ın rəhbərliyi altında NATO əldə edilmiş nailiyyətlərə əsaslanaraq, Kosovoya qarşı Serbiyanın törətdiyi soyqırımın qarşısını almaq və rəsmi Belqradı cəzalandırmaq məqsədilə BMT-nin sanksiyası olmadan 1999-cu ildə humanitar müdaxilə həyata keçirdi. Serbiya prezidenti Slobodan Miloşeviçə bəşəriyyətə qarşı cinayətdə günahlandıran ittiham irəli sürüldü. Üç ay ərzində hərbi və diplomatik təzyiq Serbiyanı, qoşunlarını Kosovodan çıxarmağa məcbur etdi. S.Miloşeviç 18 aydan sonra Haaqa Məhkəməsinə təhvil verildi [6, s. 17].

Balkandan kənarda da beynəlxalq birlik münaqişələrə yanaşmasını eyni uğurla uyğunlaşdırmaqda davam edir. 1999-cu ildə Şərqi Timorun İndoneziyadan ayrılması ilə bağlı keçirilən referendum yeni münaqişə ilə nəticələndi: bu dəfə indoneziyalılar tərəfindən timorlulara qarşı zorakılıq baş verdi. BMT zorakılığa son qoymaq üçün yaradılmış on bir min nəfərlik hərbi dəstəni rəsmiləşdirdi. Humanitar müdaxilə, Şərq Timorun İndoneziya ilə sülh şəraitində müstəqilliyinə gətirib çıxardı. Daha sonra Sierra Leone, Liberiya və Kot-d İvuardakı missiyalar da regional hərbi qüvvənin BMT ilə əlaqələndirilməsi modelini ortaya qoydu.

**Nəticə**

Yuxarıda qeyd edilənlər əsasında aşağıdakı nəticəyə gəlmək olar:

Beləliklə, XX əsrin sonları-XXI əsrlərin əvvəllərində ABŞ-ın beynəlxalq böhranlara, münaqişələrə və müharibələrə müdaxiləsi mərhələlərlə baş verdi və müxtəlif doktrina və konsepsiyalar əsaslanmışdır ki, bunların arasında humanitar müdaxilə mühüm yer tutmuşdur. Humanitar müdaxilə prezident Bill Klinton administrasiyasının xüsusilə birinci prezidentliyi dövründə xarici siyasətin mühüm istiqamətlərindən birini təşkil etmiş və "neo-vilsonizm" konsepsiyasına əsaslanmışdır. "Neo-vilsonizm" özündə xalq hakimiyyətinin, sosial və siyasi azadlıqların intişar tapmasını və başqa dövlətlərin daxili işlərinə qarışmasını özündə ehtiva edir. ABŞ-ın Ruanda, Somali və Bosniya münaqişələri ilə əlaqədar diplomatik fəaliyyətinin və humanitar müdaxilə aktları səmərəli olmuşdur.

## ƏDƏBİYYAT


1. Kaynak M. Büyük Ortadoğu Projesi. İstanbul: İlk Yayınları, 2004. 123 s.
2. Журбей, Е.В. Внешняя политика и внешнеполитический процесс администрации Дж. Буша-старшего // Находк: Ойкумена. Регионоведческие исследования. 2011, №1, с. 107-119.
3. Holzgrefe J.L., Keohane Robert O. “Humanitarian Intervention: Ethical, Legal and Political Dilemmas.” Duke University, North Carolina. 2003, 30 p.
4. Kissinger H. Does America Need a Foreign Policy?: Toward a Diplomacy for the 21st Century. New York: Simon and Schuster, 2001, 267 p.
В своих сочинениях ат-Тахтави отстаивал необходимость образования женщин, ссылаясь на примеры женского обучения в Коране и хадисах, чтобы доказать ошибочность взглядов традиционалистов, противившихся вовлечению девочек в систему образования. Он также говорил, что с научной точки зрения женщины способны к получению образования ровно в такой же степени, как и мужчины, и в этом смысле между ними нет никаких различий. По словам ат-Тахтави, для общества получение женщинами образования принесет человечеству гораздо больше положительного, чем отрицательного, и в этой связи говорил о вреде лености, которой часто подвергаются необразованные, а также о том, что обучение женщин улучшит семейную жизнь и приведет к гармоничному браку. Впрочем, ат-Тахтави отмечал, что, по его мнению, не все женщины способны к обучению управления государством, однако при этом приводил примеры выдающихся женщин – правителей в странах Запада и Востока [3, с. 127-128]. Он подчеркивал, что женское образование позволит женщинам проявить свои таланты, что будет в конечном счете

способствовать улучшению жизни всего Египта в социальном, материальном и духовном аспектах, и в результате страна далеко продвинется по пути свободы, прогресса и духовного роста [11, с. 547]. В своей книге ат-Тахтави также упоминал, что для модернизации египетского образования необходимо грамотно использовать опыт Запада, уважая при этом исламские традиции, а в самом образовании основной акцент должен быть поставлен на патриотизме, при этом обучение мальчиков и девочек должно быть совместным и одинаковым по качеству. В результате усилий ат-Тахтави была открыта первая египетская школа для девочек, а сам он возглавил комиссию по составлению плана занятий в ней [10, с. 88].

Сторонники женского образования в арабском мире конца XIX века (например, сирийские христианские интеллектуалы), в основном опирались на аргументы ат-Тахтави, привнося некоторые свои идеи [3, с. 128]. В целом, взгляды ат-Тахтави на права женщин были такими же прогрессивными, как и взгляды других известных арабских просветителей: Касима Амина (1865-1908 гг.), Вали ад-дина Якуна (1873-1921 гг.) и других [10, с. 91].

На сегодняшний день есть достаточно много потомков рода ат-Тахтави, среди которых в контексте данной статьи необходимо отметить Айшу Рифаа. Это правнучка ат-Тахтави, а также дочь известного египетского духовного наставника, внука ат-Тахтави, вероучителя Рифаа Мухаммада Рифаа. Она является руководителем фонда и библиотеки имени Р. Р. ат-Тахтави, соруководителем Египетского Общества духовных и культурных исследований, членом «Совета Шуры», а также лидером египетской женской организации, борющейся за реализацию женского равноправия. Являясь инициатором независимой международной программы по защите детей, она борется за становление и развитие подростков как личностей посредством любви и привязанности их к своей семье, к родному дому и языку, которая включает как исламскую, так и межконфессиональную литературу. Автор четырех книг, госпожа Аиша вместе с братом Али и сестрой Алиёй является также соавтором различных книг: «Размышления об откровениях», «Ислам от Адама до Мухаммеда» и др. Она принимает активное участие во многих международных научных конференциях, проводимых в США и в Европе.

**Заключение**

В заключении следует подчеркнуть важную роль Р.Р. ат-Тахтави в распространении идей о женском равноправии не только в Египте, но и во всем арабском мире. Эти идеи были высказаны им в период социально-экономической модернизации Египта, когда серьезно менялись вековые устои египетского общества. Однако из-за многих внутренних и внешних факторов, затормозивших модернизацию, некоторые важные идеи ат-Тахтави об улучшении прав женщин (всеобщее школьное обучение, широкое вовлечение женщин в общественную жизнь) были реализованы в Египте только во второй половине XX в., спустя около столетия после смерти просветителя. Сегодня впервые в истории современного Египта четверть членов правительства – женщины, и 8 женщин-министров, после назначения двух новых министров, Халы Зайед по вопросам здравоохранения и Ясмин Фуад по окружающей среде, в дополнение к 6 женщинам-министрам, которые по-прежнему занимают свои прежние посты [15].

Борьбу за реализацию идей ат-Тахтави, касающихся равноправия женщин, продолжают его потомки.

## ЛИТЕРАТУРА

1. Кирпиченко, В. Н. Извлечение чистого золота из краткого описания Парижа, или Драгоценный диван сведений о Париже. М.: Наука. 2009. 269 с.
2. Çiftçi, Cemil. Rifa'a Rafi Tahtavi. Paris Gözlemleri (Tahlisü'l-İbriz fi Telhisi Paris ve el-Divanü'n-Nefis bi Eyvanı Paris). İstanbul: Ses Yayınları. 1992. 319 s.
3. Russell, Mona. L. Creating the New Egyptian Woman. Consumerism, Education, and National Identity, 1863-1922. New York: Palgrave Macmillan. 2004. p. 250.
4. رفاعة رافع الطهطا كتاب المرشد الامين للبنات والبنين. بمطبعة المدارس الملكية. القاهرة: ١٢٩٢ ه. – ٥٦٧ ص. وي.
5. رفاعة بدوي رافع الطهطاوي. تخليص الابريز الي تلخيص باريز أو الديوان النفيس بايوان باريس. مصر: ١٩٠٤. – ٢٦٣ ص.
6. رؤوف، عباس حامد. التنوير بين مصر و اليابان. القاهرة:٢٠٠١. - ١١٦ ص.
7. لطيفة، محمد سالم.المرأة والتغير اجتماعى فى مصر. طبعة مكتبة الأسرة - سلسلة العلوم الإجتماعية . القاهرة: ١٩٨٦. - ٢٥٠ ص.
8. محمد، عمارة. الأعمال الكاملة لرفاعة رافع الطهطاوي, الطبعة الأولى - دار الشروق – القاهرة: الجزء الأول.٢٠١٠. –٧٤٦ ص.
9. محمد، عمارة. الأعمال الكاملة لرفاعة رافع الطهطاوي, الطبعة الأولى - دار الشروق – القاهرة: الجزء الثاني. ٢٠١٠. - ٨٧٨ ص.
10. Kuteila, M. Egyptian Enlightener Rifa'a at-Tahtawi // IBSU Scientific Journal, Vol. 5, № 1. 2011. pp. 83-92.
11. Livingston, J.W. Western Science and Educational Reform in the Thought of Shaykh Rifaa al-Tahtawi // International Journal of Middle East Studies, Vol. 28, № 4. 1996. pp. 543-564.
12. Турк, С.Н. Арабское Возрождение» и женский вопрос в Египте в конце XIX - начале XX в. // Архив научных статей. Исторические, философские, политические и юридические науки, культурология и искусствоведение. Вопросы теории и практики. Изд. «Грамота», № 1-3 (74). 2016. 189 с.
13. https://www.masrawy.com/news/news_various/details/2014/1/4/154749/نعرض-وثيقة-زواج-رفاعة-الطهطاوي-التي-رفض-فيها-التعدد كتبت - علياء أبوشهبة:
«Брачный документ Рифаа ат-Тахтави, в котором он отверг многоженство». Автор: Алия Абу Шахба.
14. Саудовская девушка инициировала дискуссию об условиях брака в виде выплаты полумиллиона риалов и отказе жениха от женитьбы на других женщинах // Saudia News [Электронный ресурс]. 28.05.2019 г. Режим доступа: (дата обращения: 20.09.2021 г.) https://sabq.org/vFGB3p
15. https://www.alarabiya.net/arab-and-world/egypt/2018/06/14/لأول-مر-ة-في-مصر-8-وزيرات-بحكومة-واحدة

### *Xülasə*

***Pərvinə Əfəndi***

### *Misirli qadınların bərabərhüquqluluq mübarizəsində Rifaa Rafi ət-Təhtavinin rolu*

Əsrlər boyu Misirdə qadınların həyat şərtləri olduqca aşağı səviyyədə olmuşdur. Bu isə ölkənin sivil cəhətdən geri qalmasından xəbər verir. Bu geridə qalmanın nəticəsində qadınlar öz evlərindən kənara çıxa bilmir və cəmiyyətdən tamamilə təcrid olunurdular. Onların erkən ailə həyatı qurması təbii hesab olunurdu və məcburi hal almışdı. Ailədə onlar öz fikirlərini ifadə etmək hüququndan məhrum idilər. Sərt sosial məhdudiyyətlərlə üzləşən qadınlar ataya, anaya və ya qardaşa tabe idilər. Hətta övladların tərbiyəsində belə qadınların rolu məhdud idi. Evdə qayda-qanunu və qadağaları ata təyin edirdi. Çoxarvadlılıq cəmiyyətdə adi bir hala çevrilmişdi, baxmayaraq ki, şəriət çoxnigahlılıq üçün konkret şərtlər müəyyənləşdirmişdi. Həmin dini, sosial və mənəvi dəyərlər isə, sözsüz, tabeçiliyi və qadının qayğısına qalmağı tələb edirdi.

Misir XIX əsrin birinci yarısında iqtisadi modernləşmənin və ictimai fikir dövrünə qədəm qoymuşdu. Buna baxmayaraq qadınların yaşamı hələ də çoxsaylı məhdudlarla şərtləndirilmişdir. Gənc qadınlar digər ailə üzvlərindən – ata, ana, bəzi hallarda isə qardaşlarından – asılı qalmağa davam etmişdir. Bununla

əlaqədar olaraq, ölkədə qadın emansipasiyası aktual mövzuya çevrildi. Qadının bərabərhüquqlu olmasının xeyrinə, o cümlədən təhsil alması barədə ilk olaraq misirli mütəfəkkir Rifaa Rafi ət-Təhtavi çıxış etdi. O hesab edirdi ki, qadınların məhdud ənənəsi və təhsildən məhrum edilməsi, təkcə qadınların özünə deyil, həm də bütün cəmiyyətə fayda vermək əvəzinə zərər gətirir. Bundan əlavə, o, ailə münasibətlərində qadın və kişinin bərabər hüquqa malik olmasının və qarşılıqlı hörmətin tərəfdarı idi. Bu isə ondan irəli gəlirdi ki, əsrlərlə davam edən ənənəyə görə uşaqların yetişdirilməsində belə ananın sözünün dəyəri az olur, atanın sözü isə əsas qayda və qəti əməl edilməsini tələb edən bir tapşırıq kimi qəbul olunurdu. Ət-Təhtavinin Avropa nümunəsində ümumtəhsil ilə bağlı ideyaları digər ərəb mütəfəkkirlərinə də böyük təsir etmişdi.

***Açar sözlər:*** *Rifaa ət-Təhtavi, Misir, qadın emansipasiyası, təhsil, ailə münasibətləri*

***Summary***

***Parvina Afandi***

***The Role of Rifaa Rafi at-Takhtawi in the Fight for the Equality of Egyptian Women***

Throughout the centuries women's conditions of life in Egypt were very low and this indicated the civilized backwardness of the country. As a result of it women were completely isolated in their houses and were deprived of the opportunity to interact with the society. Their early marriages were considered natural and compulsory, they didn't have a right to say their own opinion. Being completely under tight social restrictions, they had to obey their father, mother or brother. Mother's power was limited even while upbringing the child, but father was a man of order and prohibition. Polygyny was a usual fact, though Islamic "sheriat" established for this definite condition, where religious, social and moral values demand to obey blindly and take care of women.

In the first half of the nineteenth century Egypt entered the period of modernization of the economy and public life and that is why the topic of women's emancipation became very actual. It was Egyptian thinker Rifa'a al-Tahtawi who the first spoke about women's equality and education.

He believed that the traditions of female seclusion and deprivation of women's rights to get education were harmful not only for women themselves, but also for the society as a whole. Besides, he supported equality and mutual respect of men and women in their family relationships.

Rifa'a al-Tahtawi's ideas about European model of education had a big influence on other Arab enlightens.

***Keywords:*** *Rifa'a al-Tahtawi, Egypt, women's emancipation, education, family relations*

Məsul katib fil.ü.f.d.,dos. Şıxıyeva Səadət Məmməd qızının rəyi əsasında çapa məsləhət görülmüşdür.

**UOT 327**

# MÜASİR DÖVRDƏ AVROPA BİRLİYİNDƏ ALMANİYANIN YERİ VƏ ROLU

**Cəlal XƏLİLOV** *

*Məqalə redaksiyaya daxil olmuşdur: 15 yanvar 2022; çapa qəbul edilmişdir: 26 fevral 2022; online-da çap edilmişdir: 30 mart 2022.*
*Received: 15 th of January, 2021; accepted: 26 th of February, 2022; published online: 30 th of March, 2022.*

***Açar sözlər:*** *Almaniya, Avropa İttifaqı, müasir dövr, Avropa*

## Giriş

Avropa İttifaqı (Aİ) vətəndaşlarının həyatını yaxşılaşdırmaq və daha yaxşı sülh şəraiti yaratmaq üçün çalışan demokratik Avropa ölkələrindən ibarət bir qurumdur.

Üzv ölkələr arasındakı fikir ayrılıqları və təsadüfi dekadalar xəbərlərdə, əslində, kameralardan uzaqda əksolunsa da, Aİ uğurun gözəl tarixçəsidir. Bütün yarım əsr ərzində Aİ Avropada sülh və tərəqqini təmin etmiş, vahid Avropa valyutası (avro) yaratmış, kapitalın, xidmətlərin və malların sərbəst hərəkət etdiyi məhdudiyyətsiz "vahidbazar" formalaşdırmışdır.

Eyni zamanda, Aİ həmiri kommersiya fövqəl dövlətinə, həmdə ətraf mühitin qorunması və inkişafa yardım kimi sahələrdə dünya liderinə çevrilmişdir. Belə ki, bu ittifaqa daxil olan hər bir ölkənin özünə məxsus yeri – rolu var. Bu məqalədə biz Almaniyanın Avropa İttifaqındakı rolunu araşdıracağıq.

## Avropa Birliyində Almaniyanın yeri və rolu

Bütün Avropada sülhün bərqərar olması və Avropa ölkələri arasında iqtisadi əməkdaşlığın qurulması məqsədi ilə gələcəkdə siyasi birliyin əsaslarının qoyulması qarşıya məqsəd qoyulmuşdur. Bu istiqamətdə Almaniya, Belçika, Fransa, Hollandiya, İtaliya və Lüksemburq 1951-ci ildə Avropa Kömür və Polad Birliyinin yaradılması haqqında Paris Sazişini, 1957-ci ildə isə Avropa İqtisadi Birliyinin və Avropa Atom Enerjisi Birliyinin yaradılmasına dair Roma müqavilələrini imzalamışdılar.

Bu günə qədər olan dövr ərzində Avropa dövlətləri iqtisadi, siyasi, sosial və mədəni sahələrdə əməkdaşlığı gücləndirmişlər. Yaradılış illərində cəmi 6 üzvdən ibarət olan Avropa Birlikləri, 27 üzvdən ibarət Birliyə çevrilmişdir. Bu gündən etibarən Avropa İttifaqının (Aİ) üzvləri Almaniya, Avstriya, Belçika, Bolqarıstan, Çexiya, Danimarka, Estoniya, Finlandiya, Fransa, Yunan Kipr Administrasiyası, Xorvatiya, Hollandiya, İrlandiya, İspaniya, İsveç, İtaliya, Latviyadır (1, s. 121-122).

Avropa İttifaqı Avropanın əsrlər boyu qazandığı təcrübə və qoyduğu ümumi prinsiplər əsasında formalaşmışdır. Avropa dövlətlərinin ümumi təcrübələri nəticəsində formalaşan prinsip və ideallar olan davamlı sülhün, sosial rifahın, həmrəyliyin, azadlıq, demokratiya, insan hüquqları, qanunun aliliyi, bazar iqtisadiyyatı və sahibkarlıq azadlığının təmin edilməsi bunun əsaslarını təşkil edir (7).

Avropa Birliyində məqsəd üzv dövlətlərin və onların vətəndaşlarının milli, mədəni,

* magistr, Bakı Avrasiya Universiteti
*e-mail: jalal_khalil@mail.ru*

dil və dini müxtəlifliyini əritmək deyil, bu müxtəlifliyin gətirdiyi dinamizmi gücə çevirməkdir.

Aİ-nin dəyərləri Aİ Müqaviləsinin 2-ci maddəsində təsbit edilmişdir. Bu maddəyə əsasən, "Birlik insan ləyaqəti, azadlıq, demokratiya, bərabərlik, qanunun aliliyi və insan hüquqlarına, o cümlədən azlıqlara mənsub şəxslərin hüquqlarına hörmət prinsipləri əsasında qurulur. Bu dəyərlər plüralizm, qeyri - ayrı-seçkilik, tolerantlıq, ədalət, həmrəylik və qadın hüquqlarıdır. Bu dəyərləri mənimsəyən və inkişaf idealına xidmət edə bilən istənilən Avropa dövləti Aİ-nin üzvü ola bilər (2, s. 34).

Avropa İttifaqı Avropa dövlətləri və vətəndaşları tərəfindən formalaşmış, Avropa xalqlarının iqtisadi, siyasi, sosial və mədəni sahələrdə inteqrasiyasını nəzərdə tutan millətlərüstü strukturdur.

Beləliklə, dünyada bənzəri olmayan və bütün üzv dövlətləri və onların vətəndaşlarını eyni vaxtda, eyni şəkildə və eyni dərəcədə bağlayan hüquq sistemi yaradılmışdır.

Bundan əlavə, Avropa İttifaqının sərhədləri daxilində insanların, malların, xidmətlərin və kapitalın rahat hərəkətini təmin etmək üçün daxili bazar yaradılmışdır.

Aİ, bir tərəfdən, Avropa ölkələrində yaşayan insanları azadlıq, təhlükəsizlik və ədalət sahəsi ilə təmin etmək, fəaliyyət göstərən və rəqabətə davamlı sosial bazar iqtisadiyyatı şəraitində rifahı artırmaq məqsədinə nail olmağa çalışır, digər tərəfdən, dünya hegemonu olmaq məqsədini yerinə yetirmək üçün siyasətlər hazırlayır (2, s. 13).

Əsas məqsədi birliyə üzv dövlətlərin iqtisadi inkişafını təmin etmək olan Avropa İttifaqı üzv dövlətlər arasında ticarət vasitəsilə üzv dövlətlərin iqtisadiyyatlarının inkişafını və böyüməsini təmin etmək, ölkələr arasında iqtisadi əməkdaşlığı gücləndirmək üçün böyük səylər göstərmişdir. Bu gün üzləşdiyi çətinliklərə baxmayaraq, Aİ bu səyin bəhrəsini böyük ölçüdə biçmişdir.

Həqiqətən də, Avropa İttifaqı 500 milyonu keçən vətəndaşları və 19 trilyon dollara yaxınlaşan ümumi milli məhsulu ilə dünyanın ən böyük iqtisadiyyatına sahibdir.

Qlobal iqtisadi böhrandan mənfi təsirlənsə də, dünyanın bir çox regionu ilə müqayisədə iqtisadi rifah və bu rifahın bölüşdürülməsi baxımından hələ də uğurunu davam etdirir. Eyni zamanda bu gündən etibarən Avropa Birliyinə üzv olan 19 ölkə tərəfindən rəsmi olaraq istifadə edilən avro dünyada dollarla birlikdə ən çox istifadə edilən valyutadır.

Avropa İttifaqı iqtisadi inkişaf və həmrəylik məqsədi daşımaqla yanaşı, siyasi və sosial birlik və həmrəylik layihəsidir. Avropa İttifaqı üzv dövlətlərin hər sahədə bir-biri ilə həmrəy olmalarını, insan hüquqlarını qorumaq və üzv dövlətlərin sosial, siyasi və mədəni birliyini və daha da inkişafını təmin etməyə çalışır. Avropa Birliyinin əsas məqsəd və siyasətləri arasında;

a) Güclü və effektiv xarici siyasət aktoru olmaq,

b) Aİ daxilində və xaricində azadlıq, demokratiya, insan hüquqları və qanunun aliliyi dəyərlərini təmin etmək və yaymaq,

c) Ayrı-seçkiliyin bütün formalarına qarşı mübarizə aparmaq; xüsusilə bütün sahələrdə qadınlar və kişilər arasında bərabərlik üçün səy göstərmək,

d) Ətraf mühiti ən yüksək səviyyədə qoruyarkən iqtisadi inkişafın davam etdirilməsi,

e) Enerji təhlükəsizliyinin təmin edilməsi,

f) Qeyri-qanuni immiqrasiya, beynəlxalq terrorizm, insan, silah və narkotik ticarəti kimi cinayətlərlə effektiv mübarizə aparmaq və əsl azadlıq, təhlükəsizlik və ədalət sahəsi olmaq,

g) Aİ üzv dövlətlərində məşğulluğun və sosial müdafiənin artırılmasına töhfə vermək,

h) Aİ üzv dövlətləri arasında iqtisadi, sosial və ərazi birliyini təşviq etmək,

i) Avropa vətəndaşlarının ən yüksək həyat və keyfiyyət standartlarına malik olmasını təmin etmək kimi məsələlər.

j) Bu məqsədlərə çatmağın ən təsirli yolunun birlikdə hərəkət etmək olacağı fikri üzv dövlətləri bir araya gətirir və onları bir arada saxlamaqda davam edir (3, s. 67).

Avropa İttifaqının təsisatları Avropa Komissiyası, Avropa Parlamenti, Avropa İttifaqı Şurası, Dövlət və Hökumət Başçılarının Sammiti, Avropa Ədalət Məhkəməsi, Avropa Auditorlar Məhkəməsi, Regionlar Komitəsi və Avropa Mərkəzi Bankıdır.

Avropa İttifaqı çərçivəsində təhsil, gənclər, idman və mədəniyyət sahələri əsasən üzv dövlətlərin üzərinə düşür, lakin Avropa İttifaqı təhsilin keyfiyyətinin yüksəldilməsi, təhsilin müdafiəsi üçün üzv dövlətlər arasında əməkdaşlıq və fəaliyyətlərin dəstəklənməsini nəzərdə tutur.

İldə iki müntəzəm görüş; tematik konfranslar, turizm həftələri, turizm forumu və s. İclaslar vasitəsilə bir araya gələn Komitənin iş subyektləri arasında turizm siyasəti, Avropa turizminin məqsədləri, turist bələdçiliyi xidmətləri, turizm destinasiyaları, turizmdə davamlılıq, peşə keyfiyyətinin yüksəldilməsi, viza müraciətləri və s. Onun siyasətinin prioritetləri arasında məşğulluq və regional inkişaf, davamlı inkişaf, keyfiyyətli təbii və mədəni irs və Avropa kimliyinin yaradılması daxildir.

İndi isə gəlin Aİ – da mühüm yer tutan Almaniya üzv ölkəsi haqqında məlumatlara nəzər salaq…

Almaniya 1 yanvar 1958-ci ildən Aİ-na üzv ölkədir, onun coğrafi ölçüsü 357 376 km2 - dir. Almanlar Aİ-nın ümumi əhalisinin 16%-ni təşkil edir. Onun paytaxtı Berlin, rəsmi dili isə alman dilidir. Almaniyanın valyutası 1 yanvar 1999-cu ildə avrozonaya üzv olduqdan sonra avro hesab olunmuşdur. Siyasi sistem federal parlament respublikasıdır.

1950-ci illərin əvvəllərində başlanan və bu gün Aİ-ni təmsil edən tarixi layihə 446 milyonadək 27 üzv dövlətdə vətəndaşa malikdir. Almaniyanın Avropa siyasəti Avropanın birləşməsinin bütün mərhələlərində hərəkətverici qüvvəyə çevrilmiş və Şərqlə Qərb arasında münaqişə başa çatdıqdan sonra Avropa İttifaqı prosesinin formalaşmasına fəal kömək etmişdir.

Belə ki, Almaniya nümayəndəsi Ursulavonder Leyen Aİ Komissiyasının sədri kimi 2019-cu ilin dekabr ayından etibarən fəaliyyət göstərir. Almaniyanın Avropa birliyində rolunu aşağıdakı kimi ümumləşdirə bilərik (1, s. 21):

Avropa inteqrasiyası 1957-ci ilin Roma müqaviləsində ifadə edilmiş dörd əsas azadlıqla xarakterizə olunan dünyanın ən böyük ümumi bazarını yaratmışdır: Aİ-na üzv dövlətlər arasında malların sərbəst hərəkəti, insanların hərəkət azadlığı, Aİ daxilində xidmət azadlığı və sərbəst kapital axını.

Ümumi Avropa bazarının ölçüsü və iqtisadi həcmi Aİ-nı dünya iqtisadiyyatında böyük bir oyunçu halına gətirir. Lakin son illərdə regionun iqtisadi istehsalının həcmi azalmışdır: 2018-ci ildə Aİ-də artım hələ də iki faiz idisə, 2019-cu ildə bu göstərici cəmi 1,4 faiz təşkil etmişdir.

2020-ci ildə ekspertlər hesab edirlər ki, Avropa da digər bölgələr kimi, Covid-19 xəstəliyinin yayılması nəticəsində ciddi iqtisadi nəticələrdən zərər görmüş və bu səbəblə, 2020-ci ilin martında pandemiya elan etmişdir (2, s. 23).

Aİ-nın ən güclü iqtisadiyyatı olan Almaniya xüsusi məsuliyyət daşıyır. Bu, özünü maliyyə böhranı və suveren borc böhranı zamanı göstərmişdir. Avropa Yenidənqurma və İnkişaf Bankının üzvü olan dövlətlər Avropa stabilləşdirici mexanizmini (ESM) xilasetmə fondu kimi yaratmışdırlar. Federal hökumət Fransa və digər üzv dövlətlərlə sıx tərəfdaşlıqda Avrozonanın daha da möhkəmləndirilməsinə və islah edilməsinə çalışır.

2020-ci ilin yanvar ayının sonunda Böyük Britaniya Aİ-nı tərk edən ilk üzv dövlət olmuşdur. Buna baxmayaraq, Almaniya Böyük Britaniya ilə sıx münasibətlər saxlamaq istərdi və özünü Aİ ilə çıxan ölkənin gələcək münasibətlərinin formalaşdırılmasında xü-

susi məsuliyyət kimi görürdü.

Ümumiyyətlə, Almaniya digər dövlətlərin Aİ-na inteqrasiyasını dəstəkləyir. Digər məsələlərlə yanaşı, Almaniyanın təşəbbüsü ilə "Berlin prosesi" addım-addım Serbiyanı və digər Qərbi Balkan ölkələrini Aİ-na daxil olmaq yolunda dəstəkləyir. Ölkələrin özləri arasında barışıq bu prosesin mühüm məqsədidir.

Sığınacaq və Miqrasiya siyasəti Aİ-da mübahisəli bir mövzu olaraq qalır. Xüsusilə, 2015 və 2016-cı illərdə müdafiə axtaran insanların sayının kəskin artması qaçqın və miqrantlarla bağlı fikir ayrılıqlarına səbəb olmuşdur. Almaniya onları xüsusilə həvəslə qəbul edən və bu məsələnin birgə həlli üçün kampaniyanı davam etdirən ölkələrdən biri olmuşdur.

İqlim dəyişikliyinə qarşı mübarizə Aİ-nın daha bir vacib vəzifəsidir. 2019-cu ilin sonunda Aİ Komissiyası Avropa yaşıl sazişini işə salmışdır. Məqsəd 2050-ci ilə qədər ilk iqlim neytral qitə olmaqdır.

Almaniya 2020-ci ilin ikinci yarısında Aİ Şurasına sədrliyi dövründə Sazişin həyata keçirilməsini təşviq etmək niyyətindədir. Aİ-nin 2021-2027-ci illər üçün büdcəsi də Almaniyanın Aİ Şurasına sədrliyi zamanı qəbul ediləcəkdir (1, s. 112 - 113).

Almaniya Ai-da üzv dövlət sayılır və adətən Fransa ilə tandemdə fəaliyyət göstərir. AngelaMerkel keçmiş böhran vəziyyətlərində Aİ-nın birliyini qorumaq üçün akkreditə olunmuşdur.

Alman rəhbərliyinin qətiyyət və məqsədyönlülük göstərdiyi hallar (məsələn, Avrozonanın böhranı və ya COVİD-19 böhranı zamanı prezidentlik dövründə) olmuşdur. Amma başqa hallar da var ki, Almaniya "arxadan rəhbərlik edir", diplomatik qərarları (miqrasiya böhranı zamanı olduğu kimi) təşkil etməyə və razılaşdırmağa çalışır və bu qərarlar heç də həmişə səmərəli olmur.

Aİ-nın İnkişaf Siyasəti gündəliyinin tərtib edilməsi üzrə yaxşı mütəxəssis innovativ və razılaşdırılmış strategiyalar hazırlayır və dəyişən vəziyyətlərə tez uyğunlaşa bilir. O həmçinin tərəfdaşlarını ümumi yanaşma çərçivəsində uğurla birləşdirmək üçün Aİ-nın digər üzv dövlətləri və institutları ilə koalisiyalar yaratmalıdır.

Üzv dövlətlər, bir qayda olaraq, Aİ-nın inkişaf siyasətini formalaşdırırlar, öz siyasətlərini və məqsədlərini Avropa səviyyəsinə "yükləyirlər", beləliklə, yüklənməmiş, geniş və qeyri-strateji gündəliyə gətirib çıxaran müxtəlif strategiyaların məcmusunu yaradırlar.

Bütün üzv dövlətlər, xüsusilə də ən nüfuzlu dövlətlər, bir qayda olaraq, Aİ-nın öz milli siyasətini Aİ-nın təsirindən qorumaqla nə etməli və ya etməməli olduğunu müəyyənləşdirməkdə çox maraqlıdırlar. Buna baxmayaraq, hətta Almaniya kimi böyük üzv dövlət üçün də transformasiya təsirlərinə yalnız milli siyasətin köməyi ilə nail olmaq çətindir (3).

Digər tərəfdən, lap əvvəldən Aİ təsisatlarının və ayrı-ayrı üzv dövlətlərin istər çox tərəfli səviyyədə, istərsə də konkret məqsədlərlə strategiyalar üçün iştirak etdikləri təşəbbüslər nəinki böyük çəkiyə səbəb olur, həm də Aİ səviyyəsində liderliyi və nüfuzunu möhkəmləndirir.

Belə ki, alman rəhbərliyi öz milli səylərini Avropa səviyyəsində səylərlə sinxronlaşdırmağa çalışmaq əvəzinə, ümumi problemlərin həlli və ya kollektiv məqsədlərə nail olmaq üçün necə ideyalar təklif etməklə və bu fəaliyyət kurslarına əməl etmək üçün başqalarının enerjisini səfərbər etməklə öz fəaliyyətini təsir etməyə və istiqamətləndirməyə çalışmalıdır.

Almaniya ABŞ-dan sonra dünyada inkişaf sahəsində ikinci ən böyük donor və Avropa İttifaqına (Aİ) ən böyük yardım edən dövlətdir. Amma yenə də onun maliyyə çəkisi Aİ-da inkişaf sahəsindəki mövqeyi ilə ölçülməzdir.

İkinci dəfə isə Almaniya 2020-ci ildə ümumi milli gəlirin 0,7 faizi həcmində yardım

məqsədli göstəricisiyə nail olmuş, pandemiyaya qarşı, o cümlədən Avropa İttifaqı, CO-VAX və Ümumdünya Səhiyyə Təşkilatı vasitəsilə qlobal mübarizə tədbirlərinə əhəmiyyətli töhfə vermişdir.

Yeni hökumətin ölkə rəhbərliyinə gəlməsi və onun maliyyə gücünü artırması ilə Almaniya İndi Aİ-da yalnız vasitəçi deyil, yenilikçi ideyaları təşviq edən inkişaf gündəminin əsas katalizatoru kimi tam şəkildə aparıcı rol rola malikdir.

Almaniya yeni hökumət vəzifəsinə qədəm qoyduqda, o, yalnız inkişaf siyasəti ilə bağlı deyil, həm də hökumət çərçivəsində davamlı inkişaf sahəsində qlobal dəyişikliklərin necə təşviq edilməsi ilə bağlı gündəliyini müəyyənləşdirməlidir (4).

Bununla yanaşı, Avropa perspektivi Aİ-nın ayrı-ayrı üzv dövlətlərdən, Aİ-nın ümumi prinsiplərindən və prioritetlərindən, qarşılıqlı faydalardan daha yaxşı öhdəsindən gələ biləcəyi problemləri nəzərə alaraq, lap əvvəldən inteqrasiya olunmalıdır. Lakin inandırıcı Strateji Baxış başqaları üçün birinci dərəcəli əhəmiyyət kəsb edir. Liderlik həmçinin qlobal dayanıqlı inkişafa mane olan daxili problemlərin həlli üçün razılaşdırılmış səylər tələb edir.

Almaniyanın yeni hökumətinin gəldiyi zaman Aİ-na vəsaitlərin paylanması və proqramlaşdırılması barədə qərarlar artıq qəbul edilmişdir.

Aİ-nın "Yaşıl Saziş"in xarici ölçüsü bu məsələlərin əsasını təşkil edir. Həm daxili, həm də xarici siyasəti birləşdirən, Avropa siyasətinin və üzv dövlətlərin daxili siyasətinin mənfi nəticələrini aradan qaldıran kompleks yanaşmanın müəyyənləşdirilməsində cüzi irəliləyiş əldə edilmişdir.

Bundan başqa, "Avropa komandası"nın yanaşması, şübhəsiz ki, Aİ-nın inkişafının daha aydınlığına nail olmağa imkan versə də, sosial və ekoloji inkişaf məqsədlərini birləşdirən ümumi strategiyanın müəyyənləşdirilməsində də cüzi irəliləyiş əldə edilmişdir. Sosial hədəflərin Aİ-nın yaşıl sazişinin kor ləkəsinə çevriləcəyi, bununla da tərəfdaş ölkələrin iştirakının nəzərdə tutulduğu real risk mövcuddur (5).

Almaniyanın yeni hökuməti tərəfdaş ölkələrdə dayanıqlı və transformasiya edən COVID-dən sonra bərpa prosesinə öz yanaşmasını müəyyənləşdirməklə yanaşı, öz vasitəçilik bacarıqlarını gündəmin müəyyənləşdirilməsində mütərəqqi rolla birləşdirərək, bu gündəliyi fəal şəkildə Aİ səviyyəsində formalaşdırmaq imkanından istifadə etməlidir.

**Nəticə**

Almaniya ABŞ-dan sonra dünyada inkişaf sahəsində ikinci ən böyük donor və Avropa İttifaqına (Aİ) ən böyük yardım edən dövlətdir. Amma yenə də onun maliyyə çəkisi Aİ-da inkişaf sahəsindəki mövqeyi ilə ölçülməzdir. İkinci dəfə isə Almaniya 2020-ci ildə ümumi milli gəlirin 0,7 faizi həcmində yardım məqsədli göstəricisiyə nail olmuş, pandemiyaya qarşı, o cümlədən Avropa İttifaqı, COVAX və Ümumdünya Səhiyyə Təşkilatı vasitəsilə qlobal mübarizə tədbirlərinə əhəmiyyətli töhfə vermişdir. Yeni hökumətin ölkə rəhbərliyinə gəlməsi və onun maliyyə gücünü artırması ilə Almaniya İndi Aİ-da yalnız vasitəçi deyil, yenilikçi ideyaları təşviq edən inkişaf gündəminin əsas katalizatoru kimi tam şəkildə aparıcı rol rola malikdir.

**ƏDƏBİYYAT**


1. Elżbieta C.S. European Union and EuropeanGermany. December 2015 Oeconomia Copernicana 6(4):7. DOI:10.12775/OeC.2015.026, WarsawSchool of Economics, 400 p.
2. Gündüz H.K. AvrupaBirliğiveAlmanya, İstanbul, Koçak, 2018, 439 s.
3. Yılmaz A.A. AvrupaBirliğindeAlmanyanınrolü. İstanbul, Güneş yay, 2018, 439 s.
4. https://www.cgdev.org/blog/germanys-role-eu-development-policy-broker-agenda-setter – therole of Germanyin EU 2021.

5. https://www.researchgate.net/publication/304487651_EUROPEAN_UNION_AND_EUROPEAN_GERMANY – EU 2021.
6. https://www.researchgate.net/publication/283649453_Germany's_role_in_the_euro_crisis_Berlin's_quest_for_a_more_perfect_monetary_union – Germany`srolein EU 2021.
7. http://aei.pitt.edu/79456/1/Otero-Iglesias.pdf – Germany`srolein EU 2021.

***Summary***

***Jalal Khalilov***

***Place and role of Germany in the European Union in modern times***

The European Union is a family of democratic European countries working to improve the lives of its citizens and create better conditions for peace.

Although disagreements and random decades between member states are reflected in the news, far from the cameras, the EU has a good history of success. For half a century, the EU has ensured peace and progress in Europe, created a single European currency (euro), and created a "unified market" in which capital, services and goods move freely.

No country in Europe has more neighbors than Germany. Germany shares borders with nine countries, eight of which are members of the European Union. For Germany, European integration lays the foundation for peace, security and prosperity.

Despite the withdrawal of the United Kingdom from the EU in late January 2020, the development and strengthening of this integration remains a major foreign policy priority for Germany, especially in the face of complex and in many cases crisis situations. With the new government coming to power and increasing its financial strength, Germany now has a leading role in the EU as a key catalyst for a development agenda that promotes not only mediation but also innovative ideas.

While defining its approach to the post-COVID recovery process in partner countries, the new German government should take the opportunity to actively shape this agenda at the EU level, combining its mediation skills with a progressive role in setting the agenda.

Germany supports the integration of other countries into the EU. Among other things, the German-initiated Berlin Process supports step-by-step Serbia and other Western Balkans on their path to EU membership. Reconciliation between the countries themselves is an important goal of this process.

All this emphasizes the role of Germany in the European Union. From this point of view, we can say that this topic is very relevant for our time.

***Keywords:*** *European, European Union, Germany, New age*

***Резюме***

***Джалал Халилов***

***Место и роль Германии в Европейском союзе в современный период***

Европейский Союз - это семья демократических европейских стран, работающих над улучшением жизни своих граждан и созданием лучших условий для мира.

Хотя разногласия и случайные десятилетия между государствами-членами отражаются в новостях, вдали от камер, ЕС имеет хорошую историю успеха. На протяжении полувека ЕС обеспечивал мир и прогресс в Европе, создал единую европейскую валюту (евро) и создал «единый рынок», на котором капитал, услуги и товары перемещаются свободно.

Ни у одной страны Европы нет соседей больше, чем у Германии. Германия граничит с девятью странами, восемь из которых являются членами Европейского Союза. Для Германии европейская интеграция закладывает основу мира, безопасности и процветания.

Несмотря на выход Великобритании из ЕС в конце января 2020 года, развитие и укрепление этой интеграции остается одним из основных приоритетов внешней политики Германии, особенно перед лицом сложных и во многих случаях кризисных ситуаций. С приходом к власти нового правительства и увеличением его финансовой мощи Германия теперь играет ведущую роль в ЕС как ключевой катализатор программы развития, которая продвигает не только посредничество, но и новаторские идеи.

Определяя свой подход к процессу восстановления после COVID в странах-партнерах, новое правительство Германии должно воспользоваться возможностью, чтобы активно формировать эту

повестку дня на уровне ЕС, сочетая свои посреднические навыки с прогрессивной ролью в определении повестки дня.

Германия поддерживает интеграцию других стран в ЕС. Среди прочего, инициированный Германией Берлинский процесс поддерживает постепенную поддержку Сербии и других Западных Балкан на их пути к членству в ЕС. Примирение между самими странами - важная цель этого процесса.

Все это подчеркивает роль Германии в Европейском Союзе. С этой точки зрения можно сказать, что эта тема очень актуальна для нашего времени.

***Ключевые слова:*** *Германия, Европейский Союз, современная эпоха, Европа*

Redaksiya heyətinin üzvü t.e.d., prof. Qasımlı Musa Cəfər oğlunun rəyi əsasında çapa məsləhət görülmüşdür.

**UOT 32**

# PKK/PYD TERROR TƏŞKİLATLARININ SURİYA BÖHRANINA TƏSİRİ ASPEKTLƏRİ

**Tamerlan ƏHMƏDLİ***

*Məqalə redaksiyaya daxil olmuşdur: 18 dekabr 2022; çapa qəbul edilmişdir: 29 yanvar 2022; online-da çap edilmişdir: 30 mart 2022.*
*Received: 18 th of December, 2021; accepted: 29 th of January, 2022; published online: 30 th of March, 2022.*

***Açar sözlər**: Suriya, PYD*/YPG *, İŞİD, ABŞ, Rusiya*

## Giriş

Kürdlər arasında bu fikir ayrılıqları birlikdə Suriya kürdləri siyasi olaraq üç fərqli bloka bölünməsinin şahidi oluruq.

1) Kürd Milli Şurası (ENKS)
2) Kürd Milli Birliyi
3) Demokratik Cəmiyyət Hərəkatı (TEV-DEM)

Siyasi cəhətdən uzlaşmayan bu partiyalar bir-biri ilə rəqabət aparmışdır. Ancaq PKK terror təşkilatının qanadı olan PYD daha yaxşı bir təşkilatlanaraq Suriya kürdləri üzərində hökmranlığını möhkəmləndirmişdir.

PYD-ni digər kürd qruplarından daha güclü edən komponentlərdən biri də YPG (Xalq Qoruma Dəstələri) adlı silahlı birləşməyə malik olmasıdır. PYD/YPG terror təşkilatı Suriyanın Afrin, Kobani və Haseke bölgələrində aktivliyi ilə seçilir. PYD özünəxas siyasət yürüdərək Əsəd rejimi ilə münaqişəyə girməkdə yayınır. Həmçinin (Azad Suriya Ordusuna) dəstək vermir və aktiv olduğu yerdə öz hökmranlığını inkişaf etdirmək və möhkəmləndirməyə çalışır. PYD əsgərləri ələ keçirdikləri bölgələrdə infrastruktur formalaşdırmağa və terror təşkilatı PKK-nın müdafiə etdiyi "demokratik muxtariyyət" prinsipindən çıxış edərək Afrin, Kobani və Cəzirə şəhərlərində regional qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanları yaratmışdır.

2014-cü ildən etibarən İŞİD-in Mosulu ələ keçirib İslam Dövləti xilafətini elan etməsindən sonra radikal terrorizmlə mübarizə üçün beynəlxalq koalisiya qüvvələri yaradıldı. İŞİD-ın Kobaniyə (Ayn əl-Ərəb) hücumu ilə PYD İŞİD təhdidinə qarşı mübarizədə mühüm yerli gücə çevrildi. Geniş ərazilərə yayıldığı üçün təsirini getdikcə artıran İŞİD, YPG ilə şiddətli sərhəd toqquşmaları yaşadı. PYD silahlı birləşmələrinin zəif nöqtələrindən biri olan Kobani bölgəsini hədəf alan İŞİD, Cəzirə bölgəsindəki neft ehtiyatlarını ələ keçirib, Rakka ilə Azez arasındakı əlaqəni Kobani vasitəsilə birləşdirməyi hədəfləmişdir. Eyni zamanda İraq və Suriya kürdləri arasındakı dəhlizi bağlamağı planlaşdıran İŞİD 2014-cü ilin may ayında Kobaniyə kiçik miqyaslı hücumlar həyata keçirib və sentyabr ayında Kobani ətrafındakı bütün kəndləri zəbt etmişdir. Sentyabrın 17-də Fərat çayı üzərindəki strateji körpünü ələ keçirən İŞİD, Suriya və İraqdan əldə etdiyi ağır silahlarla bölgədəki hökmranlığını genişləndirdi və YPG öz mövqelərindən geri çəkilməyə məcbuq qaldı. İŞİD-İn Kobaniyə hücumunun qarşısını almaq üçün yeni cəbhələr açmalı olan YPG qüvvələri KDP (Kürdüstan Demokratik Partiyası), HPG (Müdafiə Qüvvələri) və YBŞ

* doktorant, Bakı Avrasiya Universiteti
*e-mail: tamerlanahmadli@yahoo.com*

(Şenqal Müqavimət Birlikləri) ilə birlikdə hərəkət edərək, xüsusilə Sincar və Şengal bölgələrində hücumlar həyata keçirib. İŞİD-İn hücumlarının qarşısını almaqda çətinlik çəkən YPG ABŞ-dan havadan dəstək almaq üçün siyasi təzyiqlərini artırdı. Peşmərgə birləşmələrinin Türkiyə dəhlizi ilə YPG-yə hərbi dəstək verməsindən, o cümlədən ABŞ-ın silah yardımından sonra, 26 yanvar 2015-ci il Kobanini İŞİD-dən geri alan YPG bununla da digər kürd partiyalar qarşısında öz mövqeyini gücləndirdi. YPG, Kobani münaqişəsindən sonra ABŞ-ın regionda mühüm müttəfiqinə çevrildi. Belə ki, YPG İŞİD-ə qarşı apardığı mübarizəni tək kürdlərin azadlığı üçün deyil türkmənlər və ərəblərin də mənafeyi uğurunda apardığı imicini formalaşdırmağa çalışmış və ABŞ rəsmilərinə bu düşüncəni təlqin etməyə müvəffəq olmuşdur.

YPG 2015-ci ildə "Şəhid Rübar Qamışlo həmləsi" adı altında yeni hərbi əməliyyata başlayaraq Tel-Abyada hücum etmişdir. Hücumlara davam gətirməyən İŞİD Tel Abyaddan geri çəkilməyə məcbur qalsa da, Haseke və Kobanidə bombalı hücumlar təşkil etmişdir. Tel-Abyadı ələ keçirən YPG bu ərazini Kobani ilə birləşdirərək, Kürd muxtariyyətinin yaradılmasına nail olmaq istəyirdi. Suriyanın şimal hissəsində təsirini artırmaq istəyən PYD/YPG Kobani ilə Afrin arasında yerləşən əraziləri də tutaraq, Türkiyə sərhədi boyunca "Kürd qurşağı" adlı yeni işğal zonası yaratmaq üçün bu ərazilərdə hərbi əməliyyatları intensivləşdirmişdir.

Həmçinin 13 oktyabr 2015-ci ildə qurulan və YPG-nin də tərkibində olduğu Suriya Demokratik Qüvvələri (SDQ) ABŞ-ın rəhbərlik etdiyi Beynəlxalq Koalisiya Qüvvələrinin dəstəyi ilə hərəkətə keçərək, məqsədlərinin Rakkanı İŞİD-dən geri almaq olduğunu bəyan etmişdir. Beləliklə, ABŞ, Rusiya və Koalisiya Qüvvələrinin hərbi dəstəyi ilə şimal ərazilərindən Rakkanın mərkəzinə doğru irəliləyən SDQ/YPG birlikləri Şərqi Hələb ilə Rakkanı birləşdirən Tişrin bəndini ələ keçirərək strateji əhəmiyyətli bölgəni nəzarətə götürdü. Beləliklə, YPG Fəratın qərb tərəfinə keçərək Afrin və onun şərqində yer alan Kobani və Cəzirə ərazilərini birləşdirmək üçün iyunun 1-də ABŞ-ın dəstəyi ilə Menbicdə əməliyyat keçirib. Mənbicin ələ keçirilməsindən sonra SDQ/YPG birləşmələrinin əsas hədəfi strateji baxımdan əhəmiyyətli ərazi olan əl-Bab olmuşdur.

6 noyabr 2016-cı il tarixində İŞİD-lƏ mübarizədə əsas yerli güc olaraq özünü təsdiq etməyi bacaran SDG/YPG qüvvələri "Fəratın Qəzəbi" adı ilə Rakka Əməliyyatına başladıqlarını açıqladı. Şimaldan Rakkanın mərkəzinə hücumlar təşkil edən SDG/YPG, ABŞ və Koalisiya qüvvələrinin şimaldan Tabqa şəhər mərkəzinə hücumundan sonra Tabka bəndini və aviabazasını ələ keçirib. Rakka Əməliyyatı davam edərkən SDQ/YPG qüvvələri ABŞ, Rusiya və Koalisiya Qüvvələrinin dəstəyi ilə ələ keçirilən bölgələrdə hərbi bazalar qurmuşdur Xüsusən İŞİD təhlükəsini bəhanə edərək, hakim olduqları torpaqlar üzərində güclərini möhkəmləndirməyə çalışırdılar.

İŞİD-in Suriyadakı hücumları, timsalında PYD/YPG-nin İŞİD-ə qarşı mövqeyi, ABŞ və Rusiya ilə əməkdaşlıq məsələsini nəzərdən keçirərkən YPG/PKK-nın Suriya vətəndaş müharibəsində apardığı siyasətin böhranın idarə oluna bilməməsində öz rolunu oynadığının şahidi oluruq.

### 1. Suriya kürdlərinin Suriya böhranına təsiri

Yuxarıda qeyd edildiyi kimi, dəfə 2010-cu ildə Tunisdə görünən, daha sonra Misir, Liviya və Suriyaya yayılan Ərəb Baharı ilə başlayan xalq üsyanları nəticəsində Yaxın Şərqdəki mövcud nizam qeyri-sabitliyə çevrilmişdir. Uzun illər zülmə məruz qalan etnik, dini və məzhəb qrupları Ərəb baharı ilə Yaxın Şərq bölgəsinin mühüm aktorları kimi çıxış etməyə başlamışdır. Bu aktorlardan biri də Suriyada Vətəndaş Müharibəsindən sonra aktivləşən Suriya kürdləridir.

Mübahisəli olsa da, Suriyadakı kürd əhalisi iki milyona yaxındır. Bu, ölkə əhalisinin 8%-10%-i nisbətinə uyğundur. Suriya kürdləri ölkədə demoqrafik olaraq pərakəndə şə-

kildə Şimali Suriya xətti boyunca uzanan Cəzirə, Kobani və Afrin şəhərlərində yaşayırlar. Bundan əlavə, Cəzirə böyük coğrafi əraziyə malik olmaqla bərabər əhalinin sıxlığının ən yüksək olduğu ərazilərindəndir. Kənd təsərrüfatı istehsalı, təbii sərvətlər və su ehtiyatları baxımından kürdlərin yaşadığı yerlər Suriyada ən məhsuldar əraziləri təşkil edir (10, 193-196). Həmçinin Suriyanın şimal-şərqində, yəni Cəzirə bölgəsində neft yataqları var.

Suriya kürdləri Suriyada ən böyük etnik azlıqdır. Keçmişdə siyasi və mədəni azadlıq tələblərinə görə Əsəd rejimi tərəfindən separatizmlə əlaqələndirildiyi üçün kürdlər siyasi təzyiqlərə məruz qalmışdır (1, 9). Belə ki, kürdlərin varlığı Suriyanın birliyinə və bütövlüyünə təhlükə kimi qiymətləndirilmişdir. Nəticədə, onların öz kimliklərini ifadə etmələrinə və təşkilatlanmasına icazə verilməyərək, kürdləri ərəb mədəniyyətinin daxilində assimilyasiya etməyə çalışılmışdır. Bu çərçivədə 1962-ci ildə Hasəkədə aparılan siyahıyaalma zamanı 100 minə yaxın kürd 1945-ci ildən sonra Türkiyədən gəldikləri səbəbi ilə vətəndaşlıq verilməmiş və bu insanlar vətəndaşlıqsız vəziyyətində yaşamağa məcbur qalmışdır (1, 212-213). 2004-cü ildə kürdlərin sıx yaşadığı Qamışlıda başlayan nümayişlər üsyana çevrildi. Hadisələrin Suriya Təhlükəsizlik Qüvvələri tərəfindən qəddarlıqla yatırılması nəticəsində çoxlu suriyalı kürd həyatını itirdi (1, 3).

Digər tərəfdən Əsəd rejimi 1979-cu ildə Türkiyədən qaçan PKK terror təşkilatının lideri Abdullah Öcalanı öz ölkəsinə dəvət edərək, PKK-nın Suriyada fəaliyyət göstərməsinə icazə verib. Bu vəziyyət soyuq müharibənin sonuna qədər davam etdi. Sovet İttifaqının dağılması ilə Suriya təcrid vəziyyətinə düşərək Türkiyə ilə münasibətlərini yaxşılaşdırmalı oldu. Beləliklə, 1998-ci ildə iki ölkə arasında imzalanan Adana protokolu ilə Abdullah Öcalanın Suriyadan qovulmasına qərar verildi (1, 10). Lakin Abdullah Öcalan Suriyanı tərk etməzdən bir neçə gün əvvəl öz tərəfdaşlarına “Suriyada təşkilatlanmaq” göstərişi verib. Suriya Kəşfiyyat Təşkilatının sayıqlığı və müdaxiləsi nəticəsində onun bu göstərişini Suriyadakı dəstəkçiləri yerinə yetirə bilmədi. Lakin 2003-cü ildəki növbəti cəhddə partiya yaradıldı və PYD quruldu. PYD təşkilatı Əsəd rejimi tərəfindən birmənalı qarşılanmadı və bu partiyanın üzvlərinə qarşı qeyri-qanuni həbslərə qərar verdi (21).

Yuxarıda qeyd edildiyi kimi, Şimali Suriya bölgəsindəki kürd siyasəti son vaxtlara qədər üç əsas blok arasında bölünmüşdür: Kürd Milli Şurası (ENKS), PYD-nin əsas siyasi qanadı TEV-DEM və nəhayət, 2016-cı ilin fevralında Suriyanın beş kürd partiyası tərəfindən koalisiya şəklində qurulan Kürd Milli Birliyi.

TEV-DEM Suriyada PKK-nın yenidən qurulması üçün yaradılmış təşkilatdır. Suriyada PKK-ya bağlı siyasi partiyalar, qeyri-hökumət təşkilatları və dərnəklər TEV-DEM-in tərkibində birləşmişdir. PYD TEV-DEM-in siyasi qanadını təşkil edir. Bundan başqa, TEV-DEM-in silahlı qanadı olan YPG-nin güclənməsi ilə bölgədəki digər siyasi partiyaların bir qismi də TEV-DEM-ə qoşulmalı oldu. Ona görə də bu vəziyyət ENKS hərəkatının zəifləməsi ilə nəticələndi (8, 2-3).

ENKS 2011-ci ilin oktyabrında 11 müxalif kürd qruplaşması tərəfindən qurulmuş siyasi təşkilatdır. ENKS-ə üzv partiyaların Derik və Haseke ərazilərində sosial bazası var. Bu sosial baza İraq Kürd Regional Rəhbərliyinin (KRG) prezidenti Məsud Bərzani ilə siyasi olaraq həmfikirdir. Yəni ENKS-in əsas məqsədi. Bütövlükdə Suriya müxalifətinin yanında olmaq və Əsəd rejiminə son qoyaraq bununla da Suriya İnqilabının bir parçasına çevrilməkdən ibarətdir (1, 16-17).

Digər tərəfdən, bu iki siyasi təsisata alternativ olaraq 2016-cı ilin fevralında Suriya kürd partiyalarının birləşməsi ilə yaradılan Kürd Milli Birlik Koalisiyası adlı siyasi təşkilat da mövcuddur. Özünün müstəqilliyini elan edən bu təşkilatın əsas siyasi yanaşması: “PYD adına qərarlar Qəndildən gəlir; ENKS-in qərarları da Ərbildən alınır” prinsipi üzərində qurulub.. Müxtəlif ölkələrlə olan əməkdaşlıq və münasibətləri normal hesab edən bu siyasi təsisat digər tərəfdən, Suriya kürdlərinin gələcəyini Suriya kürdlərinin müəyyən etməli olduğu iddia edir. Bundan əlavə, Suriyadakı kürd probleminin mərkəzində rəsmi

Dəməşqin dayandığını düşünür (8, 4-5).

## 2. PYD-nin Suriya böhranında siyasi fəaliyyəti

PYD Suriyada 2011-ci ilin martında başlayan vətəndaş müharibəsindən sonra yeni siyasi xətt müəyyənləşdirdi. Belə ki, PYD qarşıdurmaların ərəblər arasında baş verdiyini bildirərək və bunun dini-məzhəb mübarizəsi kimi qiymətləndirərək, özlərinin bu münaqişəyə birbaşa qarışmaması lazım olduğunu müdafiə edirdi. Lakin bu münasibət "passiv neytrallıq" kimi qəbul edilə bilməz. Belə ki, onlar Suriyada vətəndaş müharibəsinin getdikcə dərinləşəcəyini və nəticədə mərkəzi hakimiyyətin zəifləyəcəyini nəzərə alaraq, kürd əhalisinin sıx məskunlaşdığı bölgələrdə öz inzibati, siyasi, iqtisadi və təhlükəsizlik sistemlərini yaratmaq üçün addımlar atmışdır. Yuxarıda qeyd edildiyi kimi, Suriyanın şimalındakı kürd siyasi qruplarının fərqli mövqeyinə baxmayaraq, PYD özünün silahlı qanadı YPG vasitəsi ilə bölgədəki bütün kürd hərəkatlarını yatırtdı. Bundan əlavə, vətəndaş müharibəsinin Suriyada böhrana çevrilməsi və zaman keçdikcə İŞİD təhlükəsinin daha qabarıq şəkildə özünü göstərməsindən sonra Suriya kürdləri PYD ətrafında birləşmişdir (7, 2-3).

Qərargahı Qamışlıda olan PYD 2011-ci ildən Afrin, Kobani və Haseke bölgələrində təsirli siyasi təşkilat yaratmıağa başlamışdır. Bu dövrdə Suriya müxalifləri Əsəd rejimini devirmək üçün silahlı mübarizə apardığı halda PYD fərqli siyasət yürüdərək nəzarət etdiyi ərazilərdə siyasi və hərbi üstünlüyə nail olmaqla öz mövqelərini möhkəmləndirmək üçün addımlar atmağa başlamışdır. Nəticədə Kobani, Cəzirə və Afrində əyalətlərini öz nəzarəti altına almağı bacarmışdır. Bu prosesdə Suriya kürdlərinin yeganə siyasi təmsilçisi kimi çıxış edən PYD nə Əsəd rejimi ilə birbaşa münaqişəyə daxil oldu, nə də Suriya müxalifətinin hərbi qolu olan Azad Suriya Ordusuna (ASO) qoşuldu. Bunun əsas səbəbi kürdlərin sıx yaşadığı bölgələrdə hökmranlıq qurmaq və bu hökmranlığı möhkəmləndirmək idi. Eyni zamanda Suriya müxalifləri Əsəddən sonrakı yeni dövlət quruluşu layihəsində PYD-nin irəli sürdüyü muxtariyyət tələbini rədd etmişdir. Müxalifətin bu cür münasibəti PYD-nin tamamilə müstəqil siyasi kurs həyata keçirməsinə səbəb oldu. Həmçinin Bəşər Əsəd, kürdlərin sıx yaşadığı bəzi bölgələrdən hərbi qüvvələrini geri çəkərək, kürdlərin müxalif qruplara qarşı mübarizəsinə dəstək olmaq və öz hərbi gücünü qorumaq niyyəti ilə bu əraziləri PYD/YPG-yə güzəştə getdi. Nəticədə 19 iyul 2012-ci ildə Kobani, 20 iyulda isə Amude və Afrin heç bir ciddi qarşıdurma olmadan PYD tərəfindən ələ keçirildi (7, 3).

Beləliklə, YPG nəzarət etdiyi əraziləri genişləndirdi və paralel olaraq bu ərazilərdə siyasi və hərbi nəzarətini gücləndirdi. PYD 2013-cü ilin noyabrında ələ keçirdiyi Afrində, Kobanidə və Cəzirədə Qurucu Məclis elan edərək, PKK-nın irəli sürdüyü demokratik muxtariyyət modelinə əsaslanaraq üç əyalət seçmiş, Afrin, Kobani və Cəzirədə öz regional qanunvericilik, icra və məhkəmə orqanlarını formalaşdırmışdır. 30 yanvar 2014-cü ildə PYD nəzarət etdiyi ərazilərdə muxtariyyət elan etdi. PYD-nin nəzarətində olan kantonlar ictimai müqaviləyə əsaslanan konstitusiya ilə idarə olunurdu. Ərəb, assur və digər etnik qruplar da bu kantonların idarə edilməsində təmsilçilik hüququna malik idi. Kantonların idarəetmə forması "demokratik özünüidarə sistemi" adlandırılmşdır.

Kantonlar TEV-DEM tərəfindən idarə olunurdu. Nəhayət, 2016-cı ilin mart ayında PYD rəhbərliyi və Suriya Demokratik Şurasının iştirakı ilə Hasəkənin Rümeylan rayonunda keçirilən iki günlük toplantıdan sonra "Şimali Suriyanın Vahid Demokratik Sistemi"nin mətni təsdiqlənib. Bundan əlavə Afrin, Kobani və Cəzirə kantonlarını birləşdirən "federal idarə" elan edildi (22). PYD üçün ən böyük maneələrdən biri üç kanton arasında coğrafi əlaqənin və monoetnik əhali strukturunun olmamasıdır.

Birinci maneəni aradan qaldırmaq istiqamətində Kobani-Cezire kantonlarını birləşdirmək üçün Tel-Abyad, Kobani-Afrin kantonlarını birləşdirmək üçün isə Azez adlı

əyalət PYD üçün əsas strateji hədəf olaraq təyin edildi. Bununla belə, Suriya kürdləri üçün əlaqə qurulacaq bu əyalətlərdə türkmənlər və ərəblər çoxluq təşkil edirdi.

Lakin PYD-nin öz siyasi ambisiyalarını həyata keçirməsinə zəmin yaradan yeni proseslər meydana çıxdı. Bu hadisələrdən birincisi; 2014-cü ilin iyununda İŞİD-in Mosulu ələ keçirərək çox böyük bir coğrafiyada İslam Dövləti elan etməsi, ikincisi artan terror təhlükəsinə qarşı, bir çox ölkənin iştirakı ilə İŞİD-ə qarşı beynəlxalq koalisiyanın yaradılması və nəhayət, Mosulu ələ keçirməklə güclənən İŞİD-in Kobaniyə istiqamətlənməsidir (7, 2-3).

### 3. İŞİD-in Kobanini mühasirəyə alması və nəticələri

2014-cü ilin yanvar ayının əvvəllərində Suriya müxalifəti ilə İŞİD arasında başlayan qarşıdurmalardan sonra Rakka, Haseke Hələbin şərqi və Türkiyə sərhədinə qədər Suriyanın kürd bölgələri istiqamətində uzanan xəttin İŞİD-in əlinə keçməsi DEAŞ ilə YPG arasında silahlı münaqişənin yaranmasına səbəb olmuşdur (9, 3). Digər tərəfdən 2014-cü ilin iyununda Mosulun işğalı, İŞİD-in terror təşkilat kimi daha da böyüməsinə və genişlənnməsinə zəmin yaratdı.

İŞİD-in Şimali Suriya cəbhəsindəki hökmranlığına ən böyük maneə PYD/YPG-nin nəzarətində olan Afrin, Kobani və Cəzirə bölgələridir. Bu ərazilər içərisində İŞİD-in ilk növbədə Kobanini hədəf almasının əsas səbəbi onun üç bölgə arasında ən zəif halqa olması idi. İŞİD-in əsas strateji hədəfi əslində Cəzirə bölgəsini ələ keçirmək idi. Çünki Cəzirəni ələ keçirən İŞİD Suriyanın ən mühüm neft quyularını öz nəzarəti altına almış olacaqdı. Bundan əlavə, Cəzirənin alınması ilə İraq-Suriya sərhədinin böyük bir hissəsinə nəzarət yenidən İŞİD-in nəzarətinə keçəcəkdi. Beləliklə, İraq və Suriyada nəzarət etdiyi coğrafiya arasında əlaqə yaradaraq Mosuldakı mövqeyini gücləndirəcəkdi. Digər tərəfdən, Cəzirənin başqa bir strateji əhəmiyyəti onun İraq kürdlərini Suriya kürdləri ilə əlaqələndirməsindən irəli gəlirdi. Burada İŞİD-ın Sincara hücumu zamanı Cəzirə bölgəsindən İraq peşmərgələrinə PYD/YPG tərəfindən dəstək verilmişdir. Lakin Cəzirə bölgəsi coğrafi genişliyinə, yerləşdiyi yerə, təbii sərvətlərinə, əhalinin sıxlığına və rejimin digər əleyhdarlarının mövcudluğuna görə çətin hədəf idi. İŞİD-ın Kobaniyə hücum etməsinin digər səbəbi də Kobaninin İŞİD-ın nəzarətində olan Rakkadan Azezə qədər olan ərazidə coğrafi əlaqənin kəsilməsinə səbəb olmasıdır. Təşkilat Kobanini almaqla öz bölgələri arasında birliyi təmin etməyi və onları bir-birinə bağlamağı planlaşdırırdı. İŞİD-İn Kobaniyə hücum etməsinin digər səbəbi Mürşidpınar sərhəd qapısının bu ərazidə yerləşməsidir (27).

Kobaninin PYD üçün də strateji əhəmiyyətə malik ərazi idi. Bura PYD-nin nəzarətində olan Afrin və Cəzirə kantonlarının ortasında yerləşirdi. Kobani PYD tərəfindən kürd bölgəsinin əsas mərkəzi idi. İŞİD buranı ələ keçirsəydi, kürd kantonları arasında əlaqə tam olaraq kəsiləcəkdi (11).

İŞİD 2014-cü ilin aprel ayından iyul ayına qədər Kobaniyə kiçik miqyaslı hücumlar həyata keçirmiş və nəticə əldə edə bilməmişdir. Lakin terror təşkilatının avqust ayından başlayaraq hücumun intensivliyini artıraraq Kobaniyə qarşı mühasirə əməliyyatına başlamasından sonra sentyabrda Kobani ətrafındakı bütün kəndlər təşkilatın əlinə keçdi. Sentyabrın 17-də Fərat üzərində strateji körpünü ələ keçirdikdən sonra təşkilat İraq və Suriyada qənimət kimi ələ keçirdiyi ağır silahları da aktivləşdirdi və böyük əraziləri keçirməyə nail oldu. İŞİD-in bu sürətli irəliləyişinin qarşısını ala bilməyən PYD/YPG qüvvələri sentyabrın 21-də geri çəkilmək məcburiyyətində qaldı. Belə ki, İŞİD Kobani şəhər mərkəzinə 10 km-ə qədər yaxınlaşdı. DEAŞ-ın Kobani şəhər mərkəzinə yaxınlaşması ilə əlaqədar YPG və ASO-nun bəzi müxalif qrupları arasında əməkdaşlıq axtarışı yarandı və Fərat bölgəsində Ortaq Fəaliyyət Mərkəzi quruldu. “Burkan əl-Fırat” olaraq elan edilən bu birləşməyə baxmayaraq, İŞİD-in Kobanidə irəliləməsinin qarşısı alına bilmədi.

Digər tərəfdən, İŞİD-in Kobanidəki hücumlarının qarşısını almaq üçün Sincar ilə Cezada və YPG-nin nəzarətində olan Yakubiye sərhəd qapısının qarşısındakı Rabiyədə yeni cəbhələr açıldı. Belə ki, Cezada YPG, Sincarda KDP Peşmərgə, HPG və Şengal Müqavimət Birlikləri İŞİD-ə qarşı mübarizə aparmışdır.

Lakin açılan bu yeni cəbhələr İŞİD-in Kobanidəki hücumlarının qarşısını almaq üçün kifayət etmədi (9, 5-6). İŞİD-ın Kobaniyə hücumları artmağa davam edərkən; PYD həmsədri Salih Müslüm 4 oktyabr 2014-cü il tarixində Türkiyəyə gələrək dövlət rəsmiləri ilə Kobani və digər regional hadisələrlə bağlı danışıqlar apardı (32). Bu danışıqlar nəticəsində Salih Müslüm Türkiyədən bəzi tələblər irəli sürərək kürdlərə qarşı yönələn islamçı müxalifət qruplarına verilən dəstəyin dayandırılması, Türkiyənin sərhədlərini açmasını və nəhayət, PYD-nin qurduğu özünü idarələrə Türkiyə hökumətinin sahib çıxmasını xahiş etmişdir (35). Türkiyə də Salih Müslümün qarşısında üç məsələ qaldıraraq Kobaninin idarə forması ilə bağlı qərarların qəbulunda Suriya xalqının fikrini nəzərə almaq, gələcəkdə Əsəd rejimi ilə əməkdaşlıq etməmək və təhlükəsiz zonaya qarşı çıxmamaq kimi tələblər irəli sürdü (11). Gözlənildiyi kimi danışıqlarda müsbət nəticə əldə edilmədi.

Oktyabrın 5-də Kobani çölündəki 100 kəndin hamısı İŞİD-İn əlinə keçdi və təşkilat şəhərin kənarına çatdı və qanlı toqquşmalar baş verdi. Bu vəziyyətdə beynəlxalq müstəvidə Kobanidəki İŞİD qüvvələrinin zərərsizlşdirilməsi ilə bağlı fikirlər irəli sürülməyə başladı. Bunun nəticəsidir ki, oktyabrın 24-də ABŞ-ın Kobanidə İŞİD-ə qarşı hava hücumları həyata keçirdi. Həmçinin yük təyyarələri vasitəsilə PYD-yə havadan silah yardımı da etdi (2, 4-5). Digər tərəfdən Türkiyə 29 oktyabrda peşmərgə qüvvələrinə dəhliz açaraq ağır silahlarla Kobaniyə keçməyə icazə verdi (31). Nəticədə YPG 26 yanvar 2015-ci ildə ABŞ əsgərləri və İraq peşmərgələrinin köməyi ilə Kobani və bu bölgədəki kəndlərin İŞİD-dən tamamilə təmizləndiyini açıqladı (23).

PYD/YPG-nin Kobani və digər bölgələrdəki uğurları onların mövqeyini təkcə İŞİD-ə qarşı deyil, Suriyadakı digər kürd partiyalarına qarşı da gücləndirdi. Eyni zamanda İŞİD-İn Kobanidə məğlubiyyətə uğraması və bölgədən çıxarılması ilə təşkilatın "məğlubedilməzlik mifi" sona çatdı. Kobanidəki hadisələrdən sonra ABŞ Suriyada axtardığı mötədil müxalifəti PYD/YPG timsalında tapmış oldu. PYD/YPG "ərəblərin və türkmənlərin də azadlığı uğrunda mübarizə aparan təşkilat" imicindən çıxaraq "ABŞ-ın yerdəki yerli müttəfiqi"nə çevrildi (7, 9).

### 4. İŞİD-lə mübarizədə yeni mərhələ Tel Abyad

Suriyanın şimalında Cəzirə və Kobani kantonları arasında yerləşən Tel Abyad bölgəsi əsasən ərəblər və türkmənlərdən ibarətdir. Bölgə 2014-cü ilin iyun ayında İŞİD-in nəzarətini keçmişdir

6 may 2015-ci ildə PYD/YPG Tel Abyada qarşı "Şəhid Rübar Qamışlı Həmləsi" adı altında əməliyyata başlayıb. Tel Abyad ilə Rəsulayn arasında və Suluk qəsəbəsi ətrafında uzun müddət davam edən silahlı qarşıdurmalar, Kobaninin şərqindən olanlar da Tel Abyadın cənubundan və Cezire Kantonundan hərbi əməliyyatlar həyata keçirilmişdir. Quru əməliyyatları ilə yanaşı, ABŞ-ın havadan bombalaması ilə İŞİD-in Rakkadan gələn təchizat xətləri kəsilmiş, nəticədə terror təşkilatı ciddi müqavimət göstərə bilməmiş, Rakkaya çəkilməyə məcbur qalmışdır. Kobaninin şərqindən və Cezirənin qərbindən hərəkət edən YPG qüvvələri və onları müşayiət edən "Burkan əl-Fırat" və "Liva əl-Tahrir" adlı qruplar iyunun 15-də Tel Abyada daxil olub, orada nəzarəti ələ keçiriblər. İŞİD Tel Abyaddan aldığı məğlubiyyətdən sonra olaraq Kobani və Haseke bölgələrinə qəfil hücumlar təşkil etmişdir.

Digər tərəfdən, Kobani Kantonunun həmsədri Ənvər Müslim Tel Abyadın PYD/YPG tərəfindən nəzarətə götürülməsindən sonra bu ərazinin Kobaniyə birləşdiriləcəyini açıqlayıb. Bu bəyanat PYD-nin təməl prinsiplərinə ziddir. Belə ki, əməliyyatdan əvvəl

PYD-nin idarəçiliyin digər etnik birliklərlə paylaşılacağını deməsi idi. Lakin əməliyyatdan sonrakı dövrdə “Bu bölgədə yaşayan ərəblərin sonradan Baas rejimi tərəfindən köç edildiyi” arqumentini irəli sürərək, “idarəçiliyi bölüşmək niyyətində olmadığını” göstərdi. PYD bölgədəki ərəblərin “yerli olmadığını” və “sonradan məskunlaşdığını” iddia edir və onların regionu tərk etməli olduqlarını bildirirdilər (7, 4-5).

Tel Abyadın əhəmiyyətli strateji ərazi olmasının iki səbəbi var idi. Birincisi, burada Türkiyə ilə Suriya arasındakı mühüm sərhəd məntəqəsi yerləşirdi. PYD-nin Tel Abyadı ələ keçirməsi ilə nəzarət etdiyi sərhəd məntəqələrinin sayı 6-ya yüksəldi. Bundan əlavə, Tel Abyad İŞİD-in qərargahı və Suriyada ən güclü dayaq nöqtəsi olan Rakkanın şimala açılan qapısı idi. Tel Abyadın YPG-nin nəzarətinə keçməsi ilə İŞİD Rakkada zəiflədi. İkinci səbəb həm YPG, həm də İŞİD-ın Şimali Suriyada vahid üstünlük qazanmaq cəhdləridir. İŞİD Tel Abyadı İslam Dövlətinin bir parçası kimi görərkən, YPG bu əyaləti Suriyanın şimalında qurmaq istədiyi Kürd muxtariyyətinin sərhədləri daxilində dəyərləndirirdi. Tel Abyad bölgəsi YPG-nin nəzarətinə keçdikdən sonra Şimali Suriyada İraq sərhədindən Kobaniyə qədər uzanan böyük bir kürd coğrafiyası meydana çıxdı. Nəticədə YPG-nin ABŞ-ın gözündə yerli tərəfdaşlıq mövqeyi gücləndi və ABŞ YPG-yə daha çox dəstək verməyə başladı (30).

### 5. Tel Abyaddan sonra PYD-nin İŞİD-lə mübarizəsi

PYD Tel Abyadı ələ keçirib Cəzirə ilə Kobani arasında əlaqəni bərpa etdikdən sonra məqsədi Azezin yerləşdiyi Kobani ilə Afrin arasındakı bölgəni ələ keçirmək idi. Belə ki, PYD bu ərazini də ələ keçirməklə “Şimali Suriya qurşağı boyunca federativ dövlət yaratmaq” istəyini reallaşdırmaq imkanı qazanacaqdı. Lakin Tel Abyadda olduğu kimi burada da əhalinin sıxlığını ərəblər və türkmənlər təşkil edirdi. Digər tərəfdən, PYD-yə problem yarada biləcək başqa bir məsələ də Kobani ilə Afrin arasındakı sərhəd xəttinin böyük bir hissəsinin İŞİD-in, müəyyən hissəsinin isə Suriya müxalifətinin nəzarətində olması idi. Ona görə də Azezə nəzarət etmək üçün həyata keçiriləcək əməliyyatların qarşısında iki maneə var idi: Birincisi, YPG-nin yerli xalq arasında dəstək tapmayacağı və ya bölgəyə nəzarət etdikdən sonra legitimliyə nail ola bilməyəcəyi düşüncəsi. İkinci məqam Vaşinqton administrasiyasının Azez bölgəsində hansı qrupun lehinə dəstək verməsi idi. Vəziyyəti siyasi cəhətdən mürəkkəbləşdirən əsas səbəb isə Kobani ilə Afrin arasındakı bölgənin Türkiyənin dəstəklədiyi Suriya müxalifət qruplarının nəzarətində olması idi (7, 6-8).

Digər tərəfdən, PYD/YPG və bu təşkilatla fəaliyyət göstərən Suriya Ərəb Koalisiyası, İnqilabçılar Ordusu, Burkan əl-Firat və əl-Sənadid Qrupların da daxil olmaqla səkkiz siyasi təsisat 13 oktyabr 2015-ci il tarixində verdiyi bəyanatda birləşərək Suriya Demokratik Qüvvələrini (SDQ) qurduqlarını və əsas məqsədlərinin Rakkanı İŞİD-dən almaq olduğunu açıqlamışdır. Aparılacaq hərbi əməliyyatlarda beynəlxalq koalisiyanın hava zərbələri ilə koordinasiyalı şəkildə hərəkət ediləcəyi bildirilmişdir (18).

İyunun 15-də Tel Abyadın PYD/YPG tərəfindən ələ keçirilməsi ilə Suriyanın şimal əraziləri boyunca kürd dəhlizinin yaradılmasına yeganə maneə Cerablus-Azez xətti oldu. Türkiyə PKK/PYD-nin sərhədləri boyunca kürd dəhlizi formalaşdırmasına etiraz edərək iyul ayından etibarən YPG-nin Fəratın qərbinə keçməsini qadağan edərək lazım gələrsə, hərbi müdaxilə edəcəyi ilə bağlı xəbərdarlıq etdi. Bu xəbərdarlıqdan sonra PYD/YPG hücumları dayandırmış və Cerablus-Azez xəttinə nəzarət İŞİD-də qalmışdır.

Rusiya sentyabrın 30-dan etibarən Əsəd rejimini dəstəkləmək üçün aktiv şəkildə vətəndaş müharibəsinə qoşulmuşdur. Rusiyanın Afrindəki PYD/YPG qüvvələrini silahla təmin etməsindən sonra İŞİD və digər müxalif qruplarla YPG arasında qarşıdurma başladı (17). Türkiyənin xəbərdarlığından sonra cənuba doğru istiqamətlənən YPG qüvvələri 23 dekabr 2015-ci ildə Şərqi Hələb və Rakkanı birləşdirən Tişrin bəndini İŞİD-dən almaq üçün hərbi əməliyyata başladı. Fərat çayı üzərində yerləşən bənd İŞİD üçün mühüm enerji

mənbəyi olmaqla yanaşı, Rakka ilə Şərqi Hələbdə nəzarət etdiyi ərazilər arasında əlaqəni təmin edən tranzit nöqtəsi idi. YPG/SDQ qüvvələrinin qurudan, ABŞ-ın isə havadan intensiv bombardmanları ilə həyata keçirilən əməliyyat nəticəsində İŞİD ciddi müqavimət göstərə bilmədi və bəndin nəzarəti YPG/SDQ qüvvələrinin əlinə keçdi. Qeyd edək ki, Tişrin bəndinin ələ keçirilməsi ilə İŞİD-in Hələb və Rakka ilə əlaqəsi kəsildi. Eyni zamanda PYD/YPG Fəratın qərb tərəfini keçərək Afrini və iki şərq kantonunu birləşdirmək baxımndan əhəmiyyətli coğrafi mövqe əldə etdi (1, 28-29).

YPG/SDQ Tışrin bəndini İŞİD-dən aldıqdan sonra Afrin kantonunu Kobani və Cəzirə kantonları ilə birləşdirmək üçün ABŞ-ın rəhbərliyi altında Fəratın qərbindəki başqa bir strateji nöqtə olan Mənbicdə hərbi əməliyyata başladı. 2016-cı ilin iyul ayının əvvəlindən etibarən Mənbic şəhərinin mərkəzi ABŞ-ın hava dəstəyi ilə YPG/SDQ qüvvələri tərəfindən mühasirəyə alındı. Avqustun 13-dək davam edən uzun qarşıdurma nəticəsində bölgə PYD/SDQ-nin əlinə keçdi. Mənbic böyük coğrafi əhəmiyyətə malik şəhərdir. Çünki Mənbicin şimalında Türkiyə ilə sərhəddə Cerablus, qərbdə Hələb, şərqdə isə Raqqa yerləşir. Bura mövqeyinə görə İŞİD üçün mühüm təchizat məntəqəsi idi. Mənbicin YPG-SDQ tərəfindən ələ keçirilməsi, Suriya Vətəndaş Müharibəsində yeni bir mərhələnin başlanğıcı olmuşdur (29). ABŞ-ın rəhbərlik etdiyi Koalisiya Qüvvələrinin gündə orta hesabla 15-20 hava hücumu ilə dəstəklədiyi əməliyyatda İŞİD terror təşkilatı uzun müddət müqavimət göstərsələr də, iki aydan bir qədər çox müddət sonra bölgəni itirdi. Silah, sursat və kəşfiyyat dəstəyi ilə yanaşı, Amerika xüsusi təyinatlıları münaqişədə birbaşa iştirak edərək QSD/YPG qüvvələrinə qurudan da dəstək vermişdir (1, 47).

PYD/SDQ qüvvələrinin Mənbicdən sonra hədəf aldığı əsas strateji nöqtə Əl-Babdır. Çünki Əl-Bab PYD-nin şərqdə Kobani və Cəzirə kantonlarını qərbdə Afrin kantonu ilə birləşdirmək üçün əhəmiyyətli ərazi idi. Burada PYD-nin iki əsas məqsədi var. Birincisi Şimali Suriya qurşağı boyunca uzanan ərazidə kantonları birləşdirmək, öz suverenliyini elan edəcəyi "de-fakto dövlət"ə sahib olmaq, daha sonra Türkiyə, İran və İraqda kürdlərin yaşadığı əraziləri də bu faktiki dövlətə birləşdirməklə "PKK Kürdüstanı" qurmaqdır. İkinci məqsəd qurulacaq bu dövlətin Aralıq dənizi ilə əlaqəsini təmin etməkdir. Buna görə də PYD Türkiyənin bütün xəbərdarlıqlarına baxmayaraq, böyük riskə getdi. Mənbicdən şərqdə çəkilmək əvəzinə, qərbdən Əl-Baba doğru hücuma keçdi (15).

ABŞ rəsmiləri Mosul əməliyyatının başlamasından qısa müddət sonra – 6 noyabr 2016-cı ildə YPG/SDQ ilə birlikdə "Fəratın qəzəbi" adı ilə Rakkada əməliyyat başladıqlarını açıqladı. Səbəb kimi İŞİD-in Qərb ölkələrində terror aktları törədəcəyi bildirilmiş, bu terror hücumlarının Rakkada planlaşdırıldığından Rakkanın ən azı qısa müddətdə mühasirəyə alınması lazım olduğu bildirilmişdir (34).

Çünki İŞİD-ə qarşı müvəffəqiyyətin əsas strategiyası İraq və Suriyanı tamamilə əhatə edən bir müdaxilənin həyata keçirilməsidir. Bunun səbəbi isə terror təşkilatının böyük coğrafi əraziyə yayıldığına görə resurslarını taktiki çəkilmə yolu ilə nəzarətində olan ərazilərə köçürmək imkanına malik olmasıdır. Mosul və Rakka əməliyyatlarının başlaması ilə İŞİD-ın bu niyyəti iflasa uğradı. Bundan əlavə, Türkiyənin Fərat Qalxanı Əməliyyatı ilə şərqə doğru genişlənməsi ABŞ-ı Fəratın şərqində təşəbbüsü ələ almağa sövq etdi (24).

Rakka əməliyyatı ABŞ-ın dəstəyi ilə YPG-nin rəhbərlik etdiyi SDQ qüvvələri tərəfindən həyata keçirilmişdir. Rakka əməliyyatında təqribən 30 min nəfərlik qüvvə iştirak etmişdir və onların əksəriyyəti YPG qüvvələri idi. Əməliyyata komandanlıq YPG-nin əlində idi. Rakka böyük ərəb şəhəri olduğu üçün əslində YPG-nin strateji hədəfləri arasında olmayan ərazi olmasa belə PYD/YPG qüvvələrinin Rakka əməliyyatında iştirakının bir neçə səbəbi var. Gələcəkdə federal bir dövlət qurma ümidi ilə PYD sərhədlərinin mümkün qədər genişləndirilməli olduğunu düşünür. Digər tərəfdən, Rakkanın şimal çölü Haseke ilə Kobani arasında əlaqəni təmin etməyi planlaşdırırdı. Həmçinin təşkilat ABŞ-

dan Fəratın qərbdəki ərazilərdə müdafiə olunmaqda hərbi dəstək tələb edirdi (28).

**6. PYD/YPG-nin ABŞ-la əməkdaşlığı**

2014-cü ilin sentyabrında İŞİD-in PYD/YPG-nin nəzarəti altında olan Kobani bölgəsinə etdiyi hücumlar nəticəsində ABŞ-ın hava əməliyyatları İraqdan Suriyaya keçdi. PYD lideri Salih Müslümün təşəbbüsü ilə PYD/PKK qüvvələri ABŞ-in rəhbərlik etdiyi Beynəlxalq Koalisiya Qüvvələrindən silah yardımı istəmişdir (6, 38). PYD-nin tələblərindən sonra dekabrın 13-ü və 23-də ABŞ helikopterləri Rumeylandakı PYD/PKK qüvvələrinə hərbi texnika ilə yüklənmiş yüklər çatdırmışdır (13).

PKK/PYD ilə müttəfiqlik əlaqələrini davam etdirən ABŞ, Bərzaniyə bağlı olan Peşmərgə qruplarının da də iştirakı ilə havadan və qurudan hücumlar nəticəsində İŞİD-ə böyük zərbə vurdu. PYD-nin ABŞ-la əməkdaşlığının inkişafı və bu ölkənin siyasi-hərbi dəstəyi nəticəsində Suriya ilə Türkiyənin sərhədlərini demək olar ki, bötövlükdə öz nəzarəti altına aldı. Beləliklə, ABŞ-ın gücündən istifadə edən PYD/YPG "Demokratik muxtariyyət" modelini həyata keçirmək üçün infrastruktur qurmağa başladı. ABŞ dolayı yolla hərbi yardım vermək strategiyası ilə hərəkət edərkən, birbaşa Türkiyəni də qarşısına almaq istəməmişdir. Çünki ABŞ Türkiyənin İncirlik Hava Bazasından istifadəsi imkanlarını davam etdirəcək siyasət yürütməyi daha məqsədəuyğun hesab edirdi.

ABŞ-la koordinasiyalı iş nəticəsində əldə edilən uğurun təkcə Kobani ilə məhdudlaşmamasını arzulayan YPG hərbi əməliyyatları davam etdirmişdir. PYD/YPG birliklərinə İŞİD-lə mübarizədə ABŞ tərəfindən 27 konteyner hərbi sursat, 10 ton tibbi ləvazimat çatdırılıb (4, 58). 2015-ci ilin iyun ayına qədər ABŞ-ın liderliyində İŞİD-ə qarşı mübarizə məqsədilə yaradılan koalisiyanın Suriyada həyata keçirdiyi 1744 hava hücumundan 1200-nün İŞİD və YPG-nin toqquşduğu bölgələrdə həyata keçirildiyi görünür. Kobanidə (Ayn-əl-Ərəb) 943 İŞİD hədəfi, Haseke və Tel Abyad xətlərinə edilən hava hücumlarında isə 244 İŞİD hədəfi vurulub (1, 39).

PKK/PYD ABŞ-ın köməyi ilə nəzarət etdiyi ərazilərdə infrastrukturunu yaradaraq, hərbi bazalar quraraq öz mövqeyini siyasi cəhətdən möhkəmləndirməyə çalışmışdır. Digər tərəfdən ABŞ bölgənin YPG-nin nəzarətində olmasını istəyirdi. Belə ki, YPG İŞİD-lə mübarizədə Pentaqonun əsas müttəfiqi idi. Hər iki tərəf üçün prioritet məsələ radikal terror təşkilatı İŞİD-in məhv edilməsi idi. Türkiyə isə ABŞ-ın YPG-yə verdiyi yardımla bağlı davamlı olaraq sərt açıqlamalar verir və Rusiya-Çin yönümlü münasibətlərini dərinləşdirəciyini bildirirdi. Bütün bunlara baxmayaraq, ABŞ YPG-yə dəstəyini davam etdirdi (38). Hələ Kobani münaqişəsi dövründə 24 ton silah və sursatın YPG-yə verildiyi barədə məlumat yayılmışdı (1, 42-43). ABŞ Türkiyənin siyasi kursuna zidd mövqe sərgiləyərək, YPG-nin PKK ilə heç bir əlaqəsinin olmadığını iddia edirdi. ABŞ-a görə, PYD, İŞİD-la quruda mübarizə aparan, milli və qlobal təhlükəsizliyə təhdid yaradan bu təşkilatı məğlub edə biləcək yeganə yerli qüvvədir (5, 56). Lakin Türkiyə üçün geosiyasi əhəmiyyət kəsb etdiyindən Suriyanın şimal sərhədlərində PYD/PKK qüvvələrinin güclənməsini istəmirdi. ABŞ-la ikitərəfli münasibətlərini korlamaq istəməyən, lakin ərazinin PYD/PKK-nın nəzarətinə keçdikdən sonra PYD-nin özünün təhlükəsizliyinə təhdidi yaradacağını düşünən Türkiyə buna baxmayaraq, ABŞ ilə hərbi və siyasi əlaqələri davam etdirdi (37).

Türkiyənin etirazlarına baxmayaraq, SDQ/YPG birləşməsinin yaradılmasını təmin edən ABŞ, ordusunun xüsusi təyinatlı qüvvələrini Suriyanın şimalına göndərərək, onlara təlim keçməsi üçün təlimatlandırdı (1, 42-43). Həmçinin 350-dən çox yük daşımaları həyata keçirən ABŞ bölgədə öz bazalarını quraraq YPG vasitəsilə regional maraqlarını maksimum dərəcədə reallaşdırmağa çalışırdı. Bundan əlavə, ABŞ Rakka əməliyyatında YPG ilə əməkdaşlığını davam etdirəcəyini vurğuladı. 2016-cı ildə həyata keçirilən Raqqa əməliyyatı göstərir ki, ABŞ uzunmüddətli maraqları çərçivəsində İŞİD-la mübarizədə YPG-

yə dəstək verməyi planlaşdırırdı. YPG-yə verdiyi dəstəyə görə Ağ Ev bu məsələdə bütün təşəbbüsü CENTOM-a (ABŞ Mərkəzi Komandanlığı) həvalə etmişdir. CENTOM isə Rakkanın ələ keçirilməsi üçün SDQ və yaxud YPG ilə aktiv əməkdaşlığın zəruri olduğunu müdafiə edir (36). Belə vəziyyətdə isə ABŞ PYD-yə verdiyi dəstək səbəbiylə həm Suriyanın. həm də Türkiyənin maraqlarını və ərazi bütövlüyünü təhdid edən siyasi təsisatın formalaşmasına zəmin yaradırdı. Sözsüz ki, rəsmi Ankara PKK/YPG-nin Suriyanın şimalında muxtariyyət elan etməsinə və demokratik federasiya yaratmasına razı deyildi. Lakin Türkiyənin neqativ yanaşmasına baxmayaraq, PYD/YPG ABŞ tərəfindən hər cəhətdən dəstəkləndi və. SDQ/YPG-yə rəhbərlik edən ABŞ SDQ daxilində liderlik mövqeyini YPG-yə verərək bu təşkilatla uzunmüddətli əməkdaşlıq da maraqlı olduğu təəssüratını yaratdı (12). Bundan əlavə, PYD üçün ABŞ-la ortaqlıq "kürd probleminin Qərb tərəfindən dəstəklənməsi" deməkdir. Bu aspektdə PYD ABŞ-la münasibətlərin onun xeyrinə olacağını düşünməkdə idi. Türkiyənin kürd probleminin həlli istiqamətində atacağı addımlara cavab olaraq ABŞ PYD/YPG vasitəsilə Ankaraya təzyiq edə bilərdi (20). Həmçinin ABŞ-ın Afrin kantonunda YPG üçün yeni bazalar inşa etməsi Türkiyənin Rusiya və Çinlə münasibətlərini yaxşılaşdırması istiqamətində addımlar atmasına səbəb olmuşdur.

## 7. PYD/YPG-nin Rusiya ilə əlaqələri

Suriyada vətəndaş müharibəsi başladıqdan sonra Yaxın Şərq regionunda nüfuzunu qorumağa çalışan Rusiya PYD/YPG qüvvələri ilə regional siyasətə təsir göstərməyə çalışırdı. Rusiyanın Əsəd rejiminin qorunub saxlanılmasına tərəfdar çıxması istəyindən irəli gələrək YPG-yə dəstək vermişdir. Eyni zamanda, kürdlər SSRİ dönəmindən bəri Kremlin daim diqqət mərkəzində olmuşdur (3, 3). Belə ki, Kreml marksist-leninist xəttini əsas götürən kürd qüvvələrini özlərinə yaxın görmüşdür. Tarixi faktlar və hadisələr əsasında hərəkət edir. Rusiya uzun və/yaxud qısamüddətli siyasi layihələrin ancaq yerli güc mövqeyində olan kürd qüvvələri ilə reallaşdıra biləcəyini düşünürdü.

Əsəd qüvvələrinin şimal bölgəsindən çəkilməsi ilə bu boşluğu dolduran YPG qüvvələri Rusiyanın diqqətini çəkməyi bacarmışdır. Siyasi həll prosesində ABŞ-ın deyil, Rusiyanın Dəməşq rəhbərliyinə "de-fakto muxtariyyət" idarəetmə modelini diqtə edə biləcəyini düşünən PYD Rusiyaya rəğbət bəsləyirdi. Çünki Rojavadakı "de-fakto" muxtariyyət statusu gələcəkdə Rusiyanın siyasi dəstəyi ilə "de-yure" statusa çevirmək imkanını əldə edəcəklərini planlaşdırmışdılar (19). PYD/YPG Suriyadakı vətəndaş müharibəsi gedişatında öz siyasi maraqlarını təmin etmək üçün qlobal aktorlardan istifadə etməyə meyllidir. Rusiya isə hər fürsətdə Türkiyəyə qarşı PYD kartından istifadə edirdi. Milli maraqların ön plana çıxdığı beynəlxalq münasibətlərdə "düşmənimin düşməni mənim dostumdur" prinsipi ilə hərəkət edən Rusiya, YPG ünsürlərinə verdiyi silah və sursatların PKK-lılar tərəfindən hərbi əməliyyatlarda istifadə edildiyinin fərqindədir (14). Lakin Rusiya hesab edir ki, Türkiyə PKK ilə öz daxilində mübarizə apardığı halda, Suriyada YPG-yə qarşı effektiv mübarizə apara bilməz (25).

Rusiya PYD-nin ABŞ-ın himayəsi altına keçməsini istəmirdi (16). Təşkilatla Kremlin ideyaları üst-üstə düşdüyü üçün Moskvanın YPG-yə ilə əməkdaşlığa maraq göstərirdi. Suriya dövlətinin birliyini qoruyaraq elan ediləcək bir federal idarəçiliyin Rusiya-YPG məqsədlərinin uyğunluğu səbəbiylə iki aktorun oxşar mövqe sərgiləməsinə səbəb olmuşdur. Gələcəkdə kantonlar vasitəsilə Aralıq dənizinə neft daşımalarını həyata keçirməli olan Rusiya regionda öz iqtisadi imkanlarını genişləndirmiş olacaqdı. YPG/PYD öz növbəsində yalnız ABŞ ilə əməkdaşlığın regionda fayda gətirməyəcəyini düşünərək, ABŞ-la Rusiya arasında balans siyasəti yürüdürdü (17).

Suriyada vətəndaş müharibəsinə çevrilən nümayişlər səssizcə izləyən Rusiya 2015-ci ilin oktyabrında Moskvada PYD/YPG təmsilçilərii ilə danışıqlara başlayıb. 2016-cı ilin fevralında Moskvada "Qərbi Kürdüstan Nümayəndəliyi" adı altında ofisin açılmasına ica-

zə verildi. Bu münasibətlə Kreml PYD/YPG qüvvələrinə diplomatik və maliyyə dəstəyi göstərdi. 2015-ci ildə Moskvada danışıqlar aparan Salih Müslüm "Rusiyanın təhlükəsizliyinin Yaxın Şərqdən başladığını" ifadə edərək, "kürdlərin milli hüquqlarını təmin etmək" üçün dəstək tələb etdi (3, 5).

2015-ci ildə rus təyyarəsinin Türkiyə tərəfindən vurulmasından sonra YPG Rusiyadan daha çox dəstək almağa başladı. Təyyarənin vurulması ilə Rusiya mətbuatında Türkiyə əleyhinə təbliğat daha da gücləndi. Məsələn, "Geopolitics" jurnalının baş redaktoru Leonid Savinin fikrincə: "Rusiyanın Türkiyəyə ən yaxşı cavabı kürd yaraqlılarına (PKK və PYD) maliyyə, diplomatik, siyasi və hərbi cəhətdən fəal dəstək verməkdir" (3, 5). Bu dövrdə ərzində Rusiyanın Türkiyə ilə münasibətləri ən aşağı səviyyədə olduğundan Kreml YPG-yə yaxınlaşmışdır. Lakin 21 aprel 2016-cı ildə Əsəd rejimi ilə YPG arasında baş verən toqquşmalar ruslar üçün qırılma nöqtəsi oldu. PYD/YPG qüvvələrinin ABŞ-ın dəstəyi ilə regionda dəhliz açmaq cəhdləri Rusiyanın geosiyasi maraqlarını təhdid edirdi. Nəticədə Putin Türkiyə ilə münasibətləri bərpa etmək üçün iradə nümayiş etdirdi. Cerablusda YPG qüvvələrinə qarşı Rusiya Türkiyə ilə birlikdə hərəkətə keçmə zərurəti yaranmışdır. Türkiyə və Rusiyanın Cerabulus əməliyyatında razılaşdığı ortaq məqam Suriyanın ərazi bütövlüyünün qorunması və PYD/YPG-nin əməliyyat ərazisinin məhdudlaşdırılması idi (26).

## Nəticə

1916-cı il Sayks-Pikot müqaviləsi ilə qurulan milli dövlətlərdə hökm sürən siyasi gərginlik sonradan dərin böhrana çevrilmişdir. "Ərəb baharı" ilə Yaxın Şərqdə baş verən siyasi kataklizmlərə dövlət başçılarının siyasi, hərbi və iqtisadi siyasətləri açıq şəkildə təsir etmişdir. Hegemon dövlətlər isə sanki regionda baş verən siyasi prosesləri öz maraqlarına uyğun istiqamətləndirməyə çalışmışlar. Yaxın Şərqin ən böyük etnik azlığı olan kürdlər böhran dövründə milli maraqlarını təmin etməyə və bu siyasi situasiyadan özlərinin mənafeyinə uyğun şəkildə faydalanmağa çalışdılar. Digər bir tərəfdən isə Kürd əhalisi vasitəsilə bölgənin resurslarını istismar etmək istəyən hegemon dövlətlər kürdlərdən avtoritar hökumətlərin daxilində öz maraqlarını təmin edəcək bir element kimi faydalanmışdır.

Kürdlər 2011-ci ilə qədər avtoritar rejimin təzyiqi altında idarə olunmuşdur. Demokratik görünüş nümayiş etdirməyən Əsəd rejimi xalqların milli identikliyinin assimilyasiyası siyasəti yeritmişdir. Bu cür siyasətin nəticəsi olaraq kürdlər Suriya Vətəndaş Müharibəsində meydana gələn üsyan dalğasının bir hissəsinə çevrilmişdir.

PKK/PYD Suriya Vətəndaş Müharibəsi başlamazdan əvvəl siyasi və hərbi cəhətdən təşkilatlandığı üçün bölgədə baş verən proseslərdə önəmli yerli aktora çevrildi. Suriyadakı siyasi gərginlikdən öz mövqelərini gücləndirmək naminə faydalanmağa çalışan PYD/YPG qüvvələri Suriya rejimi, ABŞ və Rusiya ilə əməkdaşlıq edir və siyasi cəhətdə təsir imkanlarını artırmağa çalışırdılar. PYD/YPG-nin İŞİD-ə qarşı qazandığı uğurlarla gələcəkdə regionda qurmağı hədəflədiyi kürd (muxtar, federasiya) dövləti üçün önəmli addım atmışıdır. PYD/YPG gələcək planlarında PKK modelindəki "demokratik muxtariyyət" əsasında de-fakto dövlət qurmaq istəyir. Bu siyasət kontekstində ABŞ və Rusiya ilə tarazlıq siyasəti yürüdən PYD/YPG bu ölkələrin köməyi ilə kanton bölgələrinin infrastrukturunu inkişaf etdirməyə çalışır.

PYD/YPG-nin Afrində yaradılmasına razılıq verdiyi Rusiya bazaları Türkiyə ilə mümkün münaqişədə təşkilatın mövqelərini gücləndirmişdir. Türkiyənin bölgədə PYD/YPG-nin yaradılmasını qəbul etməməsinin və kantonların birləşdirilməsinə qarşı olmasının əsas səbəbi öz dövlətinin varlığının və ərazi bütövlüyünün təhlükə altına düşəcəyi ilə bağlı narahatlıqlardır. Suriyada PYD/YPG-nin iqtisadi və siyasi müstəqilliyinə nail olacağı təqdirdə Türkiyədəki kürdlərin də bənzər bir quruluşa keçmək istəyəcəyini

düşünən Türkiyə hökuməti ərazi bütövlüyünün pozulacağını düşünmüşdür. Buna görə də Ankara daha sonra Suriyanın şimal bölgəsindəki kantonların Fərat Qalxanı əməliyyatı ilə mümkün birləşməsinin qarşısını almaq üçün Əl-Baba daxil olmaq zərurətini hiss etmişdir.

PYD-ni terror təşkilatı kimi qələmə verməyən ABŞ, Suriya və Rusiya Türkiyəyə qarşı PYD/PKK yaraqlılarını qoruyarsa, gələcəkdə regional qeyri-sabitlik dərinləşə bilər. ABŞ-ın Yaxın Şərqdəki ən mühüm NATO müttəfiqi olan Türkiyəyə qarşı çıxmasının səbəbi PYD/YPG dünyəvi quruluşa malik regional aktor olmasıdır. Qlobal aktorların bölgədəki strateji addımları və səyləri YPG/PYD birləşmələrinə güclənmək imkanı verir. Çünki Suriya vətəndaş müharibəsinə qlobal aktorların cəlb olunması YPG-yə beynəlxalq arenada özünü tanıtmasına və bununla da daha çox maddi-texniki dəstək əldə etməsinə zəmin yaratdı.

Nəticə etibarı ilə Yaxın Şərqdə Suriya, İraq, Türkiyə, Livan və İordaniyada siyasi proseslərə təsir göstərə biləcək hadisələr baş verməkdədir. Siyasi ittifaqlar müvəqqəti xarakter daşıdığı üçün gələcəkdə regional ittifaqların daimi olacağı ilə bağlı konkret fikir bildirmək mümkün deyil. Bununla belə, regional aktorlar diqqətli siyasi kurs yürüdərək öz strateji gedişlərini etməlidir.

## ƏDƏBİYYAT


1. Acun B. K. PKK'nın Kuzey Suriye Örgütlenmesi PYD-YPG // Seta Perspektif, SETA Yayınları: 61, Genişletilmiş 2. Baskı, 2016, s. 9-47.
2. Acun B. K. Kuzey Suriye'de PYD Kuşağı, Seta Perspektif, Sayı: 105, Haziran 2015, s. 1-43. October 2017, Hybrid Warfare Special Issue,1 (2), 162-198
3. Aliyev, Bayram, Rusya'nın PYD Politikası ve Türkiye // Bilgesam, No:1341.
4. Aydoğan B. PYD'nin ABD-RUSYA Denklemindeki Tercihi // Bas Haber, Sayı: 117.
5. Efegil E. AK Parti Hükümetinin Orta Doğu Politikası ve ABD Yönetimi ile Batılı Uzmanların Eleştirileri // Gazi Akademik Bakış, Cilt: 9, Sayı: 18, Yaz 2016.
6. Keskin B. A. PKK'nın Kuzey Suriye Örgütlenmesi PYD-YPG // SETA, 1. Baskı, Sayı: 61, 2016, s. 1-46.
7. Orhan O. Suriye'de Kürt Kuşağı Mümkün Mü? Orsam, Sayı: 28, Haziran 2015, s. 1-14.
8. Orhan O. Suriye Kürtleri: Güncel Siyasi/Askeri Durum ve Dış İlişkiler // Orsam, Sayı: 48, Ağustos 2016, s. 1-14.
9. Öner, H. Acun, IŞİD-PYD Çatışmasının Sıcak Cephesi: Ayn El-Arap (Kobani) // Seta Perspektif, Sayı: 77, Ekim 2014, s. 1-8.
10. Ulaç A. Vahap, Suriye Kürtleri: Türkiye Kürtleri'nin Devamı // Sosyoloji Araştırmaları Dergisi, Cilt: 19, Sayı: 1, Nisan 2016, s. 191-223.
11. 9 soruda Kobanê; IŞİD neden bu kenti istiyor, Kürtler için neden vazgeçilmez? (https://t24.com.tr/haber/9-soruda-kobane-isid-neden-bu-kenti-istiyor-kurtler-icin-neden-vazgecilmez,273198)
12. ABD Merkez Kuvvetler Komutanlığından PYDye destek (https://www.cnnturk.com/turkiye/abd-merkez-kuvvetler-komutanligindan-pydye-destek)
13. ABD-nin PYD/PKK-ya askeri yardımı hız kesmedi (https://www.aa.com.tr/tr/dunya/abdnin-pyd-pkkya-askeri-yardimi-hiz-kesmedi/716471)
14. Abdul Samet Yavan, PYD-ABD-Rusya Ittifakının perdearkası (https://www.stratejikortak.com/2017/02/pyd-abd-rusya-ittifaki.html)
15. Akdoğan Özkan, El Bab neyin kapısı? Ve neden önemli? (https://t24.com.tr/yazarlar/akdogan-ozkan/el-bab-neyin-kapisi-ve-neden-onemli,15525)
16. Ayşe Karabat, Rusya-PYD nereye? (http://www.aljazeera.com.tr/al-jazeera-ozel/rusya-pyd-nereye)
17. Ceyda Karan, Suriyenin kuzeyinde ABD, Rusya, kürtler denklemi (https://tr.sputniknews.com/20160826/suriye-abd-rusya-1024603496.html
18. Demokratik Suriye güçleri resmen kuruldu (https://www.timeturk.com/demokratik-suriye-

gucleri-resmen-kuruldu/haber-75085)
19. Fehim Taştekin, Kürtlerin tercihi ruslar mı amerikalılar mı? (http://www.radikal.com.tr/yazarlar/fehim-tastekin/kurtlerin-tercihi-ruslar-mi-amerikalilar-mi-1445868/)
20. Fehim Taştekin, Suriyede ABDye Mehmet olmak (https://www.gazeteduvar.com.tr/yazarlar/2017/02/09/suriyede-abdye-mehmet-olmak)
21. Güney Yıldız, Kobani, PKK ve barış süreci neden önemli? (https://www.bbc.com/turkce/ozeldosyalar/2014/10/141001_kobani_baris_surec)
22. Kürtler Suriyede federasyon ilan etti. (https://www.cumhuriyet.com.tr/haber/kurtler-suriyede-federasyon-ilan-etti-499590)
23. Mahmut Oral, Kobani İŞİD-den temizlendi (https://www.cumhuriyet.com.tr/haber/kobani-isidden-temizlendi-197911)
24. Musul bitmeden Rakka operasyonu başlamayacak (https://www.dunya.com/dunya/musul-bitmeden-rakka-operasyonu-baslayacak-haberi-335223)
25. Onur Erem, 5 soruda YPGnin ABD ve Rusya ile ilişkisi (https://www.bbc.com/turkce/haberler-dunya-39937178)
26. Orhan Gafarlı, Rusyanın PYD politikası değışiyor mu? (http://www.aljazeera.com.tr/gorus/rusyanin-pyd-politikasi-degisiyor-mu)
27. Orhan, Oytun, IŞİD'in Ayn el Arap (Kobane) Kuşatması ve Türkiye (https://www.orsam.org.tr/tr/isid-in-ayn-el-arap-kobane-kusatmasi-ve-turkiye/)
28. Orhan, Oytun, Rakka operasyonu Aktörler ve hedefler (https://www.aa.com.tr/tr/analiz-haber/rakka-operasyonu-aktorler-ve-hedefler-/681864)
29. Orhan, Oytun, Suriyede PYD/YPG için sırada ne var?: Münbiç operasyonu ve sonrası (https://orsam.org.tr/tr/suriye-de-pyd-ypg-icin-sirada-ne-var-munbic-operasyonu-ve-sonrasi/)
30. Orhan, Oytun, Tel Abyadın PYD/YPG tarafından ele geçirilmesinin olası sonuçları (https://www.orsam.org.tr/tr/tel-abyad-in-pyd-ypg-tarafindan-ele-gecirilmesinin-olasi-sonuclari/)
31. Peşmerge Kobaniye geçti (https://www.milliyet.com.tr/gundem/pesmerge-kobaniye-gecti-1963233)
32. PYD lideri Salih Müslim Türkiyeye geldi (https://www.sabah.com.tr/gundem/2014/10/04/pyd-lideri-salih-muslim-turkiyeye-geldi)
33. PYD/YPG Fıratın batısında, peki şimdi ne olacak? (http://ankaenstitusu.com/pydypg-firatin-batisinda-peki-simdi-ne-olacak-2/)
34. Son dakika haberi: Reuters duyurdu! Operasyon başladı. (https://www.milliyet.com.tr/gundem/son-dakika-haberi-reuters-duyurdu-operasyon-basladi-2340308)
35. Suriye krizinde Türkiyenin kürt koridoru politikası (https://9lib.net/article/suriye-krizinde-t%C3%BCrkiye-nin-k%C3%BCrt-koridoru-politikas%C4%B1.6qmv2d4q)
36. Ufuk Ulutaş, CENTCOMun PKK stratejisine Beyaz Saray dur demeli (https://www.setav.org/centcomun-pkk-stratejisine-beyaz-saray-dur-demeli/)
37. YPG Türkiyenin kırmızı çizgisini geçti (https://www.haber7.com/ortadogu/haber/1724034-ypg-turkiyenin-kirmizi-cizgisini-gecti)
38. YPGye ABD zırhı (http://www.aljazeera.com.tr/haber/ypgye-abd-zirhi)

***Summary***

***Tamerlan Ahmadli***

***Aspects of the İmpact of PKK / PYD Terrorist Organizations on the Syrian Crisis***

The Arab Spring, which began in Tunisia in 2010 and spread dominoically to Egypt and Libya, also affected Syria in 2011, consequently a civil war started in the country. The PYD / YPG, one of the main wings of the PKK, a terrorist organization that was not well known in terms of regional politics before the Syrian civil war, became one of the main actors in the region with the outbreak of the civil war. Thus, the PKK / PYD, together with the United States of America , has identified the fight against ISIS as its main principle. PYD militants have also acted as US allies in Syria. It is necessary to consider the strategies of

the PYD in the civil war in Syria and its fight against ISIS, as well as its relations with the United States and Russia.

The authoritarian Syrian regime has been directly affected by the Arab Spring, which has been characterized by mass protests against political authorities in the Middle East. The Assad regime's policy of oppressing and oppressing its citizens for years, ignoring the principle of freedom of the peoples and simply defending the interests of the government, has led to deep disagreements among various ethnic and religious groups. Among these groups, the Syrian Kurds, who were not allowed to be organized by the Assad regime and were exposed to economic and political restrictions, also resisted the regime and demonstrated in the streets. Against the background of these protests, the Kurds, who were subject to political persecution, established a political party in their densely populated areas and made it a priority to unite in a single institution. This situation has led to a political struggle between Kurdish groups led by Barzani and the PKK's PYD.

***Keywords**: Syria, PYD / YPG, ISIS, the USA, Russia*

***Резюме***

***Тамерлан Ахмедли***

***Аспекты влияния террористических организаций PKK/PYD на сирийский кризис***

Арабская весна, начавшаяся в Тунисе в 2010 году и распространившаяся по Египту и Ливии с эффектом домино, оказала свое действие также и Сирию в 2011 году, вылившись в гражданскую войну. PYD/YPG, одно из основных крыльев PKK, террористической организации, малоизвестной с точки зрения региональной политики до гражданской войны в Сирии, с началом гражданской войны стала одним из главных акторов в регионе. Таким образом, PKK/PYD совместно с США определили борьбу с ИГИЛ как свой главный принцип. Боевики PYD также выступали в качестве союзников США в Сирии. Необходимо пересмотреть стратегии PYD в гражданской войне в Сирии и ее борьбе с ИГИЛ, а также ее отношения с США и Россией.

Авторитарный сирийский режим непосредственно пострадал от «арабской весны», которая характеризовалась массовыми протестами против политической власти на Ближнем Востоке. Политика режима Асада, которая держала под угнетением и давлением своих граждан в течение многих лет, игнорирование принципа свободы народов и просто защита интересов правительства привели к глубоким разногласиям между различными этническими и религиозными группами. Среди этих групп сирийские курды, которым режим Асада не позволил организоваться и которые подвергались экономическим и политическим ограничениям, также оказывали сопротивление режиму, проводили демонстрацию на улицах. На фоне этих протестов курды, подвергшиеся политическому преследованию, создали в своих густонаселенных территориях политическую партию, установив для себя в качестве приоритета объединение в единый институт. Эта ситуация привела к политической борьбе между курдскими группировками во главе с Барзани и PYD, находящейся в составе PKK.

***Ключевые слова**: Сирия, PYD/YPG, ИГИЛ, США, Россия*

Şöbə redaktoru s.e.d., prof. Nəsirli Elman Xudam oğlunun rəyi əsasında çapa məsləhət görülmüşdür.

**UOT 327; 94 (470)**

# DON RESPUBLIKASININ YARANMASI, DAXİLİ SİYASƏTİ VƏ BEYNƏLXALQ ƏLAQƏLƏRİ (1918-1920)

**İkram AĞASİYEV,**[*]
**Seyidməmməd MƏMMƏDZADƏ**[**]

*Məqalə redaksiyaya daxil olmuşdur: 8 fevral 2022; çapa qəbul edilmişdir: 9 mart 2022; online-da çap edilmişdir: 30 mart 2022.*
*Received: 8 th of February, 2021; accepted: 9 th of March, 2022; published online: 30 th of March, 2022.*

***Açar sözlər**: Azərbaycan, Don respublikası, "Könüllü Ordu", Denikin, Dağlı Respublikası, ağ hərəkat*

## Giriş

1917-ci il Oktyabr çevrilişi nəticəsində Müvəqqəti hökumət devrildi, keçmiş Rusiya imperiyası ərazilərində Sovet hakimiyyətinin tərəfdarı olan bolşeviklərlə köhnə Rusiyanın bərpasının tərəfdarları arasında vətəndaş müharibəsi başladı. Rusiyanın böyük hissəsi bolşeviklərin hakimiyyətinə düşdü. Bolşevik hakimiyyətini qəbul etməyən regionlarda, xüsusən də keçmiş imperiyanın ucqarlarında yeni antibolşevik xarakterli siyasət yürüdən gənc dövlətlər yarandı. Müvəqqəti hökumətin süqutundan sonra Rusiya imperiyasının ucqar ərazilərində yeni yaranan dövlətlərdən biri də Böyük Don Qoşunları – Don Respublikası olmuşdur.

Keçmiş Rusiya imperiyası ərazilərində Vətəndaş müharibəsi dövründə (1918-1920) müxtəlif siyasi qüvvələrin bolşevizmə qarşı mübarizədə məğlubiyyəti və bu uğursuzluğun səbəblərinin araşdırılması həmişə aktualdır. Şübhəsiz, Azərbaycan Xalq Cümhuriyyəti, Don Respublikası və keçmiş Rusiya imperiyası ərazilərində yaranan sair gənc dövlətlərin süqutunun səbəblərindən ən başlıcası anti-bolşevik qüvvələrin bir araya gələ bilməməsi olmuşdur ki, bu səhvlər həm Cənubi Qafqazda, həm də Rusiyanın cənubunda yaranan yeni dövlətlərin süqutuna, bu ərazilərdə sovet hakimiyyətinin bərqərar olmasına gətirdi.

Məqalədə Don Respublikasının yaranmasının tarixi şərtləri, dövlət quruculuğu və xarici siyasət məsələləri araşdırılır. Tədqiqatın məqsədi 1918-1920-ci illərdə mövcud olmuş Don Respublikasının yaranışından süqutuna qədərki tarixini yığcam şəkildə araşdırmaq, onun fəaliyyətinin regional xüsusiyyətlərini üzə çıxarmaqdır ki, bu da həmin dövrdə istər Azərbaycanda, istərsə də, ümumən Rusiyanın cənubunda gedən mürəkkəb məsələlərə aydınlıq gətirilməsinə yardımçı olacaqdır.

## Donun tarixi keçmişinə bir nəzər

İndiki Don əraziləri eramızdan əvvəl I minillikdən müxtəlif dövlətlərin - Bosfor skif çarlığının, Hun imperiyasının, Xəzər xaqanlığının, Deşti-Qıpçaq, Qızıl Ordu dövlətlərinin, Krım və Noqay xanlıqlarının, XVI əsrin ikinci yarısından isə Moskva dövlətinin tərkibində olmuşdur. Uzun illər çar hakimiyyətinə müxalif qüvvə kimi çıxış edən Don ka-

[*] tarix elmlər doktoru, professor, AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu
*e-mail: seyidmemmedm@gmail.com*
[**] doktorant, AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu
*e-mail: seyidmemmedm@gmail.com*

zakları II Yekaterinanın dövründən tam nəzarətə götürülmüş, Don kazak ərazilərinə xüsusi status verilmişdir. Belə ki, çar Rusiyası dövründə Don əraziləri 1786-cı ildən 1870-ci ilədək Don Qoşunları ərazisi, 1870-ci ildən 1918-ci ilə qədər isə Don Qoşunları Vilayəti kimi adlandırılmışdır. Sonuncu- Don Qoşunları Vilayətinin ərazisi – 152,7 min kv.km olmuşdur. Tarixən Don əraziləri dedikdə cənubda Taqanroq-Stavropol xəttindən şimalda Voronej, şimali-şərqdə Saratov, Penza ətrafı ərazilərədək, şərqdə indiki Volqoqrad ətrafından qərbdə indiki Donetsk ətrafı ərazilər nəzərdə tutulur. Taqanroqu çıxmaq şərtilə, adı çəkilən şəhərlərin heç biri Don Qoşunları Vilayətinin tərkibinə daxil olmamışdı. Donun bayrağı tarixən 3 rəngli - göy, sarı, qırmızı zolaqlardan ibarət olmuşdur. Göy, sarı, qırmızı rənglər – tarixi Don ərazilərində yaşayan 3 xalqın – kazakların, kalmıkların və rusların birliyini simvolizə edir. Maraqlıdır ki, öncəki əsrlərdə kazaklar özlərini rus kimi tanımamışlar.

Don əhalisinin etnik tərkibinə gəldikdə, 1897-ci ildə aparılan Rusiya imperiyasının əhalisinin ümumi siyahıya alınması zamanı Don Qoşunları Vilayətinin ümumi əhalisinin sayı 2 564 238 nəfər olmuşdur [11]. Ümumi əhalinin 320 mini şəhərlərdə yaşayırdı. Don Qoşunları Vilayətində əhalinin etnik tərkibinə gəldikdə, ruslar – 66,8%, ukraynalılar – 28,1%, almanlar – 1,8%, kalmıklar – 1,3%, ermənilər – 1,1%, qalan 0,9% yəhudilər, qaraçılar, moldavanlar və sair xalqların nümayəndələri təşkil edirdi [12]. Kazaklar ümumu əhalinin 40- 45% təşkil edirdilər.

Fevral inqilabının qələbəsindən sonra Don Qoşunları Vilayətində də bütün Rusiyada olduğu kimi, ikihakimiyyətlilik deyil, hətta demək olar ki, üçhakimiyyətlilik meydana gəldi. Onlar Müvəqqəti hökumətin komissarları, fəhlə, əsgər, kəndli, kazak deputatları Soveti və Don Qoşunları Vilayətinin (qurultayı), onun icra orqanları olan Don Qoşunları hökuməti və Don Qoşunları Vilayətinin atamanı idi.

Adı çəkilən strukturlar arasında ən kəskin ziddiyyətlər fəhlə, əsgər, kəndli, kazak deputatları Soveti ilə Don Qoşunları hökuməti arasında olmuşdur. Bu ziddiyyətlərin yaranmasının əsas səbəbi müxtəlif hakimiyyət strukturlarının torpaq məsələsində tutduğu mövqe idi. Müvəqqəti hakimiyyətə etimad etməyən kazaklar tezliklə öz nümayəndələrini Müvəqqəti hökumətin aparatından geri çağırdılar. Tanınmış general, əslən Dondan olan A.M.Kaledin 1917-ci ilin yazında Dona gəldi və 1917-ci mayın sonlarında Don Qoşunları Dairəsinin iclasında Don hökumətinin başçısı, yəni Dairə atamanı təyin edildi. Oktyabr çevrilişi ərəfəsində – 1917-ci ilin oktyabrın 20-də Vladiqafqazda (2 noyabr) kazak qoşunlarının, Qafqaz dağlılarının və Çölün azad xalqlarının Cənub-Şərq ittifaqı yaradıldı. Yeni yaranan ittifaq özünü konfederativ əsaslarda idarə olunan (ərazi vahidi) dövlət elan etdi [17, s. 696]. Cənub-Şərq İttifaqının bəyannaməsində deyilirdi ki, bu dövlətin yaradılmasında əsas məqsəd bolşevik anarxiyasına qarşı mübarizə aparmaq və Rusiyada Müəssislər Məclisinə seçkilər keçirilənədək İttifaqa daxil olan ərazilərdə stabilliyi, qayda qanunu qoruyub saxlamaqdan ibarətdir [3, s. 433]. Bəyannamədə, həmçinin Hökumətin Cənubi- Şərqi İttifaqın subyektlərinin hər birini gələcək Rusiya Demokratik Federativ Respublikasının müstəqil ştatları kimi gördüyü əks olunmuşdu [14, s. 224-226].

1917-ci ilin oktyabrın 25-də Petroqradda bolşeviklər tərəfindən çevriliş həyata keçirildi, Rusiyada Müvəqqəti Hökumət devrildi. Səlahiyyətli dövlət orqanı kimi Sovet hakimiyyəti bərqərar oldu, Rusiya Sovet Sosialist Respublikası elan edildi. Tezliklə Sovet hakimiyyəti keçmiş Rusiya imperiyasının bütün ərazilərinə, o cümlədən Donda da yayılmağa başladı. Anti-bolşevik qüvvələrin Donda sosial dayağı yetərincə olmadığından burada bolşevizmə əsaslı müqavimət göstərə bilmədilər. Bolşeviklər 2 (15) noyabr 1917-ci il tarixində "Rusiya xalqlarının hüquqları haqqında dekret" qəbul etdilər [6, s. 70]. Bu sənəd müstəqil dövlətini yaratmaq uğrunda mübarizə aparan xalqlarda ümid yaratdı və onlar bu sənədi böyük rəğbətlə qarşıladılar. Lakin Sovet hakimiyyətinin nəcib niyyətləri kağız üzərində idi. Həm Şimali, həm də Cənubi Qafqazda Sovet hakimiyyətini qəbul et-

məyən milli və regional qüvvələr hələ də köhnə vahid Rusiyanın bərpasına ümid edirdilər.

Rusiyanın federativ əsaslarda yenidən qurulması tərəfdarları keçmiş imperiyanın ucqarlarında, o cümlədən Qafqazda daha çox idi. Bu ideya təkcə ucqar – milli regionlarda (Cənubi Qafqaz, Mərkəzi Asiya, Ukrayna, Belarusiya və s.) deyil, həmçinin etnik cəhətdən rus xalqından çox da fərqlənməyən, ancaq regional xüsusiyyətlərə malik olan Şimali Qafqazın Kuban, Stavropol, Don ərazilərində də populyar idi.

**Don Sovet Respublikası və Don Respublikasının yaranması**

Don uğrunda gedən qızğın döyüşlərdən sonra 1918-ci ilin fevralın sonlarına "Könüllü Ordu" hissələri və general Kaledinin başçılıq etdiyi kazak hərbi hissələri Donu tərk etməyə məcbur oldular və 1918-ci ilin fevralın 25-də Don Hərbi Dairəsində Sovet hakimiyyəti bərqərar oldu [10, s. 247]. 1918-ci ilin martın 23-də Don Vilayət Hərbi İnqilab komitəsi mərkəzi Rostov olmaqla Don Respublikasını elan etdi. 9-14 aprel 1918-ci il tarixdə Rostovda Don Respublikasının fəhlə və kazak sovetlərinin I qurultayı keçirildi. Qurultayda Don Respublikasının adı dəyişdirilib, Don Sovet Respublikası adlandırıldı [7, s. 305-306]. Don Sovet Respublikası özünü Rusiya Sovet Respublikası ilə ittifaqda elan etdi.

Don Sovet Respublikası həyata keçirdiyi dekretləri, xüsusən torpağın milliləşdirilməsi və pulsuz olaraq torpaqsız kəndlilərə paylanması kazak təbəqəsinin narazılığına səbəb oldu və nəticədə, Don Sovet Respublikası ərazisində kazak üsyanları başladı. Donda bu dövrdə faktiki olaraq ikihakimiyyətlilik yaranmışdı. Mərkəzi Rostov olan Don Sovet Respublikası ilə yanaşı, Novoçerkaskda, Donun tarixi mərkəzində hakimiyyət kazakların əlində idi. 16 aprel tarixində bolşeviklər qüvvələrini cəmləşdirərək, Novoçerkaska hücum etdilər və kazakları Novoçerkaskdan çıxardılar. Lakin qırmızı qvardiyaçıların nailiyyəti uzun sürmədi: 1918-ci ilin mayın 6-da qüvvələrini artıran kazaklar yenidən hücum edib, Novoçerkaskını bolşeviklərdən azad etdilər. 1918- ci ilin mayın 18-də mərkəzi Novoçerkask olmaqla Böyük Don Ordusu – Don Respublikası elan edildi.

1918-ci il mayın 4-də Don Sovet Respublikasının qoşunları və idarə orqanları Rostovdan təxliyyə edildi. 1918-ci ilin mayın 8-də Rostov şəhəri Almaniyanın 52-ci Vürtemberq rezerv piyada briqadası tərəfindən ələ keçirildi. Alman ordusunun hücumu nəticəsində Qırmızı Ordu təcili olaraq Tsaritsın istiqamətində çəkilməyə başladı. Bir neçə ay ərzində ağqvardiyaçıların və Almaniya hərbi hissələrinin köməyi ilə kazaklar bütün Don ərazilərini bolşeviklərin qırmızı qvardiyalarından təmizlədilər. Don Sovet Respublikasının hərbi qüvvələri Voronej və Saratov quberniyaları ərazisinə çəkildilər və bolşeviklərin Cənub cəbhəsinin tərkibinə qatıldılar. 1918-ci ilin sentyabrın 30- da Ümumrusiya Mərkəzi İcraiyyə Komitəsi Don Sovet Respublikasının ləğv olunması faktını təsdiqləyən qərar qəbul etdi.

1918-ci ilin sentyabrın 15-də Donu ələ keçirən general Krasnov Böyük Don Dairəsi (kruq) çağırdı və burada yaratdıqları respublikanın adının Böyük Don Qoşunu kimi saxlanılması qərara alındı. Parlamentli respublika olan bu dövlətdə dövlət başçısı ataman titulu daşıyırdı, parlament isə Qoşun yığıncağı adlanırdı [16]. Böyük Don Qoşunu (Don Respublikası) indiki Rusiyanın Rostov, Volqoqrad, həmçinin Ukraynanın Luqansk və Donetsk vilayətlərinin ərazilərini öz ərazisi elan etmişdi. Dövlət dili olaraq rus dili və rus dilinin kazak ləhcəsi elan olunmuşdu. Dövlət simvolikasında hələ orta əsrlərdən Don kazaklarına məxsus elementlər yer almışdı. Dövlətin bayrağı bərabər 3 zolaqdan ibarət idi. Göy zolaq kazakların etnik mənsubiyyətini, sarı zolaq kalmıkları və açıq qırmızı zolaq kəndliləri təcəssüm edirdi. Bu dövlətin gerbində "ayaqyalın, başında papax, əlində qılınc, silah və amunisiyalar olan, çəllək, üstündə oturan kazak" əks olunmuşdu. Bu elementlər 1704-cü ildə qəbul edilən Don qoşunlarına məxsus elementlər idi [9, s. 14-15].

**Donda dövlət quruculuğu**

Don Respublikasının Konstitusiyası 1918-ci ilin avqust- sentyabrında hazırlanmış və Böyük Qoşun Şurası tərəfindən təsdiqlənmişdir. Bu Rusiyada qəbul olunmuş birinci regional Konstitusiya idi. Konstitusiyaya görə Böyük Don Qoşunu müstəqil dövlət elan edilir, onun əsasını xalq hakimiyyəti təşkil edirdi [17]. Özünü respublika adlandıran bu hərbi dövlətdə Ali Qanunverici hakimiyyət Qoşun Şurasına məxsus idi. Ali icraedici hakimiyyətin başında Qoşun Şurası tərəfindən təyin edilən Qoşun Atamanı dururdu. Məhkəmə hakimiyyəti məhkəmələr və məhkəmə səlahiyyəti olan şəxslər tərəfindən həyata keçirilirdi və bu zaman qanunun aliliyi əsas götürülürdü [17]. Konstitusiyaya görə əhali iki kateqoriyaya bölünürdü: kazaklar və vətəndaşlar. Kazak olmayan hər kəs vətəndaş adlanırdı. Kazaklar və vətəndaşların hüquq və vəzifələri Konstitusiyada əks olunmuşdu və onlar heç nə ilə biri-birindən fərqlənmirdilər. Yalnız Böyük Qoşun Şurasına nümayəndə seçmək hüququ kazaklara verilmişdi.

1918-ci il 7 sentyabr tarixdə Böyük Qoşun Şurası aqrar islahat həyata keçirdi. Həmin gün qəbul olunan “Xüsusi mülkiyyətdə olan torpaqlar haqqında qanun” da göstərilirdi ki, respublika ərazisində olan mülkədar, zabit, zadəgan, məmur, kilsə, monastır torpaqları onlara aid meşələr və s. məcburi şəkildə Qoşun Torpaq fondu üçün müsadirə edilir [17]. Həm qırmızılar (bolşeviklər), həm də ağların düşərgələrində Böyük Don Qoşunlarının Konstitusiyasına mənfi münasibət göstərirdilər.

**Xarici siyasəti**

Bolşevizmi qəbul etməyən Böyük Don Qoşunu Sovet Rusiyasını özünün düşməni elan etmişdi. Ən yaxın müttəfiqləri isə general Denikinin “Könüllü ordusu”, Getman Pavlo Skoropadskinin başçılıq etdiyi Ukrayna Xalq Respublikası və qonşusu Kuban Xalq Respublikası idi. Hətta 1918-ci ildə bu 3 dövlət – Böyük Don Qoşunu, Ukrayna Xalq Respublikası və Kuban Xalq Respublikası federativ əsaslarda birləşmək məsələlərini müzakirə etmişdilər. Böyük Don Qoşunuun Ukraynada və Almaniyada səfiri vəzifəsini Çeryaçukin Aleksandr Vasilyeviç yerinə yetirmişdir.

Böyük Don Qoşunu respublikasının atamanı general P.N.Krasnov Almaniyameylli siyasət yeridirdi və bu onunla “Könüllü Ordu” komandanı Denikin arasında ixtilaflara səbəb oldu, çünki, Denikin “Antanta” ilə əməkdaşlıq edirdi, almanlarla sülh bağlanmasına qarşı çıxırdı. Bütün bunlara baxmayaraq, hər iki tərəf ən ciddi təhlükə kimi bolşevizmi görürdülər və bolşevizmə qarşı mübarizədə birləşmişdilər. Böyük Don Qoşunu respublikasının hərbi qüvvələri formalaşdırıldı və bu yeni ordu Don Ordusu adlandırıldı. Don Ordusu, əsasən, Tsaritsın və Kamışin istiqamətində Qırmızı Orduya qarşı vuruşurdu.

1918-ci il dekabrın sonunda bölşevizmə qarşı olan bütün qüvvələr tərəfindən general A.İ. Denikin Cənubi Rusiya Silahlı qüvvələrinin (ВСЮР) və Don ordusunun Baş komandanı kimi qəbul edildi. Kazakların general Denikinə güzəşti beynəlxalq aləmdə baş verən hadisələrlə bağlı idi.

“Könüllü Ordu” ilə kazaklar arasında fikir ayrılığına səbəb olan məsələlərdən biri də Almaniyaya münasibət məsələsi idi. Həm Don, həm də Kuban kazakları Almaniyanı bolşeviklərə qarşı mübarizədə müttəfiq görürdülər. “Könüllü Ordu” rəhbərliyi isə daha çox Antanta ölkələrinə meyl edirdi. “Ağ hərəkat” liderləri, o cümlədən “Könüllü Ordu” rəhbərliyi qarşısında Rusiyanı bolşevizmdən təmizləmək və eyni zamanda Rusiyanın ərazisi bütövlüyünü qoruyub saxlamaq vəzifəsi dururdu. Bu səbəbdən general Denikin və onun silahdaşları hesab edirdilər ki, bolşeviklər kimi Almaniya da Rusiya dövlətçiliyinə təhlükədir, ancaq, Almaniyaya münasibətdə “ağların” xüsusi yanaşması var idi – onlar “iki şər qüvvədən” ən yaxşısını seçdilər, yəni bolşeviklərə qarşı mübarizədə Almaniyadan istifadə etməyə üstünlük verdilər. Bu səbəbdən, “Könüllü Ordu” Almaniyadan bolşeviklərə qarşı istifadə etməkdən də imtina etdi. 1918-ci ilin yazından Almaniya silahlı qüvvə-

lərinin Don Hərbi Dairəsinə və Azov dənizi akvarelinə daxil olmasını Denikin bolşevizmə qarşı mübarizədə dəstək kimi qiymətləndirirdi. Don kazaklarının atamanı P.N.Krasnovun 4 may 1918-ci il tarixli əmrində deyilirdi: "Don onun ərazilərinin bir hissəsinin alman qoşunları tərəfindən tutulmasını qəbul edir və onları düşmən kimi deyil, bolşevizmə qarşı mübarizədə müttəfiq görür və çalışır ki, öz ordusunun silahlanmasında və bütün vasitələrlə təminatında onlardan istifadə etməyə çalışır" [13, s. 32].

Kuban Respublikasında Ukrayna ilə birləşməyin tərəfdarları üstünlük təşkil edirdi. Gizli danışıqlarda Kubanın Ukraynaya birləşdirilməsi məsələsi müzakirə olunurdu. Gizli danışıqların təfsilatı Don hökumətinə bəlli oldu və Don hökuməti Kuban radasından Ukrayna ilə danışıqları dayandırmağı tələb etdi. Don hökumətindən hərbi cəhətdən asılı olan Kuban hökuməti Ukrayna ilə birləşmək haqqında danışıqlarını dayandırmağa məcbur oldu [2, s. 218-232].

1918-ci ilin sonu – 1919-cu ilin əvvəllərinə kazakların Tsaritsına uğursuz hücumları, eyni zamanda general Krasnovun rəqibi Denikinin "Könüllü Ordu"sunun Kubana uğurlu yürüşü, 1918-ci ilin noyabr inqilabından sonra Almaniya qoşunlarının Dondan geri çəkilməsi- bütün bu amillər Krasnovun nüfuzunun düşməsinə səbəb oldu və o, 1919-cu ilin yanvarında Denikinin hakimiyyətini qəbul etməyə məcbur oldu. Kazak kütlələri arasında dağınıqlıqdan istifadə edən bolşeviklər təbliğat işini gücləndirdilər. Belə bir şəraitdə Don kazakları onlara muxtariyyət vəd edən A.İ.Denikinlə birləşdilər və Don Respublikası Cənubi Rusiya Hərbi qüvvələrinin tərkibinə daxil oldu. Qeyd etmək lazımdır ki, Cənubi Rusiya Hərbi qüvvələrinin komandanı A.İ.Denikin idi. Beləliklə, Donda hakimiyyət praktiki olaraq general Denikinin əlinə keçdi.

**Azərbaycanın Don Respublikasında diplomatik nümayəndəliyi**

Azərbaycan Hökuməti Kuban və Donla iqtisadi əlaqələr yaratmağa çalışır, ağ neft və digər neft məhsulları əvəzində taxıl almağı planlaşdırırdı. Həm də bu zaman bütün Şimali Qafqazda real hakimiyyətin Denikinin əlində cəmlənməsi də nəzərdən qaçırılmırdı. Ona görə də, Azərbaycan Xalq Cümhuriyyəti ilə Şimali Qafqaz arasında rabitə və nəqliyyat əlaqələrinin bərpası məsələsini Hökumət başçısı Nəsib bəy Yusifbəyli məhz Denikinin nümayəndəsi general N.Baratovla müzakirə etmiş və 1919 il sentyabrın 11-də ilkin saziş imzalanmışdı. Bu sənəddə Bakı ilə Rostov arasında teleqraf və radio rabitəsi yaradılması, poçt mübadiləsinin və dəmir yolu əlaqəsinin nizama salınması nəzərdə tuturdu [4, l66].

1919-cı il sentyabrın 24-də Azərbaycanın Kubanda və Donda nümayəndəsi C.Rüstəmbəyova Cənubi Rusiya Silahlı Qüvvələri baş komandanlığı yanında Azərbaycan Xalq Cümhuriyyətinin mənafeyini müdafiə etmək səlahiyyəti də verildi. Elə həmin gün Azərbaycan Hökuməti Paşa bəy Sultanovu Rostova konsul-agent təyin etdi [1]. Hökumət bu təyinatla həmin dövrdə ingilis komandanlığının Xəzər Hərbi-Dəniz Donanmasının bir hissəsini Denikinə verməsinə qarşı Azərbaycanın etirazları, digər tərəfdən isə, Denikinin Azərbaycan hərbi-dəniz qüvvələrinin yaradılmasına qarşı çıxması ilə bağlı münasibətlərin gərginləşdiyi bir şəraitdə C.Rüstəmbəyovun işini qismən yüngülləşdirmək istəyirdi.

C.Rüstəmbəyov 1919 il oktyabrın 22-də Azərbaycan Xarici İşlər Nazirliyinə ünvanladığı məruzədə son günlərdə 4 dəfə Taqanroqa gedərək, Denikinlə görüşməyə cəhd göstərməsi, lakin rədd cavabı alması, Denikinin Azərbaycanı Dağıstan üsyançılarına yardım göstərməkdə günahlandırması, Denikinin Azərbaycana qarşı təcavüzünün açıq-aşkar artması haqqında məlumat vermişdi [5, 17-19].

1919-cu ilin payızında Cənubi Rusiya Silahlı qüvvələrinin Moskvaya hücumları dayandırıldı və "ağlar" şiddətli müqavimət göstərərək, tədricən cənuba doğru geri çəkilməyə başladılar.

Bolşeviklərə qarşı apardığı mübarizədə Denikin nəinki Azərbaycan və Gürcüstanla

müttəfiqlik yaratdı, əksinə bu respublikaların müstəqil mövqeyinə görə 1919-cu ilin noyabrın 19-da Cənubi Qafqazın iqtisadi blokadaya alınması haqqında əmr imzaladı. Denikinin Azərbaycana və Gürcüstana qarşı elan etdiyi iqtisadi blokada nəticəsiz qaldı. Denikin nə hərbi-siyasi yolla, nə də ki, iqtisadi blokada metodu ilə həmin dövlətləri asılılığa sala bilmədi. Azərbaycan Xalq Cümhuriyyətinə qarşı Denikinin münasibəti kəskinləşdi və ağqvardiyaçılar tərəfindən həbs olunma təhlükəsi qarşısında qalan C.B.Rüstəmbəyov 1919-cu ilin noyabrın sonlarında Novorossiysk vasitəsilə Bakıya qayıtmağa məcbur oldu.

**Nəticə**

1919-cu ilin sonuna Rusiyanın cənubunda antibolşevik qüvvələr ardı-ardınca məğlubiyyətlərə uğramaqda davam edirdilər. 1920-ci ilin əvvəllərindən bolşevik dəstələri Donun paytaxtı Novoçerkaskı ələ keçirdi. 1920-ci ilin yanvarın 10-da S.M.Budyonnunun komandanlığı ilə Atlı ordusu Rostov şəhərini tutdu. 1920-ci ilin fevralın 7-də A.İ.Denikinin rəhbərliyi ilə başlanan Cənubi Rusiya Silahlı qüvvələrinin əks-hücumu nəticəsində Rostov şəhərini ələ keçirsə də [8], tezliklə onu döyüşsüz tərk etdilər. 1920-ci ilin 25-27 fevral tarixlərində Yeqorlık yaxınlığında Vətəndaş müharibəsi dövründə ən böyük atlı döyüşü baş verdi və bu döyüş Don Respublikasının taleyini həll etdi. Qırmızı ordu hissələrinin zərbələri altında Cənubi Rusiya Silahlı qüvvələri dağıldı, “Könüllü ordu” kazak dəstələrinin qalıqları ilə Novorossiyaya çəkildilər. 1920-ci ilin 26-27 mart tarixində 40 minlik Könüllü korpus Novorossiyadan dəniz vasitəsi ilə Krım yarımadasına keçdi.

1920-ci ilin aprelinə Böyük Don Qoşunları – Don Respublikası ləğv edildi, bütün Don və ətrafı ərazilərdə Sovet hakimiyyəti bərqərar oldu.

## ƏDƏBİYYAT


1. «Азербайджан», 1919. 24 сентября, №204.
2. Бойко, Олена. Територія, кордони і адміністративно-територіальній поділ Української Держави гетьмана П.Скоропадського (1918) // Регіональна історія України. Збірник наукових статей. 2009. Випуск 3, с. 218-232
3. Головин, Н.Н. Российская контрреволюция в 1 9 1 7- 1 9 1 8 гг. Том 1 / Н. Н. Головин; предисл., коммент. д.и.н. С.В.Волкова. М.: Айрис-пресс, 20 1 1. 560 с. (Белая Россия).
4. Государственный Архив Азербайджанской Республики (ГААР), ф.894, оп.10, д.86.
5. ГААР, Ф.894, оп. 10, д. 112.
6. Декларация прав народов России // Советская историческая энциклопедия. Гл. ред. Е.М.Жуков. М.: Советская энциклопедия .1964. Т.5. Двинск-Индонезия. 1964, 960 столбов.
7. Донская Советская Республика. // Советская историческая энциклопедия. Гл. ред. Е. М.Жуков. М.: Советская энциклопедия. 1964. t.5. Двинск-Индонезия. 1964, 960 столбов.
8. Дробязко С.И. Эвакуация войск ВСЮР с кавказского побережья (январь–май 1920 г.) // «Донские казаки в борьбе с большевиками»: Альманах. 2010. Вып. 4//Elektron resurs: https://novocherkassk.net/viewtopic.php?t=33414#p529867
9. Закон Всевеликого Войска Донского от 4.05.1918 года // Дон и Добровольческая армия. М., Голос, 1992, с.14-15.
10. История Донского казачества. Учебник для студентов вузов. Под ред. А.В.Венкова. Ростов на - Дону. Из-во ЮФУ, 2008. 464 с.
11. Первая Всеобшая перепись населения Российской Империи 1897 г. Таблица XIII. Распеределение населения по родному языку. Т.Т. 1-150. С.Петербург. 1903-1905// Demockon Weekly/ № 731-732, 5-18 июня 2017 года.
12. Первая всеобщая перепись населения Российской Империи 1897 г. Распределение

населения по родному языку и уездам 50 губерний Европейской России // Demockon Weekly № 753-754, 18 - 31 декабря 2017.
13. Краснов П.Н. Всевеликое войско Донского // Белое дело: Дон и Добровольческая армия. М., 1992. 416 с.
14. Музаев Т.М. Союз горцев. Русская революция и народы Северного Кавказа. М.: Патрия, 2007, 279 с.
15. Юго-Восточный союз казачьих войск горцев Кавказа и вольных народов степей.// Советская историческая энциклопедия.Гл. ред. Е. М. Жуков. М.: Советская энцикл опедия .1975. Т.16. Чжан-Вэнь тянь-Яштух. 1976, 1002 столбов.
16. Никитин В.Ф. За Русь святую / Великое братство казачьих войск «Казакия». //http://kazakia-vbkv.narod.ru/txt_za_rus_sviat.html.
17. Терещенко А. Г.Конституционные акты Всевеликого Войска Донского //Донской Временник.http://donvrem.dermartology.ru/Files/article/m3/0/art.aspx?art_id=96

***Резюме***

***Икрам Агасиев,***
***Сеидмамед Мамедзаде***

***Образование Донской Республики, ее внутренняя политика и международные отношения (1918-1920 гг.)***

Статья посвящена истории Великого Войска Донского-Донской республики, существовавшей на Северном Кавказе в 1918-1920 гг.

Авторы отмечают, что в начале XX века Донской край был одним из самых многонациональных и поликонфессиональных регионов Российской империи. В имперский период области и губернии, созданные в Донской области, основывались не на национально-этнических или сектантских, а на административно-территориальных началах и не имели внутреннего само-управления. Политический режим, установившийся в регионе, отличался крайней централизацией и милитаризацией. Власть находилась в руках военно-бюрократической элиты, которая назначалась сверху.

После Февральской революции 1917 года и свержения монархии на Дону начался новый этап государственного строительства. В этом процессе прини¬мали участие как центральная власть (Временное правительство), так и региональные политические силы, сформировавшие-ся в результате демократи¬зации российского общества.

В октябре 1917 года в России произошел политический переворот и к власти пришла партия большевиков. В стране началась гражданская война. После ожесточенных боев за Дон 25 февраля 1918 года в Донском военном округе была установлена Советская власть, а 23 марта была провозглашена Донская советская республика со столицей в Ростове. Конфликты между Донской советской республикой и казаками усиливались, и 6 мая 1918 года казаки, набираясь сил, атаковали и освободили Новочеркасск от большевиков. 18 мая 1918 года с центром в Новочеркасске была провозглашена Донская республика.

В статье представлены неизвестные научной общественности сведения об истории и географии Донской республики, ее населении, внутренней и внешней политике, дипломатических отношениях с Азербайджанской Демократической Республикой. Правительство Азербайджанской Демократической Республики назначило д-ра Джафар бека Рустамбекова дипломатическим представителем при правительствах Кубани и Дона.

Автор изучил особенности становления и деятельности этой молодой республики, существовавшей в те же годы, что и Азербайджанская Демократи¬ческая Республика, и указали факторы, приведшие к ее распаду.

***Ключевые слова***: *Азербайджан, Донская республика, «Добровольческая армия», Деникин, Горская республика, белое движение*

**Summary**

***İkram Agasiev***
***Seidmamed Mamedzade***

***Formation of the Don Republic, Domestic Policy and İnternational Relations (1918-1920)***

The article is devoted to the history of the Great Don Army-Don Republic, which was located in the North Caucasus and existed from 1918 to 1920. The authors note that at the beginning of the twentieth century, the Don region was one of the most multi-ethnic and multi-confessional regions of the Russian Empire.

During the imperial period, the province, created in the Don region, was based on administrative-territorial principles and did not have internal self-government.

The region's political regime was characterized by extreme centralization and militarization. Power was in the hands of the military-bureaucratic elite.

After the February Revolution of 1917 and the liquidation of the monarchy, a new stage of state construction began in Don. In this process, they took part as a central government, as well as regional political forces, which were formed as a result of the democratization of Russian society.

In October 1917, a political coup took place in Russia and the Bolshevik party came to power. Civil war broke out in Russia. After the fierce battles for the Don, on February 25, 1918, the Soviet power was established in the Don military district. On March 23, the Don Soviet Republic was proclaimed with a capital in Rostov.

Conflicts between the Don Soviet republic and the Cossacks escalated, and on May 6, 1918, the Cossacks attacked and liberated Novocherkassk from the Bolsheviks. May 18, 1918 with the center in Novocherkassk was proclaimed the Don Republic.

The article highlights the pages of the historical geography, population, domestic, foreign policy and diplomatic relations of the Don Republic with the Azerbaijan Democratic Republic, which are little known to the scientific community. The Government of the Democratic Republic of Azerbaijan has appointed Dr. Jafar beka Rustambekov as a diplomatic representative in the governments of Kuban and Dona.

The author studied the features of the formation and activity of this young republic, which existed in the same years as the Azerbaijan Democratic Republic, and pointed out the factors that led to its liquidation.

***Keywords**: Azerbaijan, Don Republic, "Volunteer Army", Denikin, Mountain Republic, white movement*

Redaksiya heyətinin üzvü t.e.d., prof. İsgəndərov Anar Camal oğlunun rəyi əsasında çapa məsləhət görülmüşdür.

**UOT 327**

# AVROPA İTTİFAQININ POSTSOVET ÖLKƏLƏRİ İLƏ MÜNASİBƏTLƏRİNDƏ ƏMƏKDAŞLIĞIN YENİ FORMALARI

**Aygün ƏLİYEVA**[*]

*Məqalə redaksiyaya daxil olmuşdur: 6 yanvar 2022; çapa qəbul edilmişdir: 12 fevral 2022; online-da çap edilmişdir: 30 mart 2022.*
*Received: 6 th of January, 2021; accepted: 12 th of February, 2022; published online: 30 th of March, 2022.*

***Açar sözlər:*** *Avropa İttifaqı, postsovet ölkələri, Azərbaycan, Avropa Qonşuluq Siyasəti, Şərq Tərəfdaşlığı*

## Giriş

Avropa İttifaqı digər beynəlxalq təşkilatlardan fərqli olaraq üzv dövlətlərlə xüsusi münasibətlərə malik olan bir təşkilatdır. Əsas vəzifəsi üzv dövlətlərin ərazisi, siyasəti və iqtisadiyyatını unifikasiya etmək olan Avropa İttifaqı 7 fevral 1992-ci il tarixində imzalanan Maastrix müqaviləsi ilə rəsmiləşmiş və bu müqavilə 1 noyabr 1993-cü il tarixində qüvvəyə minmişdir. Həmin müqaviləyə görə Avropa Birliyi “Avropa İttifaqı” adlanmağa başladı (6, s. 28; 5, s. 28). Əslində ittifaqın təməlinin qoyulması 18 aprel 1951-ci il tarixində imzalanmış və 23 iyun 1952-ci il tarixində qüvvəyə minmiş Paris müqaviləsinə əsaslanır (5, s. 25). Lakin 1992-ci il Maastrix müqaviləsi ilə ittifaq daxili inteqrasiya prosesləri keyfiyyətcə yeni mərhələyə qədəm qoydu. Nəticədə konfederasiya, federasiya və unitar dövlət kimi elementləri özündə cəmləşdirən Avropa İttifaqı 3 kollektiv orqanı – Avropa Parlamenti, Avropa Məhkəməsi və Avropa Komissiyası üzv dövlətlərin milli hökumətlərindən tam müstəqil bir quruma çevrildi. Bu da Aİ- yə onun tərkibinə daxil olmayan ölkələr üçün ittifaqı mühüm cazibə mərkəzinə çevirirdi. Xüsusilə də 1991-ci ildə Sovet Sosialist Respublikaları İttifaqının tarix səhnəsindən silinməsi ilə onun varisi kimi bu dövlətlərin gələcəkdə Rusiya Federasiyasının təsir dairəsinə düşməsini önləmək üçün müstəqillik əldə edən postsovet ölkələrinə yeni əməkdaşlıq formaları təklif edildi. SSRİ-nin süqutundan sonra yaranan 15 müstəqil respublika da Avropa Birliyi ilə birbaşa əlaqələr qurmağa və tanınmağa çalışırdı. Demək olar ki, postsovet ölkələrinin hamısı Birliyin və ona üzv dövlətlərinin 23 dekabr 1991-ci il tarixli “Rusiyanın və digər keçmiş sovet respublikalarının statusu haqqında” bəyanatı ilə tanındılar (10; 11, s. 28). 1991-ci ildən keçmiş postsovet ölkələrinin müstəqillik əldə etmələrindən sonra Avropa Birliyi bu dövlətlərlə münasibətlərini tənzimləmək üçün ilk öncə 1989-cu ildə SSRİ ilə AB arasında ticarət və əməkdaşlıq haqqında imzalanan müqaviləyə əsaslanırdı. Daha sonra postsovet ölkələri ilə Birlik arasındakı münasibətlər üç istiqamətdə inkişaf etdi:

1. Üç Baltikyanı respublika Avropa Birliyi ilə Assosiasiya sazişi imzaladı. Bu saziş Latviya, Litva və Estoniyanın Avropa İttifaqına üzv olması yolunda hazırlıq mərhələsi kimi də dəyərləndirilə bilər. 2004-cü ildə bu dövlətlər ittifaqa üzv olana qədər hazırlıq mərhələsi, yəni ittifaqın tələblərinə uyğun inkişaf yolu keçməli olmuşdur. Qeyd edək ki, Avropa Birliyi, sonrasında Avropa İttifaqı üçün Baltika ölkələrinin tanınması zamanı onlara SSRİ-nin bir hissəsi kimi münasibət göstərilməmiş, onların II Dünya Müharibəsi ge-

[*] doktorant, Bakı Slavyan Universiteti
*e-mail: aygun.ibrahimova@yahoo.com*

dişində işğal edilməsi faktı qəbul edilmişdir. Belə ki, bunu baş vəkil A.Tizzano da 2003-cü il 22 may tarixli Budvar işi üzrə qərarında qeyd edirdi (11, s. 28-29).

2. Avropa İttifaqı ilə Sovet İttifaqının 11 keçmiş respublikası arasında 1994-1996-cı illərdə tərəfdaşlıq və əməkdaşlıq haqqında saziş imzalandı. Tacikistanla tərəfdaşlıq və əməkdaşlıq haqqında saziş digərlərindən gec – 2003-cü ildə imzalanmışdı. Bu saziş 2007-ci ildə qüvvəyə minmişdi. Bu tipli saziş isə 1994-cü ildə Rusiya ilə də imzalanmışdı. Mətnin məzmunu və özü çox bənzər idi (11, s.29). Qeyd edək ki, bu saziş 1992-ci ilin may ayında Rusiya Federasiyası ilə Avropa İttifaqı arasında Moskvada keçirilən yüksək səviyyədə görüşlərin nəticəsi idi. 1994-cü il iyun ayının 24-də Rusiya ilə Avropa İttifaqı arasında Yunanıstanın Korfu adasında imzalanan tərəfdaşlıq və əməkdaşlıq haqqında saziş 11 bölmə, 112 maddə, 10 əlavə və 2 protokoldan ibarət idi və 10 il müddətinə bağlanmışdı. Korfu sazişi kimi tanınan bu müqavilə müxtəlif sahələrdə tərəflər arasında münasibətlərin inkişafına müsbət zəmin yaradan çərçivə sənədi idi. Rusiya parlamenti bu sənədi 1996-cı ilin noyabrında, Avropa parlamenti isə 1997-ci ilin 1 dekabr tarixində təsdiq etdi və həmin vaxtdan da sənəd qüvvəyə mindi (2, s. 80). 1998-ci ildə tərəflər arasında toxuculuq məhsulları, 2000-ci ilin noyabrında elmi-texniki əməkdaşlıq, 2001-ci ildə nüvə texnologiyaları və nüvə təhlükəsizliyi sahəsində, 2002-ci ildə polad məhsullarla ticarət haqqında sazişlər də imzalandı (1, s. 80-81). Lakin bütün bunlar sadəcə Rusiyanın Avropa İttifaqı ilə əməkdaşlığa maraqlı olmasından qaynaqlanmırdı. Bu əməkdaşlığın inkişafına təsir göstərən ən mühüm amillərdən biri sözsüz ki, Avropa inteqrasiyasının genişlənməsi, yəni Aİ-yə daxil olmaq üçün Şərqi Avropa dövlətlərinin artan istəyi idi. Rusiya hər vəchlə çalışırdı ki, bu genişlənmə nisbətən yavaşlasın və ən əsası da onun səyləri Aİ ilə iqtisadi əlaqələrinə mənfi təsir göstərməsin. Çünki Şərqi Avropa ölkələri Rusiyanın qorxusundan sadəcə Aİ-yə deyil, həm də NATO-ya daxil olmağa çalışırdılar (1, s. 81).

3. Postsovet ölkələri ilə Birlik arasındakı münasibətlərin üçüncü mühüm istiqaməti kimi Belarusiya və Türkmənistanla tərəfdaşlıq və əməkdaşlıq haqqında imzalanan, lakin, qüvvəyə minməyən sazişləri qeyd etmək lazımdır (11, s. 29). Belarusiya ilə belə bir saziş 1995-ci ildə imzalandı, lakin, bu saziş Aİ tərəfindən də ratifikasiya edilmədiyinə görə Aİ-nin Nazirlər soveti bu sazişin müddətini uzatmaqdan imtina etdi (25). Türkmənistanla Avropa İttifaqı arasında isə 1998-ci ildə imzalanan tərəfdaşlıq və əməkdaşlıq haqqında saziş də eynilə Avropa İttifaqı tərəfindən ratifikasiya edilmədiyinə görə qüvvəyə minməmişdi (19).

## 1. Avropa İttifaqının postsovet ölkələri ilə ilkin əməkdaşlıq forması – Tərəfdaşlıq və Əməkdaşlıq haqqında Sazişlər

Bütövlükdə, nəzərdən keçirdiyimiz kimi, Avropa İttifaqının postsovet ölkələri ilə ilkin əməkdaşlıq forması əsasən tərəfdaşlıq və əməkdaşlıq haqqında sazişlərə əsaslanırdı. Burada bir müqayisə də aparmaq lazımdır. Belə ki, postsovet ölkələrindən fərqli olaraq, Mərkəzi və Şərqi Avropa ölkələrinə münasibətdə daha fərqli bir siyasi kurs götürülmüşdür. Belə ki, həmin regionun ölkələri müstəqillik əldə etdikdən sonra Avropa İqtisadi Birliyi (1992-ci ildən sonra Avropa İttifaqı adlandı) həmin dövlətlərlə onların inkişaf səviyyəsindən asılı olmayaraq, ticarət və siyasi əlaqələr qurmuşdu. Avropa İttifaqının Şərqi və Mərkəzi Avropaya münasibətdə Şərq siyasətində əməkdaşlığın ilkin forması kimi sadəcə iqtisadi əlaqələr qurmaqla məhdudlaşmamış, siyasi əlaqələrin fonunda daha da inkişaf etdirilmiş və bu müəyyən şərtlər qarşılığında onları üzvlüyə cəlb etməsinə qədər irəliləmişdir (5, s. 39; 13, s. 49-50). Şərqə doğru genişlənmək xətti İttifaq üçün sülh, təhlükəsizlik, stabillik və inkişafın təmin edilməsi üçün başlıca siyasi imperativ olmuşdur. Mərkəzi və Şərqi Avropa dövlətlərinin Aİ-yə üzv olmaları da bu baxımdan eyni mahiyyət kəsb edirdi (5, s.37). Tərəfdaşlıq və Əməkdaşlıq haqqında saziş formasında postsovet ölkələri ilə əməkdaşlıq forması yalnız Baltik yanı ölkələrə münasibətdə bir qədər fərqli

məcrada inkişaf etmişdi. Bunun da səbəbi daha öncə qeyd etdik. Nəticə etibarilə, 2004-cü ildə Estoniya, Litva, Latviya kimi Baltik yanı postsovet ölkələrinin ittifaqa üzv edilməsi ilə, həmin ildə Mərkəzi Avropanın Çex Respublikası, Slovakiya, Sloveniya, Macarıstan kimi dövlətlərinin ittifaqa üzv edilməsi arasında xüsusi bir fərq qoyulmamışdı. Genişlənmə 2007-ci ilə qədər problemsiz olaraq davam etdi. Xüsusilə də, Polşa, Macarıstan, Slovakiya, Rumıniya kimi ölkələrin də ittifaqa üzv qəbul edilməsi ilə Avropa İttifaqı və Rusiya Federasiya arasında sərhədlərin miqyası genişləndi, Belarusiya və Ukrayna da Avropa İttifaqına qonşu oldular (5, s. 40-41). Beləliklə, 2007-ci ildə Bolqarıstan və Rumıniyanın Avropa İttifaqına üzv qəbul edilməsi genişlənmənin hələlik son mərhələsi oldu.

Avropa İttifaqı genişlənmə siyasətində mühüm nəticələr əldə etdikdən sonra postsovet ölkələrinə qarşı münasibətdə əməkdaşlığın yeni formasına keçməyin vaxtının yetişdiyini və beynəlxalq şəraitin də daha münasib olduğunu başa düşdü. Təsadüfi deyil ki, Baltikyanı ölkələr həm Aİ-yə, həm də NATO-ya eyni ildə üzv qəbul edildilər. 2004-cü ildə isə Qara dənizə çıxışı olan Bolqarıstan və Rumıniyanın 2007-ci ildə paralel olaraq, Avropa İttifaqına da üzv oldu. Belə bir şəraitdə postsovet ölkələri ilə "Tərəfdaşlıq və Əməkdaşlıq haqqında saziş" formasını yeni bir mərhələyə daşımaq, daha aktiv bir forma ilə əvəzləmək artıq şərt oldu. Qeyd edək ki, postsovet ölkələri ilə imzalanmış "Tərəfdaşlıq və Əməkdaşlıq haqqında saziş"lərin əksəriyyəti 1997-1999-cu illərdə təsdiqləndi. Bu saziş 10 il müddətinə nəzərdə tutulurdu və tərəflərdən birinin etirazı olmazdısa növbəti 10 il müddətinə uzadılırdı. Beləliklə, müddəti 2007-2009-cu ilə qədər davam edən bu sazişlərin sonrakı illərdə hansı formada davam etdiriləcəyi Avropa İttifaqı üçün həll edilməsi vacib bir məqam idi. Sözsüz ki, "Tərəfdaşlıq və Əməkdaşlıq haqqında saziş" Avropa İttifaqı ilə yeni müstəqillik əldə edən dövlətlər arasında qarşılıqlı münasibətlərin inkişafında çox mühüm rol oynadı. Ən azından bu saziş soyuq müharibə dövründə bir-birinə rəqib olan tərəflər arasında müsbət istiqamətdə bir dönüşə səbəb oldu. Aİ-nin tərəfdaşları müxtəlif iqtisadi, mədəni və siyasi sahələrdə böyük təcrübə qazandılar. Ən əsası da tərəfdaşlarla əməkdaşlığa yeni xarakter (strateji tərəfdaşlıq, assosiasiya, qabaqcıl tərəfdaşlıq və d.) vermək istiqamətində razılıq əldə olundu (11, s. 30). Lakin Avropa İttifaqı üçün bunlar yetərli deyildi.

## 2. Avropa İttifaqının postsovet ölkələri ilə "Avropa Qonşuluq Siyasəti" çərçivəsində əməkdaşlığı

Münasibətləri növbəti mərhələyə daşımaq və daha sıx qarşı əməkdaşlıq naminə 2003-cü ildə "Daha Geniş Avropa – Qonşuluq: Şərq və Cənub qonşuları ilə əlaqələr üçün yeni Çərçivə" adlı sənəd qəbul edildi. Bu Avropa İttifaqına qonşu və ya yaxın mövqedə yerləşən dövlətlərlə əməkdaşlığa imkan verən yeni qonşuluq siyasəti forması açıqlanması istiqamətində mühüm yenilik idi. Bu sənəd daha sonra "Yeni Avropa Qonşuluq Siyasəti", 2004-cü ilin may ayından isə "Avropa Qonşuluq Siyasəti" (AQS) adlandı (4, s. 263). 2004-cü ildə qəbul edilən və komissiya tərəfindən hazırlanan, Avropa Qonşuluq Siyasətinin məqsədini, fəaliyyətinin əsas istiqamətlərini müəyyən edən "Avropa Qonşuluq Siyasətinin Strateji Sənədi" (Strategy Paper on the European Neighbourhood Policy) adlı xüsusi sənəd hazırlandı. Bu strateji sənədlə Avropa İttifaqının Qonşuluq Siyasətinin necə və hansı şərtlərlə tətbiq ediləcəyi hansı sahələrdə əməkdaşlıq ediləcəyi və maliyyə dəstəyinin necə təmin edilməsi barədə məlumatlar öz əksini tapmışdır (6, s. 1). AQS Aİ-nin şərq və cənubdakı 16 qonşu dövlətlə münasibətlərini tənzimləyən qaydalar sistemidir (3, s. 22). Azərbaycan, Belarusiya, Əlcəzair, Ermənistan, Mərakeş, Fələstin, Gürcüstan, İsrail, Liviya, Livan, Misir, Moldova, Suriya, Tunis, Ukrayna, İordaniya bu 16 dövlətə daxildir. Bu qonşular arasında yer almayan Rusiya ilə birlik arasında əlaqələr isə 4 ortaq sahəni əhatə edən strateji əməkdaşlığa söykənir (6, s. 3). Bu sistem gələcəkdə Avropa

İttifaqına üzv olmaq kimi perspektiv vəd etməsə də, əməkdaşlığa cəlb edilən qonşu dövlətlərlə münasibətlərdə "təhlükəsizlik, sabitlik və Aİ ilə qonşu dövlətlərdə inkişaf" məqsədinə çatmağı hədəfləyirdi (3, s. 16). Aİ-nin bu yeni əməkdaşlıq forması bütövlükdə Aralıq dənizi əhatəsi, Şərqi Avropa və Cənubi Qafqazı əhatə edirdi. Bu siyasətin ən mühüm tərəfi postsovet ölkələrini də əhatə etməsi idi. Tam üzvlük olmasa da İttifaqın siyasi, iqtisadi və sosial dəyərləri çərçivəsində sadalanan regionlara aid dövlətlərin Avropa İttifaqına inteqrasiyasını təmin edəcək bu siyasətin meydana çıxması mühüm əhəmiyyət daşıyırdı.

AQS-də Aİ tərəfindən qonşu ölkələr üçün təşkil edilən fondlar mühüm əhəmiyyət daşıyırdı. 2000-2006-cı illər üzrə tətbiq edilən MDB ölkələrinə dair TACİS (Technical Assistance for the Commonwealth of Independent States – Müstəqil Dövlətlər Birliyinə Texniki Yardım), MEDA (16) (The Euro-Mediterranean Partnership – Şərqi Aralıq dənizi Tərəfdaşlığı), Qərbi Balkan ölkələrinə dair CARDS (24) (Community Assistance for Reconstruction, Development and Stabilisation – Yenidənqurma, İnkişaf və Sabitləşmə üçün İcma Yardımı) və EİDHR (26) (European Instrument for Democracy and Human Rights – Demokratiya və İnsan Hüquqları üzrə Avropa Aləti) adlı müxtəlif maliyyə və tematik proqramları əsasən qonşuluq siyasətinin maliyyə təminatı üçün icra olunurdu. Postsovet ölkələrinə dair xüsusilə, TACİS proqramını fərqləndirə bilərik. Çünki bu proqram Avropa İttifaqının MDB ölkələrində iqtisadi islahatların sürətləndirilməsinə yardım məqsədilə həyata keçirdiyi xüsusi proqram idi. Bu proqramın sadəcə MDB ölkələrinə islahatlar yolunda veriləcək hər hansı bir dəstəklə məhdudlaşmırdı, Avropanın enerji təchizatı təhlükəsizliyinin təmin edilməsini də əhatə edirdi (15). Ümumiyyətlə, AQS əsasən iki məqsəd güdürdü. Birincisi, İttifaqın məruz qaldığı qanunsuz köç, narkotik, qadın ticarəti və enerji çatışmazlığı kimi problemlərini həll etmək, ikincisi isə İttifaqın təsir dairəsini genişləndirməklə beynəlxalq aləmdə daha böyük söz sahibi olmaq idi (7, s. 18). Aİ tərəfindən "Qara dəniz sinerjisi – regional əməkdaşlığın yeni təşəbbüsü" adlı sənədin qəbulu da məhz bu məqsədə xidmət edirdi. Bu sənəd Cənubi Qafqaz dövlətləri ilə qəbul edilən birgə fəaliyyət planlarını əhatə edirdi. Əsas diqqət təhlükəsizlik və Avropa enerji siyasətinə verilirdi. Qara dəniz hövzəsi neft və təbii qazın tədarükünün diversifikasiyası baxımdan geniş perspektivlər açırdı. Burada, əsasən, Xəzərlə Qara dənizi birləşdirən enerji dəhlizi və Nabukko boru kəməri kimi nəqletmə yollarının diferensiasiyası nəzərdə tutulur (5, s. 40).

Avropada təhlükəsizliyin təmin edilməsində ən güclü alətə çevrilən Avropa Qonşuluq Siyasəti daha öncə Aralıq dənizi regionunda Aİ tərəfindən inkişaf etdirilmiş Barselona prosesini daha da genişləndirilmiş formada inkişaf etdirmişdir. Öz adını 1995-ci ildə Barselonada keçirilən Avropa-Aralıq dənizi tərəfdaşlığı konfransından götürən Barselona prosesi kimi (12, s. 103) AQS-nin də mahiyyəti Aİ-nin cənub, şərq və qərb sərhədlərinin təhlükəsizliyini təmin etmək idi (3, s. 17). Həm bu, həm də Avropa İttifaqına üzv dövlətlərin maraqların təmin edilməsi baxımından AQS tərəfdaşlıq etdiyi dövlətlərlə münasibətlərin qurulmasında fərdi keyfiyyətlərə, regional aspektlərin nəzərə alınmasına üstünlük verirdi. Fərdi keyfiyyətlər xüsusilə enerji məsələsində daha da ön plana çıxır. Belə ki, Aİ Avropanın enerji problemini həll etmək və ittifaqın Cənubi Qafqaza doğru genişlənməsi istiqamətində ilkin təməllər atmaq baxımından 2009-ci ildə AQS-ni daha da inkişaf etdirib Şərq Tərəfdaşlığı proqramını təsis etdi. Bu proqram xüsusilə postsovet ölkələri ilə münasibətlərdə böyük ümidlər vəd edirdi. Lakin nəzərə alaq ki, Avropa İttifaqı nə qədər aktor təşkilat olmaq istiqamətində addımlar atmağa çalışsa da, postsovet ölkələri ilə münasibətlərdə SSRİ varisi Rusiya Federasiyasını, yəni regional aspektləri görməzdən gələ bilməzdi. Bu baxımdan da, Aİ Şərqi Avropa ölkələrinə münasibətdə bir cür, digər postsovet ölkələrinə - xüsusilə də, Cənubi Qafqazda müstəqillik qazanan dövlətlərə qarşı başqa cür mövqe sərgilənmişdir. Xüsusilə də, Rusiyanın 2008-ci ildə Gürcüstana hərbi mü-

daxiləsi, daha sonra Ukraynaya müdaxilə edib 2014-cü ildə Krımı ilhaq etməsi Avropa İttifaqını postsovet ölkələri ilə bağlı daha ehtiyatlı mövqe nümayiş etdirməyə sövq etdi. Burada belə bir maraqlı məqam var ki, Avropa İttifaqı sülhməramlı kimi az təcrübə sahibi deyil. Belə ki, Avropanın və beynəlxalq təhlükəsizliyin təmin edilməsi məqsədi ilə hələ 1999-cu ildə Aİ-nın Köln və Helsinkidə keçirilən sammitlərində 1992-ci ilin iyununda qəbul edilən "Peterberq missiyası"nın reallaşdırılması üçün Aİ-nin müstəqil hərbi strukturunun yaradılmasına diqqət yetirilmişdir. Artıq 2003-cü ildən 2010-cu ilə qədər Avropa İttifaqı 25 sülhməramlı əməliyyatda iştirak etmişdir (14, s. 5; 8, s. 6). Onu da qeyd edək ki, Aİ-nin sülhməramlı fəaliyyəti geniş diapazona malik idi: klassik sülhməramlı əməliyyatlar, polis əməliyyatları, qanunun aliliyinin yaradılması, təhlükəsizlik sahəsində islahatlar və münaqişədən sonra iqtisadi yenidənqurma və demokratik institutların qurulması (14, s. 101). Lakin postsovet ölkələri, xüsusilə də Cənubi Qafqaz dövlətləri və Ukrayna ilə bağlı vəziyyət fərqli idi. Doğrudur, 2008-ci il 12 avqust tarixində Gürcüstanda RF-nın hərbi əməliyyatları dayandırmasına dair danışıqlar aparılmasında Avropa İttifaqını təmsil edən Fransa prezidenti Nikola Sarkozinin rolunu heç də birmənalı olaraq dəyərləndirmək olmaz. Aİ-nın mövqeyini təmsil edən olsa da, Aİ-dan mandat almadan Fransanın RF ilə apardığı danışıqlar o qədər də uğurlu alınmasa da, Tbilisinin rus işğalına məruz qalmamasında Nikola Sarkozinin rolunu qeyd etmək mütləqdir. RF ilə Gürcüstan arasında sülhün bərqərar olması məqsədi ilə Fransa tərəfindən təklif edilən plan 6 prinsipə əsaslanırdı: güc tətbiq etməmək; hərbi əməliyyatları tamamilə dayandırmaq; humanitar yardım üçün sərbəstlik; Gürcüstan silahlı qüvvələri daimi dislokasiya yerinə qayıdırlar; RF-nın silahlı qüvvələri hərbi əməliyyatlar başlanana qədər mövcud olan xəttə geri çəkilirlər; Cənubi Osetiya və Abxaziyanın təhlükəsizliyinin təmin edilməsi şərti ilə beynəlxalq miqyasda gələcək statusunun müzakirə edilməsi. Qeyd edək ki, son müddəa Gürcüstan tərəfindən qəbul edilmədi və "beynəlxalq miqyasda gələcək statusunun müzakirə edilməsi" ifadəsi "regional stabillik və təhlükəsizlik barədə beynəlxalq danışıqlar barədə" formasında dəyişdirildi (20). Məhz Gürcüstanda baş verən müharibədən sonra Avropa İttifaqı postsovet ölkələri ilə əməkdaşlığının AQS- dən sonra yeni bir tərəfdaşlıq forması – Şərq tərəfdaşlığı ilə inkişaf etdirməyə qərar verdi.

### 3. Aİ-nin postsovet ölkələri arasında "Şərq Tərəfdaşlığı" çərçivəsində əməkdaşlıq

Şərq tərəfdaşlığı əslində AQS-nin bir qolu idi və eyni məqsədə xidmət edirdi. Bu tərəfdaşlığa əsasən tərəfdaş dövlətlərdə siyasi və iqtisadi islahatlar aparılmalı, bu minvalla da onların Aİ-yə yaxınlaşması təmin edilməli idi. 6 tərəfdaş dövləti – Azərbaycan, Gürcüstan, Ukrayna, Moldova, Belarusiya və Ermənistanı əhatə edən bu proqramla bağlı ilkin təşəbbüs 2008-ci il 26 may tarixində Aİ-nin Xarici İşlər Nazirləri çərçivəsində keçirilmiş Brüssel görüşündə Polşa və İsveç tərəfindən təklif edilmişdi. 2008-ci il dekabr ayının 3-də Avropa Komissiyası tərəfindən Şərq tərəfdaşlığı Təşəbbüsü üzrə Məlumat Sənədi və İşçi sənəd həm Aİ-nin dövlət və hökumət başçılarının təmsil olunduğu Şuraya, həm də Avropa Parlamentinə təqdim edildi. Bu iki sənəddə Şərq Tərəfdaşlığının yaranma məqsədi, Aİ-nin bu proqramdan gözləntiləri, tərəfdaş dövlətlərlə əməkdaşlığın hansı istiqamətdə inkişaf etdirilməsi məsələsi daha sistemli formaya salınırdı. 2009-cu il 7 may tarixində Praqada keçirilən sammitdə Şərq Tərəfdaşlığı haqqında Birgə Bəyannamənin qəbul edilməsi ilə tərəfdaşlıq formal olaraq da yaradılmış oldu (12, s. 79-80). Bu təşəbbüs demokratiya, qanunun aliliyi, insan hüquqlarına və əsas azadlıqlara hörmət, bazar iqtisadiyyatı və davamlı inkişaf kimi ümumi dəyərlərə əsaslanır. Bu proqramın qarşısında duran əsas məqsədlərindən biri keçmiş postsovet dövlətlərində hələdə mövcud olan avtoritar və neototalitar idarəetməni aradan qaldırmaqdır. Avtoritar idarə etmənin sayəsində hazırda məhz bu dövlətlərdən Avropaya olan böyük miqrant axınının qarşısını almaqdır (1, s. 11).

Ümumiyyətlə, Şərqi Avropada Aİ və Rusiya xarici çağırışları koordinasiya etməyə

cəhd edən, qonşu mühitin formalaşdırılması üçün struktur və normativ hakimiyyət reallaşdırılmasına çalışan ən vacib aktor tərəflərdir. Moskva, adətən, Brüssel üçün normativ və siyasi rəqib kimi qəbul edilir. Xüsusilə də, AQS və ŞT-ı həyata keçəndən sonra Rusiya Federasiyası tərəfindən qonşuluqdakı istənilən təsisatın qurulmasına qarşı aqressiv mövqe nümayiş etdirməyə və tədbirlər görülməsinə başlanmışdı. Artıq qeyd etdiyimiz kimi, Gürcüstana qarşı hərbi müdaxilə bu aqressivliyin daha açıq forması idi. Aİ-nin postsovet ölkələri ilə münasibətlərində əməkdaşlığının bu formalarına qarşı 2010-cu ildən başlayaraq, daha sistemli tədbirlər görüldü. 2010-cu ilin iyul ayında Rusiya Federasiyasının rəhbərliyi altında Belarus və Qazaxıstanın da iştirakı ilə Avrasiya Gömrük İttifaqı yaradıldı (23, s. 44). 2014-cü il, 10 oktyabr tarixində Ermənistan, 2015-ci il, 12 avqust tarixində isə Qırğızıstan da bu ittifaqa qoşuldu (9, s. 5, 7, 9). 2012-ci ildə isə Vahid İqtisadi məkan yaradıldı. Bu məkanın yaradılmasında məqsəd Avrasiya İqtisadi İttifaqını yaratmaq idi (23, s. 44). Bu yolla RF Avropa İttifaqının postsovet ölkələri ilə genişlənən əməkdaşlığına alternativ yaratmağa çalışırdı. 2014-cü il Krım hadisələri də müəyyən mənada Avropa İttifaqına Ukraynanın üzv olmasının necə nəticələr doğuracağına dair təhdid təəssüratı yaradırdı. Qeyd edək ki, Krımın Rusiya tərəfindən işğalından dərhal sonra Avropa İttifaqı tərəfindən görülən tədbirlər əsasən sanksiya və qadağalarla məhdudlaşdı. Belə ki, 2014-cü ildə Krım Rusiya tərəfindən işğal edildikdən sonra Avropa və qitədə ofisləri olan şirkətlərə Krımda mülk almaq, habelə Krımdakı hər hansı bir müəssisəni maliyyələşdirmək və onlara müvafiq xidmətlərin göstərilmək qadağan edildi. Avropanın turizm şirkətləri də sanksiyalara görə Krımda və Sevastopolda xidmətini dayandırır. Hətta Avropa gəmilərinə fövqəladə hallar istisna olmaqla Krımın dəniz limanlarına daxil olmayacaq. Aİ-nin qərarı Krıma müəyyən malların ixrac edilməsinə də məhdudiyyətlər qoyurdu. Bu nəqliyyat, rabitə, energetika, faydalı qazıntıların kəşfiyyatı və hasilatı kimi sahələri əhatə edirdi. 2014-cü il 20 dekabr tarixindən qüvvəyə minən sanksiyalar bu günə qədər qüvvədə qalmaqdadır (16; 10). Lakin bütün bunlar Rusiyanın Ukraynanın ərazi bütövlüyünü pozmasının və qoşun yeritməsini önləmədi. Əksinə 2022-ci ilin fevralın 24-dən etibarən Rusiya Federasiyası Ukraynaya qarşı müharibəyə başladı (21). Krımda olduğu kimi Rusiya tərəfindən nəzarət altına alınan Donetsk və Luqanskla bağlı da oxşar sanksiya və qadağalar tətbiq edildi (22; 10). Avropa İttifaqı tərəfindən Ukrayna ittifaqın üzvlüyünə namizəd ölkə statusu alsa da hələ ki üzvlük məsələsi tam olaraq həllini tapmayıb.

Bu gün maraq doğuran ən mühüm məqamlardan biri budur ki, əgər Ukrayna Avropa İttifaqına üzv olarsa, Aİ-yə postsovet ölkələrindən daha hansı ölkələr üzv ola bilər. Məsələyə Cənubi Qafqaz prizmasından yanaşdıqda bu gün üçün bu regionun ölkələrindən hər hansı birinin ittifaqa üzvlük mümkünsüz görünür. Bunu biz həm 2008-ci il Gürcüstan müharibəsində, həm də 2020-ci il Qarabağ müharibəsində də gördük. Xüsusilə də 44 günlük Vətən müharibəsinin yekununda rus qoşunlarının sülhməramlı simasında Qarabağa yeridilməsi Cənubi Qafqazdakı şərtlərin fərqli olduğunu bir daha nümayiş etdirdi. Nəticədə 1993-cü il 25 may tarixində Azərbaycandan çıxarılan rus qoşunları bu dəfə 2020-ci il noyabrın 10-da sülhməramlı kimi Azərbaycanın Qarabağ bölgəsinə daxil oldu. Ardınca da Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında 2022-ci il 22 fevral tarixində müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında Bəyannamə imzalandı (17).

**Nəticə**

Bu gün Cənubi Qafqaz ölkələri ilə sadəcə əməkdaşlıq formaları çərçivəsində münasibətlərini formalaşdıran Avropa İttifaqının gələcəkdə bu regionun ölkələrini də ittifaqa üzv etmək kimi niyyəti olarsa, ilk növbədə Qafqazda yaradılan Rusiya anklavları amilini həll etməlidir. Bu gün Ukraynada gedən müharibənin necə nəticələnməsi də Cənubi Qafqaz dövlətlərinin Avropa İttifaqı ilə əməkdaşlığının hansı formada inkişafına davam edəcəyini müəyyənləşdirəcəkdir. Digər tərəfdən də, Avropa İttifaqı xristian həmrəyliyi ol-

maqdan çıxıb Türkiyəni də ittifaqa üzv olaraq qəbul etməlidir. Yalnız belə olan halda postsovet ölkələrindən olan Azərbaycan Respublikasının ittifaqa nə vaxtsa üzv olması barədə fikir irəli sürmək olar.

## ƏDƏBİYYAT


1. Azərbaycanın Avropa yolu gənclərin gözü ilə. Bakı: Qanun Nəşriyyatı, 2013, 36 s.
2. Baxışov M.Ə. Avropa İttifaqı ilə Rusiya Federasiyası arasında münasibətlərin inkişafı // Bakı Universitetinin xəbərləri, Humanitar elmlər seriyası, 2010, №4, s.79-82.
3. Eyvazova S.Ə. Avropa Qonşuluq Siyasəti – Azərbaycan Respublikası ilə əməkdaşlığın hüquqi əsasları. Monoqrafiya. Bakı: Azərnəşr, 2018, 240 s.
4. Sadıqov R. Avropa İttifaqının Şərq siyasətində yeni meyarlar – "Avropa Qonşuluq Siyasəti" və "Şərq tərəfdaşlığı" // Tarix və onun problemləri, 2009, №4.
5. Sadıqov R.Ə. Avropa İttifaqının Şərq Siyasətində Cənubi Qafqaz faktoru: siyasi e. üzrə fəls. d-ru e. dər. al. üçün təq. ed. dis.: 23.00.04/ Azərb. Resp. Təhsil Nazirliyi, BDU. Bakı, 2011, 153 s.
6. Akçay Ö. Avrupa komşuluk politikası // Ulusaldan Küresele: Popülizm, Demokrasi, Güvenlik Konferansı. İstanbul: Işık Üniversitesi Yayınları, 2020, s.1-6.
7. Samur H. Avrupa Komşuluk politikası ve amaçları // Electronic Sosyal Bilimler Dergisi, 2009, Cilt 8, Sayı 27, s. 18-35.
8. Арбатова Н.К., Кокеев А.М. Европейский Союз и региональные конфликты. Москва: ИМЭМО РАН, 2011, 143 с.
9. Евразийский экономический союз: цифры и факты. Библиотека евразийской интеграции. Москва, 2018, 94 с.
10. Заявление Сообщества и государств-членов от 23 декабря 1991 г. о "двенадцати" о будущем статусе России и других бывших советских республик // Bull EC, 1991, №12.
11. Калиниченко П.А., Трубачева К.И. Европейский Союз на постсоветском пространстве: право, интеграция, геополитика: монография. Москва: РосНОУ, 2012, 208 с.
12. Погорельская, А.М. Барселонский процесс и его роль в современном иммиграционном кризисе Европейского союза // Вестник Томского государственного университета. 2016, № 403, с. 103-107.
13. Шимански К. Четыре рояля евросоюзной восточной политики // Европа. Журнал Польского Института Международных дел, 2008, Т. 8, №2 (27), с.49-54.
14. EU crisis management: institutions and capabilities in the making. Edited by Ettore Greco, Nicoletta Pirozzi and Stefano Silvestri. Istituto Affari Internationali (IAI). Quaderni IAI. Rome: Tipografia Città Nuova della P.A.M.O.M., 2010, 119 p.
15. Mayer S. "TACIS and EU's security of energy supply: the Commission as a strategic actor in external relations," TranState Working Papers 46, University of Bremen, Collaborative Research Center 597: Transformations of the State. 2006, 35 p.
16. Avropa İttifaqı Krım ve Sevastopola qarşı yeni sanksiyalar elan edib (www.bbc.com/azeri/region/2014/12/141218_eu_crimea_sanctions)
17. Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında Bəyannamə. 22.02.2022 (https://president.az/az/articles/view/55498)
18. EU restrictive measures in response to the crisis in Ukraine (www.consilium.europa.eu/en/policies/sanctions/restrictive-measures-ukraine-crisis/)
19. EU-Turkmenistan – signature of the partnership and cooperation agrrement. (https://ec.europa.eu/commission/presscorner/detail/en/PRES_98_163)
20. Georgia/Russia, release of prisoners of war (https://ihl-in-action.icrc.org/case-study/georgiarussia-release-prisoners-war)
21. Grajewski M. War in Ukraine. European Parliamentary Research Service. Strategy and Coordination Unit PE 729.282. Briefing. What Think Tanks are Thinking. EU. (www.europarl.europa.eu/RegData/etudes/BRIE/2022/729282/EPRS_BRI(2022)729282_ EN.pdf)
22. MEDA (https://www.fiec-ar.eu/commissions/the-euro-mediterranean-partners hip-meda)

23. Moga T., Alexeev D. Post-Soviet States between Russia and the EU: Reviving Geopolitical Competition? A Dual Perspective. Connections, 2013, Vol. 13, №1, pp. 41-52.
24. CARDS(https://ec.europa.eu/neighbourhood-enlargement/enlargement-policy/glossary/cards_en)
25. Countries and regions. Belarus. (https://ec.europa.eu/trade/policy/countries-and-regions/countries/belarus/)
26. EIDHR(https://ec.europa.eu/info/sites/default/files/about_the_european_commission/eu_budget/db_2021_programme_statement_european_instrument_for_democracy_and_human_rights_eidhr.pdf)

***Резюме***

***Айгюн Алиева***

***Новые формы сотрудничества между Европейским Союзом и постсоветскими странами***

В статье дается анализ основных тенденций развития политики Европейского союза на постсоветском пространстве. Особое внимание уделено новых форм сотрудничества между Европейским Союзом и постсоветскими странами. Дана информация о соглашении, о партнерстве и сотрудничестве между Европейским Союзом и постсоветскими странами. Особое внимание уделено промежуточным итогам программы «Европейская политика соседства» и «Восточное партнерство». Автор считает, что, несмотря на отсутствие четкой стратегии ЕС в отношении стран региона и неспособность/или нежелание напрямую влиять на происходящие там процессы, Европейский союз способен усилить свое присутствие в постсоветских странах за счет активного экспорта норм права ЕС и работы со структурами гражданского общества. Как известно отношения Европейского союза (ЕС) с государствами постсоветского пространства стали оформляться в некое целостное направление внешней политики этого интеграционного комплекса лишь с 2002–2004 гг., когда была разработана Европейская политика соседства (ЕПС), включающая в себя сотрудничество как со странами постсоветского региона, так и Средиземноморского бассейна. Хотя основы диалога Евросоюза и постсоветских стран на базе так называемых Соглашений о партнерстве и сотрудничестве (СПС) были заложены еще в 1990-е годы, данное направление внешней политики на тот период не имело большого значения для Брюсселя. Более весомый и значимый статус оно приобрело лишь в связи с расширением границ Евросоюза после принятия новых членов в 2004 и 2007 гг. В дальнейшем Евросоюз все более активизировал свою политику на постсоветском пространстве, которое к началу 20-х годов III тысячелетия стало представлять собой скорее зону конкуренции, а не сотрудничества между Москвой и Брюсселем. Тем не менее Евросоюзу пока не удалось серьезно усилить свое влияние врегионе, что связано, в первую очередь, с просчетами в формулировании и проведении Европейской политики соседства, а такженовых внешнеполитических инициатив ЕС, например «Восточногопартнерства».

***Ключевые слова:*** *Европейский союз, постсоветские страны, Азербайджан, Европейская политика соседства, Восточное партнерство*

***Summary***

***Aygun Aliyeva***

***New Forms of Cooperation Between the European Union and the Post-Soviet Countries.***

The article analyzes the main trends in the development of European Union policy in the post-Soviet space. Particular attention is paid to new forms of cooperation between the European Union and post-Soviet countries. Information about the agreement, partnership and cooperation between the European Union and the post-Soviet countries is given. Attention is also drawn to the preliminary results of the European Neighborhood Policy program and Eastern Partnership initiative. The author argues that despite the lack of a clear strategy towards the region and the inability or lack of will to engage directly the local development, the European Union will be able to increase its presence there via a very active export of its legal norms and intensive contacts with the regional NGOs and civil societies. As we know, the relations of the

European Union (EU) with the states of the Post-Soviet space began to take shape in a certain holistic direction of the foreign policy of this integration complex only from 2002–2004, when the European Neighborhood Policy (ENP) was developed, which includes cooperation both with the countries of the post-Soviet region and the Mediterranean Basin. Although the foundations of the dialogue between the European Union and the post-Soviet countries on the basis of the so-called Partnership and Cooperation Agreements (PCAs) were laid back in the 1990s, this direction of foreign policy at that time was not of great importance for Brussels. It acquired a more weighty and significant status only in connection with the expansion of the EU's borders after the admission of new members in 2004 and 2007. Subsequently, the European Union more and more intensified its policy in the Post Soviet space, which by the beginning of the 20s of the 3rd millennium began to represent more a zone of competition, rather than cooperation between Moscow and Brussels. Nevertheless, the EU has not yet been able to seriously increase its influence in the region, which is primarily due to miscalculations in the formulation and implementation of the European Neighborhood Policy, as well as new EU foreign policy initiatives, such as the Eastern Partnership.

***Keywords:*** *European Union, Post-Soviet Countries, Azerbaijan, European Neighborhood Policy, Eastern Partnership*

Redaksiya heyətinin üzvü s.e.ü.f.d. Qasımov Səyavuş Kamran oğlunun rəyi əsasında çapa məsləhət görülmüşdür.

**F İ L O L O G İ Y A**

**UOT 82**

# ŞƏKİ, SALYAN, QUBADLI VƏ İRƏVAN BÖLGƏSİNDƏN TOPLANILMIŞ BƏZİ ARXAİK MİF MƏRASİMLƏRİNİN VERBAL TƏQDİMATI

**Fərəh CƏLİL***
**Emin ZEYNALOV, ****
**Lalə TEYYUBLU,*****
**Hicran ƏBDÜRRƏHİMLİ,******
**Fatimə CƏLİLOVA,*******
**Firuzə HÜSEYNOVA********

*Məqalə redaksiyaya daxil olmuşdur: 12 fevral 2022; çapa qəbul edilmişdir: 14 mart 2022; online-da çap edilmişdir: 30 mart 2022.*
*Received: 12 th of February, 2021; accepted: 14 th of March, 2022; published online: 30 th of March, 2022.*

***Açar sözlər:*** *Azərbaycan, bölgə, folklor, mərasim, mif*

**Giriş**

Zəngin mənəvi-mədəni irsə sahib Azərbaycan xalqı bu gün də minilliklərdən süzülüb gələn şifahi xalq sənəti olan folklorumuza sahib çıxmağa onu qorumağa çalışır. Türk etnosunun ayrılmaz hissəsi olan Azərbaycan oğuzlarının söz yaddaşı arxaik ənənəni müasir dövrə ötürməklə zəngin mədəni irsimiz haqqında bu gün də baza rolunu oynamaqdadır. Folklor yaddaşımızın sayəsində biz keçmişimizi, tariximizi, etnoqrafiyamızı dərindən öyrənməklə yanaşı bu baza üzərində bu gün də mövcud ənənəni qoruyub saxlamağa çalışırıq. Azərbaycan folklorşünaslığı bu problemə xüsusi qayğıyla yanaşaraq, akademik səviyyədə iş aparmaqdadır. AMEA Folklor institutu Folklor mətnlərimizi bölgələrə görə toplayaraq nəşr etdirir. Bu ənənə sadiq qalaraq biz də bəzi bölgələrimizdə mövcud olan mif mətnlərimizi yaşlı insanlardan toplayıb nəşr etdirməyi məqsədə uyğun hesab edirik.

***İrəvan ərazisi, Ağbulaq kəndi***
*(Toplayan: Emin Zeynalov, III kurs tələbəsi*
*Söyləyici: Ağbulaq sakini Zeynalova Dostu Allahverdi qızı (76 yaş))*

Hal anası iki tişdi safsarı üzdü bir arvatdı. Həməşə uşağı olan ananın ciyarını aparıf suda yeyir. Ona görə də evdə uşağa yatan olanda kişilər gedif çayı şişnən qarışdırır, kəntdə suyun yanında güllə atıllar kı hal qorxuf ananın ciyarını yerinə qoysun. Birdə həmişə uşağa yatan anıya kişi paltarı geydirillər yada yanındakılar kişi paltarı geyir ki, hal qorxuf arvada yaxın gəlməsin.

***

* filologiya elmləri doktoru, professor, Bakı Avrasiya Universiteti
*e-mail: calil.farah72@mail.ru*
** tələbə, *Bakı Avrasiya Universiteti*
*** tələbə, *Bakı Avrasiya Universiteti*
**** tələbə, *Bakı Avrasiya Universiteti*
***** tələbə, *Bakı Avrasiya Universiteti*
****** tələbə, *Bakı Avrasiya Universiteti*

Göyçənin Ağbulax kəndində Nərgiz adda bir arvat varıydı. Bu arvat uşağa boyluydu. Bir gün sancısı tutuf evdə də heş kim olmuyuf. Əri çöldə qaynənəsi pəədə malı sağır uşaxda eşihdə. Bunun sancısı bərkiyif uşağı doğuf amma özü ölüf. Uşaxları ağlaşıf kı anamızı hal apardı. Cahamat da ona bir baatı yazıf:

*Eləmi lala nərgiz*
*Dağlarda lala nərgiz*
*Bizi təh qoyuf getdi*
*Qoşuldu hala Nərgiz*

***

Bir gün bir kişinin uşağı oluf bu uşax 40 günün içindəjə ölüf. Bir müdət keşdi bir uşağı da oldu öldü. Kişi duruf seyidin yanına gedir ki bu nə işdi? Seyid deyif ki, torpax sizdən pay isdiyir. Bunnan sora uşağın olanda oğlan olsa erkəh, qız olsa tişi quzuya uşağın adını qoy kəs. El qaydasınnan yu kusulla kəfənə tut basdır. Basdıranda da de ki: “a torpax, bu da sənin payın mənim uşağıma dəymə”. Onnan sora doğurdan da onnarın pütün uşağı qaldı.

***

Ağbulaxda Darcan adında bir qoja arvat varıydı. Onu da bir iti varıydı. Ayvını qara yer örtmüşün yaman əli möykəmiydi. Bir gün Ada təpiyə tıvılğı yığmağa gedir. Şəliyi belinə bağlıyıf gələndə ajıxır. Torvasında yumurta bir də çörəy oluf. Yumurtuyu yeyif qavığını itə atıf. İtdə onu hancarı yesin? Çörəyinnən də qalıf qalanı itə vermiyif. Torvuya qoyuf əəğa durmax isdiyəndə itin ahı Darcan qarıyı tutur.Yerinnən qalxanda belindəki şələ daşa dönür. Onun şəkli qayada da var adına Darcan qaya deyirdih.

*Ziyil qaytarma:* Kimin əlində ziyil olarsa daş duzun xırdasından əlindəki ziyilin üstünə qoyub götürüb kənara qoyursan. Sonra yeni daş duzdan başqa bir ziyilin üstünə qoyursan. Beləcə bütün ziyillərə duz qoyub götürürsən. Sonra həmin adam o duz qırıqlarını aparıb təndirin içinə atır. O qədər uzağa getməlidir ki duzun çırtıltısını eşitməsin. Səhəri gün bütün ziyillər gedir.

***

Möhkəm yağış yağanda əldə ölən adamın (güllə ilə bıçaqla öldürülən) baş daşından bir parça yanan təndirə atanda yağış kəsir.

***

Çimən adamı çimif qutarannan sora üş qav su töküf deyillər: “Ağırrığım, uğurruğum dağlara, daşdara, göydə uçan quşdara, çayda çimən atdara, sürüdəki qoşdara, dul arvatdara”.

*Bayatılar:*

*Eləmi, ağ bulaxdı,.*
*Dürr bulax Ağbulaxdı.*
*Darcan qaya gördünsə*
*Bil ora Ağbulaxdı.*

*Əzizim, qayasına*
*Dağına , qayasına.*
*Qadan balan tökülsün*
*Görüm hal anasına.*

*Eləmi lala, nərgiz.*
*Dağlarda lala, nərgiz.*
*Bizi tək qoydu getdi.*
*Qoşuldu hala Nərgiz.*

*Mən aşıx yanar gedər.*
*Dərdimi sanar gedər.*
*Ömrüm bir Humay quşu*
*Yol üsdə qonar gedər.*

***Şəki bölgəsi***

*(Toplayan: Teyyublu Lalə. III kurs tələbəsi,*
*Söyləyici: Şəki rayonu Dodu kəndinin sakini Arzu Ramazanova, 60 yaş)*

*Qodu-qodu*

Şəkidə qodu-qodu oyununun yağışlı günlərdə oynayırlar. Belə hesab edilir ki, qodu-qodu gəzəndə yağış kəsilir.

Adətən, bu oyunu uzun sürən yağışlar yağanda oynayırlar. Uşaqlar müqəvva düzəldib, onun əllərində gəzdirə-gəzdirə müxtəlif evlərə gedirdilər. Uşaqlar qodu-qodu gəzəndə belə bir nəğmə oxuyurlar:

*Bulud get- gün gəl,*
*Bulud get-gün gəl.*
*Keçəl qızı evdə qoy,*
*Nazlı qızı götür, gəl*
*Qodu-qodu dursana,*
*Çömçəni doldursana.*
*Qoduya durub baxsana,*
*Qodunu yola salsana.*
*Qodu batdı palçığa,*
*Qarmaladım, çıxartdım.*
*Qızıl qaya içindən*
*Qırmızı gün çıxartdım*

Ev sahibləri uşaqların qabağına çıxıb onların çömçəsinə qənddən, düyüdən bir şey qoyardılar.

Nəhayət, uşaqlar yığdıqları payları bir evə gətirirdilər. Ev sahibəsi uşaqlar fərəhlənsin deyə onların gətirdikləri payların üstünə evdən də nə isə əlavə edib, uşaqlar üçün bir yemək hazırlayıb sevindirərdilər.

*Yel Baba mərasimi*:

Səpinçi Allahın adını çağırıb toxumluq dəni əlinə götürür:

-*Allah, birə min elə!- deyib səpinə başlayır.*

*Səpin vaxtı buğda qovursan*
*məhsul az, yarma bişirsən bol olar*-deyərlər

*Səpilən toxum oğurluq olsa bitməz* - deyərlər.

*Taxıl çuvalının üstündə otursan bərəkətsiz olar*– deyərlər.

*Taxıl sovurulanda bərk külək əssə, ələyər, ya da xəlbirin üstünü bastırarlar. Onda yel yavaş əsər* – deyərlər

Taxıl döyümü zamanı boğanaq qalxarsa, qızlar:

-*Boğanaq gəlmə, sənə gəlin olacam* – deyərlər

*Təndirdə bişən ilk çörəyi yesən arvadın ölər* – deyərlər.

Kotanın dəstəyi ilan olsa, əldən buraxma, çinin dəstəyi qızıl olsa, əlinə alma – deyərlər.

Xırmandan sovurulmamış buğda götürənin oğlu ölər, sovurulmuş buğda götürənin oğlu olar – deyərlər.

Xırmanda dəni samandan ayırmaq vaxtı gələndə camaat Yel babanı çağırıb deyər:

*- Yel baba, gəl, ağ atına arpa, saman apar!*

Bəzən ona nəğmə ilə də müraciət edirlər:

*Yelli babam,*

*Yel babam*
*Telli babam.*
*Tel babam.*
*Elim, günüm batdı gəl,*
*Çərpələngim yatdı, gəl.*
*Təknədə qaldı aşım,*
*Yatdı dəyirman daşım.*
*Yelli babam,*
*Yel babam*
*Telli babam,*
*Tel babam.*
*Gülpərinin arpası,*
*Xanmuradı yarması.*
*Nabat da dalda qaldı,*
*Uşaqlar darda qaldı.*
*Çiynimə düşdü başım,*
*Yatdı dəyirman daşım.*
*Yelli babam,*
*Yel babam*
*Telli babam,*
*Tel babam.*
*Gülli tutdu savaşım,*
*Təknədə qaldı aşım.*
*Çiynimə düşdü başım,*
*Yatdı dəyirman daşım.*

Əcdlarımızın əski inamına görə, bu çağırışdan sonra Yel Baba gəlib, xırmanı sovurar, samanı aparıb öz atına verər, təmizlənmişdən isə adamlara qalar.

*Hal mifi:*

Deyirlər ki, Hal gözə görünməz bir varlıqdır. Amma insanlar kimi canlıdır, Qadınlar belə hesab edirlər ki, Hal anası iynədən bərk qorxur. Ona görə də körpələrinin, özlərinin üstünə iyna sancırlar. Gecə tövlədə olan at bərk tərləsə, quyruğu düyülsə, deyərlər onu ya cin, ya da Hal minib çapıb. Göz qapaqlarını üst-üstə yeddi dəfə qapayana: – cinləri, ya halları qəzəbləndirdin deyərlər. Təzə uşaq doğmuş ananı Haldan qoruyarlar. Deyirlər, Hal ananın içalatını çıxardıb aparmağa, suya çəkib yeməyə çalışır. Hal gəlməsin deyə, kasanın içinə soğan salıb ağzıaçıq qayçı ilə birlikdə ev qapısının ağzına qoyurlar. Bundan sonra daha hal gəlməz – deyərlər.

Haldan söhbət düşəndə : "Xalasına lənət" – deyərlər.

Halın adı gələndə deyirlər: – Qulağına qurğuşun, hayında hardasa ziyanlıq etdi.

Halın pişik və qadın formaları digər regionlarımızda da geniş yayılmışdır. Amma, Halın keçi dönərgəsinə indiyədək çap olunmuş folklor kitablarının heç birində rast gəlmədik. Şəkidə Halın keçi dönərgəsi Unuqay adlanır. Şəki ərazisinin Göynük kəndlərində bu mifoloji obrazla tez-tez rastlaşmaq olur. Unuqaya qəbiristanlıq ətrafı ərazilərdə rast gəlinir. O, çox zaman yolla gedən atlıya, yaxud arabalı yolçuya sahibsiz keçi kimi görünür. Keçinin rəngi mətnlərin əksəriyyətində ağ, yalnız bircə mətndə qara verilir. Tapıntının keçi yox, Unuqay olduğu bilinəndən sonra onun ayaqları uzanmağa başlayır. Unuqayın ayaqlarının uzanması onun güclənməsinə səbəb olur.

Hal qara pişik formasında zahı qadınlara görünərək onları qorxudur. Birində pişik də Cin kimi adamı aldadaraq aparır. Digərində də Hal pişik formasındadır və insanlarla birgə yaşayır. Evin xanımının paltarını oğurlayıb geyinən sonra gətirib yerinə qoyur və

bu sirri açan adamı cəzalandırır. Halın sirrini açmış adamı cəzalandırması “Azərbaycan mifoloji mətnləri” də verilmiş 194№li mətnlə tam uyğunluq təşkil edir. Həmin mətnə görə, Fərəculla adlı bir kişi görür ki, onun pişiyi şər qarışanda evdən çıxır, səhər qayıdır. Kişi pişiyi güdür və sahibsiz bir bağa gəlib çıxır. Bağ pişiklərlə dolu imiş. Kişi bir tərəfdən gizlənib işin axırını gözləyir. Pişiklər əl-ələ tutub yallı gedirlər. Fərəcullanın pişiyi isə durub baxır. Bir azdan pişiklər onun pişiyinə deyirlər ki, usta Fərəculla, buyur, sən də oyna. Kişinin pişiyi o biri pişiklərə qoşulub oynamağa başlayır. Kişi bunu görüb evə qayıdır. Pişik isə evə səhər gəlir. Axşam yeməyindən sonra kişi üzünü pişiyə tutub deyir ki, usta Fərəculla, buyur, bir oyna, biz də baxaq. Bunu eşidən pişik cəld kişinin üstünə cumub onun üz-gözünü cırmaqlayır. Kişini onun əlindən güclə alırlar. Pişik o gündən evdən qaçır və bir daha evə qayıtmır.

*Cin obrazı*

Bu obraz Şəki ərazisində ən geniş yayılmış mifoloji obrazdır. Cin qırmızıpapaq, şişpapaq, qırmızı paltarlı, balacaboy bir mifoloji obrazdır. Daha çox xaraba yerlərdə və sahibsiz evlərdə yaşayır. Ona bəzən Vəsvəsə də deyirlər. Cini atın belinə qırlı çul qoyub tuturlar. Tutulan Cinin üstünə iynə taxıb işlətmək mümkündür. Ancaq, cin qaçarkən qarğıyır və onun qarğışı mütləq həyata keçir.

Bölgədən topladığımız mətnlərin birində deyilir ki, atı minən Cin balacaboy, qırmızı paltarlı, qırmızı hörüklü, uzunburun qızdır. Şəki ərazisindən qeydə aldığımız bir mətnə görə, Cin də Hal kimi itdən bərk qorxur. Cinin bu keyfiyyəti «Azərbaycan mifoloji mətnləri» kitabında gedən mətnlə və «Göyçə folkloru» kitabında verilən «Cin dərəsi» adlı mətnlə tam uyğunluq təşkil edir. Bir neçə mətndə Cin də Kaftar kimi adamları daşa basır. Cin bir sıra mətnlərdə yatan insanın üstünə çöküb ona ağırlıq salan mifoloji obraz kimi təqdim olunur. Cinin bu atributundan danışarkən onu bəzən Qara-qura da adlandırırlar. Ərazidən qeydə aldığımız bir mətnə görə, körpə uşağı tək qoyduqda Cin onu öz balası ilə dəyişdirir. Cinin dəyişdirdiyi uşaq cansız, arıq və balacaboy olur.

*Xıdır İlyas və Xıdır Nəbi* mifoloji obrazları ərazidə geniş yayılan və olduqca maraq doğuran obrazlardandır. Xıdır İlyas başında xəz papaq, əynində kürk olan mifoloji varlıqdır. Bəzi mətnlərdə isə onun cır-cındır içində, dilənçi görkəmində gəzdiyi bildirilir. Onun barmaqlarının arası qaz ayaqları kimi pərdə ilə örtülmüşdür. Xalq arasında yayılmış təsəvvürlərə görə, o, ancaq yaxşı adamların gözünə görünür, pis adamlar isə onu görmək imkanından məhrumdurlar. Xıdır İlyası görən şəxs onu tanıyıb nə istəsə, arzusuna çatar. Amma mətnlərin, demək olar ki, hamısında Xıdır İlyası görən insanlar onu ya dilənçi, ya da müqəddəs hesab edərək sədəqə verirlər və yalnız sədəqəni alıb yox olduqdan sonra onun Xıdır İlyas olduğu məlum olur.

Xıdır Nəbi alçaqboylu, dolu bədənli, əyninə köhnə xalat və ya sırıqlı geyinən qoca kişidir. Köhnə heybəsi də həmişə çiynində olur. Ərazidə yayılmış inama görə, Xıdır Nəbi su ziyarətidir. Suya girən adam onu çağırsa, sudan salamat keçər. Ərazidə bununla bağlı belə bir deyim də işlədilir: “Derin suyə niyə girisanı ki, Xıdır Nəvi də çaarasanı”. Başqa bir mətnə görə, Xıdır Nəbi su peyğəmbəridir. Kəndə sel gələndə Xıdır Nəbi özü əlində çıraq, selin qabağında işıq sala-sala gəlir.

Xıdır Nəbi Allahın buyruqçusudur. Bir nəfər molla əlində kitab dəryanın qırağında oturub cadu vasitəsi ilə Allahın öldürdüyü adamları dirildir. Molla Allahın dediyinə əməl etmədiyi üçün o, Xıdır Nəbini göyərçin donunda göndərir ki, mollanın əlindəki kitabı vurub çaya salsın. Xıdır Nəbi kitabı vurub çaya salır, amma onun bir vərəqi cırılıb mollanın əlində qalır. Bu mətnin verdiyi məlumata görə, cadu yazmaq o zamandan qalıb.

***Şəki Bölgəsi***

*(Toplayan: Hicran Əbdürrəhimli. III kurs tələbəsi)*

O vaxtı biri var idi ona Əkli-məklo diyirdilər. Hammı onun ətrafına yığılırdı. O da buğdaya nələrsə oxiyirdi buğda bariyə dırmaşırdı. Heylə oluf ona əkli-məklo diyirdilər cimi-cin. Hammı da buna inanırdı bi ziyarət kimi gedirdilər yaana. *(Söyləyən: Tural Hacıyev, Şəki şəhər sakini)*

Tabunun pozulması nəticəsindən İsmayıl Əfəndinin başına gələnlər: Bideyiz kəndində bi də kişi var idi. İsmayıl əfəndi. Hindi ziyarətdi. O dağa odun qırmağa gedir. Balaca uşax olur. Odun yığır gecə evə gələndə qavağına meşəynən qavırsannıx çıxır.Bu da diyir ki,"habı qavırsannığın yaanda uzanım" Ocaq qalifdi ocağın böründə isinifdi.Əyağında da qoyun dərisinnən sapoğu olufdu. Görünfü ki, ocağın böründə balaca boylu,tühlü insannar var.Diyifdi "ay Allah mə da axırımdı Allah sən özün qoru" Sora görür ki, üş dənədilər. Buna diyifdilər ki,"sən kimsən?" İsmayıl əfəndi də əyağı ocağı qurdalitdi bular da elitdi. Ayağı uzadıfdı bular da uzadıtdı.Sora adamlar soruşutdu ki,"sə adın nədi?" bu diyifdi özüm İsmayıl əfəndi: Sizin adoz nədi? Onlar:özüm. Əfəndi yenə əyağı ocağa uzadıtdı. Bular da eliyən əyaxları yanır. Bu da tez qaçıtdı ağacın başına bir də görütdü ki, çoxlu o tüklü adamlara oxşiyən şeylər çıxır. Tüklü şeylərin böyüyü:niyə yanmısoz? Kim elitdi? Onlar: özüm. Adamların böyüyü:özüm özüm öl qutar diyif buları yandırıtdı. Əfəndi də tez çıxıf qəbirsannıxdan uzaxlaşıfdı. Bir ay da heylə yatıfdı. Sonradan o qavırsannığa ziyarət kimi gəlitdilər.( *(Söyləyən: Ulduz Seyidova, Şəki şəhər sakini)*

***

Günnən bi günü bi arvadın uşağı azarranır. Su diyə-diyə durur. Sora ölür. Anası diyir ki, " ay, Allah mə nola quş elə ucuf geyim mən bu evdə qalmiyim" Sora sutapır diyir ki, " Dursun, Dursun dur gə su iç" göyərçinə çevrilir, bütün günü də heylə diyə-diyə uçur. *(Söyləyən: Təranə Lətifova, Şəki şəhər sakini)*

***

Uşaq olannan sora 40 gün ərzində Al yanında olur. Uzun saşdı hami ruhdu. Saçı həm öndən, həm arxadan tökülür. Əgər qadını allada bilirsə qadını aparıb gedir. Ona görə qəbir qazırlar. 40 gün qavır açıx qalır.40 gün qadına vurmax,söylənmax olmaz. Əgər qorxuf yuxuda səyaxlasa Al gəlif gəl-gəl diycax o qadını görüf bissimillah diməsə Al onu aparcax (*Söyləyən: İradə Qurbanova, Şəki şəhər sakini)*

O vaxtı uşaxları qoxuzmaxdan ötrü xoxan gə diyərdilər. Uşax da kürrux eləməzdi. O xoxan da güya 1 gün ölülər dirilitdimiş adamla qoxuzutdumuş ondan sora yaranıtdı *(Söyləyən: Həsrət Həbibullayeva, Şəki şəhər sakini, 73 yaş)*

O vaxtı da gözdəyməsin olmiyən vaxlar dağdağanı düymə kimi eliyif üstlərinə bağliyərdilər ki,nəzər dəyməsin. Bi də nəsə nəzər dəyən kimi duzu başın üsdündə çörüf " sa dəyən gözdər partdasın çatdasın" diyirlər 3 dəfə nəzər gedir. (*Söyləyən: Həsrət Həbibullayeva, Şəki şəhər sakini, 73 yaş)*

***Salyan bölgəsi***

*(Toplayan: Fatimə Cəlilova. III kurs tələbəsi)*

Salyan rayonu Quyçu kəndində keçmişdə toyun səhərisi günü gəlin gördüyə gələrmişlər. Bu zaman gəlini ilk dəfə görən qadınların sol tərəfinə, yəni ürək nahiyəsinə gəlin xoş qoxulu ətir vurarmış. Bunun anlamı isə gəlinin ilk görüşdən xatirələrdə gözəl qalması və yaxşı xatırlanması üçün imiş. Hətta hal-hazırda da bu adəti yerinə yetirənlər vardır. *(Söyləyən: Gülbadam Xanlarova, Salyan rayon Quyçu kənd sakini)*

***

Salyan rayonunda nənələr nəvələrinə lay-lay əvəzi xeyir dua sayağı əzizləmələr

oxuyardı. Balamın dilində nə var? Kəlməyi-Şəhadət balamın qaşında nə var? Qələmi qüdrət balamın gözündə nə var? Nuri Məhəmməd balam sağ ayağı ilə sirat körpüsündən keçər. *(Söyləyən::Səyyarə Kazımova, Salyan rayon Alçalı kənd sakini)*

***

Salyanda Bəyquş quşuna hörmətlə yanaşılır. Səbəbi isə keçmişdə Salyanda bəylərdən birinin quşu imiş. Hər zaman o bəyin yanına gələrkən şəhərdə uğurlu, gözəl hadisələr olarmış. Bəy də o quşu götürüb yanında saxlayır və ona bəyquşu adını verir. Buna görə Salyanda həyətə gələn bəyquş qovulmaz, hətta sevinirlər ki, uğurlu bir hadisə baş verəcək. *(Söyləyən: Lumu Cəlilova. Quyçu kənd sakini)*

***

Keçmişdə Salyanda cadu ilə məşğul olan bir qarı varmış. Kiminsə sözü onunla tərs düşsə idi həmin adam fəlakətə düşərdi. Buna görə də hamı o qarıdan çəkinər, uzaq qaçarmış. Yenə bir gün şəhər sakinlərindən biri ilə sözü tərs düşür. Qadın həmin dəqiqə əlinə bir ovuc buğda götürüb sözlər deməyə başlayır. Buğda da tək-tək divara dırmanırdı. Bunu görən həmin adam onun nə etdiyini anlayır və deyir. Ey ifrit qarı sən mənə cadu edirsən. Bu etdiyin böyük günahdır. Allahın ayələrini tərsinə oxuyub cadu etmək sənə cəhənnəmi qazandırır. Qadın sözlərin heç birini aldırmır. Həmin adam şəhərin ağsaqqalının yanına gedib məsləhət alır. Qarının ona cadu etdiyini və vəziyyətinin günü-gündən pisləşdiyini söyləyir. Ağsaqqal ondan soruşur:

- Qarının hansı duanı tərs oxuduğunu bilirsənmi?

- Hə. Yasin surəsini oxuyurdu. O zaman sən də duanı düz olduğu kimi oxu. Bu onun cadusunu sındırar.

Həqiqətən də, belə olur və qarı 7 gün sonra ölür. *(Söyləyən: Həyat Həbibova. Salyan rayon sakini)*

***

Dolu yağanda əncir ağacına qırmızı parça bağlanar ki, dolu kəsilsin.

***

Novruz bayramı günündə axşam saat 00:00 da əlinə şam götürüb güzgünün qarşısında duranda gələcəkdə evlənəcəyin adamı görürsənmiş. Salyan rayon Qızılağac kəndinin 17 yaşlı sakinlərindən biri bunu edərkən qorxudan ürəyi dayanır və ölür.

***Qubadlı bölgəsi***
*(Toplayan: Firuzə Hüseynova, III kurs tələbəsi,*
*Söyləyən: Gülü Tahirova, Qubadlı rayonu, Göyərcik kənd sakini, 70 yaş)*

Qubadlı sakinlərindən birinin dediyinə görə, "ağsaqqallıq" Qubadlı toylarının əsas sütununu təşkil edir. Bu, çətin və məsuliyyətli bir vəzifədir. Həmin vəzifəyə təyin edilən həm nəslin tanınan, sözü keçən, həm də el-oba tərəfindən hörmətlə qarşılanan nüfuzlu bir şəxs olmalıdır. Həmin ağsaqqal toyun bütün məsuliyyətini əvvəldən-axıra qədər öz üzərinə götürür. Bir növ oğlan atası da ağsaqqala tabedir. Onun qoyduğu qayda-qanunları belə pozmağa ixtiyarı yoxdur.

Qubadlı yasları xalq dili ilə desək, "çox ağır keçir". Yasa xeyli adam gəlir. Qadınlar bir neçə saat rəhmətə gedənin ünvanına ağılar deyərək öz üzüntülərini ifadə edirlər. Bu ağılardan bir neçə nümunə gətirək:

*Qardaş kişmiş kimidir,*
*Cibə düşmüş kimidir.*
*Qardaşı ölən bacılar*
*Gözdən düşmüş kimidir.*
*Çəkilə bax, çəkilə,*

*Çəkil yerə tökülə.*
*Vay o gündən ki*
*Iyin evdən çəkilə.*

*Bu bölgənin bayatıları da özünəməxsusluğu ilə seçilir.*

*Gecə keçdi çaxmaxdan,*
*Sular doymur axmaxdan.*
*Gözümə sarı gəlib*
*Yollarına baxmaxdan.*
*Pəncərədən baxma, qız,*
*Başına gül taxma, qız.*
*Hər sevirəm deyənə*
*Sən su kimi axma, qız!*

Qubadlı əhalisindən toplanan maraqlı tapmacalar da diqqət çəkir:

*El yatdı, oba yatdı,*
*Eyvaz ayağın uzatdı.*
*(qapının cəftəsi)*
*O nədir ki, doğar əlsiz-ayaqsız,*
*Üç ay keçər, olar əlli-ayaqlı.*
*(çömçəquyruq)*

**Nəticə**

Gətirilən folklor nimunələrindən məlum olur ki, Azərbaycan türkləri türk qövmünün bir parçası olaraq zəngin etnomədəni dəyərlərə sahibdir və bu gün də bu dəyərlər bu və ya digər şəkildə qorunub saxlanılmaqdadır. Magik şüurun ifadəsi kimi kultluçuluq və bunun da nəticəsi kimi bu gündə davam edən mərasimlər və ya da onların verbal ifadəsi xalqın öz mədəni dəyərlərinə sahib çıxmasının bariz nümunəsidir. Digər tərəfdən, xalqın yaddaşında yaşayan mifoloji obrazların, motiv və süjetlərin hər bölgədə özünəməxsus şəkildə interpretasiya edildiyini toplanılan mətnlər bir daha sübut edir.

***Summary***

***Farah Jalil, Emin Zeynalov, LalaTeyyublu,***
***Hijran Abdurrahimli, Fatima Jalilova, Firuza Huseynova***

***Verbal Presentation of Some Archaic Myth Ceremonies Collected from Sheki, Salyan, Gubadli and Yerevan Regions***

The article contains examples of our mythological memory collected from different regions of Azerbaijan. Like any ancient nation, the people of Azerbaijan have rich spiritual and cultural resources. The folklore memory of our people is mainly based on the examples of the mythological thinking of the Oguzs, who are part of the great Turkic ethnos. Various ceremonial and mythological texts related to the time and space factor have been presented in new interpretations. Collection of these texts is one of the main tasks of Azerbaijani folklore. In this sense, the article serves as a collection and transportation of mythological texts existing in Sheki, Salyan, Gubadli and Yerevan regions.

Taking this into account, we have collected some folklore texts that still exist in some regions of Azerbaijan.

In the Sheki region, which has a rich cultural heritage, mythological images bear the names of many hearths. Examples of these are the hearths called çomçakhatun and yel baba. These names are images formed in connection with the calendar myths involved in the ceremonies of the season. These obrzlar this

gun does not live in the memory of the people only by their names. At the same time, there are ceremonial texts among them that are still remembered by the people.

At the same time, some mythological rituals that are still performed in many of our mosques are preserved. As a proof of this, we have included in the article some mythical texts that exist in Gubadli, Selyan and Iravan regions. There are many rituals performed, especially during childbirth, to protect the baby and the grandmother from evil spirits. According to the belief of the Oghuz people, this evil spirit is called the mother of Hal. There were many mythical texts about Hal's mother in Iravan district, one of the ancient regions of Azerbaijan. We have included some of these multivariate mythological texts in the article.

With this tool, we tried to collect in the article, albeit a small part of the existing Turkic-Oghuz ethnoculture in Azerbaijan.

***Keywords:*** *Azerbaijan, region, folklore, ceremony, myth*

***Резюме***

***Фарах Джалиль, Эмин Зейналов, Лала Тейюблу,***
***Хиджран Абдуррахимли, Фатима Джалилова, Фируза Гусейнова***

***Устное представление некоторых архаичных мифических обрядов, собранных в Шекинском, Сальянском, Губадлинском и Ереванском районах***

В статье собраны примеры нашей мифологической памяти, собранные из разных регионов Азербайджана. Как и любой древний народ, азербайджанский народ обладает богатыми духовными и культурными ресурсами. Фольклорная память нашего народа в основном базируется на примерах мифологического мышления огузов, входящих в состав великого тюркского этноса. Различные обрядовые и мифологические тексты, связанные с фактором времени и пространства, представлены в новых интерпретациях. Сбор этих текстов является одной из главных задач азербайджанского фольклора. В этом смысле статья служит собранием и транспортировкой мифологических текстов, существующих в Шекинском, Сальянском, Губадлинском и Ереванском районах.

Принимая это во внимание, мы собрали некоторые фольклорные тексты, которые до сих пор существуют в некоторых регионах Азербайджана.

В Шекинском районе, обладающем богатым культурным наследием, мифологические образы носят имена многих очагов. Примерами этого являются очаги, называемые çomçakhatun и yel baba. Эти имена представляют собой образы, образованные в связи с календарными мифами, связанными с обрядами времени года. Сегодня эти образы не живут в памяти народа только своими именами. В то же время среди них есть обрядовые тексты, которые до сих пор помнят народ.

В то же время сохранились некоторые мифологические ритуалы, которые до сих пор исполняются во многих наших церемониях. В доказательство этого мы включили в статью некоторые мифические тексты, существующие в Губадлинском, Сальянском, Ереванском районах. Существует множество обрядов, направленных на защиту младенца и матери от злых духов, особенно при рождении. По поверью тюрков-огузов, этот злой дух называется матерью Хала. В Иреванском районе, одном из древних районов Азербайджана, было много мифических текстов о матери Хала. Некоторые из этих многовариантных мифологических текстов мы включили в статью.

Таким образом, мы попытались собрать в статье хоть и небольшую часть существовавшей в Азербайджане тюрко-огузской этнокультуры.

***Ключевые слова***: *Азербайджан, регион, фольклор, обряд, миф.*

Redaksiya heyətinin üzvü fil.e.d., dos. Rzayev Seyfəddin Gülverdi oğlunun rəyi əsasında çapa məsləhət görülmüşdür.

**PEDAQOQİKA**

**UOT 373.2**

# BULLYING AND ITS PREVENTION IN EARLY CHILDHOOD EDUCATION

**Sevinj HAJIYEVA***

*Məqalə redaksiyaya daxil olmuşdur: 13 yanvar 2022; çapa qəbul edilmişdir: 18 fevral 2022; online-da çap edilmişdir: 30 mart 2022.*

*Received: 13 th of January, 2021; accepted: 18 th of February, 2022; published online: 30 th of March, 2022.*

***Keywords:*** *bullying, early childhood education, childhood / bullying behavior, bullying prevention*

## Introduction

This research is about bullying and how to prevent bullying in early childhood education (kindergarten). There is a global focus on the possibility of preventing bullying in childhood. In recent years, a growing body of research has shown that bullying begins in early childhood and that prevention techniques need to be established, especially in preschool settings. Other peer difficulties, such as bullying, withdrawal, loneliness and peer rejection, have often been shown to coexist frequently. Bullying is a complex concept that is rarely isolated from other behaviors [5, s. 11-23]. This study employs the concept of bullying, which can also be categorized as peer hardship or social justice. There are some thoughts related to bullying. For example, social-emotional learning (SEL), emotional and behavioral difficulties (EBD), or aggressive behavior.

The UN Declaration of the Rights of the Child came into force in early childhood education in 1989. It is the foundation of the National Early Childhood Education Program. Children's rights are legally binding in the country of ratification. In accordance with the Convention, the Government, by law or otherwise, provides all children with the elements necessary for healthy, normal physical, mental, moral, spiritual, and social development in an environment of freedom and dignity. It should be stipulated that you are the best interests of the child and a child should be given priority when formulating relevant legislation. Furthermore, all children have the right to an education that enables them to develop their abilities, personal judgment, and moral and social responsibility to promote general education and become productive members of society (United Nations, 1989).

Early childhood education promotes a climate in which equality and morality are the foundations of human rights and democracy. Human rights education aims to instill in children the ideals of democracy, human dignity, tolerance, participation, and respect in early kindergarten [14, s. 2009]. Young people must be able to live in a morally safe environment. Bullying jeopardizes the development of mutual responsibility. This applies to children who make fun of others, victims and children who must witness a lack of or violation of human dignity.

* PhD on the pedagogical sciences, Azerbaijan State Pedagogy University
*e-mail:h.sevinj_88@yahoo.com*

**The consequences of bullying**

Some of the researches show that bullying is a serious risk factor for the healthy growth and development of children and adolescents. There is growing empirical evidence that bullying has significant marginal effects. School-aged victims of bullying were found to have lower self-esteem and higher rates of hopelessness, anxiety, and suicidal ideation later in life [7, s. 419-426]. A long-term study found that bullied children develop persistent inflammation in their bodies that can be tolerated into adulthood. There is a link between the physical condition of the children and the frequency of being bullied.

Children who bully are more likely to engage in antisocial behaviors, such as substance abuse and criminal activity, later in life. In other words, they are more likely to be marginalized.

The most relevant symptoms were seen in those who were bullied during the school year and those who were bullied by others (victims of bullying) [7,s.419-426]. Copeland et al. (2013) observed that men who were bullied in childhood had a significantly higher risk of suicide later in life, while women in the same group had higher rates of agoraphobia.

In one study, a reseacher tracked children's peer relationship troubles after going through kindergarten (age 5), kindergarten (age 6), and first-grade compulsory education (age 7). Some of the issues mentioned included exclusion, introversion, loneliness, bullying and victimization. The findings showed that the incidence of these diseases varied significantly between different age groups. During these three years, some children's difficulties decreased, some increased, while others remained unchanged. Young people often suffer from many difficulties at the same time. The study concluded that if a 5-year-old had problems with peers, they were more likely to have problems by age 7.

**Bullying in early childhood education**

The current early childhood education systemin Europe is based on the Children's Day Care Act (1973) and the Basic Education Act (2003/1136, 1). In addition, two guidance documents were used to set the content of an early childhood education policy. The former is not a normative document, but the core curriculum of pre-primary education is driven by a 4-hour-a-day normative curriculum for 6-year-olds. The Children's Day Care Act (1973) regulates the number of qualified staff for children's groups. Children under the age of 3 are usually educated and cared for in infant groups. One certified staff member must be present for every four children. Children aged 3 to 5 are usually placed in the same group and every seven children should be supervised by a qualified staff member.

Children in this study were aged 3 to 6 years and participated in Early Childhood Education (ECE). ECE Group has experts in various fields of education. One-third of eligible employees must have a bachelor's degree in education from a university or a bachelor's degree in social studies from an applied science institution. Some early childhood professionals have different educational backgrounds (e.g., licensed nurses, nursery teachers, etc.). In this study, the term "child care specialist" refers to all workers who work with children between the ages of 3 and 6. When distinguishing educational backgrounds, the terms preschool teacher and practice nurse are used.

**The ethics and challenges of studying bullying in the early childhood**

Ethical considerations are important when studying small children. In recent years, children's researchers have placed increasing emphasis on child participation and personal representation. It is useful and essential to listen to children's own stories and understand that they are actively involved in creating knowledge about their own lives and their

surroundings. At the same time, it is also important to pay attention to the age of the child and the degree of language development. Young people fail to understand the context of their research and how to make sense of the material when creating the story. Methods of acquiring and analyzing data must comply with ethical principles. When studying children, there is a danger that they have no control over how the material looks or is used while they tell stories about their growth.

In one study, preschool teachers and assistant nurses were asked to identify and name children among a group of children who made fun of others and their victims. This involved the risk of being stigmatized. However, this information was deemed important to the study and an agreement was reached with the City of Vantaa to provide training on the topic to early childhood professionals after the study. Two training sessions were held, including conversations about the dangers of triaging children and the need to label bullies and victims. This is based on a sociocultural perspective where bullying is a larger problem, including the management culture of children's groups and the dynamics of group bullying.

Researching bullying in early childhood education is difficult. This area is still unclear and there are many aspects to discuss and agree or disagree on. The main problem is the lack of defining dialogue and the lack of appropriate, important, and theoretical tools. For example, there is a discussion about who to ask and how to ask. When considering bullying investigations and bullying transmission, it is important to understand who is conducting the investigation and how the data is obtained. The most popular and traditional method of data collection among school-aged children is to ask students themselves (self-assessment. One option is to ask teachers to rate their classroom situations (Teacher Ratings). Peer or parent ratings are also used [2, s. 102-121].

**Typical features of bullying**

All members of a community influence the norms and values that emerge within the group. Social understanding is built through interactions with others and varies across groups. Thus, bullying is a pattern of behavior that develops in the community, is accepted by the individual and is influenced by their behavior. Bullying is influenced by community norms, such as group hierarchies and one’s perceptions of inequality and normalcy. In other words, the rules and values of a group govern the behavior of its members. For example, ethnic background may be a determinant of inequality and disparity in some groups of children, but not in others. In addition, if bullying is pervasive and accepted by the group's informal norms, the group encourages it. According to Dijkstra, Lindeberg, and Veenstra (2008) [12, s. 1289-1299], group norms directly influence the desirability of socially desirable bullying.

As a result, there is a growing consensus that anti-bullying should target entire groups of peers rather than individual bullies and victims. Group bullying is the passive acceptance of bad behavior by the group.

**Prevention of bullying**

There is little literature on how to reduce bullying in kindergartens, and even fewer ready-made methods. Due to a lack of research on bullying in children under the age of 5, early childhood education approaches are largely based on anecdotal evidence. New anti-bullying initiatives need to be disseminated using high-quality implementation standards to increase the likelihood that the program will be affected [13, s. 2009].

Meanwhile, various anti-bullying intervention programmes have been established for schools over the years, most notably the KiVa and Olweus anti-bullying programmes. Operating Model and Principles "Show enthusiasm and active interest and participation

in student life, set strict limits on unacceptable behavior, and be non-physical and non-hostile negative when rules are violated.

The KiVa program's interventions in bullying situations include individual and group conversations with victims and bullied individuals. These exploratory dialogues are based on Olweus's suggestion about the nature of pika's dialogue style and its interaction with bullies (Sainio, Kaukiainen, Willför-Nyman, Annevirta & Salmivalli, 2009). There are two methods for interacting with children and young people who engage in bullying. Share Concern Act (SC) and Disapproval of Bullying Act (DB). Based on his personal experience, Pikas (1987) explores the applicability of these strategies in various scenarios. According to Pikas, fighting bullying is most effective when it is not a serious personality, when the children involved are young, or when the bullying group lacks social cohesion. Bullying becomes more severe as young people age, bullying builds socially cohesive groups, and external orders to stop can worsen behavior and make shared care approaches more successful.

Other academics and organizations [11, s. 2013] are also ephasizing a strategy in which they are actively promoting children's strong sense of belonging, including improving student engagement in experiences of reducing and avoiding bullying.

**Conclusion**

The purpose of this study was to understand whether bullying occurs among school-aged children. How is this phenomenon expressed? How seriously do children and those they work with take the issue of bullying? As well as many types of bullying and its prevalence. Additionally, the goal was to determine if there were any educational or organizational practices related to bullying issues within the preschool group.

According to the findings of this study, systemic bullying is well known and widespread among children in early education at the institution. Based on the findings, it is important to emphasize that the behavioral patterns associated with bullying and their associated roles begin in early childhood. When working with young children, developmental issues, especially language issues, add to the difficulty of definition. For example, young children may have difficulty identifying exclusion as a form of bullying. Persistence (in some cases) is not productive. Prevent the development of aggressive behavior and prevent it from developing into bullying behavior over time.

## REFERENCES


1. Act on Children's Day Care. Cambridge, 2002, 208 p.
2. Adams R.E., Bartlett N.H., & Bukowski W.M. Peer victimization and social dominance as intervening variables of the link between peer liking and relational aggression. Journal of Early Adolescence,2010, p.102-121.
3. Alsaker F., & Nägele C. Bullying in kindergarten and prevention. In D. Pepler & W. Craig (Eds.), Understanding and addressing bullying: An international perspective, Bloomington,2008, pp. 230-252.
4. Basic Education Act.Berlin, 2003, 230 p.
5. Baumeister A.L, Storch E.A., & GeffenG. R. Peer victimization in children with learning disabilities. Child and Adolescent Social Work Journal, 2008, pp. 11-23.
6. BrotherusA. Esiopetuksen toimintakulttuuri lapsen näkökulmasta. [The Activity culture in pre-school education from the child's perspective]. Tutkimuksia, 2004, 251 p.
7. Copeland W.E., Wolke D., Angold A., & Costello J. Adult Psychiatric Outcomes of Bullying and Being Bullied by Peers in Childhood and Adolescence. JAMA Psychiatry, 2013, pp. 419-426.
8. Copeland W. E., Wolke D., LereyaS. T., Shanahan, L., Worthman, C., & Costello, J. E.

Childhood bullying involvement predicts low-grade systemic inflammation into adulthood, 2014, pp. 7570-7575.
9. Core Curriculum for Pre-School Education. Opetushallitus, 2010, 210 p.
10. Corsaro W. And we were friends, right? Inside kids' culture. Washington DC: Joseph Henry Press, 2003, 190 p.
11. Davis S., & Nixon C.L. Youth voice project: Student's insights into bullying and mistreatment. Champaign, IL: Research Press, 2013, 390 p.
12. Dijkstra J.K., Lindenberg S., & Veenstra, R.. Beyond the class norm: Bullying behavior of popular adolescents and its relation to peer acceptance and rejection. Journal of Abnormal Child Psychology, 2008, pp.1289-1299.
13. Farrington D.P., & Ttofi M.M. School-based programs to reduce bullying and victimization. Campbell Systematic Reviews, 2009, 210 p.
14. Flowers N., Brederode-Santos, M.E., Claeys, J., Fazah, R., Schneider, A., & Szelenyi, Z. Compasito – manual on human rights education for children. Council of Europe, 2nd edition, 2009, 310 p.
15. Garandeau C.F., Hai-Jeong, A., & Philip, R. The social status of aggressive students across contexts: the role of classroom status hierarchy, academic achievement, and grade. Developmental Psychology, 47(6), 2011, 1699 p.
16. Garandeau C. F., Ihno, L. A., & Salmivalli, C. Inequality matters: Classroom status hierarchy and adolescents' bullying. Journal of Youth and Adolescence, 2014, pp. 1123–1133.

***Xülasə***

***Sevinc Hacıyeva***

***Məktəbəqədər təhsildə zorakılıq və onun qarşısının alınması***

Bu tədqiqatın məqsədi məktəbəqədər təhsil müəssisələrində zorakılıq fenomenini araşdırmaq, onu daha yaxşı başa düşmək və zorbalığa qarşı təsirli tədbirlər görməkdir. Buna görə də, bu araşdırmanın məqsədi zorbalığın tezliyini və növlərini və uşaq bağçalarında istifadə edilən təşkilati və təhsil strategiyalarının zorakılıqdavranışı və zorakılığın qarşısının alınması ilə əlaqəli olub olmadığını araşdırmaqdır.

Uşaqları qruplardan kənarlaşdırmaq zorakılıqvəziyyətlərinə müdaxilə etməyin ümumi üsuludur. Bu arada, zorakılığın həlli kimi kənarlaşdırmadan istifadə edən respondentlər zorbalığa dayandıra bilmədiklərini söylədilər. Bundan əlavə, alternativ təhsil həllərini tez-tez sınaqdan keçirən və qiymətləndirən qruplar, metodlarını sınaqdan keçirməyən və qiymətləndirməyən qruplara nisbətən daha az zorakılıq yaşayıblar.

Erkən təhsil və ya məktəbəqədər təhsil müəssisələrində zorakılıq, məktəb həyatində zorakılığın "sadəcə uşaq oyunu" olduğu fərziyyəsindən xeyli kənarda, müəllif tərəfindən "uşaq zorakılığının bir növü" kimi təsnif edilir. Məqalədə uşaq zorakılığı dərindən müəyyənləşdirilir və məktəbəqədər dövrdə zorakılıq və onun qurbanlarının böyüklər kimi çətin həyat keçirmə ehtimalı araşdırılır. Müəllif məktəbəqədər təhsil sistemlərində zorakılığın yayılmasına, onun təsirlərinə, müdaxilə variantlarına müraciət edir və resursların və istinadların hərtərəfli siyahısını təqdim edir.

Müəllif məqaləni məktəbəqədər təhsil müəssisələrinin administratorları, müəllimlər, məsləhətçilər və məktəb işçiləri üçün müdaxilə üsullarına dair bölmə ilə yekunlaşdırır. Uşaqlara onların "sosial səriştələrini" inkişaf etdirməyə kömək edən məktəb işçilərinin konsepsiyası bu artan sosial təhlükənin qarşısının alınması və minimuma endirilməsinin görkəmli üsulu kimi təbliğ olunur. Ümumiyyətlə, məqalə mövzu ilə maraqlanan hər kəs üçün oxumağa dəyər və bu inkişaf edən narahatlığı araşdırmaq üçün müxtəlif resursları təmin edir.

***Açar sözlər**: zorakılıq, erkən uşaqlıq təhsili, uşaqlıq/ zorakılıqdavranışı, zorbalığın qarşısının alınması*

***Резюме***

**Sevinc Hacıyeva**

***Буллинг и его профилактика в дошкольном образовании***

Целью данного исследования является изучение феномена буллинга в дошкольных учреждениях, его лучшее понимание и принятие эффективных мер по борьбе с буллингом. Таким образом, целью данного исследования является изучение частоты и видов буллинга, а также того, связаны ли организационные и образовательные стратегии, используемые в детских садах, с буллинговым поведением и предотвращением буллинга.

Исключение детей из групп является распространенным способом вмешательства в ситуации издевательств. Между тем, респонденты, которые использовали исключение как решение проблемы издевательств, сказали, что не могут остановить издевательства. Кроме того, группы, которые часто тестировали и оценивали альтернативные образовательные решения, меньше подвергались издевательствам, чем группы, которые не тестировали и не оценивали свои методы.

Насилие в дошкольном или дошкольном образовании классифицируется автором как «форма жестокого обращения с детьми», что выходит далеко за рамки предположения о том, что насилие в школьном дворе - это «просто детская игра». В статье подробно рассматривается жестокое обращение с детьми и исследуется вероятность того, что дошкольное насилие и его жертвы будут иметь трудную жизнь во взрослом возрасте. Автор рассматривает распространенность насилия в системах дошкольного образования, его последствия, варианты вмешательства и предоставляет исчерпывающий список ресурсов и ссылок.

Автор завершает статью разделом о методах вмешательства для администраторов дошкольных учреждений, учителей, консультантов и сотрудников школы. Концепция школьного персонала, помогающего детям развивать их «социальные навыки», продвигается как выдающийся способ предотвратить и свести к минимуму эту растущую социальную угрозу. В целом, статью стоит прочитать всем, кто интересуется этой темой, и она предоставляет множество ресурсов для изучения этой растущей проблемы.
.

***Ключевые слова****: буллинг, дошкольное образование, детское/буллинговое поведение, профилактика буллинга*

Redaksiya heyətinin üzvü p.e.d., prof. Hüseynzadə Rüfət Lətif oğlunun rəyi əsasında çapa məsləhət görülmüşdür.

**RİYAZİYYAT VƏ İQTİSADİYYAT**

**UOT 338.47**

# NƏQLİYYAT SİSTEMİNİN DAVAMLI İNKİŞAFI PROBLEMLƏRİ: SOSİAL-İQTİSADİ VƏ EKOLOJİ MƏSƏLƏLƏR

**Aqil ƏSƏDOV***

*Məqalə redaksiyaya daxil olmuşdur: 7 fevral 2022; çapa qəbul edilmişdir:4 mart 2022; online-da çap edilmişdir: 30 mart 2022.*

*Received: 7th of February, 2021; accepted: 4 th of March, 2022; published online: 30 th of March, 2022.*

**Açar sözlər**: *nəqliyyat sistemi, avtomobil nəqliyyatı, davamlı inkişaf, ekoloji zərərlər*

## Giriş

Müasir dünya reallıqları davamlı və ya dayanıqlı inkişaf məqsədlərinə əməl edilməsini tələb edir. Təbiət və cəmiyyət münasibətlərinin kəskinləşdiyi XXI əsrdə sosial-iqtisadi məsələlərlə yanaşı ekoloji məsələlər də xüsusi əhəmiyyət kəsb edir. Dayanıqlı inkişaf məqsədlərində də ekoloji məsələlər prioritet istiqamətlərdəndir. Nəzərə alsaq ki, nəqliyyat sistemi, xüsusilə avtomobil nəqliyyatı ekoloji zərərlərin stasionar mənbəyi kimi əsas yerlərdən birini tutur, onda nəqliyyat və davamlı inkişaf mövzusunun zəruriliyi aydın olar. Nəqliyyat sisteminin ekoloji zərərlərinin azaldılması və ətraf mühitə tullantıların qarşısının alınması hər zaman aktual olaraq qalır. Xüsusilə, qlobal istiləşmə, şəhərləşmə, yaşıllıqların azalması və s. kimi məsələlər ekoloji zərərlərin azaldılmasını daha da zəruriləşdirir.

## Davamlı iqtisadi inkişaf və nəqliyyat sistemi

Araşdırmalar göstərir ki, dünyada istehsal olunan neftin 2,3 milyard tonu avtomobil yanacağına gedir və hər 1 kiloqram yanacağın yanması üçün 15 kiloqram hava lazımdır. 2,3 milyardı 15 kiloqrama vurub nə qədər hava sərf olunduğunu hesablayanda çox narahatedici bir rəqəm alınır. Hazırda dünyada 1 milyarddan çox avtomobil var. Bu avtomobillər ətraf mühitə 1 il ərzində ancaq 1 milyard tondan çox işlənmiş qaz buraxır ki, bunun da içərisində dəm qazının çəkisi təqribən 650 milyon tondur. Bütün bunların nəticəsidir ki, təbiətin özünü bərpa etmə balansı pozulub ki, bu da bir sıra sosial-iqtisadi problemlərlə xarakterizə olunur [4; 8].

Aydındır ki, havanın çirklənməsi ilə təbiətin özünü bərpa balansını pozan amillərdən biri də yanacaqla işləyən nəqliyyat vasitələridir. Avtomobil nəqliyyatı 200-dən çox zəhərli və zərərli maddə ixrac etməklə, bir gündə hər min ədəd avtomobil mühərrikindən havaya 3,2 t karbon oksidi, 200-400 kq-a qədər digər qazabənzər maddələr buraxılır, avtomobil şosse yolları ətrafında (200 m məsafədə) torpağın məhsuldarlığı 2-3 dəfə az olur, atmosferin çirklənməsi, şübhəsiz ki, kosmik fəzaya da öz mənfi təsirini göstərir [4].

Qeyd edilənlər nəqliyyat sisteminin özünün davamlı inkişafını zəruri edir ki, bu da ümumi davamlı inkişafın mühüm amilidir. Nəqliyyat sisteminin, xüsusilə bütün daşıma proseslərini başlayan və tamamlayan avtomobil nəqliyyatının davamlı inkişafı üçün, yəni

* iqtisad üzrə fəlsəfə doktoru, dosent, Bakı Avrasiya Universiteti
*e-mail: a.asadov1976@gmail.com*

ekoloji və texniki-texnoloji baxımdan tələbata uyğun olması üçün bir sıra məsələlər zəruridir. Hansı ki, bütün bunlar meqapolislərdə daha çox nəzərə çarpır və daha ciddi narahatlıq doğurur.

**Bakı şəhərinin avtomobil parkı və bunun sosial-iqtisadi və ekoloji təsirləri**

Azərbaycan Respublikasının ən böyük meqapolisi olan Bakı şəhəri timsalında aparılan müşahidə və araşdırmalardan aydın olur ki, müasir dünyanın quru ərazisinin hər 1 $km^2$-nə 7 avtomobil düşdüyü halda, bu göstərici Bakıda 350-yə bərabərdir. Nəzərə alsaq ki, yollarımız bu avtomobillərin normal hərəkəti üçün yetərli deyil, onda ekoloji durumu da təsəvvür etmək çətin olmaz. Avtomobil nəqliyyatı ərazini zəbt edir, səs-küy yaranır, atmosfer çirklənir, titrəyiş olur və s. bütün bu neqativ hallar, canlı aləmi məhv edir. Digər tərəfdən, ölkəmizdə olan avtomobillərin texniki vəziyyəti də qənaətbəxş deyil. Çirklənmənin artmasının səbəblərindən biri də tıxaclardır, çünki tıxacın yaranması avtomobillərin boş işləmə rejimini artırır. Əlavə enerjinin yaranması isə böyük ekoloji problem deməkdir və s.

Müşahidələr göstərir ki, Bakı şəhərinin əsas küçə və prospektləri ilə gündəlik hərəkət edən avtomobillərin sayı aşağıdakı kimidir:

***Bakı şəhərinin əsas küçə və prospektləri ilə gündəlik hərəkət edən avtomobillərin təqribi sayı***

| **Küçə və prospektlər** | **Nəqliyyat vasitələrinin sayı, ədəd** |
|---|---|
| Heydər Əliyev pr. şəhər istiqaməti | 91217 |
| Heydər Əliyev pr. Koroğlu m. istiqaməti | 90142 |
| Bakı-Sumqayıt | 85617 |
| Sumqayıt – Bakı | 85348 |
| Neftçilər pr. - Nobel pr. | 82112 |
| Nobel pr.-Neftçilər Azneft istiqaməti | 61845 |
| Babək pr. şəhər istiqaməti | 80413 |
| Babək pr. X/dostluğu m. istiqaməti | 81175 |
| Z.Bünyadov pr. Koroğlu m.- 20 yanvar dairəsi | 80216 |
| Z.Bünyadov pr. 20 yanvar dairəsi - Koroğlu m. | 81814 |
| Üzeyir Hacıbəyov pr. | 61796 |
| Yusif Səfərov küçəsi H.Əliyev pr. istiqaməti | 71132 |
| Tbilisi pr. 20 yanvar istiqaməti | 54618 |
| Tbilisi pr. şəhər istiqaməti | 50214 |
| **Cəmi:** | **1 057 659** |

**Mənbə**: *Cədvəl müşahidə əsasında müəllif tərəfindən tərtib edilmişdir [4; 5].*

Nəzərə alsaq ki, Bakı şəhərinin ümumi yol örtüyü, təqribən 2240 km təşkil edir, onda 1 km yola düşən nəqliyyat vasitələrinin sayını aşağıdakı kimi hesablaya bilərik:

$$N_{1km} = 1\ 057\ 659 : 2240 = 472{,}2 = 473 \text{ avt./km}$$

Göründüyü kimi, Bakı şəhərində 1 km yola, təqribən 473 avtomobil düşür ki, bu da

ekoloji baxımdan olduqca zərərlidir. Nəzərə alsaq ki, bir avtomobil, orta hesabla hər il 4,0 ton oksigen udur, 800 kq zərərli qaz, 40 kq azot oksidi, 200 kq müxtəlif karbohidrogenlər buraxır, eləcə də 1 litr yanacağın tam yanması üçün 15 kq oksigen tələb olunur, onda avtonəqliyyat vasitələrinin ekoloji zərərlərini hesablamaq və görmək olar. Eyni zamanda, təqribi hesablamaları həm ümumilikdə ölkə üzrə, həm də ayrı-ayrı şəhər və regionlar üzrə də aparmaq mümkündür.

**Meqapolislərdə nəqliyyat sisteminin mənfi təsirlərini yaradan səbəblər**

Bununla belə, müşahidələr göstərir ki, mənfi nəticələrin iki başlıca səbəbi vardır ki, bu da hərəkətin intensivliyi və hərəkət rejimidir. Bunun da hər ikisi küçə-yol şəbəkəsinin (KYŞ) buraxıcılıq qabiliyyəti ilə sıx bağlıdır. Daha doğrusu, KYŞ-nin vəziyyəti buraxıcılıq qabiliyyəti hərəkətin intensivliyi və hərəkət rejimi ilə uzlaşdırılmalıdır. Ümumilikdə isə, sxem 1-dən də göründüyü kimi, KYŞ-nin buraxıcılıq qabiliyyəti yol hərəkətinin təşkili, yol şəbəkəsinin planlaşdırılması, küçə və yolların quruluşu ilə formalaşır. Təbii ki, hərəkət tələbləri, daşınma tələbatı və s. məsələlər də şəbəkənin yüklənməsinə təsirsiz deyildir.

**Sxem 1.** *Küçə-yol şəbəkəsinin yüklənmə səviyyəsinə təsir edən amillər*




**Mənbə:** *Sxem araşdırmalar əsasında müəllif tərəfindən işlənib hazırlanıb.*

Eyni zamanda, KYŞ-nin yüklənməsinə qarşı da müəyyən tədbirlərin görülməsi zəruridir. Belə ki, buraxıcılıq qabiliyyətinin optimallaşdırılması, rayonlararası daşımaların azaldılması, şəxsi nəqliyyat vasitələrindən istifadənin məhdudlaşdırılması, parklaşmanın daha səmərəli təşkili və s. məsələlər KYŞ-nin yüklənmə səviyyəsini azaltmağa, buraxıcılıq qabiliyyətini yüksəltməyə və mövcud imkanlardan daha optimal istifadəyə imkan verər. Bu isə, öz növbəsində xidmətlərin səmərəli təşkili baxımından çox vacibdir. Bütün

qeyd edilənləri nəzərə alaraq, xidmətlərin səmərəli təşkili, ekoloji zərərlərin azaldılması və beləliklə də avtonəqliyyat sisteminin davamlı inkişaf tələblərinə uyğunlaşdırılması baxımından KYŞ-nin yüklənmə səviyyəsinin azaldılmasının aşağıdakı sxemi (Sxem 2) tətbiq edilə bilər [2; 3; 4].

Aydındır ki, meqapolislərdə nəqliyyatın təsiri ilə yaranan ekoloji problemlərin başlıca səbəblərindən biri də şəhərsalma ilə bağlıdır. Şəhərsalmada bir çox amillər nəzərə alınır ki, bunlardan da birincisi əhali, ikincisi isə ərazidir. Yəni ərazidən elə istifadə etmək lazımdır ki, əhali normal, sağlam, təhlükəsiz mühitdə yaşaya bilsin, normal fəaliyyət mühiti olsun. "Sağlam bədəndə sağlam ruh olar" reallığını nəzərə alaraq, deyə bilərik ki, sağlam bədən də sağlam mühitdə formalaşar. Şəhərsalma mühitində sağlamlığa mənfi təsir edən amillərdən biri də ekoloji təsirlərdir ki, bu təsirlərin həm də mənəvi-psixoloji tərəfləri mövcuddur. Bütün bunların formalaşmasında isə nəqliyyatın çox böyük rolu var.

**Sxem 2.** *Küçə-yol şəbəkələrinin yüklənmə səviyyəsinin aşağı salınmasıyolları*




**Mənbə:** *Sxem araşdırmalar əsasında müəllif tərəfindən işlənib hazırlanıb.*

Təbii ki, nəqliyyat problemini təkcə infrastrukturu yaxşılaşdırmaqla həll etmək mümkün deyil. Ona görə də, məsələlərə kompleks yanaşılması daha düzgün olardı. Bu baxımdan, şəhərsalma təkcə şəhərin salınmasını deyil, eyni zamanda onun səmərəli istifadə olunması texnologiyasını cəmiyyətə öyrətməlidir. Nəqliyyat vasitələrinin düzgün

bölünməsi, onların arasında əlaqənin təmin olunması, təbii ki, müvafiq mərkəzi icra orqanının fəaliyyətinə aiddir. Amma nəqliyyatın elə növləri var ki, cəmiyyətin ehtiyaclarının ödənilməsində iştirak etsə də, sağlamlıq üçün çox ağır təsirlər yaradır. Bu gün səs-küyün yaratdığı ekoloji problem ən ağrılı və insanlara psixoloji təsir edən məsələlərdən biri kimi insanların psixikasında, əsəb sistemində çox ciddi problemlər əmələ gətirir. Heç də təsadüfi deyildir ki, müasir şəhərlərin və yaşayış məntəqələrinin atmosfer havasının keyfiyyəti insanların sağlamlığının vəziyyəti haqqında əsas məlumat mənbəyi olmaqla, həm də xəstəliklərin inkişafında ən fəal təsirə malik ekoloji amil sayılır. Atmosfer havasının çirklənməsi ən çox tənəffüs orqanlarının və ürək-damar sisteminin xəstəlikləri olan uşaqların və yaşlıların orqanizminə təsir edir. Araşdırmalardan aydın olur ki, ekoloji amillərin təsirindən yaranan xəstəliklərin 50%-i atmosfer havasının çirklənməsindən törənir [4; 7; 8; 9; 15].

Bunun nəticəsidir ki, son illər dünyanın iri avtomobil kompaniyaları ekoloji təhlükəsiz avtomobil mühərriklərinin istehsalı üzrə çalışırlar. İşçi mühərriklərini daim təkmilləşdirərək yeni, yanacağın tam yanmasını təmin etmək istiqamətində işlər aparılır. Avropa və ABŞ-ın qabaqcıl firmalarının avtomobilləri, artıq XX əsrin sonları ilə müqayisədə atmosferə 10-16 dəfə az zərərli qaz buraxır. Bu mənada, dünya avtomobil sənayesinin qarşısında duran başlıca vəzifə yanma prosesini maksimum təmin etməklə ekoloji zərərləri azaltmaq, yanacaq sərfinin azaldılmasına imkan verən mühərriklərin istehsalıdır.

Avtomobil nəqliyyatının atmosfer havasına zərərli təsirlərini azaltmaq üçün zəruri şərtlərdən biri də şəhər küçələrində nəqliyyat yükünü nizamlayaraq onların bərabər paylanmasını təmin etməkdir. Bu zaman hər şeydən əvvəl şəhərin strukturu – sənaye və yaşayış rayonlarının yerləşməsi, istirahət yerləri, mədəni-məişət xidməti obyektləri nəzərə alınmalıdır. Şəhərdə bütün küçələrin uzunluğunun təxminən 20-%-i magistral küçələrə düşür. Bu küçələrdə avtomobil hərəkətinin 60-80%-i cəmləşir, yəni magistral yollar orta hesabla digər yollara nisbətən 10-15 dəfə çox yüklənir. Bu problem, əksər iri şəhərlər üçün xarakterikdir. Məsələn qonşu Rusiyada nəqliyyatın ən çox ağır ekoloji vəziyyəti Moskva şəhərində yaranmışdır. Burada orta hərəkət sürəti 12 km /saata enmiş, dayanmadan orta hərəkət uzunluğu 400-500 m.-dir, o cümlədən hər 4-cü avtomobilin mühərriki dövlət standartının tələbinə cavab vermir [4; 7].

Analoji vəziyyət Azərbaycanda, Bakı şəhərində də müşahidə edilir. Nəqliyyat vasitələrinin texniki cəhətdən nasaz olması, istismar qaydalarına əməl edilməməsi və s. davamlı inkişaf tələbləri ilə uzlaşmayan hallar yaradır. Eyni zamanda, təcrübə göstərir ki, nəqliyyat sisteminin əsası kimi avtomobilə üstünlük verən ölkələr və şəhərlər adambaşına enerji sərfi hesabı ilə ekoloji cəhətdən daha az dayanıqlıdırlar. Avtomobilə əsaslanan şəhərlərin sosial və iqtisadi ekoloji dayanıqlığı da hazırda böyük şübhələr və narahatlıq doğurur. Şəxsi avtomobillərdən istifadəyə əsaslanan şəhərlərin sakinlərinə nisbətən ictimai nəqliyyatdan daha çox istifadə edən şəhərlərin sakinləri iqtisadi cəhətdən qənaət də edirlər. Məsələn, araşdırmalar göstərir ki, Nyu-York əhalisi avtomobildən az istifadə hesabına ildə 19 mld. dollara qənaət edir. Eyni zamanda, araşdırmalar göstərir ki, 2019-cu ildə Avropa əhalisinin 74%-i şəhərlərdə yaşamış, Aİ-nın ümumdaxili məhsulunun 85%-i şəhərlərdə formalaşmışdır. Bu baxımdan şəhərlərdə iqtisadiyyatın və əhalinin rifahının saxlanması üçün səmərəli nəqliyyat sisteminin olması zəruridir. Şəhərlər hazırda nəqliyyatı rəqabət qabiliyyətli və ekoloji dayanıqlı (karbon qazı emissiyasının azalması, atmosfer havasının çirklənməsi, səs-küyün səviyyəsi və s.) etməyə çalışırlar. Bütün bunlar, sosial problemlərin həllinə yönəldiyini cəmiyyət qəbul edir və hər kəs dəstək olmağa çalışır. İstər nasaz avtomobillərin istismarında, istərsə də ümumi mənfi ekoloji təsirlərdə yanaşma cəmiyyət mənafeyinə uyğundur. Bu isə, ekoloji təsirlərin qlobal problem olaraq qəbul edilməsindən qaynaqlanır. Təbii ki, bu istiqamətdə cəmiyyətin davamlı şəkildə maarifləndirilməsi zəruridir [4; 5; 10; 14].

Müasir təcrübə göstərir ki, nəqliyyat sisteminin, xüsusilə avtomobil nəqliyyatının ətraf mühitə ciddi təsirlərindən biri də səs-küy ilə əlaqədardır. Müşahidələrdən aydın olur ki, iri şəhərlərin saatda 2-3 min nəqliyyat vasitəsinin hərəkət etdiyi küçə və prospektlərində səsin səviyyəsi 90-95 db-dən yüksəkdir. Hansı ki, bu, hərəkət intensivliyindən, sürətdən və nəqliyyat vasitəsinin texniki vəziyyətindən asılıdır. Eyni zamanda, burada başlıca səbəblərə küçələrin planlaşdırılmasından, ötürücülük qabiliyyətindən, istismar vəziyyətindən, yol örtüyünün keyfiyyətindən, hərəkət sürətindən və s. asılıdır. Qeyd edilən və ya edilməyən bu səbəblərin hər biri səs-küyün formalaşmasına, təqribən 10 db həcmində təsir göstərir. Ümumilikdə isə, hərəkət intensivliyi yüksək olan küçələrdə səs-küyün səviyyəsinin 67,4-76,8 db, digər küçələrdə isə 10-15 db az olması normal qəbul edilir. Onu da qeyd edək ki, son illər avtomobillərin səs-küy yaratma səviyyəsi 12-14 db artmışdır ki, bu da, məhz yuxarıda qeyd edilən səbəblərdən qaynaqlanır. Bütün bunlar isə, canlı aləm, xüsusilə insanlar üçün olduqca ciddi problemlər yaradır. Ümumdünya Səhiyyə Təşkilatının məlumatlarına görə səs-küyün səbəbi ilə yaranan xəstəliklərdən dünyasını dəyişənlər say etibarı ilə, yalnız xərçəng xəstəliyindən geri qalır. Bütün bunlar səs-küyün hansı mənfi təsirlərə gətirib çıxardığını bariz şəkildə ifadə edir [3-5; 15].

**Nəqliyyat sisteminin sosial-iqtisadi və ekoloji səmərəliliyinin yüksəldilməsi imkanları**

Bütün bunlara rəğmən nəqliyyat sisteminin ətraf mühitə mənfi təsirlərinin qarşısını almaq üçün bir sıra qabaqlayıcı tədbirlərin görülməsi zəruridir. İlk növbədə, ətraf mühitə neqativ təsirlərin əsas səbəblərini aşağıdakı kimi qruplaşdıra bilərik:

- nəqliyyat vasitələrinin texniki vəziyyətinin pis olması;
- yanacağın keyfiyyətinin aşağı olması;
- yanacağa əlavə qatqıların qatılması, xüsusilə qurğuşunun mövcudluğu;
- nəqliyyat axınlarının idarəetmə sisteminin zəifliyi;
- ekoloji təmiz nəqliyyat növlərinin xüsusi çəkisinin azlığı;
- elektrik nəqliyyatından istifadənin olmaması.

Təbii ki, bütün bunların siyahısını daha da genişləndirmək, ayrı-ayrı bəndlərin alt səbəblərini də sadalamaq mümkündür. Lakin hər bir halda nəticə eynidir və xüsusi narahatlıq doğurur. Ümumilikdə isə, nəqliyyat sisteminin ətraf mühitə mənfi təsirlərinin qarşısının alınması, ekoloji problemlərin aradan qaldırılması istiqamətində həyata keçirilməsi tövsiyə edilən tədbirləri 3 qrupda təsnifləşdirə bilərik. Birinci halda, nəzərdə tutulan tədbirlər, əsas etibarı ilə avtomobil istehsalı sənayesinin inkişafının texniki məsələləri ilə əlaqədardır. İkinci mərhələdə nəzərdə tutulan tədbirlərə yolların təkmilləşdirilməsi, istismar keyfiyyətinin yüksəldilməsi, avtomobil daşımalarının optimal marşrutlaşdirilması, yol hərəkətinin təşkili və tənzimlənmənin optimal təşkili, avtomobillərin səmərəli idarə edilməsi kimi məsələlər aiddir. O cümlədən, üçüncü mərhələdə yaşıllıqların, xüsusilə iri magistral yolların ətrafında yaşıl zolaqların yaradılması zəruridir [3-5; 17; 19].

**Nəticə**

Beləliklə, davamlı inkişaf tələbləri ilə uzlaşan nəqliyyat sisteminin formalaşdırılması istiqamətində aparılan araşdırmalardan aydın olur ki, bu ətraf mühit üçün minimum zərərli olan bir sistemdir. Müxtəlif mənbələrdə belə sistemi "Yaşıl nəqliyyat sistemi" də adlandırırlar. Araşdırmalar belə nəticəyə gəlməyə əsas verir ki, davamlı inkişaf edən ölkəmizdə "Yaşıl nəqliy-yat sistemi"nin formalaşdırılması nəqliyyat, ətraf mühit və sağlamlıq məsələlərinin kompleks şəkildə nəzərə alınmasından keçir. Qeyd olunanlara, eləcə də araşdırmaların nəticələrinə əsaslanaraq davamlı inkişaf şəraitində "Yaşıl nəqliyyat sistemi"nin inkişaf planını sxematik olaraq aşağıdakı kimi təsvir edə bilərik (Sxem 3).

**Sxem 3.** ***Davamlı inkişaf şəraitində "Yaşıl nəqliyyat" sisteminin inkişaf planı***




**Mənbə:** *Sxem araşdırmalar əsasında müəllif tərəfindən işlənib hazırlanıb.*

## ƏDƏBİYYAT

1. Abdullayev K.N., Hüseynova A.F., Məmmədova U.İ. Azərbaycanda nəqliyyat və turizm sektorlarının davamlı inkişafı: problemlər və perspektivlər. Bakı: "Avropa" nəşriyyatı, 2011, 238 s.
2. Alıyev İ.H., Hüseynov S.Y. və b. Milli iqtisadiyyat: modernləşmə və davamlı inkişaf. Bakı: "Avropa" nəşriyyatı, 2012, 419 s.
3. Bazar iqtisadiyyatı şəraitində Azərbaycanın milli iqtisadiyyatının dayanıqlı inkişafının əsas istiqamətləri. Bakı: Elm, 2008, 188 s.
4. Əsədov A.M. Azərbaycan Respublikasında yeni nəqliyyat sisteminin formalaşması və davamlı inkişafı: elmi-nəzəri əsasları və perspektivləri. Bakı, "Avropa" nəşriyyatı, 2013, 352 s.
5. Əsədov A.M. Nəqliyyat sisteminin davamlı inkişafının ekoloji məsələləri // Nəqliyyatın ekoloji problemləri, Beynəlxalq konfransın materialları (24-26 may 2011), Bakı: AzTU, s. 96-102.
6. Əsgərov Ə., Hüseynov S., Hüseynov E. Davamlı insan inkişafı. Bakı: İqtisad Universiteti, 2009, 600 s.
7. Hüseynov S.Y. Davamlı insan inkişafının strateji istiqamətləri. Bakı: Adiloğlu, 2003, 264 s.
8. Rzayev A.R. Davamlı iqtisadi inkişafın təmin edilməsində nəqliyyat xidmətlərinin rolu // İqtisadiyyatın davamlı inkişafı: problemlər və perspektivlər" mövzusunda beynəlxalq konfrans (27-28 aprel 2016), I hissə, SDU, s. 209-211.
9. Zengin E. Davamlı inkişaf və vahid ekoloji siyasət: Türkiyə və Azərbaycan. Bakı: Adiloğlu, 2007, 260 s.
10. Будрина Е.В. Проблемы формирования и управления развитием регионального рынка транспортных услуг. СПб: Изд-во СПбГИЭУ, 2002, 426 с.
11. Бучин Е.Д., Костров В.Н. Маркетинг на транспорте. Н.Новгород: Изд-во ВГАВТ, 1996, 347 с.
12. Курбатова А.В., Кузнецова Е.Ю. Прогнозирование развития транспортных систем: идеология, инструментарий, расчеты. Екатеринбург: Изд-во УГТУ, 2000, 243 с.
13. Alexandra M., Frantz D. Actual Multimodal Transport Management, Support for Sustainable Development of the National Economy. Faculty of Management, Academy of Economic Studies, Bucharest, Romania, ECONOMIA seria MANAGEMENT / ECONOMY - MANAGEMENT series, 2013, Vol. 16, pp. 65-83.
14. Bailey K., Grossardt T. and Ripy J. Toward environmental justice in transportation decision making with structured public involvement. Transportation Research Record, 2012, 2320, pp. 102-110.
15. Behzad F., M.Zabihi. A guide for planning urban areas in form of development based on public transportation, center for architecture researches, 2011, No.18, pp.39-50;
16. Feng Z. Road transportation and economic growth in China: Granger causality analysis based on provincial panel data // The International Journal of Transportation Research, 21 may 2021, pp. 97-116.
17. Ibragimov Z.H., Lieonov S.V., Pimonenko T.V. "Green investing for SDGS: EU experience for developing countries. 37th International Scientific Conference on Economic and Social Development – "Socio Economic Problems of Sustainable Development". Baku, 14-15 February 2019, pp. 868-877.
18. Isaei M. İntelligent systems of transportation, 2005, Aar publication, 184 p.
19. Tagıyev N.F., Asadov A.M. İnvestment policy's influence on transport sector and economic safety in Azerbaijan. Caucasus & Central Asia (CCA) Review (EPIN), Hungary, October 2007, pp.13-16

***Резюме***

***Агил Асадов***

***Проблемы устойчивого развития транспортной системы: социально-экономические и экологические вопросы***

Реалии современного мира требуют достижения целей устойчивого или устойчивого развития. В XXI веке, когда обостряются отношения между природой и обществом, наряду с социально-экономическими вопросами особое значение приобретают экологические проблемы. Вопросы окружающей среды также являются приоритетом для устойчивого развития. Если учесть, что транспортная система, особенно автомобильный транспорт, занимает одно из основных мест как стационарный источник экологического ущерба, то становится понятной необходимость транспорта и устойчивого развития. Снижение экологического ущерба транспортной системы и предотвращение образования отходов в окружающей среде всегда актуальны. В частности, глобальное потепление, урбанизация, сокращение зелени и т.д. Такие вопросы также привлекают внимание как требования устойчивого развития.

В связи с этим в статье рассматриваются требования устойчивого развития. Проанализировано влияние транспортной системы на устойчивое развитие. В частности, социально-экономическое и экологическое воздействие автомобильного транспорта было подробно проанализировано на основе конкретных цифр. Перечислены социально-экономические и экологические проблемы, вызванные воздействием автомобильного транспорта на примере Баку, и объяснены причины проблемы. Автор схематично описывает проблемы, вызванные транспортной системой мегаполисов, и способы их решения. В статье обоснована необходимость формирования зеленой транспортной системы мегаполисов, предложения и рекомендации в этом направлении. Предлагается соответствующая схема формирования зеленой транспортной системы.


***Ключевые слова:*** *транспортная система, автомобильный транспорт, устойчивое развитие, ущерб окружающей среде*


***Summary***

***Agil Asadov***

***Problems of Sustainable Development of the Transport System: Socio-Economic and Environmental İssues***

The realities of the modern world require the pursuit of sustainable or sustainable development goals. In the XXI century, when the relations between nature and society are strained, along with socio-economic issues, environmental issues are of particular importance. Environmental issues are also a priority for sustainable development. If we take into account that the transport system, especially road transport, occupies one of the main places as a stationary source of environmental damage, then the need for transport and sustainable development becomes clear. Reducing the environmental damage of the transport system and preventing waste to the environment is always relevant. In particular, global warming, urbanization, reduction of greenery, etc. Such issues also attract attention as sustainable development requirements.

In this regard, the article considers the requirements of sustainable development. The impact of the transport system on sustainable development was analyzed. In particular, the socio-economic and environmental impacts of road transport have been extensively analyzed on the basis of specific figures. Socio-economic and environmental problems caused by the impact of road transport on the example of Baku were listed, and the reasons for the problem were explained. The author schematically describes the problems caused by the transport system in megacities and their solutions. The article substantiates the need to form a green transport system in megacities, offers and recommendations in this direction. An appropriate scheme is proposed for the formation of a green transport system.


***Keywords:*** *transport system, road transport, sustainable development, environmental damage*

Redaksiya heyətinin üzvü i.e.d., prof.İsmayılov Vilayət İbrahim oğlunun rəyi əsasında çapa məsləhət görülmüşdür.

**UOT 330.341.1**

# BİLİK İQTİSADİYYATI: ELEMENTLƏRİ, XÜSUSİYYƏTLƏRİ, ÖLÇÜLMƏSİ VƏ İNKİŞAFI

**Elçin SALMANOV***

*Məqalə redaksiyaya daxil olmuşdur: 18 fevral 2022; çapa qəbul edilmişdir:15 mart 2022; online-da çap edilmişdir: 30 mart 2022.*

*Received: 18 th of February, 2021; accepted: 15 th of March, 2022; published online: 30 th of March, 2022.*

***Açar sözlər:*** *bilik iqtisadiyyatı, texnologiya, müasir təhsil, innovativ yeniliklər*

## Giriş

Biznes və ölkələr baxımından informasiyanın vacibliyi son illərdə getdikcə daha çox əhəmiyyət kəsb edir. İnformasiya texnologiyalarının artan əhəmiyyəti və tərəqqisi ilə iqtisadi fəaliyyətlər qlobal bir quruluş almışdır. Bu vəziyyət informasiyada rəqabət üstünlüyü yaratmışdır. Müəssisələr öz fəaliyyətlərini informasiya texnologiyaları vasitəsilə yaraq, rəqabət səylərində informasiya və informasiya texnologiyalarından strateji güc kimi istifadə edirlər. Sənaye inqilabının nəticəsi olan kütləvi istehsaldan sonra iqtisadiyyat tarixində mühüm dəyişikliklər baş verməsi həm mexanikləşmənin, həm də insan gücünün qarşısını almasına gətirib çıxardı. Bu transformasiyanın əsası kimi beynəlxalq ticarətin genişlənməsi özünü göstərdi. Buna uyğun olaraq sənaye inqilabı zamanı əhəmiyyət kəsb edən maliyyə resurslarından istifadə indi öz yerini bilik iqtisadiyyatına vermiş və bu da maliyyə kapitalının əsas dəyərinə çevrilməkdədir. Müasir iqtisadi şəraitin əsasını təşkil edən bilik iqtisadiyyatı ilə informasiya texnologiyalarından istifadənin qlobal şəkildə yayılması sosial və iqtisadi inkişafı asanlaşdıran bir vasitə rolunu oynamaqdadır.

Buxar maşınının ixtira edilməsi ilə sənaye iqtisadiyyatı maşınların gücünü ön plana çıxardı və kütləvi istehsal iqtisadiyyatda əsas təyinedici oldu. İngiltərədə, daha sonra digər Avropa ölkələrində ortaya çıxan bu inqilabla dünya iqtisadiyyatı daha əvvəl görülməmiş bir istehsalla qarşı-qarşıya qaldı. Kapitalın mümkün qədər artması, əməliyyat mənfəətlərində artmasına və nəticə etibarilə qənaətin əhəmiyyətli üstünlük qazanmasına səbəb oldu. Sənaye iqtisadiyyatı da kapitalizmi meydana gətirməklə onu gücləndirdi. Bu dövrdə mühüm iqtisadi nəzəriyyələr və nəzəriyyəçilər meydana çıxdı. Onlardan klassik iqtisadi nəzəriyyəni və onun ilk nəzəriyyəçisi Adam Smiti hesab etmək olar [6, s. 47-52]. Bu gün sənaye iqtisadiyyatı həyata keçirilsə də, XX əsrin ikinci yarısından etibarən yeni iqtisadi sistem, bilik iqtisadiyyatı yaranmağa başlamışdır. Ohətta XXI əsrin simvoluna çevrilmişdir. Bu gün inkişaf etmiş ölkələrdə sənaye iqtisadiyyatı və bilik iqtisadiyyatı eyni vaxtda tətbiq olunur. Texnoloji inkişaflar və innovasiyalar informasiya iqtisadiyyatını, o isə öz növbəsində informasiya cəmiyyətini və ya post-sənaye cəmiyyətini yaradır.

## 1. Bilik iqtisadiyyatı anlayışı və elementləri

Bilik sosial hadisələrdə baş verən hərəkətləri və hadisələri anlamağa kömək edən əlamətlər və fikirlərdir. Bilik müşahidə edilə, ölçülə və ya hesablana bilən davranış və ya münasibətin dəyəridir. İnformasiya müəyyən bir prosesdən keçmiş verilənlər kimi müəy-

* Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbi
*e-mail:elchinaahm@gmail.com*

yən edilə bilər [2, s. 134]. İnsan zəkasının işi nəticəsində ortaya çıxan əqli məhsul və ya öyrənmə, müşahidə və araşdırma nəticəsində əldə edilən həqiqətdir. Məlumat əldə etməkdə müəyyən bir nizam var. Məlumatlar, müvafiq olaraq, şəkillərdən, məlumatdan əlaqə və məlumatdan əldə edilir. Resursun strateji dəyərə malik olması üçün onun tərkibində dörd əsas xüsusiyyət olmalıdır [5, s. 209].

Bilik iqtisadiyyatı biliklərin əldə edilməsi, emalı və dəyişdirilməsi, eləcə də onun yayılması proseslərini əhatə edir. Bu üç əsas proses informasiyanın işlənməsini, əldə edilməsini, paylanmasını və ünsiyyətini təmin edən kompüter sistemindən ibarətdir. Fiziki alətləri ilə birlikdə insanların köməyi ilə bütün prosesi idarə edən proqram sistemi sayəsində işləyir. Bu baxımdan məhsul və xidmətlərin ən mühüm xüsusiyyəti biliklərin əsas istehsal faktoru kimi ön plana çıxmasıdır. Bundan əlavə, bilik insan, fiziki və bilik kapitallarını güclü şəkildə birləşdirən bilik iqtisadiyyatı sektorlarında rol oynayır. Bütün bunların işığında biliklərə əsaslanan iqtisadi fəaliyyətlərin həyata keçirildiyi iqtisadi strukturu bilik iqtisadiyyatı kimi təyin etmək olar. Başqa sözlə, bilik iqtisadiyyatı qloballaşma kimi xarakterizə edilən universal inteqrasiya idealının iqtisadi sütununu təşkil edən yeni nizamdır. Bilik iqtisadiyyatı biliklərin istehsalına və yayılmasına, eləcə də ondan istifadəyə əsaslanan iqtisadiyyatdır. Müəssisələrin və milli iqtisadiyyatın uğuru biliklərin mənimsənilməsi və səmərəli istifadəsi ilə yanaşı, bilik istehsalından da asılıdır. Bilik iqtisadiyyatı bilik və öyrənmə intensivliyi olan münasibətlərdə iştirak edən şirkətlərin və şəxslərin sosial-iqtisadi vəziyyətinə müsbət təsir göstərdiyi, imkanlardan istifadə etmənin və müəyyən bacarıqlara sahib olmağın vacib olduğu şəbəkələr zənciridir. Öyrənməyə və dəyişməyə əsaslanan bilik və təcrübələri rəhbər tutur. Bu iqtisadiyyat qlobal miqyasda innovasiya və yaradıcılığın üstünlük təşkil etdiyi strukturu ortaya qoyur. Bundan əlavə, qlobal dünyada bilik iqtisadiyyatı bilik bazaları üzərində qurulmuş yeni iqtisadiyyatdır. Bu kontekstdə bilik iqtisadiyyatına bir sıra elementlər daxildir. Bilik iqtisadiyyatında bilik fəaliyyətin mərkəzindədir və bilik rəqabət səylərini formalaşdıran əsas amildir. Bilik iqtisadiyyatının ən mühüm elementləri informasiya-kommunikasiya texnologiyalarıdır. Bu texnologiyalar sayəsində fərdlər dövlət qurumları və bizneslərlə daha effektiv ünsiyyət qura bilirlər. Beləliklə, əməliyyat xərcləri azalır, səmərəlilik iqtisadi fəaliyyətdə özünü göstərir.

Bilik iqtisadiyyatının digər mühüm elementi bilik işçiləridir. Bilik işçiləri həm biliyin istehsalında, həm də informasiya və kommunikasiya texnologiyalarının inkişafı və istifadəsində əsas rol oynayırlar. Müasir dünyada baş verən qloballaşma şəraitində hər bir ölkənin iqtisadi və sosial inkişafının əsas şərtlərindən birini milli insan ehtiyatlarından düzgün və səmərəli istifadə təşkil edir. Sənayenin innovasiyalar əsasında inkişafı yalnız elm və texnologiya potensialının gücləndirilməsi və təhsil imkanlarının genişləndirilməsi nəticəsində mümkün olacaq. İnkişaf etməkdə olan ölkələrin məhsuldarlığa əsaslanan iqtisadi artıma nail olmaq, yeni istehsal sahələrini formalaşdırmaq, demokratik idarəetməni qurmaq istəkləri onlardan təhsilin keyfiyyətinin yaxşılaşdırmağı, innovativ metodlara əsaslanan idarəetmə sistemini təşkil etməyi, nəzəri və təcrübi biliklərə malik insan resurslarının səmərəli istifadəsini və müəllim peşəsinin, elmi mütəxəssislərin (alim, tədqiqatçıların) nüfuzunun artırılmasını tələb edir[3, s. 50-56].

Bilik iqtisadiyyatı göstərir ki, biz biliyə qoyulan investisiyanın gəlirinin fiziki kapitala qoyulan investisiyalardan daha yüksək olduğu bir dövrə qədəm qoymuşuq. Fərdlərin bazarda əldə etdikləri məlumatların dəyəri getdikcə daha vacib olur. Bilik iqtisadiyyatı ilə bağlı demək olar ki, hər kəsin razılaşdığı fakt ondan ibarətdir ki, real iqtisadiyyatın infrastrukturu maddi əmtəələrə deyil, biliklərə əsaslanan mallara əsaslanır. Bundan əlavə, bilik iqtisadiyyatını digər iqtisadi sistemlərdən və sənaye iqtisadiyyatından fərqləndirən əsas fərq ondan ibarətdir ki, iqtisadi istehsal amilləri arasında biliyin ilkin prioritet olmasıdır. Başqa sözlə, bilik bilik iqtisadiyyatının əsasını təşkil edir [2, s. 134]. Bu gün bilik

istehsal etdiyimiz, hazırladığımız, satdığımız və aldığımız məhsulların əsas komponentinə çevrilmişdir. Bu vəziyyətin təbii nəticəsi olaraq informasiyanın idarə edilməsi və informasiya kapitalının tapılması, inkişafı, saxlanması və paylaşılması informasiya iqtisadiyyatında fərdlərin, müəssisələrin və ölkələrin ən mühüm iqtisadi funksiyasına çevrilmişdir [5, s. 209].

**2. Bilik iqtisadiyyatının xüsusiyyətləri**

1990-cı illərin ortalarında internet və veb-əsaslı proqramların köməyi ilə bugünkü bizneslərdə informasiya texnologiyalarının geniş şəkildə tətbiqi təşkilatlararası və təşkilatdaxili əlaqələrə və proseslərə dərin təsir göstərmiş və bu, biznesi yeni şərtlərə uyğunlaşmağa məcbur etmişdir. Bu dəyişiklik prosesi həm də rəqəmsallaşma prosesi hesab olunur. Çünki bu dövr rəqəmsal texnologiyaların informasiyanın ötürülməsi və istehsalında effektivlik qazandığı dövrə aiddir. Beləliklə, kompüterlər arasında qurulan şəbəkələr vasitəsilə hər cür məlumat dünyanın bir ucundan digər ucuna ötürülə bilər. Sənaye iqtisadiyyatı informasiya-kommunikasiya texnologiyalarının inkişafı şəraitində öz yerini informasiya iqtisadiyyatına vermişdir. İqtisadiyyatın əsas elementləri sayılan istehsal, istehlak, bölgü münasibətləri və bütün iqtisadi struktur biliklər əsasında yenidən qurulmuşdur. Beləliklə, bilik iqtisadiyyatını digər iqtisadiyyatlardan və sənaye iqtisadiyyatından fərqləndirən əsas fərq ondan ibarətdir ki, istehsal amilləri və informasiya sistemlərinin köməyi ilə biliklərin istehsalının və istifadəsinin artırılması arasında biliyin birinci prioritet olmasıdır. Bu nöqtədə bilik iqtisadiyyatının xüsusiyyətlərini aşağıdakı kimi sıralamaq olar [4, s. 63-66; 7, s. 80-89].

*1. Bilik iqtisadiyyatı yeni iqtisadiyyatdır:* Bilik iqtisadiyyatında biliyin yaradılması həm bilik işçilərinə, həm də bilik istehlakçılarına, yəni insanlara aiddir. İnformasiya texnologiyaları mal və xidmətlərin bir hissəsinə çevriləcək, mal və xidmətlərin məzmunu isə müştərilərin ideyaları ilə müəyyən ediləcək. Bilik iqtisadiyyatında informasiya həm keyfiyyət, həm də kəmiyyət baxımından əvvəlki dövrlərdə istifadə edilən girişlərdən daha vacib olur. Ona görə də bilik iqtisadiyyatının ən mühüm xüsusiyyətlərindən biri biliklərin bütün iqtisadi fəaliyyətlərə inteqrasiyasıdır. Başqa sözlə, iqtisadi fəaliyyətdə informasiya sıxlığının nisbətən əhəmiyyətli artmasıdır. Bu məqamlar bilik iqtisadiyyatının yeni iqtisadiyyat olduğunun göstəricisidir.

2. *Bilik iqtisadiyyatı rəqəmsal iqtisadiyyatdır:* Bilik iqtisadiyyatında hər cür məlumat, səs, mətn, təsvir və s. kompüter şəbəkələri vasitəsilə ötürülür. Böyük miqdarda məlumat alıcılarına çox tez, ucuz və etibarlı şəkildə çatır. Bilik iqtisadiyyatında mobil telefonlar, portativ kompüterlər və s. onun geniş istifadəsi iqtisadiyyatı rəqəmsallaşdırır. Bu iqtisadiyyatda köhnə strukturları əvəz edən və ya tamamlayan ucuz bağlantılar və İnternetlə yeni elektron paylama kanalları yaranır. İnformasiya şəbəkələri və informasiyanın rəqəmsallaşması informasiyanın alqı-satqı prosesini sürətləndirir.

*3. Virtuallaşdırma bilik iqtisadiyyatında mühüm rol oynayır:* Bu virtuallaşdırma iqtisadiyyatın strukturunu, qurumların növlərini və onlar arasındakı əlaqələri və beləliklə, iqtisadi fəaliyyətin özünü dəyişir. İnsanların internet üzərindən alış-veriş etdiyi hər hansı bir yer mənasını verən virtuallaşdırma iqtisadiyyatın strukturunu və iqtisadi prosesi dəyişir.

*4. Bilik iqtisadiyyatı şəbəkə iqtisadiyyatıdır:* Bilik iqtisadiyyatı kommunikasiya şəbəkələri ilə inteqrasiya edən iqtisadiyyatdır. Rabitə şəbəkələrinin inkişafı və klassik sistemindən veb əsaslı sistemə keçid iş dünyasında əhəmiyyətli dəyişikliklərə səbəb olur. Yeni texnologiya və kommunikasiya şəbəkələri kiçik miqyaslı müəssisələrə və resurslara çıxış kimi iri müəssisələrin əsas üstünlüklərinə malik olmaq imkanı təklif edir. Digər tərəfdən, iri müəssisələrin müəyyən mənfi cəhətləri kiçik müəssisələrdə mövcud deyil. Böyük müəssisələr yalnız kiçik maye qruplarında təşkil edildikdə çeviklik, muxtariyyət əldə

edə bilərlər.

*5. Bilik iqtisadiyyatında vasitəçilər böyük ölçüdə aradan qaldırılır:* İstehsalçı ilə istehlakçı arasında vasitəçilər rəqəmsal kommunikasiya şəbəkələri hesabına yox olacaq. Vasitəçi müəssisələr yeni funksiyalar götürməsələr və insanlar onlara yeni dəyərlər tətbiq etməsələr, yox olacaqlar. Özəl və dövlət sektorunda fəaliyyət göstərən bir çox qurumlar şəbəkələr vasitəsilə öz istehlakçıları ilə birbaşa təmasda olacaq və bu da vasitəçilərinin fəaliyyətini əhəmiyyətli dərəcədə pozacaq. Otellər və hava yolları kimi qurumlar rezervasiya üçün agentliklərlə iş görmək əvəzinə birbaşa müştərilərinə çatacaqlar. Ona görə də broker evləri gələcəkdə yox olmaq istəmirlərsə, yaradıcı yeniliklər barədə düşünməlidirlər.

*6. İnformasiya iqtisadiyyatının dominant sektoru üçlü formasiyadır:* Avtomobil sənaye iqtisadiyyatında əsas sektor olduğu halda, informasiya iqtisadiyyatında dominant iqtisadi sektor kompüter, kommunikasiya texnologiyalarının inteqrasiyası ilə formalaşan yeni media sektorudur. Əyləncə sənayeləri, bütün digər sektorlar üçün rifah yaratmağın yolunu təşkil edir. Bu inteqrasiya bütün sektorların əsasını təşkil etməyə başlayır. Yeni media bütün sənətləri, elmi araşdırmaları, təhsili və biznesi, o cümlədən, insanların iş, işləmək, əylənmək, yaşamaq və düşüncə tərzini dəyişdirir və ən əsası bu yeni sektor istehlak və istehsal fəaliyyətləri ilə bağlı dəyərlərə böyük təsir göstərir.

*7. Bilik iqtisadiyyatı innovasiyaya əsaslanan iqtisadiyyatdır:* Bilik iqtisadiyyatının prinsipi öz məhsulunu yaratmaqdır. Əgər yeni və uğurlu məhsul hazırlanıb satışa çıxarılıbsa, məqsəd daha təkmilləşmiş məhsulun hazırlanmasına nail olmaqdır. Bilik iqtisadiyyatının digər prinsipi innovasiya və yaradıcılıqdır. Bugünkü rəqabətdə uğur qazanmağın ən vacib amili bəlkə də yenilik və yaradıcılıqla bazara yeni məhsullar çıxarmaqdır.

*8. Bilik iqtisadiyyatında istehsalçı ilə istehlakçı arasındakı fərq getdikcə azalır:* Kütləvi istehsalın müştərilərin tələblərinə uyğun olaraq böyük miqdarda istehsalla əvəzlənməsi ilə istehsalçılar ayrı-ayrı istehlakçıların zövqünə və ehtiyaclarına uyğun olan xüsusi mal və xidmətlər yaratmalı olurlar. Bilik iqtisadiyyatında istehlakçılar faktiki olaraq istehsal prosesinə töhfə verə bilərlər.

*9. Bilik iqtisadiyyatı sürət iqtisadiyyatıdır:* Rəqəmsal məlumatlar üzərində qurulmuş iqtisadiyyatda sürət biznes uğuru və iqtisadi fəaliyyət üçün əsas dəyişəndir. Məhsulun həyat dövrləri sürətlə qısalır. Bugünkü biznes ətraf mühitlə bağlı məlumat və kommunikasiya axınına dərhal cavab verə bilən real vaxt biznesidir. Müştəri sifarişləri elektron şəkildə qəbul edilir və eyni vaxtda emal edilir. Müvafiq hesab-faktura və sənədlər elektron qaydada geri göndərilir və məlumat bazaları daim yenilənir.

*10. Bilik iqtisadiyyatı qlobal iqtisadiyyatdır:* İkiqütblü dünyanın dağılmasından sonra iqtisadi divarların böyük ölçüdə aradan qalxdığı dinamik, yeni və dəyişkən qlobal mühit yaranmışdır. Bu, bilik iqtisadiyyatının yüksəlişi ilə bağlıdır. Artıq yerli və ya beynəlxalq bilik deyə bir şey yoxdur. Bu gün istər milli, istər regional, istərsə də yerli sərhədləri götürən yeganə dünya iqtisadiyyatına çevrilmiş bilik iqtisadiyyatı qüvvədədir.

*11. Bilik iqtisadiyyatı özü ilə bəzi sosial problemlər gətirir:* Yeni iqtisadiyyatın astanasında yeni bir siyasi iqtisadın başladığı görünür ki, bu da özü ilə güc, təhlükəsizlik, bərabərlik, keyfiyyət, işin keyfiyyəti kimi problemləri gətirir. Bilik işçilərinin (intelektual şəxslərin, alimlərin) iş həyatında düzgün idarə oluna bilməməsi və ya lazımi biliyə, istedada və motivasiyaya malik olmayan insanların həyat səviyyəsinin aşağı düşməsi mühüm problemlər kimi ortaya çıxacağı hiss olunur. Texnologiyanın demək olar ki, hər bir sektorda sürətli transformasiyası bir çox qurumlarda ciddi müqavimətə səbəb olacağı qaçılmaz görünür. Bu baxımdan inkişaf etməkdə olan texnologiyalardan diktatura rejimlərinin sui-istifadə etməsi və terrorçuların nüvə texnologiyası əldə etmə ehtimalı, kiçik dövlətlərin lokal müharibələrdə rabitə şəbəkələri və informasiya texnologiyalarından istifadə etməsi və bu kimi bir çox məsələlər informasiya iqtisadiyyatında nəzərə alınmalı olan vacib

amillərdir.

*12. Bilik iqtisadiyyatı bilik mallarını üzə çıxardır:* Bilik iqtisadiyyatında bilik əsaslı və ya bilik tutumlu mallar meydana çıxır. İstənilən malda informasiya sıxlığı artdıqca belə malların marjinal dəyəri sıfıra yaxınlaşır, istehlakda rəqabət aradan qalxır və o, ictimai mallarla eyni xüsusiyyətlərə malik olur.

*13. Bilik iqtisadiyyatında istehsalın həcmi artdıqca istehsalın maya dəyəri də azalır:* Ənənəvi iqtisadiyyatlarda bu azalma müəyyən səviyyəyə qədər keçərlidir. Müəyyən həcmdə istehsaldan sonra orta məsrəflər yenidən artmağa başlayır, lakin informasiya iqtisadiyyatında belə maneə törədən faktor yoxdur. İstehsalın artması ilə marjinal xərc sıfıra yaxınlaşır. Nümunələr elektron şəkildə yayıla bilən MP3 formatında proqram və ya musiqi məhsullarıdır.

*14. Bilik iqtisadiyyatı biliyin əlavə dəyər yaratdığını qəbul edir:* Əlavə dəyərli məhsullar (qazanclar) daha çox bilik tələb etdiyi halda, daha çox bilik daha çox əlavə dəyər yaradır. Hər hansı firma yeni ixtira, kompüter proqramı və ya metodu yaratdıqdan sonra digər firmalar orijinal məhsulu inkişaf etdirə bilərlər. Bu firmalar orijinal məhsulu uyğunlaşdırmaq, təkmilləşdirmək və ya tətbiq etməklə öz əlavə dəyərini necə artıra biləcəklərini öyrənirlər. Daha çox öyrənmə məhsulun gələcək nəsilləri üçün daha yüksək əlavə dəyərə gətirib çıxarır. Bu vəziyyət innovasiya və uyğunlaşma kimi fəaliyyətləri stimullaşdırır. Bu ixtira, öyrənmə və əlavə dəyər dövrü mövcud texnologiyanın bütün mənfəətləri reallaşana qədər davam edir. Öyrənmənin müsbət təsirlərinin ən mühüm nümunəsi kompüter avadanlıqları bazarında yaşanmışdır.

*15. Bilik iqtisadiyyatı şəbəkə iqtisadiyyatı xarakteri daşıyır:* Şəbəkə iqtisadiyyatı: informasiya texnologiyaları, rabitə, elektrik enerjisi, nəqliyyat və onlar arasındakı kommunikasiya əlaqələri kimi son nöqtələrdən ibarət olan və şəbəkə qaydasında qurulmuş bir sektordur. Şəbəkə iqtisadiyyatları bəzi mühüm xüsusiyyətlərə malikdir; Şəbəkəyə yeni son nöqtələr əlavə olunduqca, şəbəkənin dəyəri şəbəkəni təşkil edən vahidlərin dəyərini üstələyir. Məsələn, müstəqil bir faks maşını yararsız olsa da, faks istifadəçilərinin sayı artdıqca, faks maşınının faydası da artır. Eynilə, proqram bazarında Microsoft Windows-un dəyəri bu əməliyyat sistemində işləyən proqram təminatının sayına birbaşa mütənasib olaraq artır. Ənənəvi iqtisadiyyatda məhsul nə qədər az olarsa, dəyəri də bir o qədər yüksək olur. Lakin bilik iqtisadiyyatında bu qayda tərsinə işləyir. Şəbəkə məhsulunun dəyəri onunla əlaqə saxlaya bilən məhsulların sayı ilə artır.

### 3. Bilik iqtisadiyyatının ölçülməsi

İstənilən mal və ya xidmətin istehsalı bilik və ya texnologiya, eləcə də əmək və kapital kimi ənənəvi istehsal amillərini tələb edir. İnformasiya və texnologiya bütün sektorlar üçün böyük əhəmiyyət kəsb etsə də, informasiya və texnologiyanın müxtəlif sektorlar tərəfindən müxtəlif intensivlik və formalarda istifadəsinə əsaslanaraq müxtəlif sektoral təsnifatlar təklif olunur. İqtisadiyyatın bilik iqtisadiyyatına keçid prosesində mövqeyini müəyyən etmək üçün OECD tərəfindən istehsal sənayesi üçün edilən təsnifat təklifində sektorlardakı Ar-Ge intensivliyinə görə aşağıdakı 4 fərqli sektor qrupu müəyyən edilmişdir [9, s. 8-9].

• Qabaqcıltexnologiya,
• Ortayüksəktexnologiya,
• Ortaaşağıtexnologiya,
• Aşağıtexnologiya.

Yuxarıda qeyd olunan təsnifatda yüksək texnologiya və orta-yüksək texnologiya sektorları biliyə əsaslanan sənaye sektorları kimi müəyyən edilir.2000-ci ildən sonra İƏİT ölkələrində bilik iqtisadiyyatının özəl sektorun əlavə dəyərindəki payının 50 faizi ötdüyü, ABŞ, Yaponiya və Almaniyada isə bu nisbətin müvafiq olaraq 60%,68% və 62% olduğu

təxmin edilir. Rabitə, bank, sığorta, məsləhət, təhsil və səhiyyə kimi informasiya tutumlu xidmət sektorları informasiya iqtisadiyyatının böyüklüyündə mühüm paya malikdir. İƏİT ölkələrində orta hesabla 2004-cü ildə bilik iqtisadiyyatında bilik tutumlu xidmət sektorlarının payı təxminən 80% təşkil etmişdir və bu nisbət ABŞ, Almaniya və böyük iqtisadiyyatlarda xüsusilə yüksəkdir.İƏİT ölkələrində biliyə əsaslanan sektorlar son illərdə digər sektorlara nisbətən daha çox inkişaf etmişdir.

İnnovasiyalara əsaslanan İKT sektoru hazırda qlobal iqtisadiyyatın ən böyük seqmentlərindən birinə çevrilmişdir. Belə ki, İKT sektoru öz-özlüyündə yüksək məhsuldarlığa malikdir və onun artımı bütün iqtisadiyyata səmərəli təsir göstərir. İKT sektorunun tədqiqi ilə məşğul olan "DigiWorld" şirkətinin məlumatlarına görə, 2011-ci ildə İKT bazarı dünya üzrə ÜDM–in 6,1%-ni təşkil edib."McKinsey" konsaltinq şirkətinin proqnozlarına görə isə, 2020-ci ildə onun dünya üzrə ÜDM-dəki payı 9%-ə çatabilər [14].

OECD-nin istehsal sənayesi sektorlarının texnologiya intensivliyinə görə təsnifatına qabaqcıl texnologiya sektorları qrupuna aviasiya və kosmik, kompüter və ofis texnikası, elektron-kommunikasiya və əczaçılıq sektorları daxildir. Ortayüksək texnologiya qrupunda əczaçılıq məhsulları istisna olmaqla, peşə elmi və ölçü cihazları, nəqliyyat vasitələri, elektrik və qeyri-elektrik maşınlar və kimyəvi maddələr kimi sektorlar var. Yüksək və orta-yüksək texnologiya qrupundakı sektorların cəmi biliyə əsaslanan istehsal sənayesi sektorları kimi müəyyən edilir. Təkər və plastik məmulatları, dəmir və polad, metal məmulatları, qeyri-metal minerallar, neft emalı zavodları və s. ortaaşağı texnologiya qrupundadır. Aşağı texnologiyalı qrup toxuculuq və geyim, qida, içki-tütün kimi ənənəvi sənaye məhsullarından ibarətdir [1, s. 72].

### 4. Bilik iqtisadiyyatının inkişafı

1950-60-cı illərdən bəri istifadə edilən və xüsusilə 1980-1990-cı illərdə sürət qazanan kompüter istifadəsinin təsirləri yenicə görünməyə başlayır. 1970-ci illərdə Qərb dünyasında yaşanan iqtisadi böhran 1980-ci illərin əvvəllərində neoliberal iqtisadi siyasətlərin tətbiqi ilə nəticələndi və bu dövrdə informasiya texnologiyalarına əsaslanan sənaye siyasətlərinin və İT investisiyalarının əhalinin məşğulluğuna təsirinin artması gözləntisi yarandı. Artım bir çox ölkələrdə yayılmağa başladı. Bilik iqtisadiyyatı, bir tərəfdən, 1990-cı illərdəki ABŞ təcrübəsini və bu təcrübəni informasiya-kommunikasiya texnologiyaları ilə əlaqələndirir, digər tərəfdən isə, iqtisadiyyatların qaydaları və institutları ilə, qlobal miqyasda dəyişiklik prosesinə girdiyini ifadə edir. Rəqabət və sürətli texnoloji irəliləyişlər [10, s. 13-14].1950-ci illərdən etibarən meydana çıxmağa başlayan bilik iqtisadiyyatı, Sənaye İnqilabı, II İkinci Dünya müharibəsi kimi dünya iqtisadiyyatını formalaşdıran hadisələrlə öz infrastrukturunu formalaşdırdı. 1990-cı illərdə SSRİ-nin dağılması ilə qloballaşma anlayışı ilə geniş vüsət aldı. Bu istiqamətdə qeyd olunan illərin son ixtirası bilik iqtisadiyyatı adlanırdı.

Qloballaşmanın bilik iqtisadiyyatını sürətləndirən amillər aşağıdakılardır [2, s. 54; 13; 8, s. 83].

*• Sovet İttifaqının dağılmasından sonra ikiqütblü (Sosializm və Liberalizm) Dünyanın dəyişməsi,• İqtisadi divarların əhəmiyyətli dərəcədə yox olması; • Dəyişikliklərin axıcılığı; • Resursların istehsalı, istehlakı və istifadəsinin ölkə miqyasından beynəlxalq miqyasa çevrilməsi; • Çevik, dinamik, dəyişkən və sürətlə inkişaf edən mühitlərin və bazarların yaranması; • Sürətlə inkişaf edən texnologiya; • Rəqəmsal inqilab; • Artan rəqabət; • İnnovasiya; • Artan məlumatla paralel olaraq bilinməyənlərin artması; • Tədqiqat və təkmilləşdirmə fəaliyyətlərinin artırılması; • İnsan resursları sahəsində əsaslı dəyişikliklər; • İqtisadi dinamizm və texnoloji yeniliklərdən ibarətdir.*

Bütün bunların işığında bilik iqtisadiyyatı qloballaşmanın iqtisadi sütununu təşkil edən iqtisadiyyatdır, yəni bir iqtisadi sistemdə bütün iqtisadi fəaliyyətlərin biliklərə əsas-

lanaraq həyata keçirildiyi və informasiyanın əsas götürüldüyü iqtisadi struktur kimi müəyyən edilə bilər. Bu fəaliyyətlərə inteqrasiya olunur. 1994-cü ildə internetin yaranması və yayılması dünya iqtisadiyyatı konyunkturasında informasiya iqtisadiyyatının yerini də gücləndirdi. Həmçinin informasiya iqtisadiyyatı, şəbəkə iqtisadiyyatı, rəqəmsal iqtisadiyyat, yeni iqtisadiyyat, intellektual kapital və texnologiya terminləri bir-birini əvəz etdi.

## 5. İnformasiya və kommunikasiya texnologiyalarının rolu

XX əsrin ikinci yarısında informasiya-kommunikasiya texnologiyalarının inkişafı və inteqrasiyası iş dünyasını yenidən formalaşdırdı, transformasiyaya ayaqlaşa bilməyən sektorlar və şirkətlər ya yox oldu, ya da müxtəlif fəaliyyət sahələrinə keçməli oldu. Bunu çox tez emal etmək, ötürmək və saxlamaq, kompüter şəbəkə sistemlərindən istifadə etməyə və robotlar istehsal etməyə başlamaq kimi misal göstərmək olar.

İnformasiya iqtisadiyyatı termini ilk dəfə elmi dövriyyəyə 1970-ci illərin ortalarında amerika alimi *M.Porat* tərəfindən daxil edilmişdir. Onun fikrincə, informasiya texnologiyaları yeni cəmiyyətin əsas məzmununu əks etdirir - əsas istehsal resursları və ictimai sərvət formaları kimi isə informasiya və bilik çıxış edir [12, s. 112-119].

İnformasiya texnologiyalarının inkişafı ilə biznes, idarəetmə və istehlak fəaliyyətinin həyata keçirilməsi üçün zəruri olan strukturlaşdırılmış məlumat artmışdır. Bununla yanaşı, inkişaf edən kommunikasiya texnologiyaları bu strukturlaşdırılmış məlumatı istehsalçılar, istehlakçılar və dövlət qurumları arasında elektron vasitələrlə paylaşmağa imkan verir [11].

Beynəlxalq rəqabətdə üstünlük qazananlar informasiya-kommunikasiya texnologiyalarından intensiv istifadəyə üstünlük verirlər. Elmi araşdırmalardan əldə etdikləri nəticələri iqtisadiyyata gətirən bu seqmentlərin beynəlxalq bazarlarda rəqabət üstünlüyü olması təbiidir. İnformasiya və kommunikasiya texnologiyaları arasındakı əlaqəni informasiya və digər texnologiyalar arasındakı əlaqə ilə müqayisə etdikdə aşağıdakı iki fərq ortaya çıxır:

• *İnformasiya və kommunikasiya texnologiyaları arasında birbaşa əlaqə mövcuddur. İnformasiya texnologiyaları elmi tədqiqat prosesinin bütün mərhələlərində bilavasitə istifadə olunur;*

• *İnformasiya texnologiyaları istisnasız olaraq elmin bütün sahələrində istifadə olunur. Bundan əlavə, gündəlik həyatın bütün sahələrinə girməyə başladığı da diqqətdən kənarda qalmamalıdır.*

Digər tərəfdən, qloballaşan dünyada iqtisadi fəaliyyətin eyni vaxtda və səmərəli şəkildə davam etdirilməsini təmin edən kommunikasiya texnologiyaları sayəsində müəssisələr məhsuldarlığı artırmaq, ekoloji tələblərə cavab vermək və təşkilati dəyişiklikləri həyata keçirmək üçün səy göstərmişlər. Xüsusilə son vaxtlar diqqət mərkəzinə düşməsinin səbəbi informasiya-kommunikasiya texnologiyalarında baş verən dəyişikliklərin köməyi ilə informasiyanın istehsalı və istifadəsinin artmasıdır. Beləliklə, informasiya-kommunikasiya texnologiyalarını təşkil edən vasitələrin sayı və onlardan istifadə göstəriciləri də artmışdır. Bundan əlavə, bu dərəcələr bizə ölkələrin bilik iqtisadiyyatına hazır olması haqqında məlumat verir.

## Nəticə

Yeni minilliyə böyük dəyişikliklərlə qədəm qoyan dünyamız hər sahədə yenidən strukturlaşmanı zəruri edən bir prosesdən keçir. Bir sıra dəyərlər və təhlil alətləri ilə təhlil etmək çox çətin olan bu prosesə fərqli bir anlayışla baxmaq lazımdır. Buna nail ola biləcək fərdlər, təşkilatlar, ölkələr, bloklar uğur qazanacaq, digərləri isə geridə qalacaq. Bu səbəbdən bu yeni və transformasiyalı strukturun bütün səviyyələrdə intensiv şəkildə araşdırılması lazımdır.

Rəqabət qabiliyyətini artırmaq və effektiv rəqabətqabiliyyətlilik siyasətini müəyyən etmək üçün şirkətlərin dəyişən dünyanın yeni reallıqları ilə tanış olması və qloballaşma prosesinin rəqabətli strukturuna uyğunlaşmaq üçün tədbirlər görməsi qaçılmazdır. Bu baxımdan şirkətlər ilk növbədə dəyişikliyi idarə etməyi və nail olmağı öyrənməlidirlər.

Dünya ölkələrinə nəzər saldıqda, bilik iqtisadiyyatı baxımından ölkələr arasında fərqlərin olduğu məlum olur. Bəzi ölkələr mütərəqqi texnologiyaların köməyi ilə insanların həyat keyfiyyətini daim yaxşılaşdırsa da, bəzi ölkələr bu məsələdə çox geri qalır. Bir çox ölkələrin informasiya iqtisadiyyatı konyukturasında mövqelərinin inkişaf etdiyi, lakin bu sahədə inkişafın qarşısında bəzi maneələrin olduğu görünür. Bu maneələri aşmaq üçün aşağıdakı tövsiyələrin nəzərə alınması məqsədəmüvafiqdir:

*• Bilik iqtisadiyyatına keçidin əsasını savadlı fərdlərin təşkil etdiyini nəzərə alaraq, ömür boyu təhsilə önəm verilməlidir,*

*• Fərdlərin həyat keyfiyyətini artıracaq şəkildə e-çevrilmə layihəsinin tətbiqinin sürətləndirilməsi və davam etdirilməsi,*

*• Fərdlərin iqtisadi gəlirlərini artıra bilən və rəqabət apara bilən sektorları inkişaf etdirmək və dəstəkləmək,*

*• Bilik iqtisadiyyatına keçidlə inkişafın özəl sektorun və qeyri-hökumət təşkilatlarının dəstəyi ilə reallaşacağını nəzərə almamaq lazımdır,*

*• Texnologiyanın cəmiyyətdə istifadəsini genişləndirmək və institutsionallaşdırmaq və müəssisələrin texnologiyadan daha səmərəli şəkildə faydalanmasını təmin etmək üçün internetə çıxış xərcləri azaldılmalıdır,*

*• Qlobal arenada rəqabət apara biləcək texnologiyaların inkişafı üçün özəl və ya dövlət qurumlarının tədqiqat və təkmilləşdirmə fəaliyyətləri dəstəklənməlidir,*

*• Məlumat ölkə daxilində yayılmalı və bütün şəxslərin bu məlumatı əldə etməsinə icazə verilməlidir,*

*• Qurumlar arasında koordinasiya təmin edilməklə, məlumat paylaşılmalı və sinerjiyaradılmalıdır.*

Ölkədə bütün iqtisadi fəaliyyətlərin biliklər əsasında formalaşması və həyata keçirilməsi üçün bilik iqtisadiyyatının əhəmiyyəti cəmiyyətin bütün təbəqələrinə yayılmalıdır.

## ƏDƏBİYYAT


1. Başköy, C. Akademik Bilişim Bildirileri. İsparta: Süleyman Demirel Üniversitesi Basımevi, 2000. 257 s.
2. Dura, C. ve Atik, H. Bilgi Toplumu, Bilgi Ekonomisi ve Türkiye. İstanbul: Literatür Yayınları, 2002. 342 s.
3. Hüseynov, R. İnsan resurslarının səmərəli istifadəsi və idarə olunması siyasəti (elm və təhsilin inkişafı kontekstində) // Milli Təhlükəsizlik və hərbi elmlər jurnalı, Bakı, 2016, № 3(2), s.50-56
4. Koç, E. Dijital Ekonomi. İstanbul: Koç Sistem Yayınları, 1998. 304 s.
5. Kurt, M. Değişen Dünyada Türkiye'nin Önemi. Bursa: Uludağ Üniversitesi Kültür Sanat Kurulu Yayınları, 2004. 937 s.
6. Muradov, A. Bilik iqtisadiyyatı quruculuğunda insan kapitalının roluna dair nəzəri mülahizələr // Peşə təhsili və insan kapitalı jurnalı, Bakı, 2018, cild 1, №4, s. 47-52
7. Özgüler, V. C. Yeni Ekonomi Anlayışı Kapsamında Gelişmiş ve Gelişmekte Olan Ülkeler: Türkiye Örneği. Eskişehir: Anadolu Üniversitesi İktisadi ve İdari Bilimler fakültesi Yayınları, 2003. 247 s.
8. Rupp, A. M. AB Mevzuatına Uyumun Ekonomik, Siyasi ve Sosyal Yaşama Etkileri, (Çeviren: H. Cansevdi), İstanbul: İktisadi Kalkınma Vakfı Yayınları, 2001. 113 s.
9. Saygılı, Ş. Bilgi Ekonomisine Geçiş Sürecinde Türkiye Ekonomisinin Dünyadaki Konumu / Ş.Saygılı. - Ankara: DPT yayınları, 2003. 119 s.

10. Söylemez, A.Yeni Ekonomi. Ankara: Boyutkitapları, 2001. 111 s.
11. Базылев, Н. И., Грибанова, Н. Л. "Новая экономика", ее движущие силы и тенденции развития // Проблемы современной экономики, N 1/2 (17/18), 2006. c. 57-63
12. Пидоймо, Л.П., Бутурлакина, Е.В. Сущность категорий «информационное общество», «информационная экономика» // Современная экономика: проблемы и решения, 2010, 4 (4), c. 112-119
13. Kelly, K., New Rules for the New Economy / [Electronicresource] (URL: http://www.wired.com/wired/5.09/newrules_pr.html(07.03.2022)).
14. ИКТ-компетенции как фактор социально-экономического развития России. М., Институт развития информационного общества, 2012, 70 с, [Электронныйресурс] (URL: http://www.iis.ru/docs/e-competences_full_report.pdfUniversity Press, 3 edition, 1991).

**Summary**

***Elçin Salmanov***

***Knowledge Economy: Elements, Features, Measurement and Development***

The changes that have taken place in the world economy, economic, social and technological spheres in recent years are explained by the concept of knowledge economy. These developments, which are complex processes that are closely interrelated, have highlighted the need for societies to think and live on a global scale. Significant and lasting effects on the economy as a result of innovations in information and communication technologies require the redefinition of many concepts at the micro and macro levels. The knowledge economy covers the processes of acquisition, processing and exchange of knowledge, as well as its dissemination. These three basic processes consist of a computer system that enables the processing, acquisition, distribution, and communication of information. It works with physical tools thanks to a software system that manages the whole process with the help of people. Given the urgency of the topic, the article explains the essence, elements, development of the knowledge economy and the role of information and communication technologies in this direction. The importance of the very close link between knowledge, technology and economics has been demonstrated and analyzed. In accordance with the purpose of the article, the following sections were studied: the concept and elements of the knowledge economy, the measurement of the knowledge economy, the development of the knowledge economy, the role of information and communication technologies in the knowledge economy. Features of the knowledge economy in the study of scientific work: the knowledge economy to be a new economy, the knowledge economy to be a digital economy, the important role of virtualization in the knowledge economy, the knowledge economy to be a network economy, the elimination of intermediaries in the knowledge economy, the dominant role of the information economy , to reduce the gap between producer and consumer in the knowledge economy, to make the knowledge economy a fast economy, to make the knowledge economy a global economy, to make the knowledge economy cause some social problems, to reveal the knowledge economy, to influence the production volume, to add value to knowledge , special attention was paid to the nature of the knowledge economy as a network economy and other issues ir. The systematic approach method was used as the methodological basis of the article.

***Keywords:*** *Knowledge economy, technology, modern education, innovative innovations*

**Резюме**

***Эльчин Салманов***

***Экономика знаний: элементы, особенности, измерение и развитие***

Изменения, произошедшие в мировом хозяйстве, экономической, социальной и технологической сферах за последние годы, объясняются концепцией экономики знаний. Эти события, представляющие собой сложные и тесно взаимосвязанные процессы, высветили необходимостьтого, чтобы общества думали и жили в глобальном масштабе. Значительное и долговременное воздействие инноваций в области информационных и коммуникационных технологий на экономику требует переопределения многих концепцийна микро и макроуровнях. Экономика знаний охватывает

процессы приобретения, обработки и обменазнаниями, а такжеих распространения. Этитриосновных процесса состоят из компьютерной системы, котораяпозволяет обрабатывать, собирать, распространять и передавать информацию. Он работает с физическими инструментами благодаря системе программного обеспечения, которая управляет всем процессом с помощьюлюдей. Учитывая актуальность темы, в статье разъясняются сущность, элементы, развитие экономики знаний и роль информационно-коммуникационных технологий в этом направлении. Была продемонстрирована и проанализирована важность очень теснойсвязи междузнаниями, технологиями и экономикой. В соответствии с цельюстатьи былиизучены следующие разделы: понятие и элементы экономики знаний, измерение экономики знаний, развитие экономики знаний, роль информационно-коммуникационных технологий в экономике знаний. Особенности экономики знаний при изучении научной работы: экономика знаний как новая экономика, экономика знаний как цифровая экономика, важнаяроль виртуализации в экономике знаний, экономика знаний как сетевая экономика, устранение посредников в экономике знаний, доминирующая роль информационной экономики, сократить разрыв между производителем и потребителем в экономике знаний, сделать экономику знаний быстрой экономикой, сделать экономику знаний глобальной экономикой, сделать экономика знаний вызывает некоторые социальные проблемы, раскрывать экономику знаний, влиятьна объемы производства, повышать ценность знаний, особое внимание было уделено природе экономики знаний как сетевой экономики и другим вопроса мир. В качестве методологической основыстать и использован метод системного подхода.

***Ключевые слова:*** *экономика знаний, технологии, современное образование, инновационные инновации технологии, современное образование, инновационные инновации*

Redaksiya heyətinin üzvü i.e.d., prof. İsmayılov Vilayət İbrahim oğlunun rəyi əsasında çapa məsləhət görülmüşdür.

**UOT 338**

# ГОСУДАРСТВЕННОЕ РЕГУЛИРОВАНИЕ ВНЕШНЕ ЭКОНОМИЧЕСКОЙ ДЕЯТЕЛЬНОСТИ

**Эмиль МАМЕДОВ***

*Məqalə redaksiyaya daxil olmuşdur: 11 fevral 2022; çapa qəbul edilmişdir: 16 mart 2022; online-da çap edilmişdir: 30 mart 2022.*

*Received: 11 th of February, 2021; accepted: 16 th of March, 2022; published online: 30 th of March, 2022.*

***Ключевые слова:*** *государство, регулирование, внешняя экономика, внешнеэкономическая деятельность*

## Введение

Государственное регулирование внешнеэкономической деятельности является составляющей частью экономической политики государства. Под государственным регулированием внешнеэкономической деятельности (ВЭД) понимается комплекс правовых, экономических, и административно-управленческих мер со стороны государства и его органов в целях формирования благоприятных условий хозяйствования для субъектов внешнеэкономической деятельности, которые обеспечивают их правовую защищённость на внешнем и внутреннем и рынках и экономическую поддержку.

Вышепечисленные меры направлены на совершенствование механизма экспортных операций по реализации товаров/услуг и прав интеллектуальной собственности, готовой продукции на международных рынках, на поддержку положительного сальдо внешнеторгового баланса и на обеспечение хозяйственной безопасности в национальных масштабах.

Важные государственные реформы, либерализация внешнеторговых отношений, торговых операций и механизм урегулирования торговли, формирование деятельности всех государственных учреждений и организаций включают в себя повышение эффективности и решение основных проблем в данной области. Посредством всех вышеперечисленных факторов увеличивается экспортный потенциал государства, конкурентоспособный на мировом рынке, производится продукция с учётом развития национальных стандартов в соответствии с международными стандартами качества, увеличивается объём инвестиций и внешнеторгового оборота, расширяется география возможностей.

Необходимо отметить, что вопросы стимулирования экономического развития, осуществления государственной внешнеэкономической политики на сегодняшний день имеют актуальное и научно-практическое значение.

## Методами государственного регулирования внешнеэкономической деятельности

В условиях современного мира внешнеэкономическая деятельность является важной составляющей экономики любой страны. В целях управления ВЭД госу-

* магистр, Азербайджанский Государственный Экономический Университет
*e-mail: emil.mammadov@hotmail.com*

дарственные органы издают нормативно-правовые акты валютного, таможенного, бухгалтерского и налогового регулирования экономики.

Методами государственного регулирования внешнеэкономической деятельности являются:

а) таможенно-тарифное регулирование

б) нетарифное регулирование

в) ограничения и запреты на торговлю, услуги и объекты интеллектуальной собственности за пределами государства

г) административные и экономические меры, которые способствуют эффективному

развитию внешнеторговой сферы.

На рис. 1 представлены 3 основные группы методов регулирования ВЭД государства.

**Рис. 1. Методы государственного регулирования ВЭД[11]**




Однако многими экономистами выделяется только 2 основных группы методов государственного регулирования внешнеэкономической деятельности: таможенно-тарифное регулирование и нетарифное регулирование. Разберём данные методы более детально [1, s. 192].

Тарифные методы, которые основаны на использовании таможенных сборов, таможенных тарифов, налогов (акцизов, налога на добавленную стоимость и пр.), составляют основу экономического регулирования внешнеэкономической деятельности. К данным мерам относится выполнение таких функций, как:

- протекционистской (защитной функции), применяемой при импорте товаров, когда проявляется защита национального товаропроизводителя от нежелательных иностранных конкурентов.

- фискальной функции, обеспечивающей бюджетные поступления и относящейся как к экспорту, так и к импорту.

- балансировочной функции, относящейся к экспортным пошлинам, предусмотренным в целях предотвращения экспорта товаров, цены на которые внутри

государства ниже международных.

Таможенный тариф применяется в целях регулирования внешних торговых связей и применяется на базе целой системы средств, основной из которых является ставка таможенных пошлин, которая приводит к подорожанию товара, делая товар менее конкурентоспособным. Это, в свою очередь, приводит к снижению ввоза или вывоза товара. Необходимо отметить, что ставки по экспортным и импортным таможенным пошлинам утверждаются на основе постановления правительства государства в соответствии со сформировавшимися местными и внутренними условиями [9, с. 61].

Под таможенной пошлиной понимается взнос, взимаемый в обязательном порядке при перевозке товаров через границу. В мировой экономике на сегодняшний день формирование всех элементов таможенного и тарифного регулирования стандартизируется на основании международных соглашений и договоров. Среди данных договоров самыми важными являются:

1) договора, действующие между членами ВТО согласно Уставу и пакету соглашений данной организации и функционирующие на основании Генерального соглашения о торговле и тарифах;

2) конвенция о Гармонизированной системе кодирования и описания товаров;

3) таможенная конвенция о международной грузоперевозке с применением книжки МДП.

4) остальные многосторонние и двухсторонние международные соглашения (например, соглашения о представлении принципа наибольшего торгового благоприятствования) [5, с. 670].

Прочими средствами регулирования всемирной торговой деятельности на основании таможенного тарифа являются: разный уровень таможенных пошлин, применяемый в отношении определённых стран (либо в определённый временной период); штрафные санкции и лишение льгот за нарушение законодательства в области таможенного регулирования.

Изменения в таможенные тарифы могут вноситься по инициативе официальных служб, осуществляющих вою работу внутри страны, а также на основе предложений, которые вносят различные государства при проведении проводимых на двусторонней и многосторонней основах переговоров по вопросам методологии и уровня взимания таможенных пошлин.

**Таможенный тариф**

Таможенные тарифы являются одним из важнейших инструментов регулирования ВЭД, однако за последние несколько десятилетий их польза стала постепенно ослабевать. В послевоенный период в процессе многосторонних переговоров в рамках ГАТТ (General Agreementon Tariffsand Trade, GATT*)* значительно уменьшились тарифные ставки [4, s. 697]. Например, в развитых странах средний показатель импортных тарифов снизился с 40-50% (1940-е гг.) до 4-5% на сегодняшний день, а в результате заключённых после проведения Уругвайского раунда переговоров ГАТТ соглашений средний показатель импортных тарифов составил всего 3%. Уровень внешней торговли государства за данный период фактически повысился благодаря масштабному расширению мер в отношении нетарифных торговых барьеров. Исходя их последних имеющихся данных, сегодня их количество составляет более 50. Особенно активно нетарифные методы находят применение в промышленно развитых странах. Нетарифные ограничения предоставляют больше возможностей для произвольных государственных действий, создающих значительную неопределённость в мировой торговле [7, с. 457]. Поэтому перед Всемирной торговой организацией на сегодняшний день стоит задача постепенного

сокращения числа ограничений, то сеть проведения тарификации.

Зачастую нетарифные методы регулирования ВЭД ассоциируются лишь с административными ограничениями, запретами и контролем. Хотя по нормам Всемирной торговой организации и по международным нормам сюда также входят и экономические ограничительные методы, благодаря которым государство имеет возможность воздействия на предпринимательскую деятельность во внешнеэкономической среде. При нетарифном регулировании используются стимулирующие и защитные (ограничительные) меры. Нетарифных методов регулирования значительное количество, однако их можно классифицировать на 3 основные группы [6, с. 495].

К группе особо важных и часто используемых нетарифных методов регулирования относятся прямые ограничительные меры, среди которых можно отметить квотирование и лицензирование импорта и экспорта. Разберём эти понятия более детально.

Квотирование экспорта и импорта товаров – это процесс лимитирования размера экспорта и импорта при помощи различных процентных ограничений. К ним относятся:

а) глобальные квоты, устанавливающие ограничения на объём импорта либо экспорта в стоимостном или натуральном показателе на определённый период;

б) индивидуальные квоты, предусматривающие размер экспорта либо импорта в отношении конкретных стран или конкретного товара (производителя);

в) квоты сезонные, которые устанавливают лимит размера экспорта либо импорта на определённое время года.

Квотирование применяется для поддержания баланса платёжной системы и внешней торговли, для регулирования спроса и предложения на рынке, выполнения международных обязательств и приобретения взаимовыгодных договорённостей на международных переговорах.

Лицензирование представляет собой определённое ограничение в форме получения лицензии от государственных органов власти на ввоз конкретного объёма продукции в страну. Разрешение также может предусматривать правила вывоза и ввоза товара [8, с. 97-100].

**Вывод**

В международной практике лицензирование практикуется при временном ограничении нежелательных объёмов импорта товаров. На сегодняшний день применяют преимущественно два вида лицензий: генеральная и индивидуальная лицензия. Генеральная лицензия – это действующее на постоянной основе разрешение на право импорта конкретных видов продукции без ограничения по объёму и стоимости. Иногда в лицензии прописываются запрещённые к ввозу товары. Такие лицензии и списки запрещённых товаров публикуются регулярно соответствующими официальными изданиями. Индивидуальная лицензия выдаётся как разовое разрешение на конкретную торговую операцию с конкретным товаром. Индивидуальная лицензия предполагает также информацию о её стоимости, получателе, количестве, а также об изготовителе. Индивидуальная лицензия имеет конкретный срок действия и не может передаваться другому импортёру [2,s.17-22].

Одним из составных компонентов лицензирования является контингентирование. Контингентированием называется формирование правительством государства централизованной системы контроля над перевозом товаров через таможенную границу посредством ограничений товарной номенклатуры в пределах установленной количественной и стоимостной квоты на конкретный период. На сегодняшний день ВТО и ГАТТ разрешается ввод ограничений импорта товаров по

количеству, если возникнет существенное неравновесие торгового баланса.

Отдельной группой мероприятий по нетарифному регулированию являются специальные компенсационные, защитные и антидемпинговые действия при импортировании товаров.

Среди мер нетарифного регулирования ВЭД также можно выделить меры, связанные с выполнением административных и таможенных формальностей [3, s. 50-54]. К ним относятся:

- Импортные налоги и сборы

- Сертификация ввозимых в страну товаров согласно установленными в стране экологическим, техническим, санитарным, фармакологическим, ветеринарным стандартам и требованиям [10, s. 415].

Также к нетарифным методам регулирования внешнеэкономической деятельности относятся валютный контроль и валютные ограничения, регулирование курса национальной валюты, а также различного рода мероприятия по содействию в развитии внешнеторговой деятельности государства.

## ЛИТЕРАТУРА


1. Səmədov A.H., Xarici-iqtisadi fəaliyyətin əsas kateqoriyalarına sistemli yanaşma. Bakı, 2008, 192 s.
2. Easterby-Smith M., Thorpe R. & Jackson P. Management research . London: Sage. 2012, 4 th ed, p. 230.
3. Kyrylenko O.N., Legal organizational and economic aspects of classification of enterprises integration / O.N.Kyrylenko, M.P.Ovsak // VI Всесвітнійконгрес, 23-25 вересня 2014 р.: тезидоп. К., 2014. с. 50-54.
4. Moore, M. Towards a Confirmatory Model of Retail Strategy Types: An Empirical Test of Miles and Snow. JournalofBusinessResearch,2005, 58, p. 697.
5. Виханский О.С., Наумов А.И. Менеджмент: человек, стратегия, организация, процесс. М.: Экономист, 2005, 670 с.
6. Воронкова О.Н., Пузакова Е.П. Внешне экономическая деятельность: организация и управление. М.: Экономист, 2007, 495 с.
7. Грязнова А.Г., Чечелева Т.В. Экономическая теория: Учебник. М. Издательство «Экзамен». 2015, 154 с.
8. Стровский Л.Е., Казанцев С.К, Неткачев А.Б. Внешне экономическая деятель-ность предприятия. 4-е изд., перераб и доп. М: ЮНИТИ-ДАНА, 2015, 128 с.
9. Філіпенко А.С., Глобальні форм и економічного розвитку: історія і сучасність, ДО.: Знання, 2007.
10. Шакаралиев А.Ш. Экономическая политика государства; реальность и перспектива. Баку: Экономика, 2009. 415 с.

**Интернет ресурсы:**

11. https://studref.com/327162/ekonomika/metody_gosudarstvennogo_regulirovaniya_vneshneekonomicheskoy_deyatelnosti



***Xülasə***

***Məmmədov Emil***

***Xarici iqtisadi fəaliyyətin dövlət tənzimlənməsi***

Müasir dövrdə müxtəlif ölkələr mürəkkəb və çox şaxəli xarici iqtisadi əlaqələr sistemi ilə üzləşmiş və onlardan maksimum yararlanmağa çalışırlar. Hər bir ölkənin milli iqtisadiyyatı xarici iqtisadi əlaqələrin müxtəlif formaları vasitəsilə beynəlxalq iqtisadiyyata inteqrasiya olunur. Bu kortəbii proses olmayıb,

ölkələrin xarici iqtisadi siyasətinin məqsədyönlü strategiyasının formalaşdırılması və onun hüquqi tənzimlənməsi sayəsində mümkün olmuşdur. Xarici iqtisadi əlaqələrin mərkəzində xarici ticarət əlaqələri durur. Ona görə də xarici ticarət əlaqələrinin hüquqi təminatı sistemi və onun həyata keçirilməsi mexanizmləri bu gün xüsusi aktuallıq kəsb edir. Ümumiyyətlə, beynəlxalq təcrübə göstərir ki, bazar iqtisadiyyatının səmərəli fəaliyyət göstərməsi dövlətin iqtisadi proseslərdə fəal iştirakını tələb edir. Bu istiqamətdə məqalədə ən çox diqqət gömrük-tarif və qeyri-tarif tənzimləmə üsullarına verilmişdir. Məhz bununla əlaqədar olaraq bu məqalədə xarici iqtisadi siyasət strategiyasının formalaşdırılması mexanizminin hüquqi təminatının mahiyyəti, onun elmi-nəzəri əsaslarının öyrənilməsi və təkmilləşdirilməsi istiqamətləri təhlil edilmişdir.

İxracın və istehsalın genişləndirilməsi və şaxələndirilməsi yolu ilə dövlətin dünya iqtisadiyyatına səmərəli inteqrasiyasının təmin edilməsi, yerli malların inkişafı üçün əlverişli şəraitin yaradılması və rəqabət qabiliyyətinin artırılması yalnız xarici iqtisadi fəaliyyətin dövlət tənzimlənməsi mexanizminin təkmilləşdirilməsi ilə mümkündür. Bu yolun həyata keçirilməsi ən mühüm elmi-praktik problemdir. Ümumiyyətlə, xarici ticarət əlaqələri, onların təkmilləşdirilməsi və sistemləşdirilməsi məsələlərinə dair xeyli elmi tədqiqatlar aparılmışdır. Buraya iqtisad elminin klassikləri A.Smit, D.Rikardo, C.Say, P.Samuelson və zəmanəmizin tanınmış alimləri L.Abalkin, E.Avdokuşin, R.Xasbulatov, V.Rıbalkinin tədqiqatları daxildir. Onların əsərləri xarici iqtisadi əlaqələrin səmərəliliyinin artırılması problemlərinin həllində mühüm rol oynamışdır. Yerli alimlər arasında bu problemləri A.Ş.Şəkərəliyev, A.S.Muradov, Ş.N.Hacıyev, Z.Ə.Səmədzadə, R.T.Həsənov, K.R.Paşayev və b. araşdırmışlar.

***Açar sözlər:*** *dövlət, tənzimləmə, xarici iqtisadiyyat, xarici iqtisadi fəaliyyət*

***Summary***

***Emil Mammadov***

***State Regulation of Foreign Economic Activity***

In modern times, different countries face a complex and multifaceted system of foreign economic relations and try to make the most of them. The national economy of each country is integrated into the international economy through various forms of foreign economic relations. This was not a spontaneous process, it was possible due to the formation of a purposeful strategy of foreign economic policy of the countries and its legal regulation. At the heart of foreign economic relations are foreign trade relations. Therefore, the system of legal support of foreign trade relations and the mechanisms of its implementtation are especially relevant today. In general, international experience shows that the effective functioning of a market economy requires the active participation of the state in economic processes. In this regard, the article focuses on customs-tariff and non-tariff regulation methods. In this regard, this article analyzes the essence of the legal provision of the mechanism for the formation of foreign economic policy strategy, the study and improvement of its scientific and theoretical foundations.

Ensuring the effective integration of the state into the world economy through the expansion and diversification of exports and production, creating favorable conditions for the development of local goods and increasing competitiveness is possible only by improving the mechanism of state regulation of foreign economic activity. The implementation of this path is the most important scientific and practical problem. In general, a lot of scientific research has been conducted on foreign trade relations, their improvement and systematization. This includes the research of the classics of economics A.Smith, D.Ricardo, J.Say, P.Samuelson and well-known scientists of our time L.Abalkin, E.Avdokushin, R.Khasbulatov, V.Rybalkin. Their works have played an important role in solving the problem of increasing the efficiency of foreign economic relations. Among local scientists these problems were solved by A.Sh. Shakaraliyev, A.S.Muradov, S.N.Hajiyev, Z.A.Samadzade, R.T.Khasanov, K.R.Pashayev and others. Researched.

***Keywords:*** *state, regulation, foreign economy, foreign economic activity.*

Redaksiya heyətinin üzvü i f.-r.ü.f.d., dos.Məmmədov Mənsim Zeynalabdin oğluoğlunun rəyi əsasında çapa məsləhət görülmüşdür.

**UOT 341**

# LOGİSTİKADA İNNOVASİYALARIN TƏTBİQİNİN NƏZƏRİ VƏ PRAKTİKİ PROBLEMLƏRİ

**İlkin ZEYNALLI[2]**

*Məqalə redaksiyaya daxil olmuşdur: 11 fevral 2022; çapa qəbul edilmişdir:14 mart 2022; online-da çap edilmişdir: 30 mart 2022.*

*Received: 11 th of February, 2022; accepted: 14 th of March, 2022; published online: 30 th of March, 2022.*

***Açar sözlər:*** *logistika, innovasiya, innovativ logistika, iqtisadiyyat, nəqliyyat, investisiya*

## Giriş

Azərbaycan iqtisadiyyatının davamlı inkişafı innovativ müəssisələrin sayını artırmağa və ölkənin sosial inkişaf səviyyəsini yüksəltməyə yönəlmişdir. İnnovativ potensialı reallaşdırmaq üçün axın (nəqliyyat-tranzit, boru) proseslərinin səmərəli təşkili ölkə iqtisadiyyatının inkişafı üçün prioritet sahələrdən biridir. İqtisadiyyatın innovativ tipinin inkişafı istehsalın səmərəli fəaliyyətini artıran elm sahəsində yeniliklərin tətbiqinə əsaslanır. Bu gün elm və texnologiyanın böyük imkanlarını nəzərə alsaq, qlobal kompüterləşmə, ən yüksək texnologiyalar, yeniliklər müasir sivilizasiyanın inkişafında əsas vektordur. Azərbaycan iqtisadiyyatının davamlı innovativ inkişafına ehtiyac ölkənin əsas xüsusiyyətləri ilə müəyyən olunur. Buna uyğun ölkəmizin iqtisadi siyasəti innovativ müəssisələrin sayını artırmağa və ölkənin sosial inkişaf səviyyəsini yüksəltməyə yönəlmişdir. Son illərdə çoxtərəfli əməkdaşlığın, daxili və beynəlxalq ticarətin genişlənməsi, habelə Azərbaycanın qlobal dünya bazarına inteqrasiyası innovativ logistikaya ehtiyac yaradır.

## İnnovativ logistikanın dərki

İnnovativ logistika, müştəri xidmətinin keyfiyyətinin yüksəldilməsinə, logistika proseslərinin səmərəliliyinin artırılmasına və müxtəlif xərclərin azaldılmasına yönəlmiş müxtəlif yeniliklərin istifadəsi ilə əlaqədar olaraq logistika proseslərinin idarəetmə səviyyəsinin yüksəldilməsi yolunu tutur [1, s.358].

İnnovativ logistika idarəetməni səmərəliləşdirərək, əlavə ehtiyatları müəyyənləşdirmək və istifadə etmək üçün istehsalda və digər strukturlarda axın proseslərinin cari və strateji idarəetməsinin təşkilində mütərəqqi innovasiyalara ehtiyacı və onların tətbiqi imkanlarını araşdırır.

İnnovativ logistika hər hansı bir axın prosesini rasional təşkil etməyə, idarəetmənin səmərəliliyini təhlil etməyə və qiymətləndirməyə, ehtiyatları müəyyənləşdirməyə və istifadə etməyə imkan verir və bununla da fəaliyyətin səmərəliliyinin artırılmasına kömək edir. Logistikanın bu istiqamətindən aşağıdakı vəzifələr meydana çıxır:

- yeni elmi ixtiraların tətbiqi ilə strateji idarəetmə və axın proseslərinin idarə olunması sahəsində yeni yanaşma və fikirlərin tədqiqi və inkişaf etdirilməsi;

[2] Abşeron Logistika Mərkəzi, baş kommersiya inzibatçı
e-mail: 723@gmail.com

-ölkələrin özünəməxsus iqtisadi xüsusiyyətləri nəzərə alınmaqla, innovativ logistikanın öyrənilməsində dünya təcrübəsindən istifadə;

-logistika sahəsində innovasiyalardan istifadənin metodoloji mexanizminin işlənib hazırlanması;

-logistika strukturları üçün standartların, o cümlədən yeni logistika sistemlərinin yaradılması əsasında müxtəlif proqramların hazırlanması;

-müxtəlif məqsədlər üçün logistik sistemlərin yeni formalarının tətbiqi.

İnnovativ logistik konsepsiyanın əsas müddəaları aşağıdakılardır [1, s.359]:

-axın proseslərinin optimallaşdırılması vahid bir sistem və inteqrasiya olunmuş sistem dəsti mövqeyindən həyata keçirilir;

-innovativ istehsalın axın (qeyri-maddi, maddi, maliyyə və məlumat) prosesləri logistikada tədqiqat və transformasiya obyektləridir;

-tədqiqat və inkişafın hədəf funksiyası, inkişafın səmərəliliyini artırmaq üçün mövcud ehtiyatların axtarışı və maksimum dərəcədə səfərbər edilməsi yolu ilə müvafiq axınların optimallaşdırılmasını nəzərdə tutur.

**İnnovativ logistikanın tətbiqi**

Logistika sahəsinə innovasiyanı gətirmək deyil, həm də innovativ logistikanı inkişaf etdirmək lazımdır.

Bu hədəflərə çatmaq üçün innovasiyaların tətbiqi bir sıra əsas vəzifələri həll etməlidir:

- Mütərəqqi idarəetmə sistemlərinin tətbiqi ilə logistika sistemlərinin idarəetmə səviyyəsinin artırılması və mürəkkəbliyinin azaldılması;
- Logistika infrastrukturunun keyfiyyətinin daimi olaraq artırılması;
- Yüksək səviyyəli və səmərəli logistika infrastrukturunun yaradılması;
- Müştərilərə xidməti səviyyəsinin daimi olaraq yüksəldilməsi;
- Həm sabit, həm də dəyişən logistika xərclərinin azaldılması;
- İnzibati xərclərin optimallaşdırılması;
- Kadrların inkişafı üçün müasir mütərəqqi metodların tətbiqi.

Logistikada innovasiyaların təcrübi tətbiqi müəssisə və təşkilatlarla yanaşı, məhsul və xidmətlərinin rəqabət qabiliyyətini artırmaq üçün güclü bir vasitə halına gəlir. İnnovativ logistikanın idarə olunması məqsədilə müasir vasitələrin tətbiqi üçün əsas amil mənbələrin mövcudluğu deyil, onlardan istifadənin səmərəliliyidir ki, bu da çoxtərəfli əməkdaşlıq şəklində dövlət və biznes strukturlarının qarşılıqlı əlaqəsi ilə mümkündür. Buna görə də çoxtərəfli əməkdaşlığın inkişafı üçün şərtləri və istiqamətləri müəyyənləşdirməyə ehtiyac var.

Çoxtərəfli əməkdaşlıq logistikasının həyata keçirilməsində mühüm və perspektivli istiqamət müasir logistik metodların və innovasiyayönümlü texnologiyaların tətbiqi, innovativ layihələrin ekspertizası, xərclərin ekspert qiymətləndirilməsi və funksional nəqliyyat vasitələrinin optimallaşdırılması, onların iqtisadi monitorinqi, iqtisadi və texnoloji risklərin səviyyəsinin proqnozlaşdırılması və qiymətləndirilməsidir. [6, s.144] Hal-hazırda, müasir logistik metodlar məlumatların saxlanması və işlənməsi üçün inteqrasiya olunmuş yanaşma tələb edir.

İnnovativ logistika idarəetməni rasionallaşdırmaq (optimallaşdırmaq) yolu ilə əlavə ehtiyatları müəyyən etmək və istifadə etmək üçün axın proseslərinin cari və strateji idarə edilməsinin təşkilinə mütərəqqi yeniliklərin tətbiqi ehtiyacını və imkanlarını öyrənmək üçün nəzərdə tutulmuş logistik fəaliyyətin ən aktual komponentidir.

Azərbaycan üçün logistikada innovasiyanın tətbiqi bir neçə səbəbə görə vacibdir:

- maddi-texniki fəaliyyət inteqrasiya olunur, çünki resurs axını istehsal yerindən hazır məhsulların istehlakına qədər mövcuddur;

- lazım olan məlumatları idarə etmək mümkündür;

- qeyri-maddi axınlar logistikaya daxil edilir ki, bu da onun innovativ proseslərə tətbiq olunmasının mümkünlüyünü müəyyənləşdirən əsas məqamdır.

Logistika innovasiyaları bütün inteqrasiya olunmuş və uyğunlaşdırılmış logistika kompleksində innovasiyaları nəzərdən keçirir və bununla əlaqədar olaraq mövcud olan vasitələrin (metodların, meyarların, göstəricilərin) əlavə edilməsini və inkişaf etdirilməsini təmin edir. Buraya maddi istehsalın və xidmətlərin təşkili, idarə edilməsində istifadə olunan maddi-texniki təchizat və onun struktur elementlərinin metodiki təminatı sahəsi, habelə logistika biznes proseslərində istifadə olunan əməliyyatların, fəaliyyətlərin və prosedurların təkmilləşdirilməsi daxildir.

Eyni zamanda, texniki vasitə və avadanlıqların mütəmadi olaraq yenilənməsi ehtiyacını yaşayan logistika innovasiyaları elmi-texniki tərəqqinin inkişafına fəal təsir göstərir ki, bu da istifadə olunan yeni texnika, texnologiya və materiallar sahəsində elmi-tədqiqat və təcrübə-konstruktor işlərini stimullaşdırır.

**Logistikada tətbiq edilən texnologiyalar**

Hazırda informasiya texnologiyalarının inkişafı və yayılması sosial-iqtisadi və istehsal-təsərrüfat fəaliyyətinin demək olar ki, bütün sahələrini, o cümlədən təhsil, peşəkar logistika mütəxəssislərinin hazırlanmasını əhatə edir.

Logistikada istifadə olunan informasiya texnologiyalarına daxil olan 3PL provayderinin praktikaya tətbiq edilməsi kifayət qədər effekt verir. Azərbaycanda da bunun tətbiqi həyata keçirilməkdədir. 3PL provayderi və ya logistik xidmətlərin provayderi (operatoru) müştərilər üçün hərtərəfli logistika xidmətləri göstərən təşkilatdır: daşıma, ekspeditorluq, anbar, gömrük rəsmiləşdirilməsi və s. 3PL abreviaturası "Üçüncü Tərəf Logistikası" deməkdir. Bu logistika funksiyalarının bir hissəsinin və ya hamısının logistik xidmət təminatçısı olan üçüncü tərəfə ötürülməsi deməkdir [3, s.38].

Çox vaxt nəqliyyat xidmətləri logistika provayderlərinə verilir. Adi yükdaşıyıcılardan fərqli olaraq, 3PL provayderləri müxtəlif növ nəqliyyat xidmətlərini sadəcə təmin etmirlər. Onlar malların göndərilməsi, qəbulu, göndərilməsi və anbarlarda saxlanması, malların sığortası, gömrük rəsmiləşdirilməsi, malların köçürülməsi və s. daxil olmaqla, tədarük zəncirində malların təşviqi üçün tələb olunan bütün işləri yerinə yetirirlər. Ən ciddi logistika operatorları beynəlxalq daşımalarda ixtisaslaşmışdır. Onlar şirkətdən təcrübə və xüsusi bilik tələb edir. 3PL ilə yanaşı, digər terminlər də fərqlənir: 1PL, 2PL, 4PL və hətta 5PL. Təbii ki, bu provayderlərin xidmət keyfiyyəti də fərqlənir.

Lakin 3PL istisna olmaqla, bütün səviyyələrdə logistik xidmət təminatçılarını ayırmaq məqsədə müvafiq hesab olunmur. Çünki 3PL sadəcə üçüncü tərəf logistikasıdır. Yəni, iki əsas tərəf - istehsalçı və istehlakçı ilə yanaşı, üçüncü - ilk ikisinə logistik xidmət göstərən şirkət var. Logistika xidmətləri bazarının tədqiqi göstərir ki, bir sıra ölkələrdə 3PL operatorları artıq işləyir, lakin əsasən FMCG sahəsində fəaliyyət göstərirlər.

Logistikada yeniliklərin başqa bir nümunəsi, yükün yerini və ya məzmununu izləməyə kömək edən RFID etiketləridir. Bu texnologiyaların istifadəsi logistika və gömrük rəsmiləşdirilməsi daxil olmaqla, xərclərin əhəmiyyətli dərəcədə azalmasına nail olmağa imkan verir [4, s.86].

RFID unikal texnologiya olmaqla malları müəyyən etmək və markalamaqda əvəzsiz yardımçıdır. RFID teqlərindən istifadə potensialı xüsusilə sənaye və anbar logistikasının təchizat zəncirlərinə nəzarət etmək üçün müəssisəyə böyük strateji faydalar gətirə bilər. Bununla belə, bu innovativ məhsulun tətbiqi sürəti Azərbaycanda hələ də azdır.

Əvvəla, qeyd etmək lazımdır ki, RFID-dən istifadə müəyyən, aydın şəkildə müəyyən edilmiş fəaliyyət sahəsi daxilində obyektlərin hərəkətinin monitorinqində xüsusilə effektivdir. Belə istifadənin canlı nümunəsi müəssisənin geri qaytarıla bilən qablaşdırmasının müəyyən edilməsidir. Bu zaman kompüter sistemləri avtomatik olaraq

konteynerlərin sərfiyyatı və qaytarılmasının uçotunu aparır, halbuki istənilən vaxt obyektin hərəkətinin bütün mərhələlərini və onun müxtəlif daşımalarda iştirakını izləmək mümkündür. Hərəkət və emal mərhələlərinin keçməsi haqqında məlumat həm etiketin özündə, həm də müəssisə məlumat bazasında saxlanıla bilər. Obyektin keçdiyi ərazinin ölçüsünün əhəmiyyəti yoxdur: bu, ya ayrıca bir emalatxana, ya da bütövlükdə ölkə ola bilər. İstənilən halda, sistem qapalı qalır və geri dönmə vasitələri tam dövriyyədən keçərək başlanğıc nöqtəsinə qayıdırlar. Müəssisənin müəyyən bir ərazisində və ya kənarda nə qədər məhsulun olduğunu hər zaman təxmin etmək olar. Eyni zamanda malların dövriyyə sürəti, o cümlədən markalanmış əşyaların normal dövriyyə müddətindən artıq qaldığı barədə də təhlil aparıla bilər.

